

# 80 YAŞIN UCALIĞI

*Zaman keçir,*

*Söz qalır.*

*Söz böyük hikmət*

*və sərvətdir.*

*Mənim haqqımda*

*Zəhmət çəkib*

*Öz ürək sözlərini söyləyən*

*İnsanlara minnətdaram.*



*Prof. Abuzər Xələfov*



# A.A.XƏLƏFOVA "ƏMƏKDAR ELM XADİMİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycanda kitabxanaşünaslıq elminin inkişaf etdirilməsindəki xidmətlərinə görə Abuzər Alı oğlu Xələfova "Əməkdar elm xadimi" fəxri adı verilsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 24 dekabr 2001-ci il*

*"Azərbaycan" qəzeti, 25 dekabr 2001-ci il*

# 80 YAŞIN UCALIĞI

## AZƏRBAYCAN RESPUBLİKASININ GÖRKƏMLİ ELM VƏ MƏDƏNİYYƏT XADİMLƏRİ PROF. A.A.XƏLƏFOV HAQQINDA

BAKI – 2011

Tərtib edəni: **Pərviz Kazımi**
Tarix üzrə fəlsəfə doktoru

Redaktoru: **Knyaz Aslan**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent

**80 yaşın ucalığı.** Azərbaycan Respublikasının görkəmli elm və mədəniyyət xadimləri prof. A.A.Xələfov haqqında. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2011, 228 s.

*Məqalələr məcmuəsində respublikamızın görkəmli elm, mədəniyyət xadimlərinin və tanınmış alimlərinin Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Prezident təqaüdçüsü, tarix elmləri doktoru, Kitabxanaşünaslıq kafedrasının müdiri, professor Abuzər Alı oğlu Xələfovun "80" illik yubileyi münasibəti ilə onun həyat və fəaliyyəti haqqında məqlələri və xatirələri toplanmışdır.*

*Məcmuə respublikanın elm, mədəniyyət və kitabxana ictimaiyyəti üçün maraq doğuracaqdır.*

$$S\frac{5002000000-07}{M-658(07)-07}-2011$$

© *"Bakı Universiteti" nəşriyyatı, 2011*

# ÖN SÖZ ƏVƏZİ

Öz biliyi, elmi, istedadı, işgüzarlığı və bacarığı sayəsində adını tarixin səhifələrinə yazmış görkəmli şəxsiyyətlərin ömür-tale kitabını vərəqlədikcə insan haqlı qürur hissi keçirir. Yazdığı əsərləri, həyatda keçirdiyi ideyaları ilə şan-şöhrət qazanmış və doğma Azərbaycanın şərəfini uca zirvələrə qaldırmış şəxsiyyətlərlə xalqımız həmişə fəxr edir.

Belə nurlu ziyalılarımızdan biri də Abuzər Alı oğlu Xələfovdur. O, Birləşmiş Millətlər Təşkilatı yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, Prezident təqaüdçüsü, "Şöhrət" ordenli, tarix elmləri doktoru, professordur.

Düz 60 ildir ki, Abuzər Xələfovun adının qarşısına damla-damla yazılan bu nüfuzlu titullar misqal-misqal yığılır, tamlaşır, durulur və nəsillərin iftixar mənbəyinə, güvənc yerinə çevrilir. Abuzər müəllim ötən dövr ərzində gənc nəsil üçün sözün həqiqi mənasında örnəyə, nümunəyə, ibrət məktəbinə çevrilmişdir.

Abuzər müəlimi bu fəxarət zirvəsinə aparan yol heç də asan olmayıb. Bu yol enişli-yoxuşlu, acılı-şirinli, keşməkeşli olub. Əsl hikmət sahibləri o şəxslərdir ki, onlar üzü gələcəyə doğru inamla irəliləyərkən qarşılarını kəsən qardan-yağışdan, üzlərinə çırpılan tufandan-qasırğadan, yollarına yağan daşdan-kəsəkdən çəkinmir, əksinə, daha cəsarətlə, inamla öz məqsədlərinə və amallarına doğru yol gedirlər.

Professor Abuzər Xələfov da belə cəsarət və iradə sahiblərindəndir. Abuzər müəllimin bir insan kimi xoşbəxtliyi Tanrının sevimli bəndəsi olmağında, bir alim

kimi üstünlüyü isə həmişə öncüllüyə, birinciliyə can atmasında və buna nail olmasındadır. Onun ömür kitabının səhifələri sevincli-fərəhli notlarla, könülaçan müjdələrlə naxışlanıb. Hər səhifəyə nur çiləyən naxışlar gümüşü-qızılı zərlə bəzədilib. Bəlkə elə buna görə də "Abuzər" kəlməsinin mənası "Qızıl suyu" anlamında öz ifadəsini tapır. Adı və şəxsiyyəti üst-üstə düşən, sözü ilə əməli bir-birini tamamlayan insanların yolu nurlu, qədəmi uğurlu, ömrü qürurlu olur.

Bu baxımdan Abuzər Xələfov əməli saleh adam kimi çoxlarının könlünə yol tapıb. Adı harada çəkilibsə, həmişə hörmət və ehtiram bəsləyiblər. Haqqında harada söz düşübsə, sanbalına, düzgünlüyünə, bütövlüyünə güvəniblər.

Sadə bir kəndli ailəsində boya-başa çatan, ilk gənclik illərində düşdüyü şəhər mühitinə alışa-alışa məqsədinə doğru inamla irəliləyən Abuzər Xələfov zirvəyə doğru gedən yolda nə qədər maneələrlə, nə qədər çətinliklərlə, nə qədər süni əngəllərlə üz-üzə gəlib. Amalı uğrunda yuxusuz gecələr keçirib, narahat günlər yaşayıb, ömrünü şam kimi əridib, amma heç zaman haqlı mübarizədən geri çəkilməyib, həmişə irəli addımlayıb.

Professor A.Xələfov yüksək səviyyəli alim, səriştəli pedaqoq, bacarıqlı rəhbər işçi, fəal ictimai xadimdir. Onun səmələri elmi-tədqiqat fəaliyyəti həm Azərbaycanda, həm də xarici ölkələrdə geniş şöhrət qazanıb. Yaradıcılıq fəaliyyətinin lap əvvəllərindən başlayaraq mədəniyyət və kitabxana işi quruculuğunun tarixi problemləri, kitabxanaşünaslığın nəzəriyyəsi və metodologiyası, ali kitabxanaçılıq-biblioqrafiya təhsili məsələləri, informasiya cəmiyyəti şəraitində kitabxana işinin kompüterləşdirilməsi və bir sıra digər aktual elmi-nəzəri və təcrübi-metodik problemlər A.Xələfovun diqqət mərkəzində dayanıb. Onun elmi tədqiqatlarının nəticələri mədəniyyətşünaslıq və kitabxanaçılıq elmi və təcrübəsi üçün böyük əhəmiyyət kəsb edən çoxsaylı əsərlərdə öz parlaq əksini tapıb. Alimin Azərbaycanda milli kitabxanaşünaslıq məktəbi və müstəqil Kitabxanaçılıq fakültəsi yaratması, onları formalaşdırıb inkişaf etdirməsi, özünün ardıcıllarını yetişdirməsi onu nadir şəxsiyyətlər sırasına çıxarıb.



Bu baxımdan Bakı Dövlət Universitetinin rektoru, Əməkdar elm xadimi, millət vəkili, akademik Abel Məhərrəmov haqlı olaraq yazır: "Azərbaycanda operanın, dramaturgiyanın, mətbuatın öz baniləri olduğu kimi, cəsarətlə deyə bilərik ki, kitabxanaşünaslıq elminin də banisi məhz Abuzər Xələfovdur. Abuzər Xələfov bir şəxsiyyət, tanınmış elm xadimi kimi Azərbaycanda müstəqil Kitabxanaçılıq fakültəsinin yaradıcısı və ilk dekanı olaraq kitabxanaşünaslıq elminin təşəkkülünə, onun daha da inkişaf edib möhkəmlənməsinə necə çalışırdısa, bu gün də eyni həvəslə fəaliyyət göstərir".

Elə buradaca vurğulayaq ki, akademik Abel Məhərrəmov Bakı Dövlət Universitetinin şöhrətini qoruyan və ucaldan alimlərə həmişə qayğı göstərir, hər kəsə layiqli qiymət verir, onların yubileylərinin təntənəli şəkildə keçirilməsinə xüsusi diqqət yetirir. Bu anlamda Azərbaycanda kitabxanaşünaslıq elminin banisi, ali kitabxanaçılıq təhsilinin təşkilatçılarından biri, respublikanın görkəmli elm və mədəniyyət xadimi Abuzər Xələfovun səmərəli elmi və pedaqoji fəaliyyəti BDU-da həmişə yüksək səviyyədə dəyərləndirilmişdir.

Möhtərəm rektorumuz A.Məhərrəmovun şəxsi təşkilatçılığı ilə görkəmli alimin 70 və 75 illik yubileyləri əsl elm və mədəniyyət bayramı kimi qeyd olunmuşdur. İndi isə rektorun sərəncamı ilə profesor A.Xələfovun 80

illik yubileyinin qeyd olunmasına start verilmiş, bir sıra tədbirlərin keçirilməsi planlaşdırılmışdır. Elə hazırda oxuculara təqdim olunan, neçə-neçə nəslin müəllimi, ustadı, ağsaqqalı olmuş müdrik bir insanın həyat və fəaliyyətinin müxtəlif məqamlarına ayna tutan bu kitab da hörmətli akademik A.Məhərrəmovun şəxsi qayğısı ilə işıq üzü görür.

Ayrı-ayrı salahiyyət sahiblərinin, vəzifə adamlarının, görkəmli elm və mədəniyyət xadimlərinin ustad Abuzər Xələfov haqqında düşüncələrini özündə əks etdirən bu məqalələr toplusu əsasən alimlik və müdriklik xüsusiyyətlərinin araşdırılması baxımından seçilir. Əlbəttə, bu qoşa qanadın konkret faktlar timsalında ümumiləşdirilməsi, sistemləşdirilməsi və qiymətləndirilməsi bir ağsaqqal alimin zəngin tale yolunun öyrənilməsi cəhətdən çox təqdirəlayiqdir.

İnanırıq ki, bu kitabda toplanmış ürək sözləri müdriklik və alimlik zirvəsində qərarlaşmış Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Xələfov şəxsiyyətinin hərtərəfli öyrənilməsinə xidmət göstərəcək və yeni-yeni tədqiqat əsərlərin yazılmasına zəmin yaradacaqdır.

**Knyaz ASLAN**
***pedaqogika üzrə fəlsəfə doktoru,***
***dosent, «Qızıl Qələm» mükafatı laureatı***



**Abel MƏHƏRRƏMOV**

***Bakı Dövlət Universitetinin rektoru,***
***akademik, Əməkdar elm xadimi,***
***millət vəkili***



## UNİVERSİTETİMİZİN FƏXRİ

Bəşəriyyət tarixində elə şəxsiyyətlər olmuşdur ki, onların həyat və fəaliyyəti, qoyduğu izlər heç vaxt unudulmur, zaman keçdikcə daha parlaqlıqla özünü büruzə verir. Azərbaycan xalqı daim belə oğullarına güvənmiş, onların sözünün dəyərinə, zəkasının dərinliyinə pənah aparmışdır.

Biz fəxr edə bilərik ki, Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, Əməkdar elm xadimi, Prezident təqaüdçüsü Abuzər Alı oğlu Xələfov belə şəxsiyyətlərdəndir.

Azərbaycanda operanın, dramaturgiyanın, mətbuatın öz baniləri olduğu kimi, cəsarətlə deyə bilərik ki, kitabxanaşünaslıq elminin də banisi məhz Abuzər Xələfovdur. Abuzər Xələfov bir şəxsiyyət, tanınmış elm xadimi kimi təxminən 50 il öncə, yəni 1962-ci ildən Azərbaycanda müstəqil Kitabxanaçılıq fakültəsinin yaradıcısı və ilk dekanı olaraq kitabxanaşünaslıq elminin tə-

şəkkülünə, onun daha da inkişaf edib möhkəmlənməsinə necə çalışırdısa, bu gün də eyni həvəslə fəaliyyət göstərir.

A.Xələfov ömrünün yarıdan çoxunu kitabxanaşünaslıq sahəsinə həsr etmiş, respublikamızda ilk dəfə olaraq 1962-ci ildə «Azərbaycanda kitabxana işinin tarixindən (1920-1932-ci illər)» mövzusunda namizədlik, 1975-ci ildə isə «Azərbaycanda kitabxana işinin tarixi (1933-1958-ci illər)» mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir. Onun SSRİ məkanında kitabxana işinin tarixi sahəsində ilk elmlər doktoru olması Azərbaycan üçün böyük fəxrdir. Bizim üçün bu da son dərəcə sevindiricidir ki, SSRİ məkanında – Moskvada Abuzər Xələfovun xüsusi çəkisi və yeri vardı. O, Moskvada yeganə ixtisaslaşdırılmış doktorluq elmi şuranın üzvü olmuşdur və onun Moskvada, Leninqradda (indiki Sankt-Peterburqda), Daşkənddə, Tbilisidə və başqa şəhərlərdə keçirilən elmi şuralarda çıxışları həmişə yüksək qiymətləndirilmişdir.

Professor A.Xələfov mədəniyyət və kitabxana işi tarixi sahəsində geniş tədqiqatlar aparmış, qədim dövrlərdən bugünədək kitabxanaların keçdiyi inkişaf yolunu araşdırmış, həmçinin respublikada kitabxana işinin inkişafına dair elmi tövsiyələr və proqnozlar hazırlamışdır. O, bu sahədə 300-dən artıq əsərin müəllifi, kitabxanaşünaslıq elminin banisidir. Bu, hər kəsə nəsib olmur.

Prof. A.Xələfov bütün yaradıcılıq fəaliyyəti dövründə mədəniyyət və kitabxana işi quruculuğunun tarixi problemləri, kitabxanaşünaslığın nəzəriyyəsi və metodologiyası, ali kitabxanaçılıq-biblioqrafiya təhsili məsələləri, habelə kitabxana işi nəzəriyyəsi və bir sıra digər aktual elmi problemləri özünün diqqət mərkəzində saxlamışdır. Onun elmi tədqiqatlarının nəticələri bütövlükdə mədəniyyətşünaslıq, kitabxanaçılıq elmi və təcrübəsi üçün böyük əhəmiyyət kəsb edən sanballı əsərlərdə öz parlaq əksini tapmışdır. Bu əsərlərin əksəriyyəti həm Azərbaycanda, həm də xarici ölkələrdə yüksək qiymətləndirilmişdir.



Azərbaycan Respublikasının müstəqilliyi şəraitində prof. A.Xələfovun elmi araşdırmalarının mühüm xarakterik cəhətlərindən biri – onun Azərbaycanda kitabxanaların yaranmasının tarixi köklərinə, ayrı-ayrı mərhələlərdə kitabxanaların tarixi təcrübəsinə müntəzəm müraciət etməsi və bu zaman kitabxanaların inkişafını Azərbaycan xalqının mənəvi mədəniyyətinin inkişafı ilə sıx əlaqədə öyrənməsi, varislik məsələsini diqqətdə saxlamasıdır.

Prof. A.Xələfovun elmi-tədqiqat istiqamətlərindən birini də ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda kitabxana işinin inkişafındakı xidmətlərinin təhlili, onun nəzəri irsinin kitabxanalarda təbliği məsələləri təşkil edir. Bu baxımdan alimin son illərdə nəşr etdirdiyi "Heydər Əliyev. Biblioqrafik məlumat kitabı" və "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" adlı fundamental monoqrafiyası böyük əhəmiyyətə malikdir. Bu əsərlərdə o, ümummilli liderin həyata keçirdiyi siyasət nəticəsində ölkədə sabitliyin yaranması, müstəqilliyin məqsədyönlü şəkildə həyata keçirilməsi, Azərbaycanın vətəndaş müharibəsi və parçalanma təhlükəsindən xilas edilməsi, respublikada səmərəli iqtisadi islahatların həyata keçirilməsi hüquqi və demokratik dövlət quruculuğu istiqamətində böyük nailiyyətlərin qazanılması məsələlərini geniş şəkildə təhlil etmişdir.

Prof. A.Xələfovun 1963-cü ildən Kitabxanaşünaslıq kafedrasının müdiri vəzifəsini uğurla yerinə yetirməsi sayəsində bu elmi qurum kitabxana işi üzrə apa-

rıcı müəssisəyə, respublikamızda kitabxana işinin əsas elmi tədqiqat mərkəzinə, bu sahədə çalışan və sayca ildən-ilə çoxalan bacarıqlı mütəxəssislərin, bir sözlə, hazırkı informasiyalaşmış cəmiyyətdə özünəməxsus yer tutan kitabxana ictimaiyyətinin doğma ocağına çevrilmişdir.

Görkəmli kitabxanaşünas alim 50 ildən artıqdır ki, kitabxana işinin tarixi və nəzəriyyəsi problemləri ilə yanaşı, müntəzəm olaraq Azərbaycanda kitabxanaçılıq təhsilinin nəzəri və metodoloji məsələlərini hazırlayıb tətbiq etməklə də məşğuldur. O, bu istiqamətdə yazıb nəşr etdirdiyi çoxsaylı elmi məqalə və monoqrafiyalarında, habelə elmi məclislərdəki məruzə və çıxışlarında Azərbaycan Respublikasında ali kitabxanaçılıq təhsilinin müasir konsepsiyasının əsasını formalaşdırmışdır.

Prof. A.Xələfov 1955-ci ildən, yəni universitetdə müəllim işləməyə başladığı dövrdən indiyə qədər kitabxanaşünaslığın sirlərinə bələd olan minlərlə yüksək ixtisaslı kadra həyat vəsiqəsi vermişdir. Altı mindən artıq kitabxanaçılar ordusuna müəllimlik etmək hər şəxsiyyətin işi deyil. Xələfləri Abuzər müəllimi özlərinin dostu, sirdaşı, ağsaqqalı, yolgöstərəni hesab edirlər.

Abuzər müəllim universitetimizin əsas sütunlarından biri kimi bu gün də yorulmadan fəaliyyət göstərir. Onun fəaliyyət sferası o qədər genişdir ki, BDU-nun elmi-pedaqoji və ictimai həyatını Abuzər müəllimsiz təsəvvür etmək çətindir. Yaşının bu kamillik çağında o, topladığı təcrübəni, bildiklərini gənc nəslə çatdırmaq üçün yorulmadan çalışır. Kitabxana işinin tarixi və nəzəriyyəsinə dair dissertasiyalara rəhbərlik edir. O, respublika Təhsil Şurasının üzvü, Təhsil Nazirliyi Elmi-Metodik Şurasının «Kitabxanaşünaslıq, biblioqrafiya və kitabşünaslıq bölməsi»nin sədri, fakültə Elmi Şurasının üzvü, BDU-nun Nəşriyyat Şurasının sədri, Ağsaqqallar Şurasının sədridir. Professor A.Xələfov 1962-ci ildən indiyə kimi, yəni fasiləsiz olaraq 50 ildir ki, BDU-nun Böyük Elmi Şurasının üzvüdür. O, eyni zamanda universitetimizdə "Əməkdar mədəniyyət işçisi" və "Əməkdar elm xadimi" kimi iki fəxri adı olan yeganə alimdir.

Hazırda professor A.Xələfov eləcə də Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin prezidenti, "Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri və təcrübi jurnalının təsisçisi və baş redaktoru kimi səmərəli iş aparır.

Abuzər müəllimin çox zəngin irsi vardır və ondan gənc alimlər, tələbələr zaman-zaman faydalanacaqlar. Abuzər müəllimin yazdığı dərslik, dərs vəsaiti və tədris-metodik vəsaitləri hər zaman aktual olacaq, dövrlə, zamanla səsləşəcəkdir. Çünki bu əsərlərin bir ucu tarixi ənənələrə söykənirsə, o biri ucu bugünkü həyatın axarına uyğundur. Yeniliyə, müasirləşməyə səsləyən hər bir yaradıcı əmək heç vaxt təsirsiz qalmaz. Azərbaycan Ensiklopediyasının elmi məsləhətçisi kimi Abuzər müəllimin fundamental zəhmətini kim dana bilər?! Azərbaycanda bu gün nəşr edilən bir sıra elmi-kütləvi və hətta ictimai-siyasi nəşrlərin redaksiya heyətlərinə böyük həvəslə Abuzər müəllimi üzv yazırlarsa və onun məsləhətlərindən faydalanmağa çalışırlarsa, deməli, bu müdrik professorun intellektinə, həyat təcrübəsinə hər yerdə çox böyük hörmət və ehtiram vardır. Bu hörmət və ehtiramı professor Abuzər Xələfov dövlətimizdən də görür. Keçmişdə aldığı «Əməkdar mədəniyyət işçisi» fəxri adına, çoxsaylı orden və medallar, fəxri fərmanlar sırasına 2000-ci ildə müstəqil Azərbaycanın «Şöhrət» ordeninin, 2001-ci ildə «Əməkdar elm xadimi» fəxri adının əlavə olunması, Prezident təqaüdünə və Heydər Əliyev

Fondunun «Azərbaycan mədəniyyətinin dostları» təqaüdünə layiq görülməsi bu müdrik insanın çoxillik gərgin zəhmətinə verilən çox böyük qiymətdir. Bu, ümummilli liderimiz Heydər Əliyevin və onun işini uğurla davam etdirən prezidentimiz İlham Əliyevin elmə, mədəniyyətə necə böyük dəyər verməsinin bariz nümunəsidir.

Respublikamızda elm və təhsil sahəsində səmərəli fəaliyyət göstərən A.Xələfov böyük beynəlxalq nüfuza malikdir. O, 2001-ci ildə BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, həmin ildə elm, təhsil və mədəniyyət sahəsindəki əvəzsiz xidmətlərinə görə Amerika Bioqrafiya İnstitutunun «Görkəmli liderlərin beynəlxalq soraq kitabı»nın XI nəşrinin nominantı seçilmiş, fəxri fərman və qızıl medalla təltif edilmiş, 2004-cü ildə isə həmin institut tərəfindən «İlin adamı» elan edilmişdir.

Professor Abuzər Xələfovun elmi, pedaqoji və ictimai fəaliyyətinin nəticəsi odur ki, o, xalqın çox böyük hörmətini qazanmışdır. Universitetdə o, bir elm adamı, müəllim və müdrik insan kimi sevilir. Məncə, bu, Abuzər müəllimin əldə etdiyi böyük qazancdır. Mən A.Xələfovu anadan olmasının 80 illiyi münasibətilə təbrik edir, bu müdrik insana uzun ömür, cansağlığı, elmimizin və təhsilimizin inkişafı naminə yeni, daha böyük uğurlar arzulayıram.



**Misir MƏRDANOV**

***Azərbaycan Respublikasının təhsil naziri, Əməkdar elm xadimi, fizika-riyaziyyat elmləri doktoru, professor***



## TANINMIŞ ALİM, BACARIQLI ELM TƏŞKİLATÇISI

Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfov Azərbaycanda kitabxanaşünaslıq elminin yaradıcısı, bu sahədə elmi məktəb yaratmış tanınmış alim, bacarıqlı elm və təhsil təşkilatçısıdır. İftixar etməli haldır ki, Azərbaycanda kitabxanaşünaslıq nəzəriyyəsinin elmi əsası A.A.Xələfov tərəfindən qoyulmuş, ölkəmizdə kitabxana işinin tarixi və inkişaf perspektivlərinə həsr edilən araşdırmaları ilə vətənimizdə mədəniyyət tarixinin nəzəriyyə və təcrübəsi zənginləşdirilmişdir.

Bu görkəmli alimin tədqiqatları ilə müəyyən edilmişdir ki, sivilizasiyaya malik olan qədim xalqlardan biri kimi azərbaycanlıların hələ antik dövrlərdən başlayaraq zəngin kitab və kitabxana mədəniyyəti olmuş, milli tariximizin bütün mərhələlərində həmin mədəniyyət daim inkişaf etdirilmiş, kitabxanalar xalqın mədəni mənəvi təkamülündə və tərəqqisində mühüm rol oynamışdır.

Onun çoxsahəli tədqiqatları nəticəsində Azərbaycanda kitabxana işinin əsas inkişaf mərhələlərini, bu inkişafın qanunauyğunluqlarını təmin edən amillər aşkar edilmiş və elmi şəkildə əsaslandırılmışdır. Hazırda bu tədqiqatlar Azərbaycanda kitabxana işinin inkişaf strategiyasının elmi konsepsiyasını yaratmaq üçün təməl və örnək rolunu oynayır.

A.A.Xələfov Azərbaycan tarixçiləri içərisində birinci olaraq mədəniyyətin mühüm tərkib hissəsi olan kitabxanaşünaslıq və kitabxana tarixinin elmi-nəzəri və metodoloji əsaslarının formalaşması ilə əlaqədar sistemli tədqiqatlar aparmış, kitabxanaların müasir və sinxron sosial funksiyalarına dair elmi nəzəriyyə yaratmağa müvəffəq olmuşdur. Apardığı elmi tədqiqatların nəticələri 250 adda əsərdə, o cümlədən, monoqrafiya, dərslik və digər kitablarda, elmi məqalələrdə, elmi məruzələrdə öz əksini tapmışdır. Bunların içərisində qədim və orta əsrlərdə, XIX-XX əsrlərdə Azərbaycanda kitabxana işinin tarixinə həsr olunmuş monoqrafiyalarını, habelə "Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafı", "Kitabxanaşünaslığa giriş" (2 cilddə), "Kitabxana işinin tarixi kursuna giriş" kitablarını, eləcə də Azərbaycanda və bir sıra xarici jurnallarda dərc edilmiş çoxsaylı əsərlərini göstərmək olar.

Onun 2001-2003-cü illərdə yazdığı iki cildlik "Kitabxanaşünaslığa giriş" və 2004-cü ildə nəşr etdirdiyi "Azərbaycanda kitabxana işinin tarixi (Qədim dövrlərdən XX əsrə qədər)" adlı dərslikləri, 2006-cı ildə nəşr etdirdiyi "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" və "XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri" adlı monoqrafiyaları müstəqillik illərində Azərbaycanda kitabxanaşünaslıq elminə verilmiş ən qiymətli töhfələrdir.



50 ilə yaxın fasiləsiz olaraq başçılıq etdiyi Kitabxanaşünaslıq kafedrasında onun rəhbərliyi ilə 20 nəfərdən çox elmlər doktoru və fəlsəfə doktoru, hazırda respublikanın bütün elmi və kütləvi kitabxanalarını idarə edən yüzlərlə yüksək ixtisaslı kitabxanaçı-biblioqraf nəsli yetişdirilmişdir. Məhz onun təşkilatçılığı, rəhbərliyi və müəllifliyi ilə BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin tələbələri üçün Azərbaycan dilində 40-dan çox dərslik, dərs vəsaiti və tədris materialları hazırlanmışdır.

Professor A.A.Xələfov ölkəmizdə yüksək elmi təşkilatçılıq qabiliyyətinə malik olan bir alim, incə qəlbli mahir pedaqoq kimi tanınır. Mən Abuzər müəllimi universitetdə hələ tələbə olduğum dövrdən tanımışam. Tale elə gətirdi ki, universiteti bitirdikdən sonra orada müəllim, dekan müavini, kafedra müdiri, prorektor, rektor işlədiyim bütün zamanlarda hər vaxt A.Xələfovla ünsiyyətdə olmuşam. Belə bir həqiqəti deməyi özümə borc bilirəm ki, mən hər zaman Abuzər müəllimi universitetdə öz sözünü deyən, öz mövqeyini birmənalı şəkildə açıq bildirən vətəndaş mövqeli ziyalı kimi tanımışam. Çox şükürlər olsun ki, Abuzər müəllim bu gün də eyni vətəndaş mövqeyi, dövlətimizə, dövlətçiliyimizə daim sədaqəti ilə seçilən bir insan, nurlu bir şəxsiyyət olaraq universitetin elmi-pedaqoji və ictimai həyatında fəal iştirak edir.

A.A.Xələfov 25 il Kitabxanaçılıq fakültəsinin dekanı olduğu müddətdə həmin fakültə Sovetlər dönəmində böyük elmi potensialı və tədris imkanları olan aparıcı fakültəyə çevrilmiş, burada ümumittifaq müşavirələri, konfransları, kitabxanaşünaslıq və biblioqrafiya ixtisası üzrə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi Elmi Metodik Şurasının iclasları keçirilmiş, 3 yeni kafed-

ra (Biblioqrafiyaşünaslıq, Kitabxana fondu və kataloqların təşkili, Kitabşünaslıq və nəşriyyat işi) və 3 yeni tədris laboratoriyası (Kitabxana fondu və kataloqların təşkili, Kitabxana işinin təşkili və idarə edilməsi, Məlumat və axtarış sistemləri) açılmışdır.

A.A.Xələfov ali məktəblərdə təhsil islahatlarının keçirilməsində həmişə fəal iştirak etmiş, Təhsil Nazirliyində "Kitabxanaşünaslıq və biblioqrafiya" istiqaməti və ixtisası üzrə Dövlət Standartlarını hazırlayan işçi qrupunun rəhbəri olmuşdur. O, respublikada kitabxanaşünaslıq elminin inkişafı sahəsində, həmin sahənin hüquqi-normativ bazasının yaradılması yolunda da ciddi iş aparır. 1998-ci ildə onun sədrliyi ilə "Kitabxana işi haqqında" Azərbaycan Respublikası qanununun layihəsi hazırlanmış, Milli Məclis tərəfindən qəbul edilmişdir.

A.A.Xələfov 1960-1990-cı illərdə "Azərbaycan Sovet Ensiklopediyası"nın məsləhətçisi və kitabxana işinə dair bir çox məqalələrin müəllifi, BDU-nun "Elmi əsərləri"nin kitabxanaşünaslıq və biblioqrafiya seriyasının redaktoru, eləcə də respublikada çap olunan "Mədəni-maarif işi", "Kitablar aləmində" jurnalları redaksiya heyətlərinin üzvü olmuşdur.

A.A.Xələfov hazırda "Bakı Universiteti Elmi Xəbərləri"nin baş redaksiya heyətinin, "Kitabxanaşünaslıq və biblioqrafiya" və "Dil və ədəbiyyat" jurnalları redaksiya heyətlərinin üzvüdür. O, eyni zamanda "Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri və praktik jurnalının təsisçisi və baş redaktorudur.

Professor A.A.Xələfov görkəmli tədqiqatçı alim, pedaqoq olmaqla yanaşı, həm də fəal ictimai xadimdir. Hazırda o, BDU-nun Elmi Şurasının üzvü, Təhsil Nazirliyi Elmi-Metodik Şurasının "Kitabxanaşünaslıq və



biblioqrafiya" bölməsinin sədri, Bakı Dövlət Universiteti Ağsaqqallar Şurasının sədridir.

Bu gün də A.A.Xələfov Azərbaycanda təhsil islahatları prosesində ən fəal iştirak edən alim-pedaqoqlardan biridir.

Professor A.A.Xələfovun çoxillik elmi-pedaqoji fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, alim müxtəlif illərdə 6 medala, 2000-ci ildə Heydər Əliyevin fərmanı ilə "Şöhrət" ordeninə, "Ali məktəb əlaçısı" döş nişanına, yüksək ixtisaslı kadr hazırlığındakı xidmətlərinə və səmərəli elmi fəaliyyətinə görə "Əməkdar mədəniyyət işçisi" və Azərbaycanda kitabxanaşünaslıq elminin inkişafındakı xidmətlərinə görə "Əməkdar elm xadimi" fəxri adlarına layiq görülmüşdür. O, 2009-cu ildən Prezident təqaüdçüsüdür.

Görkəmli alim, qayğıkeş müəllim A.A.Xələfov bu gün də böyük həvəslə, həyat eşqi ilə müstəqil Azərbaycanda kitabxana işi sahəsində yüksək ixtisaslı mütəxəssis hazırlığı ilə məşğuldur. Yeni əsrin, yeni minilliyin ilk illərində, milli müstəqilliyimizin iyirmi illiyini bayram etdiyimiz 2011-ci ildə Abuzər müəllimin 80 yaşı tamam olur. Təhsil Nazirliyi adından və şəxsən öz adımdan bu əlamətdar yubiley münasibətilə görkəmli mədəniyyətşünas alim kimi milli tariximizə öz əbədi imzasını qoymuş professor A.A.Xələfovu səmimi qəlbdən təbrik edir, ona möhkəm cansağlığı arzulayıram!



**Əbülfəs QARAYEV**

*Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri*

## GÖRKƏMLİ ALİM, TANINMIŞ PEDAQOQ

Bu ilin dekabr ayında görkəmli alim, pedaqoq, tanınmış ictimai xadim, professor Abuzər Xələfovun 85 illik yubileyi tamam olur. Professor Abuzər Xələfov faydalı ömür yaşamış, respublikada kitabxanaşünaslıq elminin banisi olmuş, böyük bir kitabxanaşünaslıq məktəbi yaratmışdır.

Bu görkəmli alimin tadqiqatları ilə müəyyən edilmişdir ki, yüksək sivilizasiyaya malik olan qədim xalqlardan biri kimi Azərbaycan xalqının hələ antik dövrdən başlayaraq zəngin kitab və kitabxana mədəniyyəti olmuş, milli tariximizin bütün mərhələlərində bu mədəniyyət daim inkişaf etdirilmiş, kitabxanalar xalqın mədəni, mənəvi təkamülündə və tərəqqisində mühüm rol oynamışdır.

Bütövlükdə 25 il Kitabxanaçılıq fakültəsinin dekanı vəzifəsində işləyən A.Xələfov özünün təşəbbüskarlıq fəaliyyəti, təşkilatçılıq bacarığı və idarəçilik metodları ilə böyük nüfuz qazanmış, yüksək ixtisaslı milli kitabxanaşünaslıq-biblioqraf kadrların hazırlanması istiqamətində səmərəli iş aparmışdır.



Abuzər Xələfov Azərbaycan tarixçiləri arasında ilk dəfə olaraq mədəniyyətin mühüm tərkib hissəsi olan kitab, kitabşünaslıq və kitabxana tarixini elmi-nəzəri və metodoloji əsaslarının formalaşması ilə əlaqədar sistemli tədqiqatlar aparmış, kitabxanaların mühüm tarixi inkişaf perspektivləri və sosial funksiyalarına dair elmi konsepsiya yaratmışdır.

Abuzər müəllimin apardığı elmi-tədqiqatların nəticələri, 32 monoqrafiya, dərslik, dərs vəsaiti və digər kitablarda, 300-dən artıq məqalədə, 50-ə yaxın elmi məruzə, hesabat, müxtəlif arayış və rəsmi sənədlərdə öz əksini tapmışdır.

Professor Xələfovun fəal iştirakı ilə «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı» hazırlanmışdır.

A.Xələfov yüksək səviyyəli alim, səriştəli pedaqoq-müəllim, təcrübəli rəhbər işçi, fəal ictimai xadimdir. Onun səmərəli elmi tədqiqat fəaliyyəti həm Azərbaycanda, həm də xarici ölkələrdə geniş şöhrət qazanmışdır.

Professor A.Xələfovun elmi yaradıcılığında ulu öndər Heydər Əliyevin elmi-nəzəri irsinin öyrənilməsi və təbliği mühüm yer tutur. Alimin "Heydər Əliyev. Biblioqrafik məlumat kitabı" və "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" kimi sanballı kitabları bu baxımdan olduqca diqqətəlayiqdir. Bu mühüm əsərlər mütəxəssislərin diqqətini cəlb etmiş, həm elmi nəşrlərdə, həm də kütləvi informasiya vasitələrində çox yüksək qiymətləndirilərək, müəllifinə şöhrət qazandırmışdır.

Əmək və müharibə veteranı olan professor A.Xələfovun Vətən və cəmiyyət qarşısındakı, elm, mədə-

niyyət və təhsilin inkişafındakı xidmətləri dövlət orqanlarının və bir sıra ictimai təşkilatların xüsusi mükafatları, medalları və fəxri fərmanları ilə dəyərləndirilmişdir. Belə ki, o, 1969-cu ildə kadr hazırlığı sahəsində xidmətlərinə görə "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adına, 2001-ci ildə isə kitabxanaşünaslıq elminin inkişafında böyük xidmətlərinə görə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş ilk kitabxanaşünas alimdir.

Mədəniyyət və Turizm Nazirliyi görkəmli alim A.Xələfovun fəaliyyətini daim yüksək qiymətləndirmişdir. 2006-cı ildə R.Behbudov adına Mahnı Teatrında A.Xələfovun 75 illik yubileyinə həsr olunmuş təntənəli yubiley tədbiri keçirilmiş və Nazirliyin dəstəyi ilə "Professor A.Xələfov" biblioqrafik məlumat kitabı çap edilərək respublikanın şəhər və rayon kitabxanalarına paylanılmışdır.

Bu il də professor A.Xələfovun 80 illiyi Mədəniyyət və Turizm Nazirliyi tərəfindən geniş qeyd olunacaqdır. Bu münasibətlə o, Nazirliyin Fəxri Fərmanı ilə təltif edilmişdir. A.Xələfovun "Kitabxana və cəmiyyət" adlı monoqrafiyası, habelə "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyasından Abuzar Xələfovun biblioqrafik məlumat kitabının nəşri Nazirlik tərəfindən həyata keçiriləcəkdir.

Bundan başqa, Mədəniyyət və Turizm Nazirliyinin sisteminə daxil olan kitabxanalarda professor A.Xələfovla dəyirmi masa və beynəlxalq seminarın keçirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan mədeniyyət tarixi istiqamətində əldə etdiyi mühüm elmi nəticələr, müasir tarix elminin aparıcı alimləri arasında xüsusi nüfuz və söz sahibi olması professor A.Xələfovun yüksək reytinqə malik olduğunu



sübut edən əsas amillərdəndir.

Bu gün professor Abuzər Xələfov ömrünün müdriklik çağlarını yaşayır. İnanırıq ki, təkcə Azərbaycanda deyil, həmçinin yaxın və uzaq xarici ölkələrdə yaxşı tanınan görkəmli alimimiz bundan sonra da Azərbaycanın kitabxanaşünaslıq elmini özünün yeni-yeni sanballı əsərləri ilə daha da zənginləşdirəcəkdir.

Azərbaycanın görkəmli kitabxanaşünas alimi, professor Abuzər Xələfova möhkəm cansağlığı, yeni-yeni yaradıcılıq nailiyyətləri və bütün işlərində uğurlar arzulayırıq!



**Ağamusa AXUNDOV**

*Azərbaycan MEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik, Əməkdar elm xadimi*

# ABUZƏR MÜƏLLİM

Abuzərlə mən Bakı Dövlət Universitetinin Filologiya fakültəsinə 1950-ci ildə daxil olmuşuq. Mən həmin fakültənin Azərbaycan dili və ədəbiyyatı, o, kitabxanaçılıq şöbəsinə. O vaxt fakültənin 5 şöbəsi var idi. Onlardan ən çox tarixi olan Azərbaycan dili və ədəbiyyatı, ən gənc olanı Abuzər müəllimin oxuduğu şöbə idi.

O vaxt Abuzər müəllim yaşca bizdən az fərqlənirdi: 19 yaşı vardı. Amma bizdən zəngin ömür yolu, həyat təcrübəsi var idi. O, artıq "Böyük Vətən müharibəsi dövründə rəşadətli əməyə görə" medalı almışdı. Bu medalı ona hələ 10-15 yaşı olanda əmək cəbhəsində çəkdiyi zəhmətə görə vermişdilər. O, neçə illər öncə aldığı medalı sinəsində az gəzdirsə də, yaxşı oxumağına, ictimai işlərinə görə bütün tələbələrdən fərqlənirdi.

Ali məktəbə bir ildə daxil olduğumuz kimi həmin ali məktəbi bir ildə də qurtardıq. Hər ikimiz bitirdiyimiz məktəbdə qalmaq istəyirdik: mən aspirant, o, müəllim kimi. Amma ilin iyul ayında hökumətin təhsillə bağlı qərarı çıxmışdı. Həmin qərara görə ali məktəbi həmin il bitirənlər istər aspiranturaya, istər müəllimlik vəzifəsinə yalnız 2 ildən sonra qəbul ediləbilərdilər. Bu,



mənim kimi, Abuzərin qarşısında da böyük problem yaratmışdı. Yeni iş yeri axtarmağa başladıq. Amma yaxşı yadımdadır ki, bu çətin problemi o vaxtkı dekanımız professor Muxtar Hüseynzadə həll etməyə nail oldu. Bölgü komissiyasında onun parlaq çıxışından sonra, o zaman universitetin rektoru olan akademik Yusif Məmmədəliyev müstəsna hal olaraq, mənim aspiranturaya, Abuzərin müəllimliyə qəbul olunmağımıza razılıq verdi.

Məsələnin uğurla həll edilməsinə baxmayaraq, Abuzər müəllimin qarşısında böyük problemlər dururdu: dünən dərs aldığı auditoriyada mühazirə oxumaq, dərslik və dərs vəsaitləri hazırlamaq, başqa ixtisas sahibinin müdir olduğu kafedraya rəhbərlik etmək... Az keçdi, Abuzər kafedranın müdiri seçildi və kafedraya yeni ab-hava gətirdi. Şöbə o qədər inkişaf etdi ki, tezliklə müstəqil fakültəyə çevrildi və fakültənin ilk dekanı Abuzər müəllim oldu.

1969-cu ildə universitetin 50 illiyi günlərində 38 yaşlı gənc kitabxanaşünas Əməkdar mədəniyyət işçisi fəxri adını aldı. O, eyni zamanda Azərbaycan Respublikasının Əməkdar elm xadimidir. Abuzər müəllim kitabxana tarixi üzrə respublikada ilk elmlər doktorudur. O, "Şöhrət" ordeni alan ilk kitabxanaşünasımızdır.

Abuzər müəllim indi dünya miqyasında tanınan alimlərimizdəndir. O, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvüdür, Amerika Bioqrafiya İnstitutunun fəxri fərmanı və qızıl medalı ilə təltif olunmuşdur.

Bütün bunların hamısının mən şahidi olmuşam. İndi Abuzər müəllimin 80 yaşı tamam olur. Mən əziz dostuma cansağlığı və bütün yaradıcılığında yeni-yeni uğurlar arzulayıram.



**Bəkir NƏBİYEV**

*Azərbaycan MEA Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik, Əməkdar elm xadimi*

# AZƏRBAYCAN GƏNCLƏRİ ÜÇÜN ƏSL NÜMUNƏ MƏKTƏBİ

Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin Kitabxanaşünaslıq kafedrasının müdiri, Prezident təqaüdçüsü, «Şöhrət» ordenli, tarix elmləri doktoru, professor Abuzər Xələfov Azərbaycanda kitabxanaşünaslıq elminin banisi, ali kitabxanaçılıq-informasiya təhsilinin təşkilatçısı, respublikanın görkəmli elm və mədəniyyət xadimi, tanınmış ziyalıdır. Onun məhsuldar və konseptual kəşflərlə dolu elmi-tədqiqat fəaliyyəti Azərbaycanda və xaricdə geniş şöhrətə malikdir.

A.Xələfovun çox zəngin və mənalı bir həyat yolu vardır. Yaradıcılıq fəaliyyətinin lap əvvəllərindən başlayaraq, mədəniyyətin və kitabxana quruculuğunun prinsipial dərəcədə vacib olan fundamental problemləri, kitabxanaşünaslığın metodologiyası, kitabxana işinin tarixi, ali kitabxanaçılıq-informasiya təhsilinin inkişafı və kitabxana nəzəriyyəsinin və praktikasının digər köklü



məsələləri onun hər zaman diqqət mərkəzində olmuşdur.

A.Xələfovun tədqiqatları milli mədəniyyətimizin öyrənilməsi baxımından çox qiymətlidir. O, kitabxana işinin təşkili ilə bağlı tarixi təcrübəni sadəcə təsvir etməklə kifayətlənməmiş, fakt və rəqəmləri dövrün ictimai-siyasi hadisələri fonunda tarixilik və elmilik prinsiplərinin tələbləri baxımından dəyərləndirməklə, müasir dövrdə kitabxana işinin təşkili və kitabxanaşünaslıq elmi ilə bağlı dəyərli elmi nəzəriyyələr irəli sürmüşdür.

Onun obyektiv tarixi həqiqətlərə, tarixi hadisələrin və proseslərin mahiyyətinə varmağa israrla can atması, olduqca əhəmiyyətli və vacib bir həqiqətin – tarixi kitabxanaşünaslıq tədqiqatlarının bir mənbəşünaslıq sahəsi kimi çox da geniş istifadə olunmaması faktının meydana çıxmasına səbəb oldu. Məhz belə bir yanaşma kitabxanaşünaslığın ölkədə axır ki, əsl mənada elmi xarakter almasına təkan verdi.

Arxiv sənədlərinə sistemli yanaşma, yeni – keçmişdə məlum olmayan, həmişəlik itirilmiş və ya unudulmuş kimi görünən tarixi sənədlərin elmi dövriyyəyə daxil edilməsi A.Xələfovu tarixçi-alim kimi fərqləndirən cəhətlərdəndir.

Onun çoxsahəli tədqiqatları nəticəsində Azərbaycanda kitabxana işinin əsas inkişaf mərhələlərini və qanunauyğunluqlarını təmin edən amillər aşkar edilmiş, elmi şəkildə əsaslandırılmışdır. Hazırda bu tədqiqatlar Azərbaycanda kitabxana işinin inkişaf strategiyasının elmi konsepsiyasını yaratmaq üçün təməl və örnək rolunu oynayır.

Yaratdığı əsərlər, apardığı tədqiqatlar öz məzmunu və elmi əhəmiyyəti baxımından bir-birinin məntiqi davamı olmaqla yanaşı, müəllifin elmi təfəkkürünün,

zəhmətsevərliyinin və peşəsinə vurğunluğunun daha yüksək zirvələrə çatdığından xəbər verir.

Bu gün təcrübəli və qocaman bir pedaqoq kimi A.Xələfov nəinki öz yarıməsrlik pedaqoji fəaliyyətinin nəhəng təcrübəsi ilə bölüşür, eyni zamanda kitabxana kadrlarının hazırlanmasının vacib problemlərinin tədqiqinin mərkəzində dayanır. Onun bir pedaqoq kimi kitabxanaşünaslıq elminin ayrı-ayrı sahələri üzrə yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında, fakültənin çoxsaylı professor-müəllim kollektivinin yetişməsində göstərdiyi xidmətləri də yüksək qiymətləndirilməlidir.

Amma A.Xələfovun ziyalı simasını müəyyənləşdirən cəhət yalnız alimliyi deyildir. O, eyni zamanda adət-ənənələrimizin və dini dəyərlərimizin qorunub saxlanılmasında xüsusi xidmətləri olan vətənpərvər və millətsevər bir şəxsiyyət, ləyaqətli ziyalı nəslinin ən parlaq nümayəndələrindən biridir.

Müasirləri üçün A.Xələfov son dərəcə zəkalı bir alim, pedaqoq-novator və eksperimentator, istedadlı rəhbər və aktiv ictimai xadim, onu yaxından tanıyan insanlar üçün isə öz həmkarlarına yeni biliklər və təzə ideyalar verməyə və həmişə köməyə gəlməyə hazır olan sevimli, mehriban və heç bir zaman şəxsi mənfəət güdməyən yaxşı bir insandır.

Abuzər Xələfovun fədakar əməyinin yekun və layiqli qiymətini yalnız tarix verəcəkdir. Lakin artıq indidən aydındır ki, onun bir sıra tədqiqatları klassika adlandırılmağa layiqdir.

Hal-hazırda A.Xələfov çox yaxşı elmi «formadadır». İnsana elə gəlir ki, onun keçdiyi çətin və əziyyətli həyat yolu ona ancaq güc və enerji vermişdir. Onun alim ürəyi əvvəlki dövrlərdə olduğundan da artıq elmi düşüncələr və yeni-yeni yaradıcılıq planları ilə aşıb-



daşır. Ən əsası isə odur ki, bu planların əsasında milli kitabxana nəzəriyyə və praktikasının inkişafına müasir yanaşma və kitabxana işinin tarixindəki ağ ləkələrin aradan qaldırılması kimi müqəddəs bir amal durur.

Bu il kitabxana ictimaiyyəti əlamətdar bir yubileyi qeyd edir. 2011-ci il dekabr ayının 25-də Abuzər Xələfovun anadan olmasının 80 və elmi-tədqiqat elmi-pedaqoji və ictimai fəaliyyətinin 56 ili tamam olur. Bu münasibətlə onu səmimi qəlbdən təbrik edir, ona can sağlığı, uzun ömür və yeni-yeni elmi nailiyyətlər arzu edirəm. Düşünürəm ki, ömrünün müdriklik və kamillik dövrünü yaşayan alimin həyatı, ictimai fəaliyyəti, geniş elmi erudisiyası, yaradıcılıq üslubu, tədqiqatçı-alim səliqə-sahmanı, idarəetmə qabiliyyəti, insanlara məhəbbəti, qayğısı, ünsiyyəti və səmimiyyəti Azərbaycan gəncləri üçün əsl nümunə məktəbidir. O, bundan sonra da hələ uzun illər fəaliyyət göstərəcək, kitabxanaçı ixtisasına yiyələnmək istəyən yeni nəsillərin təhsilində, dəyərli vətəndaş kimi formalaşmasında və ölkə kitabxanalarının gələcək inkişafında öz əvəzsiz töhfəsini əsirgəməyəcəkdir.



Budaq BUDAQOV

*Azərbaycan MEA H.Əliyev adına Coğrafiya İnstitutunun direktoru, akademik, Əməkdar elm xadimi*

## GÖRKƏMLİ KİTABXANAŞÜNAS ALİM

Mən Abuzər Xələfovu ilk dəfə 1947-ci ildə Bakı Dövlət Universitetində yaranmış kitabxanaşünaslıq fakültəsinə daxil olanda tanımışam və bu fakültənin yaranmasında onun mühüm rolu olmuşdur.

Mən Abuzər Xələfovu kitabxanaşünaslıq-biblioqrafiyaşünaslıq ixtisasının möhkəmlənməsində faydalı əmək sərf edən bir alim kimi tanıyıram. Abuzər müəllim Kitabxanaçılıq fakültəsinin yaranmasında, möhkəmlənməsində, inkişafında sərf etdiyi əməyin əvəzsiz olması ilə elmi cəhətdən fakültənin əsasını qoymuşdur.

Abuzər Xələfov burada işləyə-işləyə fakültənin ən yaxşı cəhətlərini də tədqiq etmişdir. Mən Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsi deyəndə Abuzər Xələfovu, Abuzər Xələfov deyəndə isə Kitabxanaçılıq fakültəsini gözümün qabağına gətirirəm.

Abuzər Xələfov Kitabxanaçılıq fakültəsini qəlbən sevdiyindən onun təşkilində və inkişafında yaradıcı alim əməyi sərf etmişdir. Məncə, Abuzər Xələfov o dövrdə yuxu görəndə də, yuxu görməyəndə də kitabxanaçılıqdan bir maraqlı epizod danışardı. Mübaliğəsiz demək olar ki, kitabxanaçılıq növü Abuzər Xələfovun təfəkkürünün məhsuludur.



İş prosesində yetişən perspektivli kadrlar Abuzər müəllimlə birgə bu fakültəni möhkəmlətmişlər. Kitabxanaçıların işləri demək olar ki, başdan aşıb-daşsa da onlar Azərbaycanın bütün yaşayış məntəqələrində, məktəblərində və elm ocaqlarında kitabxanalar təşkil etmişlər. İndi bütün müəssisələrin kitabxanaları var. Onların işlərinin dəstəklənməsində, nizama salınmasında, metodik vəsaitlə təmin olunmasında Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsi əməkdaşlarının əməyi əvəzsizdir. Abuzər müəllim öz yaradıcı elmi əməyi ilə kitabxanaçılıq işinin təşkilində və bu məqsədlə BDU-nun istiqamətləndirilməsində əsaslı rol oynamışdır. İndi Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsi ölkə üzrə aparıcı təşkilatçı bir mövqedədir. Məncə, nə qədər ki, Abuzər müəllimin canında can var, Kitabxanaçılıq fakültəsinin daha da inkişaf etdirilməsinə öz yaradıcı alim əməyini sərf edəcəkdir. Kitabxanaçılıq fakültəsinin bugünkü səviyyəsi onun bütün yaradıcı müəllimlərinin faydalı əməyinin məhsuludur. Öz işi ilə daima yaşayan alim gördüyü işin keyfiyyətinin daha da yaxşılaşmasına cavabdehdir. Belə alimlərdən biri də Abuzər Xələfovdur. Abuzər müəllim bu gün də kitabxanaçılıq işinin çiçəklənməsinə, onun təşkilati baxımdan möhkəmlənməsinə öz yaradıcı alim əməyi ilə köməklik göstərir. Belə alimlərə eşq olsun!



**Bəhram ƏSGƏROV**

*Bakı Dövlət Universiteti Fizika fakültəsinin Bərk cisimlər fizikası kafedrasının müdiri, akademik, Əməkdar elm xadimi*

## GÖRKƏMLİ ELM, TƏHSİL VƏ MƏDƏNİYYƏT XADİMİ

Bu il Bakı Dövlət Universitetinin, Kitabxanaşünaslıq kafedrasının müdiri, əməkdar elm xadimi, əməkdar mədəniyyət işçisi, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Prezident təqaüdçüsü, "Şöhrət" ordenli, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfovun anadan olmasının 80 ili tamam olur.

Mən Abuzər müəllimi universitetdə tələbə olduğum illərdən tanıyıram. O, bizim kursdan iki il əvvəl universiteti bitirmiş və gənc perspektivli kadr kimi kitabxanaşünaslıq kafedrasında müəllim vəzifəsində saxlanılmışdır. A.Xələfov müəllimlikdən professor və həmin kafedranın müdiri vəzifəsinə qədər yüksəlmişdir.

Abuzər müəllimin elmi və pedaqoji fəaliyyətinin başlamasından bu günə qədər onun həyatı mənim gözüm önündə keçmişdir. Yarım əsrdən çoxdur ki, o, Universitetin Böyük Elmi Şurasının üzvüdür. Mən bütün vacib məsələlərin həllində Abuzər müəllimin prinsipial mövqeyinin şahidi olmuşam.

Professor A.Xələfov Azərbaycanda Kitabxanaşünaslıq elminin banisi, Milli Kitabxanaşünaslıq elm məktəbinin yaranması, ali kitabxanaçılıq-informasiya təhsilinin təşkilatçısı, görkəmli elm və mədəniyyət xadimi kimi ölkəmizdə və xaricdə yaxşı tanınan görkəmli ziyalılarımızdandır. Demək olar ki, respublikamızda fəaliyyət göstərən bütün kitabxanaşünas alimlər bu məktəbin – Abuzər Xələfov elmi məktəbinin yetişdirmələridir. O, ən qədim dövrlərdən zamanəmizə qədər Azərbaycan kitabxana işinin tarixini və inkişaf istiqamətlərini hərtərəfli tədqiq etmiş, sanballı monoqrafiyaları ilə ölkəmizdə ilk dəfə olaraq bu sahənin bünövrəsini qoymuşdur. Professor A.Xələfovun yazdığı dissertasiya işlərinin adları deyilənlərə əyani sübutdur.

A.Xələfov ilk dəfə olaraq 1961-ci ildə "Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932)" mövzusunda namizədlik, 1975-ci ildə isə "Azərbaycanda kitabxana işinin tarixi (1935-1959)" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək təkcə Azərbaycanda deyil, eləcə də keçmiş Sovet məkanında kitabxana işi sahəsində ilk tarix elmləri doktoru alimlik dərəcəsi almışdır. Bu dissertasiya ölkəmizdə kitabxana tarixinə dair ilk fundamental tədqiqat kimi alimə böyük nüfuz qazandırmış, kitabxana işinin elmi yolla tədqiq edilib, öyrənilməsi sahəsinin əsasını qoymuşdur.

Professor A.Xələfovun elmi araşdırmalarında Azərbaycanda ali kitabxanaçılıq-informasiya təhsilinin tarixi və nəzəri problemlərinin tədqiqi xüsusi yer tutur. Alimin "Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafı" (1989), "Azərbaycanda ali kitabxanaçılıq təhsili" (1998) adlı monoqrafiyaları, çoxsaylı məqalələri, tədris-metodik materialları ölkəmizdə kitabxanaçılıq-informasiya təhsilinin, yüksək ixtisaslı mütəxəsislər hazırlanmasının konseptual cəhətdən həllinə ciddi təsir gös-

tərmişdir.

Professor A.Xələfovun elmi yaradıcılığında ulu öndər Heydər Əliyevin elmi-nəzəri irsinin öyrənilməsi və təbliği mühüm yer tutur. Alimin "Heydər Əliyev. Biblioqrafik məlumat kitabı" və "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" kimi sanballı kitabları bu baxımdan olduqca diqqətəlayiqdir. Bu mühüm əsərlər mütəxəssislərin diqqətini cəlb etmiş, həm elmi nəşrlərdə, həm də kütləvi informasiya vasitələrində çox yüksək qiymətləndirilərək, müəllifinə şöhrət qazandırmışdır.

Aydındır ki, kitabxana işinin tarixi Azərbaycanda ümumiyyətlə mədəniyyət tarixinin bir hissəsidir. Ona görə də kitabxana işinin tədqiqi çox böyük əhəmiyyətə malikdir. Bu iş professor Xələfovun elmi fəaliyyəti ilə əlaqədar olduğundan ona Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi fəxri adı verilmişdir.

Abuzər müəllim elmi fəaliyyəti ilə yanaşı eyni zamanda bacarıqlı təhsil işçisi kimi də tanınır. Onun fəal iştirakı və xidməti sayəsində BDU-nun Kitabxanaçılıq şöbəsi müstəqil Kitabxanaçılıq fakültəsinə çevrilmiş və gənc tarix elmləri namizədi, dosent A.Xələfov həmin fakültənin ilk dekanı seçilmişdir. O, 1962-ci ildən 1970-ci ilə və 1980-ci ildən 1995-ci ilə qədər, yəni 25 il bu fakültənin dekanı olmuş, onun formalaşması və inkişafı naminə mühüm xidmətlər göstərmişdir. A.Xələfov eyni zamanda 1962-ci ildən indiyədək, yəni yarım əsrə yaxındır ki, Kitabxanaşünaslıq kafedrasının müdiri kimi səmərəli fəaliyyət göstərir.

Bütövlükdə 25 il Kitabxanaçılıq fakültəsinin dekanı vəzifəsində işləyən A.Xələfov özünün təşəbbüskarlıq fəaliyyəti, təşkilatçılıq bacarığı və idarəçilik metodları ilə böyük nüfuz qazanmış, yüksək ixtisaslı milli kitabxanaşünaslıq-biblioqraf kadrların hazırlanması



istiqamətində səmərəli iş aparmışdır. O, Azərbaycanda kitabxanaşünaslıq elmi sahəsində xüsusi elmi məktəb yaratmış, 1 elmlər doktoru, 15 elmlər namizədi yetişdirmişdir.

Professor A.Xələfovun fəaliyyəti yalnız bir fakültə çərçivəsində deyil, universitetin bütövlükdə tədris prosesinin müasir konsepsiyasının formalaşmasında mühüm rol oynayır. Ali təhsil sistemində tədris proseslərinin mahir bilicisi kimi tanınan professor A.Xələfov istər respublikamızda, istərsə də, Bakı Dövlət Universitetində ali təhsilin yenidən qurulması və optimallaşdırılması ilə bağlı mühüm məsələlərin həllində yaxından iştirak edir və bu sahədə öz sanballı tövsiyələrini verir.

Görkəmli kitabxanaşünas alim 50 ildən artıqdır ki, kitabxana işinin tarixi və nəzəriyyəsi problemləri ilə yanaşı, müntəzəm olaraq Azərbaycanda kitabxanaçılıq təhsilinin nəzəri və metodoloji məsələlərini hazırlayıb, tətbiq etməklə də məşğuldur. O, bu istiqamətdə yazıb nəşr etdirdiyi çoxsaylı elmi məqalə və monoqrafiyalarında, habelə elmi məclislərdəki məruzə və çıxışlarında Azərbaycan Respublikasında ali kitabxanaçılıq təhsilinin müasir konsepsiyasının əsasını formalaşdırmışdır.

Əmək və müharibə veteranı olan professor A.Xələfovun Vətən və cəmiyyət qarşısındakı, elm, mədəniyyət və təhsilin inkişafındakı xidmətləri dövlət orqanlarının və bir sıra ictimai təşkilatların xüsusi mükafatları, medalları və fəxri fərmanları ilə dəyərləndirilmişdir. O, 1969-cu ildə kadr hazırlığı sahəsində xidmətlərinə görə "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adına, 2001-ci ildən isə kitabxanaşünaslıq elminin inkişafında böyük xidmətlərinə görə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş ilk kitabxanaşünas alimdir.

Görkəmli alim A.Xələfov 2000-ci ildə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin fərmanı ilə Bakı Dövlət Universitetinin 80 illiyi münasibətilə elm və təhsil sahələrindəki xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir. O, 2006-cı ildən Prezident təqaüdçüsüdür.

Hazırda professor Abuzər Xələfov ömrünün müdriklik çağını yaşayır və intensiv fəaliyyət göstərir. O, Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin prezidenti, Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Vahid Elmi-Metodik Şurasının "Kitabxanaşünaslıq və biblioqrafiya" bölməsinin sədri, BDU-nun Ağsaqqallar Şurasının və Nəşriyyat Şurasının sədri, "Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri və təcrübi jurnalının təsisçisi və baş redaktorudur.

Dostumuz və həmkarımız professor A.Xələfovu 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona elm və təhsil sahələrində uğurlar, özünə isə uzun, sağlam ömür arzulayırıq.



**Vasim MƏMMƏDƏLİYEV**

***Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin dekanı, akademik, Əməkdar elm xadimi***



## GÖRKƏMLİ ALİM, GÖZƏL İNSAN

Bu il Azərbaycan təhsilinin, elm və mədəniyyət tarixinin görkəmli nümayəndəsi, BDU-nun sütunlarından biri, Azərbaycan və Şərq Kitabxana Mədəniyyəti tarixinin mahir bilicisi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, «Şöhrət» ordenli, Azərbaycan Respublikasının Əməkdar Elm xadimi, BDU-nun Ağsaqqallar Şurasının Sədri, BDU-nun Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor, uzun illər dostluq etdiyim sadə, səmimi və qayğıkeş və prinsipial insan, böyük nüfuz sahibi olan Abuzər Alı oğlu Xələfovun 80 yaşı tamam olur.

Abuzər Xələfov dünya kitabxanaşünaslığında öz dəst-xətti ilə seçilən, Azərbaycanda kitabxanaşünaslıq elmi məktəbini yaratmış, şərq mədəniyyəti kontekstində respublikamızda kitabxana işinin elmi əsaslarını qoymuş, mənəvi keyfiyyətləri ilə seçilən nüfuzlu bir alimdir.

Abuzər Xələfovun yaradıcılıq laboratoriyasının əsas mahiyyəti ondan ibarətdir ki, o, yaratdığı elmi məktəbin nailiyyətlərini, bünövrəsini qoyduğu ali kitabxanaçılıq təhsilinin təşəkkülü və inkişafı ilə üzvi şə-

kildə birləşdirə bilmişdir.

Professor A.Xələfov təkcə mədəniyyət və kitabxana ictimaiyyəti tərəfindən deyil, bütün Azərbaycan elmi ictimaiyyəti tərəfindən sevilən sanballı kişilərdən biridir. Abuzər müəllimi mən 50 ildən çoxdur tanıyıram. O zaman mən Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb şöbəsinin birinci kurs tələbəsi, Abuzər Xələfov isə fakültəmizin Kitabxanaçılıq şöbəsinin müəllimi idi. Tələbələrlə daim təmasda olan, onların qayğıları ilə yaşayan, ehtiyacları ilə maraqlanan, imkan daxilində onlara köməklik göstərən Abuzər müəllim hələ o vaxtlar gənclər arasında böyük hörmət qazanmışdı.

Fakültəmizin adlı-sanlı yaşlı müəllimlərinin zəhmindən çəkinən tələbələrin bir çoxu, necə deyərlər, öz dərdlərini Abuzər müəllimə söyləyər, çətin işlərini onunköməyi ilə həll edərdilər. O zaman hələ çox gənc olan Abuzər müəllim özünün sadəliyi, qayğıkeşliyi, canıyananlığı, həssaslığı və səmimiliyi sayəsində bir ağsaqqal mövqeyində idi.

Məhəmməd Peyğəmbərin belə bir kəlamı var: «Elm köməksizlikdə yoldaşımız, xoşbəxtliyə tərəf yol göstərənimiz, dostlar arasında zinətimiz, düşmənlər arasında isə silahımızdır». Bu sözlər sanki Abuzər müəllim kimi elm və təhsil fədaisi üçün deyilmişdir.

Hörmətli rektorumuz, millət vəkili, Əməkdar elm xadimi, akademik Abel Məhərrəmovun «Universitetimizin fəxri» adlı məqaləsində qeyd etdiyi kimi, «Azərbaycanda opera, dramaturgiya, mətbuatın öz baniləri olduğu kimi, cəsarətlə deyə bilərik ki, kitabxanaşünaslıq elminin də banisi məhz Abuzər Xələfovdur. 1962-ci ildən Azərbaycanda müstəqil Kitabxanaçılıq fakültəsinin yaradıcısı və ilk dekanı olaraq, kitabxanaşünaslıq



elminin təşəkkülünə, onun daha da inkişaf edib möhkəmlənməsinə necə çalışırdısa, bu gün də eyni həvəslə fəaliyyət göstərir. Onun SSRİ məkanında kitabxana işinin tarixi sahəsində ilk elmlər doktoru olması Azərbaycan üçün böyük fəxrdir».

Abuzər müəllim həm də əməlisaleh insan, Allaha dərin inam və etiqad bəsləyən bir şəxsdir. Tanrı bu nəcib insanın qismətinə üç müqəddəs ocaqda – Həcc, Məşhəd və Kərbəla ziyarətində olmağı nəsib etmişdir.

O, 1998-ci il martın 31-dən aprelin 17-dək Səudiyyə Ərəbistanının Məkkə və Mədinə şəhərlərinə gedib, müqəddəs Həcc ziyarətində olub, yüksək «Hacı» titulu qazanıb. 1999-cu il iyunun 14-dən 27-dək İran İslam Respublikasının Məşhəd şəhərində İmam Hüseynin məqbərəsini ziyarət edən Abuzər Xələfov «Məşədi» tituluna layiq görülüb.

Alim 2001-ci il fevralın 12-dən 16-dək İraqın Kərbəla şəhərində müqəddəs İmam Hüseyn məqbərəsində ziyarətdə olub. Həmin vaxt mənə Abuzər müəllimlə birlikdə qədim İraq torpağını, Kərbəlada müqəddəs İmam Hüseyn məqbərəsini ziyarət etmək nəsib oldu. Səfər zamanı mən özüm üçün Abuzər müəllimin daha bir müsbət keyfiyyətini – gözəl yol yoldaşı olmasını kəşf etdim.

Allahın evini – müqəddəs Kəbəni ziyarət etmiş Abuzər müəllim bir hacı kimi respublika miqyasında keçirilən dini tədbir və mərasimlərdə yaxından iştirak edir, özünün ibrətamiz söhbətləri, gözəl məsləhətləri ilə gəncliyimizin işində fəal rol oynayır.

Abuzər müəllim dostluqda çox möhkəm, pis gündə adamın arxasında duran, bu yolda heç bir çətinlikdən qorxub çəkinməyən mərd bir insandır. Elə bu keyfiyyətlərinə görə də Abuzər müəllim onu tanıyanlar arasında özünə böyük hörmət və ehtiram qazanmışdır. Çə-

tin gündə fikirləşirsən ki, nə yaxşı ki, Abuzər müəllim kimi bir dostun var və o, sənə bu çətinlikdə həyan durar.

Abuzər müəllim görkəmli ziyalılarla sağlam elmi müzakirələr aparmağın və müəyyən bir fikir formalaşdırmağın ustasıdır. Belə olmasaydı, bu gün müxtəlif elm sahələrində tanınmış mütəxəssislər prinsipial elmi məsələlərin həllində Abuzər müəllimin nüfuzlu alim sözünü əsas götürməzdilər. Bu cəhət təkcə ustad alimimizə deyil, eyni zamanda, onun ağsaqqalı olduğu böyük kitabxanaçılar ordusuna və kitabxana işi mütəxəssislərinə başucalığı və şan-şöhrət gətirir.

Ömrünün 80-ci pilləsinə qədəm qoyan əziz dostum Abuzər Xələfovu yubileyi münasibətilə mən də bütün onu tanıyanlar, sevənlər, ona rəğbət bəsləyənlər kimi ürəkdən təbrik edir, görkəmli alimimizə cansağlığı, uzun ömür, doğmaları ilə birgə daha xoş günlər arzulayıram!



**Sevda MƏMMƏDƏLİYEVA**

*Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini, Azərbaycan MEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor*



## TANINMIŞ TƏDQİQATÇI-ALİM, ELM VƏ TƏHSİL TƏŞKİLATÇISI

2011-ci ildə görkəmli alim-pedaqoq, nüfuzlu elm, təhsil və mədəniyyət xadimi Abuzər Alı oğlu Xələfovun 80 yaşı tamam olur. Birləşmiş Millətlər Təşkilatı yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin prezidenti, Bakı Dövlət Universitetinin kafedra müdiri, tarix elmləri doktoru, respublikanın əməkdar elm xadimi, əməkdar mədəniyyət işçisi, Prezident təqaüdçüsü, "Şöhrət" ordenli, professor Abuzər Xələfov Azərbaycanda milli kitabxanaşünaslıq elminin banisi, ölkəmizdə ali kitabxanaçılıq təhsilinin təşkilatçılarından biridir.

Azərbaycanda kitabxanaşünaslıq nəzəriyyəsinin elmi əsasını qoymuş Abuzər Xələfovun bir mütəxəssis, alim, şəxsiyyət kimi formalaşmasında Mir Cəlal Paşayev, Yusif Məmmədəliyev, Cəfər Xəndan, Məmməd Arif Dadaşzadə, Əliheydər Qarayev, Həmid Araslı kimi görkəmli alim-pedaqoqların böyük rolu olmuşdur. Azərbaycan Elmlər Akademiyasının Prezidenti, akademik Yusif Məmmədəliyev gənc alim Abuzər Xələfova daim

dəstək olur, ondan diqqət və qayğısını əsirgəmirdi.

Böyük alimlərin elmi ənənələrini davam etdirərək A.Xələfov kitabxanaşünaslıq-biblioqrafiya sahəsində xüsusi elmi məktəb yaratmış, kitabxana işinin tarixi, nəzəriyyəsi, metodologiyası ilə bağlı geniş tədqiqatlar aparan onlarla elmlər doktoru və elmlər namizədinin hazırlanmasında elmi rəhbər, elmi məsləhətçi və ya opponent kimi iştirak etmişdir.

A.Xələfov SSRİ məkanında kitabxana işinin tarixi sahəsində ilk elmlər doktoru kimi tanınmış, uzun illər ərzində Moskva şəhərində fəaliyyət göstərmiş doktorluq dissertasiyalarının müdafiəsi üzrə vahid ixtisaslaşdırılmış şuranın üzvü olmuşdur.

Abuzər Xələfovun mədəniyyət və kitabxana işi quruculuğunun tarixi problemləri, kitabxanaşünaslığın nəzəriyyəsi və metodologiyası, ali kitabxanaçılıq-biblioqrafiya təhsili məsələləri və bir sıra digər aktual elmi problemlər sahəsində səmərəli elmi-tədqiqat fəaliyyəti alimə geniş şöhrət gətirmişdir. Onun mədəniyyətşünaslıq, kitabxanaçılıq elmi və təcrübəsi üçün böyük əhəmiyyət kəsb edən fundamental əsərləri respublikamızda və xarici ölkələrdə yüksək qiymətləndirilir.

55 ildən çox səmərəli elmi və pedaqoji fəaliyyətlə məşğul olan Abuzər Xələfov mədəniyyət, kitabxana işi, kitabxanaşünaslıq, təhsil və informatika sahələrinin tarixinə və nəzəriyyəsinə dair 250-dən artıq monoqrafiya, dərslik, dərs vəsaiti, elmi məqalə, tədris-metodik material və s. əsərlərin müəllifidir.

Ölkəmizdə kitabxana işi tarixinin ən qədim dövrlərdən XX əsrə qədərki dövrünü əhatə edən "Azərbaycanda kitabxana işinin tarixi" adlı üçcildlik, Azərbaycanda kitabxanaçılıq təhsili tarixində kitabxanaşünaslığa dair ilk dərslik olan "Kitabxanaşünaslığa giriş" kitabı, "Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafı", "Azərbaycanda ali kitabxanaçılıq təhsili" kimi sanballı elmi əsərləri Abuzər Xələfovun xalqımızın mədəniyyət tarixinə verdiyi qiymətli töhfələrindəndir.



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Azərbaycanda kitabxana işinin inkişafındakı xidmətlərinin təhlili, onun nəzəri irsinin kitabxanalarda təbliği məsələlərinin elmi tədqiqi nəticəsində alimin "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" adlı monoqrafiyası ərsəyə gəlmişdir. Kitabda ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərliyi dövründə Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan kitabxana quruculuğu sahəsində misilsiz xidmətləri, həyata keçirdiyi kitabxana siyasəti ümumiləşdirilmiş və bu siyasətin ulu öndərin layiqli varisi İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi işıqlandırılmışdır. Professor Abuzər Xələfovun elmi əsərləri sırasında xüsusi yer tutan "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" kitabı Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə nəşr olunmuşdur.

Abuzər Xələfovun elmi tədqiqatlarında Azərbaycanın müstəqilliyi şəraitində ölkədə kitabxana-informasiya fəaliyyətinin strateji istiqamətləri, kitabxanaşünas-biblioqraf peşəsinin yeni keyfiyyətləri kimi məsələlər ətraflı şərh edilmişdir. Alimin bir sıra konseptual məqalələrində cəmiyyətdə baş verən sosial-iqtisadi və mədəni proseslərin elmi şəkildə dərk edilməsi əsasında Azərbaycanda kitabxana işinin nəzəriyyə və təcrübəsinin inkişaf konsepsiyası hazırlanmışdır.

A.Xələfovun kitabxana işinin hüquqi normalarının işlənilib hazırlanmasında da xidmətləri olmuşdur. Alim 1999-cu ildə qəbul olunmuş "Kitabxana işi haq-

qında" Azərbaycan Respublikası Qanununun hazırlanması üzrə işçi qrupuna rəhbərlik etmiş, 2009-cu ildə qüvvəyə minmiş "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun hazırlanmasında yaxından iştirak etmişdir.

Abuzər Xələfovun xidmətləri Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən yüksək qiymətləndirilir. 2006-cı ildə alimin anadan olmasının 75 illik yubileyi təntənəli şəkildə qeyd olunmuş, mədəniyyət və turizm naziri cənab Əbülfəs Qarayev bu il professor A.Xələfovun 80 illik yubileyinin qeyd olunması haqqında müvafiq əmr imzalamışdır. Yubiley ilində alimin "Kitabxana və cəmiyyət" adlı monoqrafiyası, habelə "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyasından biblioqrafik məlumat kitabı Mədəniyyət və Turizm Nazirliyi tərəfindən nəşr ediləcəkdir. Nazirlik sisteminə daxil olan kitabxanalarda professor A.Xələfovun iştirakı ilə dəyirmi masa və respublika miqyaslı seminar keçiriləcək, M.F.Axundov adına Milli Kitabxanada alimin həyat və fəaliyyətinə həsr edilmiş sərgi təşkil ediləcəkdir.

Abuzər Xələfov ölkəmizdə və beynəlxalq aləmdə tanınmış tədqiqatçı-alim, elm və təhsil təşkilatçısı olmaqla yanaşı, səmimi və alicənab insan, böyük vətənpərvər, geniş erudisiyaya malik şəxsiyyət, əsl ziyalıdır.

Abuzər müəllimi şanlı yubileyi münasibətilə ürəkdən təbrik edir, möhkəm cansağlığı, uzun ömür, Azərbaycan elminin, mədəniyyətinin, təhsilinin sabahı naminə nəcib işlərində, mədəniyyət tarixinin nəzəriyyə və təcrübəsini zənginləşdirən elmi araşdırmalarında böyük uğurlar arzulayıram.



**Hüseyn ƏHMƏDOV**



***Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü, Rusiya Dövlət Təhsil Akademiyasının xarici üzvü, pedaqoji elmlər doktoru, professor, Prezident təqaüdçüsü***

## AZƏRBAYCAN KİTABXANAŞÜNASLIĞININ ATASI

Bu gün ömrünün müdriklik çağlarını yaşayan professor Abuzər Xələfovun həyatının bütöv bir dövrü Azərbaycanda kitabxanaşünaslıq adlanan bir elm sahəsi ilə qırılmaz tellərlə bağlı olmuşdur.

Bu gün kitbxanaşünaslıqdan söhbət düşəndə ilk öncə professor Abuzər Xələfov durur gözlərimiz önündə. Bu onunla əlaqədardır ki, Azərbaycanda kitabxanaşünaslıq elminin əsasını, onun təməlini Abuzər müəllim qoymuşdur. Abuzər müəllim nə az, nə çox, yarım əsrdən artıqdır ki, bu sahədə Fərhad kimi külüng vurur. Azərbaycan Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsini bitirən Abuzər Xələfov 1955-ci ildən bu günə qədər doğma universitetinin kitabxanaşünaslıq və biblioqrafiya kafedralarında səmərəli pedaqoji fəaliyyətini ləyaqətlə davam etdirir.

Bu gün respublikamızın tanınmış ağsaqqaları arasında özünə şərəfli yer tutan Abuzər müəllim bu yüksəkliyə heç də asan yolla nail olmamış, o, pillə-pillə ucalmış, qarşıya çıxan maneələri ağıl-kamalla aradan

qaldırmışdır.

Bu gün yağı düşmən tapdağı altında qalmış Qərbi Azərbaycanda, Ulu Göyçə mahalının Cil kəndində dünyaya göz açan Abuzər müəllim öz məramını Azərbaycanda tanıtmış, özünün həyatını, əməli elmi-pedaqoji fəaliyyətini Respublikanın tanınmış elm məbədi olan Bakı Dövlət Universiteti ilə başlamışdır. Məhz BDU-da sıravi müəllim, baş müəllim, dosent vəzifələrindən elmlər doktoru, professor, kafedra müdiri, fakültə dekanı kimi məsul və şərəfli bir yol keçmişdir. Abuzər müəllimin elmi-pedaqoji titul və vəzifələri bununla bitmir. O, bu gün Azərbaycanda sayılan-seçilən əməkdar elm xadimi, respublikanın əməkdar mədəniyyət işçisidir.

Professor Abuzər Xələfovun adı respublikamızdan kənarda da məşhurdur. O, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademikidir.

Çox xoş və sevindirici haldır ki, mənim «Şöhrət» ordenli el oğlumun şərəfi və şöhrəti bizləri sevindirir. Tarix elmlər doktoru, Prezident təqaüdçüsü Abuzər müəllimin 80 illik yubileyi müstəqil Azərbaycanda hökm sürən psixoloji-mənəvi, elmi-pedaqoji, ictimai və siyasi iqlim şəraitinin yüksək durumu, ölkənin iqtisadi həyatının sürətli inkişaf dövrünə təsadüf edir.

Abuzər müəllim yaşayıb-yaratdığı bu illər ərzində özünün təşəbbüskarlığı, təşkilatçılıq qabiliyyəti, bacarığı, kollektivinə xeyirxah münasibəti ilə də seçilən alimlərdən biri olmuşdur. Milli kitabxanaşünaslıq – biblioqraf kadrların ilkin dəstəsinin hazırlanması məhz akademik Abuzər Xələfovun adı ilə bağlıdır.

Mübaliğəsiz demək olar ki, bu gün Azərbaycanın kitabxanaşünaslıq və biblioqrafiya sahəsində çalışan alimlər, məhz Abuzər Xələfov elmi məktəbinin yetirmələridir.



Professor A.Xələfov təkcə Azərbaycanda deyil, keçmiş SSRİ məkanında da kitabxanaşünasların yetişməsində rəsmi opponent, elmi məsləhətçi kimi fəal iştirak etmişdir.

Professor A.Xələfovun çap etdirdiyi dərslik və tədris vəsaitləri, elmi-metodiki əsərləri Azərbaycan kitabxana işçilərinin stolüstü kitablarına çevrilmişdir.

Dünya şöhrətli alim bu gün ali təhsilin yenidən qurulması və optimalaşdırılması ilə bağlı mühüm məsələlərin həllində yaxından iştirak edir.

Fürsətdən istifadə edərək Azərbaycanımızın görkəmli kitabxanaşünas alimi professor Abuzər Xələfovu anadan olmasının 80 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm, ona möhkəm cansağlığı və elmi-pedaqoji fəaliyyətində yeni-yeni uğurlar arzulayıram.



**Məsumə MƏLİKOVA**

*Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi, hüquq elmləri doktoru, professor*

## QAYĞIKEŞ İNSAN, GÖRKƏMLİ ALIM

Mən Abuzər müəllimi 1960-cı illərdən tanıyıram. O zaman Abuzər Xələfov Bakı Dövlət Universitetində yenicə fəaliyyətə başlayan Kitabxanaçılıq fakültəsinin dekanı təyin olunmuşdu. Əlbəttə, hər bir işin başlancığı çox çətin olur. Bu dövrdə universitetdə belə bir fakültənin yaradılması Azərbaycan kitabxanaşünaslığı və biblioqrafiyaşünaslığı tarixində yeni bir mərhələnin başlanğıcı idi. Bu baxımdan şöbədən fakültəyə çevrilmiş Kitabxanaçılıq fakültəsinin formalaşması, işə yeni kadrların işə cəlb olunması xüsusi işgüzarlıq və təşkilatçılıq tələb edirdi. Bütün bu işlərin ağırlığı gənc dekan A.Xələfovun üzərinə düşürdü. Ona görə də o, var gücü ilə çalışır, başçılıq etdiyi fakültənin inkişafı naminə səy göstərirdi.

Respublikamızda kitabxana işi sahəsində ilk elmlər namizədi və doktoru olan Abuzər Xələfov 25 il BDU-nun Kitabxanaçılıq fakültəsinə rəhbərlik etmiş, həmin fakültəni SSRİ miqyasında tanınan aparıcı tədris müəssisələrindən birinə çevirməyi bacarmışdı. Demək olar ki, Azərbaycanda kitabxanaşünaslığın bir elm kimi formalaşması, inkişafı və tərəqqisi məhz professor



A.Xələfovun adı ilə bağlıdır. 50 ildən çoxdur ki, kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq ixtisasları üzrə kadr hazırlığı onun gərgin zəhməti və səmərəli fəaliyyəti sayəsində formalaşaraq bugünkü səviyyəyə gəlib çatmışdır. Ona görə də A.Xələfovu həmişə bu sahənin canlı salnaməsi hesab edirlər. Fakültənin elmi-tədqiqat, tədris, pedaqoji işi birbaşa onun təşkilatçılığı və rəhbərliyi ilə formalaşmışdır.

Professor A.Xələfovun dekan vəzifəsində işlədiyi dövrdə Kitabxanaçılıq fakültəsi 5 min nəfərdən çox yüksək ixtisaslı kadr hazırlamışdır. Bu gun onların əksəriyyəti respublika kitabxanalarında, eləcə də ölkəmizin müxtəlif dövlət strukturlarında səmərəli fəaliyyət göstərir və Abuzər müəllimin adını çox hörmətlə çəkirlər.

Professor A.Xələfov eyni zamanda 1963-cü ildən indiyə kimi Bakı Dövlət Universitetinin Kitabxanaşünaslıq kafedrasının müdiridir. Onun rəhbərliyi ilə Kitabxanaşünaslıq kafedrası ixtisas üzrə mühüm elmi-tədqiqat mərkəzinə çevrilmiş, burada kitabxanaçılıq işinin tarixinə və nəzəriyyəsinə dair irihəcmli nəzəri tədqiqatlar yerinə yetirilmişdir.

Professor A.Xələfov 300-dən artıq elmi əsərin, o cümlədən bir çox monoqrafiya, dərslik və dərs vəsaitinin, yüzlərlə elmi məqalənin müəllifidir. Alim ən qədim dövrlərdən zəmanəmizə qədər Azərbaycanda kitabxana işinin tarixini və inkişaf istiqamətlərini hərtərəfli tədqiq etmiş, sanballı əsərləri ilə ölkəmizdə bu sahənin bünövrəsini qoymuşdur.

Azərbaycanda mədəniyyət və kitabxana işi quruculuğunun tarixi problemləri, humanitar elm kimi kitabxanaşünaslığın ümumnəzəri və metodoloji problemlərinin işlənilməsi, kitabxanaların sosial funksiyalarının

araşdırılması, ali kitabxanaçılıq-biblioqrafiya təhsili məsələləri, habelə kitabxana işi nəzəriyyəsi və bir sıra digər aktual elmi problemlər prof. A.Xələfovun araşdırmalarının özəyini təşkil edir.

Azərbacan öz müstəqilliyini əldə etdikdən sonra professor A.Xələfov tədris proseslərinə aid daha ciddi məsələlərin həlli ilə bağlı konkret işlər görməyə başlamışdır. O, kitabxana işi tarixini elmi əsaslarla, fundamental şəkildə tədqiq edib öyrənməklə kitabxanaşünaslığın elmi metodologiyasına və onun tədqiqat metodlarına təsir edən yeni elmi ideyalar, fikirlər gətirmiş, qiymətli təklif və tövsiyələr vermişdir. Elmi tədqiqat əsərləri ilə yanaşı dərslik və dərs vəsaitlərnin hazırlanması və çap olunması onun fəaliyyətinin aparıcı hissəsinə çevrilmişdir. Bu baxımdan son illərdə professor A.Xələfovun yazıb nəşr etdirdiyi dərsliklər və dərs vəsaitləri mühüm əhəmiyyətə malikdir. Görkəmli alimin ana dilində ilk dəfə hazırladığı ikicildlik "Kitabxanaşünaslığa giriş" və üçcildlik "Azərbaycanda kitabxana işinin tarixi" adlı dərslikləri, eləcə də "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" monoqrafiyası bu baxımdan olduqca təqdirəlayiq əsərlərdir.

Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor A.Xələfov yorulmadan çalışan, elmi yeniliyi, kitabxanalarda informasiya və kommunikasiya vasitələrinin tətbiqini alqışlayan və novatorluğa meyilli şəxsiyyətlərdəndir. O, uzun illərdən sonra qəbul olunmuş "Kitabxana işi haqqında" Qanunun hazırlanmasında bilavasitə iştirak etmişdir.

Bakı Dövlət Universitetində təhsil islahatlarının həyata keçirilməsində, nəşriyyat işləri ilə bağlı bir çox məsələlərin həllində Abuzər Xələfov ön sırada durur, bir çox problemlərin qaydaya salınmasında fəallıq göstərir. O, BDU Ağsaqqallar Şurasının sədri və Nəşriyyat Şurasının sədri kimi bu gün də ona universitet rəhbərliyinin etibar etdiyi mühüm məsələlərin həllində yorulmadan çalışır.



Abuzər müəllim eyni zamanda dostluqda çox möhkəm olan, dar gündə çətinlikdən çəkinməyən mərd bir insandır. Elə bu keyfiyyətlərinə görə də onu tanıyanlar arasında özünə böyük hörmət qazanmışdır.

Bu il professor Abuzər Xələfovun 80 yaşı tamam olur. Həmişəcavan alimimizi 80 illik yubileyi münasibətilə təbrik edir, ona möhkəm cansağlığı və yeni nailiyyətlər arzulayırıq!



**Yusif MƏMMƏDOV**

*Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, Azərbaycan MEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor*

## AZƏRBAYCAN KİTABXANAŞÜNASLIQ ELMİNİN VƏ TƏHSİLİNİN SİMASI

Yağı tapdağı altında qalmış ulu Göyçəmiz yalnız saz-söz sənətinin beşiyi olmayıb, Azərbaycan elminə, incəsənətinə, mədəniyyətinə bəxş etdiyi görkəmli elm xadimləri, ziyalıları ilə də tanınıbdır. Belə ziyalılardan biri də Azərbaycan Kitabxanaçılıq elmi məktəbinin banisi, Əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfovdur.

Şəxsən tanıdığım, yüksək ziyalılığına, müdrikliyinə, təmkinli davranışına, sözün yerini bilməsinə - danışmaq lazım gələndə susmamasına, susmaq lazım gələndə danışmamasına, böyük natiqlik qabiliyyətinə məftun olduğum, ömrünün 80-ci ilinə qədəm qoyan görkəmli alim-pedaqoqun özünə şöhrət, elmimizə, təhsilimizə, mədəniyyətimizə fayda gətirən 55 illik səmərəli fəaliyyəti haqqında bu qısa yazıda nəyi xüsusi vurğulamaq, nəyi isə ikinci dərəcəli hesab etməkdə çox çətinlik çəkdim.

Professor A.Xələfovun elə təkcə 32 kitabın – monoqrafiya, dərslik və dərs vəsaitinin, 300-dən artıq elmi məqalənin müəllifi olması, 40-a qədər elmlər doktoru və elmlər namizədinin yetişdirilməsində elmi rəhbər, elmi məsləhətçi, opponent kimi fəaliyyəti onun böyük zəhmətinin, elmimizə, təhsilimizə verdiyi dəyərli töhfənin göstəricisidir. Amma alimin fəaliyyəti, yüksək işgüzarlığı yalnız bunlarla məhdudlaşmayıb. O, sözün əsl mənasında Azərbaycanda kitabxanaşünaslıq elmi məktəbini yaradıb, ali kitabxanaçılıq təhsilinin həm memarı, həm də bənnası olub, 1962-ci ildə BDU-da Kitabxanaçılıq fakültəsinin yaradılmasının təşkilatçısı və 25 il müddətində bu fakültənin dekanı, 1963-cü ildən indiyə qədər Kitabxanaşünaslıq kafedrasının müdiri olaraq ölkəmizdə bu elm-mədəniyyət istiqamətinin formalaşması və inkişafında əvəzsiz xidmət göstərmişdir.

Ayrıca Abuzər müəllimin geniş dünyagörüşünü, yüksək təşkilatçılıq məharətini, uzaqgörənliyini qeyd etməliyəm. Mənim BDU-da əmək fəaliyyətinə başladığım 1971-ci ildən indiyə qədər müşahidə etdiyim, bütün rektorların strateji qərarlar qəbul edərkən Abuzər müəllimin məsləhətinə ehtiyac duymaları, onun müdrik fikirlərindən yararlanmaları faktı danılmazdır.

Bir ibrətamiz faktı da qeyd etmək istəyirəm ki, son dövrlərin informatlaşma tendensiyasını bəlkə gənclərdən də tez duyan, bunun zəruriliyini, faydasını hiss edənlərdən biri də məhz professor A.Xələfov idi. O, kitabxana işinin, kitabxanaşünaslıq elminin, təhsilinin yeni ideyalar, yeni texnologiyalar əsasında qurulmasının əsas təbliğatçısı, bu sahədə elmi əsaslı strateji xəttin hazırlanması məqsədilə BDU-da yaradılan "Kitabxanaların kompüterləşdirilməsi" elmi-tədqiqat laboratoriyasının təşəbbüskarı və rəhbəri oldu.

Şübhəsiz ki, Abuzər müəllimin zəngin bioqrafiya-

sının ən parlaq anları, onun istedadı və zəhmətinə yüksək qiymət verilərək Ulu öndərimiz Heydər Əliyevin fərmanı ilə 2000-ci ildə "Şöhrət" ordeni, 2001-ci ildə "Əməkdar elm xadimi" fəxri adı ilə təltif olunması, 2006-cı ildə isə möhtərəm Prezidentimiz İlham Əliyevin sərəncamı ilə "Prezident təqaüdünə" layiq görülməsidir.

Mən əziz Abuzər müəllimi qarşıdan gələn 80 illik yubileyi münasibəti ilə ürəkdən təbrik edir, ona hələ çox-çox uzun illər sağlam ömür, yaradıcı və səmərəli fəaliyyətində yeni-yeni uğurlar arzulayıram.



Azad NƏBİYEV

*Bakı Dövlət Universiteti Filologiya fakültəsinin Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müdiri, Azərbaycan MEA-nın müxbir üzvü, professor*



## GÖRKƏMLİ ELM XADİMİ, BÖYÜK MÜƏLLİM, QAYĞIKEŞ İNSAN

1964-cü ilin yazında M.F.Axundov adına Dövlət Kitabxanasında «Azərbaycan kitabı dünən, bu gün və sabah» mövzusunda elmi-nəzəri konfransı keçirilirdi. Konfransda mən Abbas Səhhətin yeni şeirlər kitabı barədə «Yenə öz santurunu çaldı zaman» adlı bir məruzə ilə çıxış etməliydim. Bu mənim elmi konrfanslardakı tələbəlik illərində ilk çıxışım idi. Növbə mənə çatanda çıxışımı edib gecikdiyim dərsə çatmaq üçün tələsik zaldan çıxmaq istəyəndə işarə etdilər ki, «getmək olmaz, axıra qədər oturmaq lazımdır». Mən də qayıdıb yerimdə oturdum. Axırda çıxışları dəyərləndirməyə, kiminə hədiyyə kitab, kiminə kinoteatrlara getməyə bilet hədiyyə etdilər. Mənim məruzəmi isə indi də xatirə kimi arxivimdə saxladığım birinci dərəcəli diploma layiq gördülər. Adım çəkiləndə qalxıb münsiflər heyətinin əyləşdiyi stola yaxınlaşmaq istəyirdim ki, bayaqdan bəri zalda hamının, xüsusən qızların diqqət mərkəzində olan ucaboylu, yaraşıqlı, xüsusi zövqlə geyinmiş gülərüzlü bir

insan olan sədri qarşımda gördüm. O, əlimi sıxaraq diplomu mənə təqdim etdi:

- Təbrik edirəm, harada oxuyursan? - deyə mehribanlıqla soruşdu.

Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) ikinci kursunda oxuduğumu eşidəndə bir az sevinən, fərəhlənən kimi oldu:

- Nə yaxşı, universitetdə görüşərik, - deyə əlini qayğı ilə çiynimə qoyub elə əvvəlki mehribanlıqla sözünə davam etdi:

- Nə ehtiyacın, çətinliyin olsa, mənə müraciət etməyi unutma, - dedi.

Bu, o vaxt universitetdə yenicə təşkil edilmiş Kitabxanaçılıq fakültəsinin dekanı Abuzər Xələfov idi.

Tale elə gətirdi ki, tələbə olduğum illərdə mənim Abuzər müəllimə müraciət etməyimə ehtiyac olmadı. İllər keçdi, mən təhsilimi başa vurdum, universitetin aspiranturasını bitirib bir müddət nəşriyyat sistemində işləməli oldum. Bu illərdə Abuzər müəllim çox məhsuldar işləyir, bir-birinin ardınca kitab mədəniyyətinin müxtəlif problemlərinə həsr etdiyi dəyərli əsərlər nəşr etdirdi. Elə onların nəşri ilə bağlı tez-tez nəşriyyatlara gedər, hərdən rastlaşanda ayaq saxlayıb mehribanlıqla hal-əhval tutar, hal-vəziyyətimi soruşardı.

1975-ci ilin dekabrında universitetin Azərbaycan ədəbiyyatı tarixi kafedrasına boş müəllim yerinə müsabiqə elan edilmişdi. Bir yerə çox adam sənəd vermişdi. Mən 25-ci idim. Məni müdafiə edən, kafedraya dəvət edən Mir Cəlal müəllim idi. Elə onun təkidi ilə də müsabiqədə iştirak edirdim. Sənədlərimi geri götürməyimi istəyənlər, bunun üçün məni yaxşı vəzifələrə düzəltmək vədi verənlər, bəzən isə açıqdan-açığa «yeşikdə qalacağımı» bildirənlər də az deyildi. Yaranmış vəziyyəti



gəlib Mir Cəlal müəllimə danışdım. Bu böyük insan xeyli fikrə getdi və sonra aramla dedi: «Hə, bu yerə fakültədə başqa adamı götürmək istəyənlər də var. Ancaq de görüm, Böyük Şuranın üzvlərindən səni kimlər tanıyır. Bir-iki adamın mənə səs verəcəyini söz verdiyimi söylədim. Ancaq Mir Cəlal müəllimin ağlı bir şey kəsmədi. Birdən dedim:

- Məni o Şurada ən yaxşı tanıyanların biri Abuzər Xələfovdur.

Mir Cəlal müəllimin gözləri güldü, əlini çiynimə qoyub yarızarafat-yarıciddi sözünə əlavə etdi:

- Onda sən seçildin, Abuzər nüfuzlu adamdır. Onunla özüm də söhbət edərəm. Dostluqda sədaqətli, sözübütöv adamdır.

İki gündən sonra məni təbrik edənlərin içərisində Mir Cəlal müəllimin yanında ilk Şura üzvü professor Abuzər Xələfov idi. O mənim haqqımda Elmi Şuraya o qədər geniş və tərəfli məlumat vermişdi ki, iddiaçılardan beş nəfər yerindəcə sənədlərini geri götürmüş, bir neçə nəfəri müdafiə edən bizim fakültənin professorları isə öz fikirlərindən daşınmışdılar.

İllər keçdikcə bu xeyirxah insana necə minnətdarlıq edəcəyimi bilmədim, onun mənə qarşı etdiyi yaxşılığı heç vaxt yaddan çıxarmayacağımı deməklə kifayətlənməli oldum. Zaman keçdikcə professor Abuzər Xələfov təkcə universitetin həyatında deyil, respublikanın ictimai-siyasi həyatında fəal iştirak edən şöhrətli elm xadimi, elm və təhsil sahəsində həyata keçirilən bir çox layihələrin həmmüəlliflərindən biri kimi tanındı. "Azərbaycanda kitabxana işinin tarixi (1935-1959)" mövzusunda doktorluq dissertasiyası müdafiə edən Abuzər Xələfov postsovet məkanında bu ixtisas üzrə ilk elmlər doktoru idi. Azərbaycan kitabının tarixini yaradan

professor Azərbaycanda kitab və kitabxanaçılıq, biblioqrafiya və kitab mədəniyyəti nəzəriyyəsinin ilk yaradıcılarındandır, yüksək ixtisaslı kitabxanaçı kadrların hazırlanmasında böyük əməyi olan müəllimlərdəndir.

Professor Abuzər Xələfov ali təhsilin yenilikçi dekanlarından biri kimi tanınırdı. O, təhsilin yeni proqramlara keçilməsinin, milli-mədəni və əxlaqi dəyərlərimizin, folklorumuzun və klassik irsimizin tələbələrə daha səmərəli şəkildə öyrədilməsini xüsusi diqqətdə saxlayırdı.

Mənim Abuzər müəllimə ikinci müraciətim Folklor kafedrasının müdiri seçildikdən sonra Kitabxanaçılıq fakültəsinin qiyabi və əyani bölmələrinin tədris planına "Azərbaycan folkloru" fənninin tədrisinin daxil edilməsi ilə bağlı idi. Abuzər müəllim bu təklifi böyük hörmətlə qarşıladı, elə oradaca universitetin rəhbərliyi ilə danışıb fənni tədris planına daxil etməyin razılığını aldı. O vaxtdan kafedramız bu fənni fakültədə səliqə ilə tədris etməkdədir.

Professor elmlə təhsili birləşdirən, təhsildə elmi meyarların öyrənilməsinə üstünlük verən, kitab mədəniyyətinin yüksəlişini maarifçilik işi kimi dəyərləndirilən ziyalılardandır.

Universitet divarları arxasındakı əlliillik elmi-pedaqoji fəaliyyəti dövründə onun tərcümeyi-halından cəmiyyətdə çox yüksək dəyərləndirməyə layiq iki istiqamət – kitab və kitabxana işinin yüksək elmi nəzəriyyəsini yaratmaq və onu uzun illərdən bəri yetişdirdiyi yüksək ixtisaslı kitab mədəniyyəti işçilərinin ixtiyarına vermək... Abuzər Xələfovun yaratdığı kitabşünaslıq elmi bu gün yeni-yeni dəyərlərlə, pratiki və nəzəri informatik tədqiqatlarla zənginləşməkdədir. Zamanın tələbindən irəli gələn bu yeniləşmənin başında isə yenə professor Abuzər Xələfov, onun kitab nəzəriyyəsi və



kitabxana işi və tarixi ilə bağlı ardıcılları, yetirmələri və çoxsaylı tələbələri dayanır.

Professor Abuzər Xələfov yaratdığı elmin bu gün də zirvəsində dayanır. O, tabeliyində olan əməkDaşlarının yaradıcı əməyini öz adına çıxıb, onlarla birlikdə əsərlər yazıb, yaratdığı yüksək elmi dəyərlərə necə dəyərlər «rəxnə salmır» yaratdıqları hamısı onun özünə məxsusdur. Dünya kitab mədəniyyətinin ən son nailiyyətləri məhz onun qələmindən süzülüb, yaratdığı Azərbaycan kitab mədəniyyətşünaslığı xəzinəsinə axır.

Abuzər Xələfov dünyanın bir çox ölkələrində yaxşı tanınan, görkəmli elm xadimi olduğu kimi vətənpərvər azərbaycanlı, qayğıkeş insandır. Bütün bu keyfiyyətlərini bir çox elmi və dissertasiya şuralarının üzvü, sədri və həmsədri olan Abuzər Xələfov BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki seçilmiş, ölkəmizin ən yüksək fəxri adlarına layiq görülmüş və «Şöhrət» ordeni ilə təltif edilmişdir. O, insanlara, tələbələrinə, yetirmələrinə hər cür yabancı baxışlardan – qohumbazlıqdan, regionçuluqdan uzaq, bütün ətrafdakılara yalnız insanlıq və şəfqət meyyarları ilə yanaşan, onlara ancaq öz əməllərinə, əməyinə, qabiliyyətinə və zəkasına görə qiymət verən böyük müəllim və nüfuzlu ziyalıdır.

Bu gün Abuzər Xələfovun 80 illiyi əslində onu yetirən Bakı Dövlət Universitetinin, Azərbaycan mədəniyyətinin, kitab sevərlərin və Abuzərsevərlərin bayramıdır. Bu əziz günlərdə Azərbaycan təhsil sisteminin iftixarı olan Prezident təqaüdçüsü, universitetin Ağsaqqallar Şurasının sədri, professor Abuzər Xələfova ölkə elminin və mədəniyyətinin yeni-yeni uğurları naminə möhkəm cansağlığı və yeni yaradıcılıq uğurları arzulayıram.




Nizami CƏFƏROV

*Bakı Dövlət Universiteti Filologiya fakültəsi Ümumi dilçilik kafedrasının müdiri, Azərbaycan MEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor, millət vəkili*


## "TƏRCÜMEYİ-HAL"ININ SAHİBİ OLAN KİŞİ

Professor Abuzər Xələfovun "Tərcümeyi-hal"ını vərəqləyirəm. Burada bir alim, mütəfəkkir ömrünü xarakterizə edəcək hər şey var. Bu barədə yazılmış hər bir cümlənin arxasında böyük yaradıçılıq enerjisi, genişmiqyaslı fəaliyyət, məhsuldar əmək dayanır.

Professor Abuzər Xələfovu tanıyanlar onun nə dərəcədə məhsuliyyətli, nə dərəcədə tələbkar bir insan olduğunu yaxşı bilirlər. Lakin məsələ burasındadır ki, həmin məhsuliyyətlilik, tələbkarlıq, Abuzər müəllimin hər şeydən əvvəl, özünə, öz hərəkətlərinə münasibətlərində təzahür edir. Elə insanlar var ki, yalnız başqalarına qarşı tələbkardırlar, özlərinə gəldikdə isə kifayət qədər sərbəst hərəkət edir, heç kimə hesabat vermirlər. Məhz birinci növbədə özünə qarşı tələbkarlığın nəticəsidir ki, Abuzər müəllim bütöv bir elmin başçısı olmuş, on illərlə dekan, kafedra müdiri işləmiş, onlarla monoqrafiya, dərslik, dərs vəsaiti yazmışdır.

Professor Abuzər Xələfov çox gənc yaşlılarından-60-cı illərdən Bakı Dövlət Universitetinin əməkdaşları arasında çox tez-tez işlənən bir ifadə ilə desək, "sütun"-lardan biri olmuşdur. Cəmiyyətdə hörmət qazanmaq



asan deyil, lakin qazandığın hörməti qoruyub saxlamaq bundan da çətindir. Abuzər müəllimin böyüklüyü ondadır ki, öz hörmətini, şərəfini, ləyaqətini həmişə qoruyub saxlamağa çalışmış, ən mürəkkəb vəziyyətlərdə də nüfuzunu xələldar olmağa qoymamışdır.

Azərbaycanın, görünür elə bir kitabxana işçisi yoxdur ki, "Professor Abuzər Xələfovun məktəbi"ni keçməmiş, onun mühazirələrindən, dərsliklərindən öyrənməmiş olsun. Təxminən yarım əsrlik pedaqoji, elmi, ictimai fəaliyyəti dövründə minlərlə yüksəkixtisaslı kitabxanaçı yetişdirmişdir ki, onlar Azərbaycan mədəniyyətinin inkişafına xidmət edən bütöv bir ordu sayıla bilər. Və onu da əlavə etmək istərdim ki, bu ordunun bu qədər fədakar olmasında onların "Sərkərdə"sinin çox böyük rolu vardır. Sərkərdə iradəli, dözümlü, mübariz olanda müvəqqəti çətinliklərə baxmayaraq ordu da qələbə əhvali-ruhiyyəsi ilə yaşayır. Azərbaycan kitabxanalarında çalışan müxtəlif nəsillərdən olan mütəxəssislər nə qədər böyük maddi çətinliklər qarşısında qalsalar da, respublikanın kitab fondunu, onillər boyu tədricən formalaşmış kitabxanaçılıq mədəniyyətini dağılmağa, məhv olmağa qoymadılar. Bu isə onunla əlaqədardır ki, professor Abuzər Xələfovun ölkədə yaratdığı kitabxanaşünaslıq elmi yalnız bir intellekt, yaxud mədəniyyət sahəsi deyil, həm də böyük bir milli vətənpərvərlik məktəbi olmuşdur. Etiraf edim ki, mən Abuzər müəllimin böyüklüyünü bir də o zaman hiss edirəm ki, qışın soyuğunda ağsaçıl bir kitabxanaçı qadın üşümüş əlləri, nurdan düşmüş gözləri ilə kitab rəfləri arasında mənə lazım olan kitabı axtarır, tapanda sevinir. Və bir də ona görə sevinir ki, kimsə kitab oxuyur, kiməsə kitab lazımdır.

Professor Abuzər Xələfovun həm namzədlik, həm də doktorluq dissertasiyası Azərbaycanda kitabxana işinin tarixinə həsr olunmuşdur-kitabxana işinin tarixi

isə hər bir millətin xarakterini, daxili aləmini əks etdirən mədəniyyət tarixinin üzvi tərkib hissəsidir. Xüsusilə XX əsrin birinci yarısında (professor Abuzər Xələfov məhz həmin dövrün tarixini yazmışdır) kitabxana Azərbaycan mədəniyyətinin əsaslarından birini təşkil edirdi, kitab oxumaq ziyalılığın birinci şərti idi... Mən özümdən asılı olmayaraq keçmiş zamandan danışıram. Lakin bu o demək deyil ki, biz kitabla, kitabxana ilə işimizi qurtarmışıq. Elə deyil... Müasir kitabxana texnologiyasının, kompüterlərin geniş yayıldığı bizim günlərdə mədəniyyətin haqqında söhbət gedən sahəsi də yeni keyfiyyətdə təzahür etməyə başlayır.

Ancaq mövcud ənənələr, kitabxanaşünaslıq mədəniyyəti əsasında... heç də boşdan yaranmır, hər şey öz əsası, bazası üzərində yüksəlir. Əgər Azərbaycanda professor Abuzər Xələfovun yaratdığı məktəb olmasaydı, bizə heç dünyanın ən müasir kompüteri də kömək edə bilməzdi. Və nə yaxşı ki, kitabxanaşünaslıqdaki bu günkü müasirləşmə prosesinə də patriarxın özü başçılıq edir. Mənim fikrimcə, müasirləşməyə rəhbərliyi o əllərə vermək olmaz ki, yenini yaratmamış köhnəni (yəni olanı!) dağıtsın. Biz bu cür neqativ təcrübəni çox görmüşük.

Abuzər Xələfov dünyaya elə bir torpaqda gəlib ki, mayası zəhmətlə, istedadlı xeyirxahlıqla yoğrulub. O torpaqdan çıxan oğulların kiçik işlərlə məşğul olmağa haqqı yoxdur. Çünki Allah onları böyük işlər üçün yaradıb, onlara böyük ürək, müdrik baş verib, buyurub ki, ömrünün sonuna qədər xalqına ləyaqətlə xidmtə etsin. Abuzər Xələfov belə oğullardan, belə müdrik insanlardan biridir.

Abuzər müəllimin yetirmələri bu gün kitabxana işinin yalnız praktik məsələləri ilə məşğul olmurlar, onların arasında müasir kitabxanaşünaslığın elmi-nəzəri problemləri üzərində çalışan güclü mütəxəssislər vardır



ki, "patriarx"ın gördüyü böyük işləri davam etdirirlər. Xatırlatmaq istərdim ki, professor Abuzər Xələfov keçmiş SSRİ-də kitabxana işinin tarixi üzrə ilk elmlər doktoru, Moskvada bu səhnəyə aid ixtisaslaşdırılmış yeganə doktorluq müdafiəsi şurasının üzvü olmuş, bir sıra elm və mədəniyyət mərkəzlərində-Moskvada, Tbilisidə, Daşkəsəndə və s. müxtəlif elmi yığıncaqlarda yüksək səviyyəli çıxışlar etmişdir.

Görkəmli alimin elmi-pedaqoji fəaliyyətinin bütöv bir sahəsi isə metodik çalışmalar təşkil edir. O, kitabxanaşünaslığa aid dərsliklər, dərs vəsaitləri yazmaqla yanaşı, çoxlu sayda tədris metodik materiallar hazırlamışdır. Hələ 1984-cü ildə SSRİ Xalq Təhsil Komitəsi tərəfindən təsdiq edilmiş, universitetlərin kitabxanaçılıq fakültələri üçün tədris planının müəllifi olmuşdur. Milli müstəqillik dövründə istər həmin tədris planının, istərsə də müxtəlif ixtisaslar üzrə tədris planlarının yeniləşdirilməsi, təkmilləşdirilməsi sahəsində böyük xidmətlər göstərmişdir. O, Təhsil Nazirliyi Elmi-Metodik Şurasının "Kitabxanaşünaslıq-biblioqrafiya və kitabşünaslıq bölməsi"nin sədridir.

Professor Abuzər Xələfov əməyi, istedadı, şəxsiyyəti dövlət tərəfindən həmişə yüksək qiymətləndirilmiş insandır-fəxri adlar, medallar, fəxri fərmanlar, "Şöhrət" ordeni və s. ilə təltif edilmişdir. Bunlar çox gözəldir, həm elm adamı, mədəniyyət xadimi bu qədər iş görə bilmədiyi kimi, bu qədər də təltif olunmur... Lakin Abuzər müəllimin ən böyük mükafatı universitet ictimaiyyətinin, mənsub olduğu xalqın ona göstərdiyi hörmət, məhəbbətdir. O, bunların hamısını, bir daha təkrar edirəm ki, şəxsiyyəti, istedadlı, əməyi-bir sözlə, tərcümeyi halı ilə qazanmışdır. Və Abuzər müəllim öz "Tərcümeyi-hal"ının sahibi olan Kişidir...




Vasif BABAZADƏ

*Bakı Dövlət Universitetinin Faydalı qazıntılar kafedrasının müdiri, Azərbaycan MEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, geologiya-mineralogiya elmləri doktoru, professor*


## ABUZƏR MÜƏLLİM, 80 YAŞIN MÜBARƏK

Bir qədər rəngi saralmış və məni səksəninci illərə qaytaran bu dəvətnamə əziz dostum Abuzərin Axundov adına Respublika kitabxanasında 50-illik yubileyinə həsr edilmiş təntənə ilə bağlıdır. İndiki kimi yadımdadır. Bu – 1981-ci ilin 25 dekabrı idi. Dostumuzun yubileyini qeyd etmək məqsədilə biz, Universitetin bir qrup müəllimi – Yəhya Məmmədov, Məmmədxan Rəsulov, Səfər İbrahimov, Adil Sadıxov və b. Respublika kitabxanasına yollandıq və onunla birlikdə bu təntənəli günü yaşadıq. Müstəqillik illərində Abuzər müəllimin 70 və 75-illik yubileyləri Universitetdə respublika ictimaiyyətinin geniş iştirakı ilə keçirildi. Budur, qardaşım artıq 80-i haqlayib, yubileyi münasibətilə onun haqqında nəzərdə tutulan xatirələr məcmuəsində fikir söyləmək üçün mənə də yer ayrılmışdır.

Abuzər Alı oğlu Xələfov... BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, Prezident təqaüdçüsü, «Şöhrət» ordenli, Universitetin Ağsaqqallar şurasının sədri, kafedra müdiri, tarix elmləri



doktoru, professor. Etiraf edim ki, belə bir şəxsiyyətlə dostluq etmək hər adama nəsib olmayır.

60-ci illəri xatırlayıram Universitetin hazırkı inzibati korpusu istifadəyə verilib. Artıq biz İstiqlaliyyət küçəsində yerləşən binanı tərk edib, təzə korpusa köçmişik. O zaman «Faydalı qazıntılar» kafedrası ilə bir dəhlizdə üzbə-üz Kitabxanaçılıq fakültəsinin dekanlığı yerləşirdi. Abuzər müəllimlə şəxsi tanışlığım da elə o vaxtandır. Əvvəli salamla, hal-əhval tutmaqla başlayan bu tanışlıq sonradan dostluğa çevrildi. Beləliklə, bu gün bu dostluğun nə az, nə çox – 50 yaşı vardır. Necə deyərlər, bir igidin ömrü... Müxtəlif təbiətli olmağımıza baxmayaraq, Abuzərdə məni cəlb edən ən başlıca cəhət dostluğa etibarlığı, sözünün bütövlüyü, işinə ciddi münasibətdir. Bunu mən dəfələrlə Abuzərlə müştərək şəkildə müxtəlif komissiyalarda işləyəndə görmüşəm. Çox heyiflər, bu cür xüsusiyyətlər heç də hamıya xas deyil. Bəlkə də elə buna görədir ki, çətin həyat yolu keçmiş, 14 yaşında zəhmətlə qatlaşaraq, 15 yaşında ikən «Böyük Vətən müharibəsində rəşadətli əməyinə görə» medali ilə təltif edilmiş Abuzər, universitetin tələbəsi olarkən, buranı bitirib müəllim kimi çalışarkən fəal ictimayyətçı adı qazanmış, mənsub olduğu «Kitabxanaşünas» ixtisasının gələcək perspektivlərini düşünmüş və vacib nəticəyə – kitabxanaçılıq fakültəsinin yaradılması fikrinə gəlmişdir. Bəli, etiraf etməliyik ki, Bakı Dövlət Universitetinin öndə gedən qurumlarından sayılan kitabxanaçılıq fakültəsinin yaradıcısı, yaşı səksəni haqlayan, hamımız tərəfindən sevilib-seçilən, şəxsən mənim üçün ikiqat dəyərli olan Abuzər Xələfovdur. Bu gün bu kollektivdə çox savadlı, öz sahələrinin mahir biliciləri olan ixtisasçılar çalışırlar. Onların böyük əksəriyyəti Abuzər müəllimin yetişdirmələri olmaqla bərabər, bu görkəmli

alimə təkcə elmdə onları boya-başa çatdırdığı üçün deyil, habelə «kitabxanaçılıq fakültəsində işləyirəm» demələrinə görə də mənən borcludurlar. Bunu qəbul etmək lazımdır.

Kitabxanaçılıq fakültəsi 1962-ci ildə təşkil olunub. O zaman universitetin rektoru vəzifəsində calışan görkəmli alimimiz, elmimizin dühalarından olan akademik Şəfaət Mehdiyev tərəddüd etmədən Abuzər Xələfovu, çox gənc olmasına baxmayaraq, dekan vəzifəsinə irəli çəkdi. Sonrakı illər bu böyük şəxsiyyətin nə dərəcədə düzgün addım atmasını aydınlığı ilə göstərirdi.

Ali məktəb sisteminə az-çox bələd olanlara yaxşı məlumdur ki, fakültə yaratmaq, onu maddi-texniki baza ilə təmin etmək, fərdi tədris planları və proqramlarını yazıb hazırlamaq, elmi-tədqiqat işlərini təşkil etmək nə dərəcədə mürəkkəb və böyük enerji sərfi tələb edən məsələdir. Qeyri-adi görünsə də, 30-u təzəcə adlamış Abuzər bütün bu məsələlərin öhdəsindən bacarıqla gəldi, düz 25 il fakültəyə rəhbərlik etdi, fakültəni inkişaf etdirdi, keçmiş ittifaqda tanıtdırdı, «Abuzər Xələfov elmi məktəbi»ni, 1963-cü ildən rəhbərlik etdiyi kitabxanaşünaslıq kafedrasını yaratdı.

Abuzər müəllim universitetə öz doğma evi kimi baxan, onun müvəffəqiyyətlərinə sevinən, özünü universitetdən ayrı təsəvvür etməyən, universitet sütunlarındandır. Təşkilatçılıq qabiliyyəti, mən deyərdim ki, onun qanındadır.

70-ci illərin sonunda Mərkəzi Komitənin qərarı ilə o zaman Universitetin partiya komitəsinin katibi işləyən görkəmli ziyalımız Aslan Aslanov İncəsənət İnstitutuna (hazırda Mədəniyyət və İncəsənət Universiteti) rektor təyin edildi. Yeni rektor rəhbərlik etdiyi institutu genişləndirmək və onu təşkilatçılıq qabiliyyəti olan



bacarıqlı kadrlarla gücləndirmək məqsədilə BDU-nun Kitabxanaçılıq fakültəsini İncəsənət institutuna keçirmək, professor Abuzər Xələfovu isə tədris işləri üzrə prorektor təyin etmək təkilifi ilə təşəbbüsdə olmuşdu. Abuzər müəllim bu təklifdən minnətdarlıqla imtina etmiş və fakültəsinin məhz universitet yönümlü olduğunu əsaslandırmışdı.

Çox illər keçəndən sonra müasir səviyyədə kitabxanaşünaslıq ixtisası üzrə kadr hazırlamaqdan ötrü kompüter texnikasından geniş şəkildə istifadənin vacibliyi, «Kitabxana işinin təşkili və idarə edilməsi», «Biblioqrafik-informasiya axtarış sistemlərinin tədrisi» kimi elmi-tədris laboratoriyalarının yaradılması, fakültənin «Kitabxanaçılıq-informasiya» fakültəsi adlandırılması məsələsi bu ixtisasın birmənalı olaraq məhz BDU siyahısına düşən ixtisaslar içərisində olmasını gerçək şəkildə sübut etdi. Təsadüfi deyil ki, doktoranturaya qəbul zamanı Kitabxanaçılıq-informasiya fakültəsi üzrə hazırlanan ixtisaslar texniki elmlər bölməsi başlığı altında aparılır. Həyat, Abuzər müəllimin uzaqgörənliyini özünün inkişaf axarı ilə bir daha təsdiqlədi.

Professor Abuzər Xələfov Azərbaycanda kitabxanaşünaslıq elminin əsasını qoyan alimdir. Onun kitabxana işinin tarixi, nəzəriyyəsi və metodologiyası sahəsində apardığı tədqiqatlar onlarla monoqrafiya, yuzlərlə elmi məqalələrə çevrilmişdir. O, daim axtarışdadır. Onun Azərbaycanda kitabxana quruculuğuna həsr edilmiş əsərləri, bu əsərlərin arxiv sənədləri, qədim tarixi mənbələr və dövri mətbuat materiallarını dərindən təhlil edərək yazılması, heç şübhəsiz, tədqiqatı qiymətli və əvəzedilməz edir.

Abuzər müəllimin «Azərbaycanda kitabxana işinin tarixi»nə həsr edilmiş doktorluq dissertasiyası keçmiş

ittifaqda kitabxanaşünaslıq sahəsində müdafiə edilən ilk dissertasiya işi idi. SSRİ Ali Attestasiya Komissiyasının rəyçilərinin birinin dissertasiyaya yazdığı rəydəki bir cümlə hafizəmdə bu günə kimi qalmışdır: «Соискатель является пионером в области исследования библиотековедения в нашей стране». Şərhə, necə deyərlər, ehtiyac yoxdur.

Heç şübhəsiz, Abuzər müəllimin elmi yaradıcılığında fenomenal şəxsiyyət kimi tanınan Heydər Əliyevin elmi-nəzəri irsinin öyrənilməsi və təbliği mühüm yer tutur. Alimin «Heydər Əliyev. Biblioqrafik məlumat kitabı» və «Heydər Əliyev və Azərbaycanda kitabxana işi» kimi fundamental əsərləri ulu öndərin xatirəsinə olan ən dəyərli hörmətdir.

Abuzər müəllim, respublikamızda ali təhsil sisteminin mahir bilicilərindən biri kimi tanınır. Təhsil Qanununun işçi qrupunun fəal üzvlərindən biri olan professor Abuzər Xələfov bu Qanunun hazırlanmasında fəal iştirak etmişdir.

Gözəl ailə başçısı olan Abuzər müəllimin üç oğlundan sonbeşiyi Elçin Universitetin Hüquq fakültəsində kafedra müdiri, Azər və Asəf isə hüquq-mühafizə orqanı işçiləridir. Söz yox ki, bu üç azəri övladının dövlətimizin vicdanlı vətəndaşları kimi yetişməsində, Abuzər müəllimin bu gün əlində «külüng tutmasında» onun həyat yoldaşı bir bacı, ana kimi hörmətini saxladığımız Adilə xanımın böyük rolu olmuşdur. Başda əziz yubilyarımız, dostum, qardaşım, professor Abuzər Xələfov olmaqla, bu ailənin hər bir üzvünə xoştbəxtlik və uzun ömür diləyirəm. Allah sizi qorusun.





**Zəlimxan YAQUB**
*Xalq şairi*

## ONUN «QURAN»I KİTABDIR

Tale hər kəsə bir qismət verir, hərəni bir cür formalaşdırır. Ulu Tanrı Abuzər müəllimi xəlq edəndə onun taleyini kitaba, elmə, kitabxanaya, mütaliəyə, təhsilə, maarifə, mədəniyyətə bağlayıb.

Onun «Quran»ı kitabdır. Bu belə də olmalıydı. Onu yetirən Göyçənin ədəbi-elmi mühiti, atası Alı kişinin şifahi xalq ədəbiyyatını, dastanları, Alını, Ələsgəri əzbər bilməyi sonralar Abuzər müəllimin bir alim-şəxsiyyət kimi yetişməsində əvəzsiz rol oynamışdır. Elmi mühitdə Abuzər müəllimin adı çəkilən kimi hamı birmənalı şəkildə Azərbaycanda kitabxana işinin təməl daşlarını qoyan bu böyük ziyalını hörmətlə xatırlayır.

Abuzər müəllim alim kimi alimliyə, müəllim kimi müəllimliyə şərəf və şöhrət gətirən bir insandı. 1968-1972-ci illərdə ADU-nun Kitabxanaçılıq fakültəsinin tələbəsi olanda mən dəfələrlə Abuzər müəllimin elmin, dərsin, dərsliyin, tədrisin, tələbənin, gəncliyin taleyi ilə bağlı necə narahat bir ömür yaşadığını öz gözlərimlə görmüşəm.

Tələbələri övlad məhəbbəti ilə sevməsi, tələbələrə qarşı hədsiz tələbkarlığı, «əzizim əzizdir, tərbiyə ondan

da əziz» prinsipiylə gəncliyə yanaşması onu bir təşkilatçı kimi hamının sevimlisinə çevirmişdi. 75 illik Abuzər Xələfov ömrü universitetin, Kitabxanaçılıq fakültəsinin ömrüdür. Bu gün böyük ziyalı alim kimi ömrünün ən müdrik çağlarını yaşayan Abuzər müəllim hazırda xalqımıza başucalığı gətirən yetirmələrini – o zamanın tələbələrini, bugünün məşhur alimlərini, şairlərini, kitabxana sahəsinin görkəmli mütəxəssislərini görəndə elə özü də bizim kimi gəncləşir, cavanlaşır. Mən hər dəfə Abuzər müəllimi görəndə öz gənclik, tələbəlik illərimə qayıdır, onun əlini sıxmağı, qarşısında baş əyməyi özümə şərəf bilirəm.

Ona görə ki, o bu haqqa, şərəfə layiqdir. Ona görə ki, onun bir müqəddəs arzusu var: Millətin övladları savadlı olsun, müstəqil Azərbaycanın şərəf və şöhrət bayrağını həmişə uca saxlasın.

Əgər mən bu gün xalq şairi kimi Vətənimin yüksək fəxri adını daşıyıramsa, burada da Abuzər müəllimin danılmaz haqqı, halal payı var.

Bütün fəxri adlara, dövlətin ali mükafatlarına layiq görülmüş Abuzər müəllimin ən böyük mükafatı xalq sevgisi, el məhəbbəti, ən dadlı barı, meyvəsi onun tələbələri, ən müqəddəs məbədgahı Bakı Dövlət Universiteti, ən isti ocağı Kitabxanaçılıq-informasiya fakültəsidir.

İsti ocağınız heç vaxt sönməsin, Abuzər müəllim!

İcazə verin, əziz müəllimim, Sizin haqqınızda poetik duyğularımı şərəfinizə yazdığım misralarla tamamlayım:

*Köhnə kişilərtək sevmişəm səni,*
*Könül həmdəmimdi köhnə kişilər.*
*Urvata mindirdi yurdu, Vətəni,*
*Tamaşa kişilər, səhnə kişilər.*



*Kitablı ömürlər Günəşə bənzər,*
*Bu sirdən, hikmətdən yaxşı halısan.*
*Ömrünü, gününü kitablar bəzər,*
*Elin də, elmin də ağsaqqalısan.*

*Boşuna yaranmır nə sərvət, nə var,*
*Zirvələr eşqinə gərək yanasan.*
*Məbədin olsa da kitabxanalar,*
*Özün bir ayrıca kitabxanasan!*

*Səndən bir dəst-xətt, bir yazı qalar,*
*Onu anmaq şərəf, unutmaq çətin.*
*Abuzər müəllim imzası qalar,*
*Qızıl kitabında universitetin!*



## İradə HÜSEYNOVA

*Əməkdar müəllim, tarix elmləri doktoru, professor*

# TANINMIŞ TƏHSİL TƏŞKİLATÇISI

Bu günlərdə Azərbaycan təhsilinin flaqmanı sayılan Bakı Dövlət Universitetindən Kitabxanaçılıq-informasiya fakültəsinin Kitabxanaşünaslıq kafedrasının müdiri, Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Xələfovun anadan olmasının 80 illiyi ilə əlaqədar hazırlanan kitab üçün bir yazı hazırlamaq təklifini məmnuniyyətlə qəbul etdim. Böyük məmnunluqla qələmə aldığım bu kövrək sətirlər Bakı Dövlət Universitetinin aparıcı alimlərindən, sevimli pedaqoq-müəllimlərindən olan professor Abuzər Xələfova olan dərin hörmət və ehtiramımın parlaq ifadəsidir.

Mən Abuzər müəllimi Bakı Dövlət Universitetinin Tarix fakültəsində oxuduğum illərdən tanıyıram. Həmişə üzdə olan, universitetin ictimai-siyasi və mədəni həyatında hər zaman fəallığı ilə seçilən Abuzər müəllim istər fakültə, istərsə də universitet həyatında yüksəkintizamı, dərin tələbkarlığı, xoş rəftarı ilə fərqlənirdi. Tale elə gətirdi ki, mən universitetin Tarix fakültəsini fərqlənmə diplomu ilə bitirib doğma təhsil ocağında elmi-pedaqoji fəaliyyətə başladım. Bundan sonra Abuzər müəllimlə həm də peşəkar tarixçi, müəllim həmkarım kimi münasibətlərimiz yarandı. Açığını deyim ki, Abuzər müəllim universitetdə çalışan bütün gənc müəllimlərə böyük qayğı və həssaslıqla yanaşırdı. Sonralar universitetdə çalışdığım illərdə, eləcə də son illərdə təhsil nazirinin müavini təyin olunduğum dövrlərdə görkəmli alim, bacarıqlı təhsil təşkilatçısı professor Abuzər Xələfovla elmi əməkdaşlığımız, bir tarixçi kimi münasibətlərimiz dərinləşdi.



Bu gün ömrünün müdrik çağlarını yaşayan tarixçi həmkarımın 80 illik şərəfli həyat yolunu vərəqlədikdə Abuzər müəllimin Azərbaycanda tarixşünaslıq elminin mühüm bir qolu sayılan kitabxanaşünaslığın təməlini qoyan, ölkəmizdə kitabxanaçılıq və kitabşünaslıq sahəsində ali təhsilin formalaşmasında müstəsna xidmətləri olan böyük alim və təhsil təşkilatçısı olduğunu yenidən yada salanda qəlbimiz fərəh hissi ilə dolur. Belə bir insan, tanınmış şəxsiyyət haqqında fikir söyləmək olduqca çətin və məsuliyyətli işdir. Çünki belə alimləri gərək olduğu kimi təqdim etməyə çalışasan. Nə xoşbəxtik ki, haqqında söz açdığımız görkəmli alimlə bir universitetdə uzun illər çiyin-çiyinə çalışmış, onu dərindən tanımış, elmi yaradıcılığına yaxından bələd olmuşam. Gəlin, birlikdə onun ömür yolunu vərəqləyək...

Abuzər Xələfov 1931-ci ildə qədim Azərbaycan diyarı olan Göyçə mahalının Cil kəndində dünyaya göz açıb, ilk və orta təhsilini doğma yurdunda alıb. Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin kitabxanaçılıq şöbəsində ali təhsilini başa vurub. İstedadı və bacarığı sayəsində həmin fakültədə müəllim kimi saxlanılıb. Elmi araşdırmalar aparıb və kitabxanaçılıq tarixinə dair ilk elmlər namizədi, eyni zamanda həmin sahə üzrə keçmiş Sovetlər Birliyində ilk elmlər doktoru alimlik dərəcəsi alıb. Məhz Abuzər müəllimin təşəbbüsü və fəal iştirakı ilə Bakı Dövlət Universitetində düz 50 il

bundan qabaq Kitabxanaçılıq fakültəsi yaradılıb. Sevindirici haldır ki, professor Abuzər Xələfov həmin fakültə təsis olunandan mövcud olduğu dövrdə 25 il fakültə dekanı kimi səmərəli fəaliyyət göstərmiş, onun gərgin əməyi, yüksək təşkilatçılıq məharəti sayəsində həmin fakültədə ölkəmiz üçün yüksək ixtisaslı milli kitabxanaçı və biblioqraf kadrlarının yetişdirilməsi təmin edilmişdir.

Bu illərdə həmin fakültənin tədris planlarının, proqram və dərsliklərinin hazırlanmasında Abuzər müəllimin xüsusi xidmətləri olmuşdur.

İftixar etməli haldır ki, Abuzər müəllim 1962-ci ildən fakültə dekanlığı ilə yanaşı, həm də kitabxanaşünaslıq kafedrasının müdiri kimi də zəngin elmi- pedaqoji və təşkilatçılıq yolu keçmişdir. İstedadlı tarixçi alim, bacarıqlı təhsil təşkilatçısı kimi tanınan professor Abuzər Xələfovun səmərəli elmi-pedaqoji fəaliyyəti sayəsində bu elmi qurum kitabxana işi üzrə ölkəmizdə aparıcı müəssisəyə, respublikamızda kitabxana işinin əsas elmi tədqiqat mərkəzinə, bu sahədə çalışan milli kadrların, kitabxana ictimaiyyətinin doğma ocağına çevrilmişdir.

Tanınmış təhsil təşkilatçısı, görkəmli kitabxanaşünas alim 50 ildən artıqdır ki, kitabxana işinin tarixi və nəzəriyyəsi problemləri ilə yanaşı, müntəzəm olaraq Azərbaycanda kitabxanaçılıq təhsilinin nəzəri və metodoloji məsələlərini hazırlayıb tətbiq etməklə də məşğuldur. Professor A.Xələfov bu istiqamətdə yazıb nəşr etdirdiyi çoxsaylı elmi məqalə və monoqrafiyalarında, habelə elmi məclislərdəki dərin məzmunlu məruzə və çıxışlarında Azərbaycanda ali kitabxanaçılıq təhsilinin müasir konsepsiyasının təməl prinsiplərini, əsaslarını formalaşdırmışdır. Professor A.Xələfovun səyi və rəhbərliyi ilə "Kitabxanaçılıq pedaqogikası", "Kitabxanaçılıq psixologiyası", "Kitabxana iqtisadiyyatı" kimi kitabxanaşünaslıq sahələri formalaşmışdır. O, eyni zamanda Bakı Dövlət Universitetində kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, kitabşünaslıq və informatika üzrə bakalavr və magistr hazırlığının təçkilatçısı, bu sahələr üzrə ixtisas fənlərinə dair tədris planı və proqramlarının əsas müəllifi və yaxud müəlliflər qrupunun rəhbəridir.



Professor A.Xələfov ali məktəblər üçün dərslik yaradıcılığı sahəsində də mühüm uğurlara imza atmış elm və təhsil xadimlərindən biridir. Onun səmərəli elmi tədqiqat fəaliyyəti həm Azərbaycanda, həm də xarici ölkələrdə geniş şöhrət qazanmışdır. Ölkəmizdə mədəniyyət və kitabxana işi quruculuğunun tarixi problemləri, kitabxanaşünaslığın nəzəriyyəsi və metodologiyası, ali kitabxanaçılıq-biblioqrafiya təhsili məsələləri, həmçinin kitabxana işi nəzəriyyəsi və digər aktual problemlər böyük alimin tədqiqat arsenalının əsas istiqamətlərini təşkil edir.

Abuzər müəllimin elmi araşdırmalarında Azərbaycanda kitab və kitabxana mədəniyyətinin təşəkkülü və inkişaf tarixinin tədqiq edilib ümumiləşdirilməsi başlıca yer tutur. Azərbaycan xalqının çoxəsrlik kitab və kitabxana mədəniyyətinin tədqiq edilib sistemə salınması, onun tarixi inkişaf qanunauyğunluqlarının müəyyənləşdirilməsi A.Xələfovun milli mədəniyyət tariximizə verdiyi qiymətli töhfələrdən biridir. Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq ən qədim zamanlardan günümüzə qədər kitabxana işinin tarixinin cəmiyyətin mədəniyyət və maarifçilik səviyyəsi ilə əlaqədar tədqiq edilməsində, xalqımızın intelektual potensialının inkişafında elm, maarif, mədəniyyət, kitabxananın konseptual şəkildə üzvü əlaqədə öyrənilməsində, heç şübhəsiz, professor A.Xələfovun müstəsna xidmətləri vardır. A.Xələfov Ömrünü vətənimizdə kitabxana işinin tarixinin öyrəNilməsinə həsr etmiş, sanballı monoqrafiyalar, dərslik və dərs

vəsaitləri ilə elm və təhsil salnaməsini zənginləşdirmişdir.

Professor A.Xələfovun elmi yaradıcılığında ulu öndər, ümummilli lider Heydər Əliyevin zəngin elmi nəzəri irsinin öyrənilməsi və təbliği mühüm yer tutur. "Heydər Əliyev: Biblioqrafik məlumat kitabı" və "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" kimi dəyərli və sanballı kitabları Heydər Əliyevşünaslığa qiymətli töhfələrdən sayıla bilər. Heydər Əliyevin irsinin görkəmli tədqiqatçısı tarixçi-alim kimi professor A.Xələfovun həmin əsərlərini yüksək qiymətləndirirəm.

Görkəmli alim və təhsil xadimi A.Xələfovun kitabxanaşünaslığın, kitabşünaslıq və biblioqrafiya sahəsində yüksək ixtisaslı mütəxəssis hazırlığı, eyni zamanda elmi-pedaqoji kadr hazırlanması sahəsində müstəsna xidmətləri olmuş, ölkəmizdə elmi məktəb yaradan alim kimi məşhurlaşmışdır. Onun rəhbərliyi altında 1 nəfər elmlər doktoru, 15 nəfər fəlsəfə doktoru yetişmişdir.

Bütövlükdə bu böyük alimin yaradıcılıq yolu elmi pedaqoji fəaliyyəti ilə elmi ictimaiyyətin rəğbətini qazanmış, görkəmli ziyalı-alim-müəllim, fədakar elm, mədəniyyət və təhsil xadimi kimi tanınmışdır. Onun qələmindən indiyədək 32 monoqrafiya, dərslik, dərs vəsaiti, 300-dən çox elmi, elmi-kütləvi məqalə çıxmışdır. Professor A.Xələfovun vətən, millət və dövlət qarşısındakı xidmətləri hər zaman yüksək qiymətləndirilmiş, "Əməkdar mədəniyyət işçisi", "Əməkdar elm xadimi" kimi yüksək fəxri adlara layiq görülmüş, "Şöhrət" ordeni ilə təltif edilmişdir. Görkəmli alim 2006-cı ildən Prezident təqaüdçüsüdür....

Hesab edirəm ki, professor A.Xələfov ömrünün müdriklik çağlarını yaşayır. O, yenə də Azərbaycan elmi, təhsili və mədəniyyətinə ləyaqətlə xidmət edir. Bu şərəfli yolda elmimizin, təhsilimizin ağsaqqalına uca Tanrıdan möhkəm cansağlığı və yaradıcılıq uğurları arzulayıram.



**Həmid İMANOV**

*Bakı Dövlət Universiteti*
*Fəlsəfə kafedrasının müdiri,*
*fəlsəfə elmləri doktoru, professor*



## SADİQ DOSTLUĞUN BARİZ NÜMUNƏSİ

Hər dəfə Abuzər Xələfov haqqında yazanda heç bilmirəm haradan başlayım. Təşkilatçılıq fəaliyyətindənmi, alimlik zirvəsindənmi, yoxsa vəfalı insan, sadiq dostluq münasibətlərindənmi?! Abuzər müəllim haqqında çox sözlər yazılıb. Ancaq mən təkrarçılıga yol vermək istəmirəm. Ən yaxşısı və məsləhət bildiyim əsl dost haqqında ürək sözlərimdir.

Mən Abuzər müəllimi yarım əsrdən çoxdur ki, tanıyıram. Həmişə prinsipiallığı, zəhmətsevərliyi ilə diqqətimi cəlb edib. Kitabxanaçılıq peşəsinə olan maragı onu kitabxanaşünaslıq elminin birincilərindən etmişdir. Həmişə çətinliklərə sinə gərən, əsassız ittihamları rədd edən Abuzər müəllim mənim diqqətimi o vaxtlardan cəlb etmişdir. Arxasız, dayaqsız daim yüksəkliklərə ucalan, mübarizə apara-apara bu işdə alnıaçıq, üzüag çıxan Abuzər müəllim mənim yaddaşımda daim bax beləcə qalıb.

Sadiqlik yüksək pillədir. Bu pilləyə hər adam qalxa bilmir. Qalxsa da tam duruş gətirə bilmir. Yad təsirlər, həyat tərzi, dünyagörüşü bu pillənin həndəvərində fırlananları yel kimi qoparıb aparmışdır. İllərin sınaq-

larından çıxan insanlardan mənim əsl dostlarım çox deyildir. Hamı ilə münasibət saxlamaq olar, çox adam sənin xətrini istəyə bilər. Ancaq onlara ürəyində yer ayırmaq və həmişə sadiq olaraq qalmaq hər kişinin hünəri deyildir. Sadiq dostlar içərisində Abuzər müəllimin öz yeri, öz guşəsi vardır.

Hər gün işə gələndə bir-birimizin hal-əhvalını yoxlamasaq rahat olmarıq. Hətta elə vaxtlar olur ki, ən çətin, gərgin məqamlarda bir-birimizlə dərdləşirik. Ürək baglamaq, yaxşılıq diləmək müdrikliyə xas xüsusiyyətdir. Dərdimə üz dərdi kimi şərik olan, çətinliyi anlayıb xeyirxah məsləhətlər verən Abuzər müəllimin dost sözünə həmişə ehtiyacım vardır.

Kitabxanaşünaslıq sahəsində Abuzər Xələfovun çox böyük xidmətləri olmuşdur. O, kitabxanaşünaslığın elmi-nəzəri hissəsini hazırlamış, Azərbaycanda kitabxana işi tarixində ilk dəfə olaraq "Kitabxanaşünaslıq fəlsəfəsi"ni yaratmışdır. "Elm fəlsəfəsi" fənninə daxil olan kitabxanaşünaslıq elminin fəlsəfəsini, onun strukturunu, predmetini öyrənərkən ayrı-ayrı elmlərin klassik fəlsəfə tərəfindən öyrənilməsini, onların irəli sürdüyü ideyaları, gəldiyi nəticələri öyrənmək, onlara istinad etmək hər bir tədqiqatçı üçün zəruridir. Kitabxanaşünaslığın yeni konsepsiyasını – kitabxanaşünaslıq fəlsəfəsinin yaratmaq, kitabxanaşünaslıga dünya konsepsiyası baxımından yanaşmaq müasir kitabxanaşünaslığa böyük töhfədir. A.Xələfov dünya kitabxanaşünaslıq tarixindən səmərələnməklə yanaşı, yeni fikirlər və ideyalar irəli sürmüş, kitabxanaşünaslıq fəlsəfəsi və kitabxanaların fəlsəfi problemləri haqqında ciddi elmi məqalələr çap etdirmişdir.

A.Xələfovun bu sahədəki tədqiqatlarında bir sıra önəmli və dəyərli fikirlər və məqamlar mənim diqqətimi



cəlb etmişdir. Müasir kitabxanaşünaslıq sahəsində dünya şöhrətli alimlərdən sayılan A.Xələfovun fikirlərindən belə nəticəyə gəlmək olar ki, kitabxanaşünaslıq tədqiqatlarının aparılmasında, kitabxanaşünaslığın elmi-nəzəri və metodoloji əsaslarının hazırlanmasında, elmi-tədqiqat işləri nəticələrinin kitabxana praktikasına tədbiq edilməsində, kitabxanaşünaslığın digər elmlərlə inteqrasiyasında "Kitabxanaşünaslıq fəlsəfəsi"nin böyük rolu vardır.

Həmişə ucalıq zirvəsi sayılan Abuzər müəllimə mən nə arzulayardım? İstədikləri titul və vəzifələrə nail olub. Allah-təaladan ancaq cansağlığı arzulayıram. O, elə bir qiymətli nemətdir ki, hər adam onu qoruyub saxlaya bilmir. Mən isə arzulayardım ki, qoy cansağlığı həmişə dostuma nəsib olsun. Heç bir vaxt cansağlığı dalınca qaçmasın. Abuzər müəllimin yeri sadiq dostlar içərisində heç vaxt əskik olmasın!..

Əziz dost! Sənə uzun ömür, cansağlığı arzulayıram. Arzu edirəm ki, ömrünün ahıllıq çağında heç bir çətinliklə rastlaşmayasan. Yaşının bu vaxında neyləyim-nə edim deməyəsən. Həmişə alnıaçıq, vüqarlı və hörmətli qalasan. Amin!!!



Əsmət MUXTAROVA

*Bakı Dövlət Universiteti Tarix fakültəsinin Türk və Qafqaz xalqları tarixi kafedrasının müdiri, tarix elmləri doktoru, professor*

## GÖRKƏMLİ ALİM, FƏDAKAR ELM XADİMİ

Professor Abuzər Xələfov Azərbaycanda milli kitabxanaşünaslıq elmi məktəbinin yaradıcısı, görkəmli elm, təhsil və mədəniyyət xadimi kimi ölkəmizdə və xaricdə yaxşı tanınan görkəmli ziyalılarımızdandır. Alim ən qədim dövrlərdən zəmanəmizə qədər Azərbaycanda kitabxana işinin tarixini və inkişaf istiqamətlərini hərtərəfli tədqiq etmiş, sanballı monoqrafiyaları ilə ölkəmizdə ilk dəfə olaraq bu sahənin bünövrəsini qoymuşdur.

Abuzər Alı oğlu Xələfov 1931-ci il dekabrın 25-də Qərbi Azərbaycanda Göyçə mahalının Cil kəndində anadan olmuşdur. 1950-ci ildə təhsilini başa vurmuş, elə həmin il Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin Kitabxanaçılıq şöbəsinə daxil olmuşdur.

A.Xələfov 1955-1977-ci illərdə BDU-nun Kitabxanaçılıq və biblioqrafiya kafedrasında müəllim, baş müəllim, dosent vəzfələrində işləmiş, 1978-ci ildən bu günə kimi isə professordur.

1962-ci ildə professor A.Xələfovun fəal iştirakı və



xidməti sayəsində BDU-nun Kitabxanaçılıq şöbəsi müstəqil kitabxanaçılıq fakültəsinə çevrilmiş və gənc tarix elmləri namizədi, dosent A.Xələfov həmin fakültənin ilk dekanı seçilmişdir.

Bütövlükdə 25 il Kitabxanaçılıq fakültəsinin dekanı vəzifəsində işləyən A.Xələfov özünün təşəbbüskarlıq fəaliyyəti, təşkilatçılıq bacarığı və idarəçilik metodları ilə böyük nüfuz qazanmış, yüksək ixtisaslı milli kitabxanaşünas-biblioqraf kadrların hazırlanması istiqamətində səmərəli iş aparmışdır.

Görkəmli kitabxanaşünas alim 50 ildən artıqdır ki, kitabxana işinin tarixi və nəzəriyyəsi problemləri ilə yanaşı, müntəzəm olaraq Azərbaycanda kitabxanaçılıq təhsilinin nəzəri və metodoloji əsasları məsələlərini hazırlayıb tətbiq etməklə də məşğuldur.

Ali təhsil sistemində tədris proseslərinin mahir bilicisi kimi tanınan professor A.Xələfov istər respublikamızda, istərsə də Bakı Dövlət Universitetində ali təhsilin yenidən qurulması və optimallaşdırılması ilə bağlı mühüm məsələlərin həllində yaxından iştirak edir və bu sahəyə öz sanballı töhfəsini verir.

Professor A.Xələfov yüksəksəviyyəli alim, səriştəli pedaqoq-müəllim, təcrübəli rəhbər işçi, fəal ictimai xadimdir.

Professor A.Xələfovun elmi yaradıcılığında Azərbaycanda kitab və kitabxana mədəniyyətinin təşəkkülü və inkişaf tarixinin tədqiq edilib ümumiləşdirilməsi mühüm yer tutur.

Professor A.Xələfov ilk dəfə olaraq 1961-ci ildə "Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1921-1932)" mövzusunda namizədlik, 1975-ci ildə isə "Azərbaycanda kitabxana işinin tarixi" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək təkcə Azər-

baycanda deyil, eləcə də Sovet İttifaqı məkanında kitabxana işi sahəsində ilk tarix elmləri doktoru alimlik dərəcəsi almışdır. Bu dissertasiya ölkəmizdə kitabxana tarixinə dair ilk fundamental tədqiqat kimi alimə böyük nüfuz qazandırmışdır.

Professor A.Xələfovun elmi araşdırmalarında Azərbaycanda ali kitabxanaçılıq-inormasiya təhsilinin tarixi və nəzəri problemlərinin tədqiqi xüsusi yer tutur.

Professor A.Xələfovun elmi yaradıcılığında ulu öndər Heydər Əliyevin elmi-nəzəri irsinin öyrənilməsi və tədqiqi mühüm yer tutur. Alimin "Heydər Əliyev. Biblioqrafik məlumat kitabı" və "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" kimi sanballı kitabları bu baxımdan olduqca diqqətəlayiqdir.

Professor A.Xələfovun elmi nailiyyətlərindən biri də 1970-1980-ci illərdə nəşr edilmiş BDU-nun elmi əsərlərinin "Kitabxanaşünaslıq-biblioqrafiya" seriyasının redaktoru kimi fəaliyyət göstərməsidir. Bu seriya Azərbaycanda kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq elmlərinin inkişafında müstəsna rol oynamış, seriyanın 20 nömrəsi nəşr edilmiş, burada 85,5 çap vərəqi həcmində 171 məqalə dərc edilmişdir.

Professor A.Xələfov Azərbaycanda kitabxanaşünaslıq və mədəni quruculuq sahəsində geniş tədqiqatlar aparan, onu yeni müddəalar və elmi biliklərlə zənginləşdirən tanınmış elmi məktəb yaratmışdır. Demək olar ki, respublikamızda fəaliyyət göstərən bütün kitabxanaşünas alimlər bu məktəbin – Abuzər Xələfov elmi məktəbinin yetirməsidir.

Görkəmli alim A.Xələfov 2000-ci ildə Azərbaycan Respublikası Prezidenti H.Əliyevin fərmanı ilə Bakı Dövlət Universitetinin 80 illiyi münasibətilə elm və təhsil sahələrindəki xidmətlərinə görə "Şöhrət" ordeni ilə



təltif edilmişdir.

Hazırda professor A.Xələfov Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin prezidenti, Təhsil Nazirliyinin Vahid Elmi-Metodik Şurasının "Kitabxanaşünaslıq və biblioqrafiya" bölməsinin sədri, BDU-nun Böyük Elmi Şurasının üzvü, BDU-nun Ağsaqqallar Şurasının sədri, "Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri və təcrübi jurnalının təsisçisi və baş redaktorudur.

Professor A.Xələfov İslam aləminin müqəddəs yerlərini ziyarət etmiş görkəmli ziyalılarımızdan biridir. O, 1998-ci ildə Həcc ziyarətində, 1999-cu ildə Məşhəd ziyarətində, 2001-ci ildə Kərbəla ziyarətində olmuşdur.

Bu gün professor A.Xələfov ömrünün müdriklik çağlarını yaşayır. İnanırıq ki, təkcə Azərbaycanda deyil, həmçinin yaxın və uzaq xarici ölkələrdə yaxşı tanınan görkəmli alimimiz bundan sonra da Azərbaycanın kitabxanaşünaslıq elmini özünün yeni-yeni sanballı əsərləri ilə daha da zənginləşdirəcəkdir.

Vətənpərvər alim kimi A.Xələfov xalq arasında böyük hörmətə malikdir.

Azərbaycanın görkəmli kitabxanaşünas alimi, professor A.Xələfova möhkəm cansağlığı, yeni-yeni yaradıcılıq nailiyyətləri və bütün işlərində uğurlar arzulayırıq!



Tofiq VƏLİYEV

*Bakı Dövlət Universiteti Tarix fakültəsinin Türk və Qafqaz xalqları tarixi kafedrasının müdiri, tarix elmləri doktoru, professor*

## GÖRKƏMLİ ALİM, SƏDAQƏTLİ DOST

Abuzər müəllim Azərbaycanımızın dilbər guşələrindən birində – Göyçə mahalında dünyaya göz açmışdır. O, uşaqlığı, yeniyetmə illərini burada keçirmiş və orta təhsil almışdır. Ailənin zəhmətkeş üzvlərindən biri kimi İkinci dünya müharibəsinin o qanlı-qadalı illərində arxa cəbhə işlərində var qüvvəsini əsirgəməmişdir.

Orta məktəbi bitirdikdən sonra 1950-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsinə daxil olmuş və təhsilini əla qiymətlərlə başa vurmuşdur. Gələcəyi olan kadr kimi BDU-nun Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasında müəllim vəzifəsinə təyin edilmişdir. Abuzər müəllimin elə bu ildən gərgin elmi-redaqoji fəaliyyəti başlayır. Gənc ikən namizədlik və doktorluq dissertasiyası müdafiə edir. Az bir vaxtda Azərbaycanda və onun hüdudlarından kənarda kitabxanaşünaslıq sahəsində görkəmli alim və elm fədaisi kimi tanınır. Ölkəmizdə Kitabxanaşünaslıq fakültəsinin təşkili də çox hörmətli yubilyarın adı ilə bağlıdır. Təsadüfi deyildir ki, böyük idarəçilik təcrübəsinə malik olan Abuzər müəllim 25 il özünün yaratdığı Kitabxanaşünaslıq fakültəsinin dekanı vəzifəsində işləmişdir.



Görkəmli alim və bacarıqlı təşkilatçı, respublikamızda elm-təhsil təəssübkeşi olan professor A.Xələfov müvafiq elm sahəsinin inkişafı naminə var gücünü əsirgəməmiş və böyük uğurlar əldə etmişdir. Professor A.Xələfov ilk dəfə olaraq Azərbaycanın kitabxanaşünaslıq tarixini geniş planda tədqiq etmiş və bu sahədə yazdığı fundamental əsərlər müəllifə böyük şöhrət gətirmişdir. Xalqımızın çoxəsrlik kitabxana tarixinin işıqlandırılmasında Abuzər müəllimin müstəsna xidmətləri vardır.

Yubilyarın çoxcəhətli səmərəli elmi-pedaqoji fəaliyyətində yazdığı sanballı əsərləri xüsusi yer tutur. «Azərbaycanda kitabxana işinin tarixi», «Azərbaycanda kitabxanaçılıq təhsilinin tarixi», «Azərbaycanda ali kitabxanaçılıq təhsili» və onlarla digər monoqrafiyası deyilənlərə əyani nümunədir. Professor A.Xələfov yuxusuz gecələr və gərgin əmək nəticəsində 300-dən çox elmi əsər, o cümlədən 25 monoqrafiya, ali məktəblər üçün dərslik və dərs vəsaiti yazıb ortaya qoymuşdur. Kitabxanaşünaslığın elə bir məsələsi və problemi yoxdur ki, bu çoxsaylı əsərlərdə öz əksini tapmasın.

Onu da xüsusi olaraq qeyd etmək istərdim ki, Ulu öndər Heydər Əliyevin elmi-nəzəri irsinin, eləcə də dövlətçilik fəaliyyətinin öyrənilməsi, həm də təbliği Abuzər müəllimin yaradıcılığında mühüm yer tutur. Əlbəttə, böyük əzəmət və dərin zəka sahibi dahi Heydər Əliyevin son dərəcə zəngin, elmi, siyasi və dünya miqyaslı dövlətçilik fəaliyyəti haqqında yazmaq böyük hünər və məsuliyyət tələb edir. Xoşa gələn cəhət orasıdır ki, müəllif bu ağır yükün altına girməkdən çəkinməmiş və kitabxanaşünaslıq sahəsini əhatə edən Ümummilli liderin ideyaları əsasında dəyərli əsərlər yazmışdır. Müəllifin «Heydər Əliyev və Azərbaycanda kitabxana işi» və

«Heydər Əliyev. Biblioqrafik məlumat kitabı» əsərləri Əliyevşünaslığa ən gözəl töhfədir.

Abuzər müəllim yazıb-yaratdığı əsərlərlə bərabər, həm də yalnız ona məxsus elmi məktəb yaratmışdır. O, 25-dən çox doktor və namizəd hazırlamışdır. Onun yetirmələri təkcə Azərbaycanda deyil, keçmiş SSRİ məkanının bir sıra ölkəsində fəaliyyət göstərir və ustadlarının işini davam etdirirlər.

Professor A.Xələfov elmi-tədqiqat işlərilə yanaşı Bakı Dövlət Universitetinin, eləcə də Respublikamızın ictimai həyatında da mühüm işlər görür. Yaşının bu müdrik çağında belə çox məsuliyyətli vəzifələr icra edir. O, Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin prezidenti, Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-Metodik Şurasının «Kitabxanaşünaslıq və biblioqrafiya» bölməsinin sədri, BDU-nun Ağsaqqallar Şurasının sədri, həmçinin «Kitabxanaşünaslıq və informasiya» elmi-nəzəri təcrübi jurnalının təsisçisi və baş redaktorudur.

Abuzər müəllimin səmərəli elmi-təşkilatı fəaliyyəti Respublika rəhbərliyi və müxtəlif beynəlxalq təşkilatlar tərəfindən layiqincə qiymətləndirilmişdir. Hələ keçən əsrin 60-cı illərinin sonunda «Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi» və 2001-ci ildə kitabxanaşünaslıq elminin inkişafında və yüksək ixtisaslı kadrların hazırlanmasında müstəsna xidmətlərinə görə Respublikanın «Əməkdar elm xadimi» və digər fəxri adlara layiq görülmüşdür.

2000-ci ildə Bakı Dövlət Universitetinin 80 illik yubileyi münasibətilə Respublika Prezidenti Heydər Əliyevin fərmanı ilə «Şöhrət» ordeni ilə təltif edilmişdir. 2006-cı ildən isə Prezident təqaüdçüsüdür.

Professor A.Xələfov 2001-ci ildə BMT yanında



Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü seçilmişdir. Elə bu fakt, azərbaycanlı alimin dünyada tanınmasının ən bariz göstəricisidir. O, Azərbaycanın «Qızıl Qələm» fəxri media mükafatının sahibidir.

Nəhayət, Abuzər müəllimin şəxsi keyfiyyətləri haqqında: o, çox böyük ziyalı, xeyirxah insandır. Abuzər müəllim son dərəcə səmimi və sədaqətli dostdur. Sözübütöv adamdır. Ədalət naminə həmişə sözü üzə deyir.

Əziz dostum! Sən ömrünün müdriklik zirvəsindəsən. Sənə nə arzu edim? Hər şeydən əvvəl, xalq deyimi olan buz baltası kimi cansağlığı, uzun ömür və yaradıcılıq uğurları arzulayıram.




Şövqi GÖYÇAYLI

*Bakı Dövlət Universiteti Coğrafiya fakültəsinin Ətraf mühitin mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə kafedrasının müdiri, coğrafiya elmləri doktoru, professor*


## İXTİSASI VƏ TƏBİƏTİ İLƏ İNSANLARA YAXIN OLAN FƏDAKAR ALİM

Bütün ibtidai, ali və akademik təhsilə gedən yollar kitabdan başlayır, kitabla davam edir. Kitab və kitabxana adının zəngin məzmunu vardır. Bu adlarda mədəniyyət və elm tariximiz, nailiyyətmiz, düşüncə tərzimiz, bir millət olaraq kimliyimiz, ideallarımız və s. tərənnüm olunur.

Kitablardan, yazılı mənbələrdə tariximiz, keçdiyimiz yolun mürəkkəbliyi daha aydın, məzmunlu əks olunmaqla zəngin informasiya alırıq. Onlardan daha səmərəli istifadə etmək, kitablarda əks olunan bilikləri mənəvi, maddi sərvətlərə və dünyəvi nailiyyətlərə çevirmək üçün onları adi oxucu kimi yox, kitabın və kitabxanaçılığın biliciləri kimi oxumaq-öyrənmək lazım gəlir.

Kitabxananın və kitabxanaçılıq elminin Azərbaycan elmi və mədəniyyəti sahəsində ləyaqətli yer tutması, həmin sahənin dünya elmləri sistemi səviyyəsinə qaldırılması və bir sıra başqa məziyyətlərinə görə həmin sahədə ölkəmizin xüsusi yeri vardır. Həmin sahədəki yüksəlişin çox böyük hissəsi prof. Abuzər Alı oğlu Xələfovun adı ilə bağlıdır.



Az da olsa dünyagörüşü olan ziyalı, prof. Abuzər Xələfovun elm, tədris sahəsindəki fəaliyyəti ilə tanış olduqda o, kitablar aləmini yenidən dərk etməyə çalışar. Onun əmək fəaliyyəti ilə tanış olandan sonra belə qənaətə gəlmək olar ki, kitablar aləmi və informasiya sistemlərinin idarə olunması nəinki mədəni inkişafımızın səviyyəsini, eyni zamanda həmin sahənin dövlət səviyyəsindəki idarəetmə müvəffəqiyyətlərini əks etdirir.

Abuzər Xələfov kitabxanaçılıq təhsilinin müasir konsepsiyasının əsasını formalaşdırmışdır. O, yaratmış olduğu geniş profilli «Kitabxanaçılıq informatikası», «Kitabxanaçılıq kompüterləşdirilməsi», «Kitabxanaçılıq pedaqogikası», «Kitabxanaçılıq psixologiyası», «Kitabxana iqtisadiyyatı», «Kitabxanaçı peşəsi» kimi istiqamətlərin yaranmasına dair qiymətli ideya və təkliflər vermişdir. Deyilənlər Abuzər müəllimin geniş dünyagörüşlü alimliyindən və yüksək səviyyəli təhsil işçisi olmasından xəbər verir. Məhz ona görə də professor təhsil islahatı dövründə bu sahədə çalışanların ön cərgəsində gedənlərdəndir. Onunla uzun illər doğma universitetdə çalışdığımdan, yaradıcılığı ilə tanış olduğumdan müəyyən etdim ki, Abuzər müəllimin elmi, pedaqoji, ictimai fəaliyyətini səciyyələndirən cəhətlər aşağıdakılardır:

1. Əməksevərlik.

2. Yeniliyə meylli olması, bu sahədəki çətinliklərdən qorxmaması.

3. Elmi tədqiqatlarda cəsarətliliyi.

4. Azərbaycanda kitabxanaçılıq işinin dövlət səviyyəsində formalaşması biliyinə və ideyalarına yiyələnməsi.

5. Sözün həqiqi mənasında insaniyyətli və prin-

sipiallığıdır.

Çoxlu sayda əsərlərin müəllifi, namizədlik və doktorluq dissertasiyalarının rəhbəri olması onun elmi məktəbindən, Əməkdar mədəniyyət işçisi, elm xadimi olmaqla Şöhrət ordeninə layiq görülməsi dünya şöhrətli olmasından xəbər verir.

A.Xələfov Məşhəd, Kərbəla, Həcc ziyarətlərində olması ilə özünün kamilliyindən, möminliyindən xəbər verməklə müdriklik zirvəsinə ucalır və haqqın dərgahında da özünəlayiq yeri olduğunu sübut edir. Onunla təmasda olduğum anları xatırlayaraq aşağıdakıların şahidi olmuşam:

1.Hadisə və prosesləri tez qavrayır, insanları tez başa düşür.

2.Ən gərgin şəraitdə belə ona münasibəti olmayan insan haqqında da ədalətli olur.

3. İlk baxışda kəskin, sərt görünən bu insan uşaq kimi kövrəkdir.

Belə adamların sayı çoxaldıqca fikirləşirsən ki, Bakı Dövlət Universitetində işləməyə dəyər.



**Qara NAMAZOV**

***Bakı Dövlət Universiteti filologiya fakültəsinin Klassik Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru, filologiya elmləri doktoru, Əməkdar müəllim***



## O, SEÇDİYİ SƏNƏTİN MƏKTƏBİNİ YARATDI

Hər bir fərdin iki tərcümeyi-halı olur. Birinci onun vətəndaşlıq vəsiqəsindəki tərcümeyi-halıdır. Burada onun adı, soyadı, atasının adı, doğulduğu yer və əlavə olaraq seçib öyrəndiyi peşə. Bu hər bir vətəndaşın şəxsiyyət vərəqidir.

İkinci tərcümeyi-hal fərdin seçdiyi peşə və ya sənətlə cəmiyyət içərisində göstərdiyi xidmətdir. Bu xidmətlə o həm özü maddi cəhətdən təmin olunur, həm də yaşadığı cəmiyyətə xidmət edir. Burada onun fərdi keyfiyyətləri və istedadı üzə çıxır, ona hörmət və nüfuz qazandırır. Belə fərdlərdən biri öz sənətinin məktəbini yaratmış Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfovdur.

Mən Abuzər müəllimin elmi, pedaqoji fəaliyyətindən danışmayacam. Bu barədə onun yaratdığı məktəbin yetirmələri istənilən qədər danışacaqlar. Mən sadəcə həyatımın Abuzər müəllimlə bağlı məqamlarını (onu xatirələrimizdə yazmışam) danışmağı özümə borc bilirəm...

1956-cı ildə beşillik ordu sıralarından təzə gəlmişdim. Sənədlərimi Azərbaycan Dövlət Universitetinin fi-

logiya fakültəsinə verdim. O zaman 7 imtahan verirdik. Mən imtahanların 5-indən əla, 2-sindən yaxşı qiymət aldım. Biləndə ki, mən Kitabxanaçılıq fakültəsinə qəbul olmuşam (bu dolaşıqlığı burada açmağı lazım bilmirəm) doğrusu, o qədər də sevinmədim.

Yadımdadır, avqust ayının, deyəsən 20-si idi. Mən qardaşım Bayram (o, filologiyada qiyabi təhsil alırdı), Göyçədən Məcnun adlı bir müəllim və Abuzər müəllim (Mən Abuzər müəllimi burada tanıdım). M.Ə.Sabirin heykəlinin (əvvəlki ayaqüstü heykəl) yanında söhbət edirdik. Söhbət əslində mənimlə bağlı idi. Mənim kitabxanaçılığa həvəsim olmadığını eşidən Abuzər müəllim dedi: Qara, sən çox yüksək qiymətlər alıbsan. Mən də yüksək qiymətlər almışdım, fərqlənmə ilə qurtardığıma görə məni kitabxanaçılıq şöbəsində müəllim saxladılar. Sən ədəbiyyatda oxusan, kəndlərin birinə müəllim göndərəcəklər gedib orada da qalacaqsan. Ancaq kitabxanaçılığı qurtarsan – bu sahədə mütəxəssis yoxdur, təzə ixtisasdır, bir neçə ildir açılıb, görürəm qabiliyyətlisən qurtardırdan sonra Bakıda da qalıb davam etdirərsən. Qardaşım Bayram da, Məcnun müəllim də Abuzər müəllimin fikrini bəyəndilər. Bu məsləhət məni xeyli həvəsləndirdi. Və mən bu müəllimlərlə razılaşmalı oldum, həm də yaşım keçirdi çox vaxt itirmişdim, 26 yaşım vardı.

Təhsil illərində Abuzər müəllimlə aramızda həm də eloğlu kimi yaxşı bir ünsiyyət yarandı.

İki il sonra kitabxanaşünaslıqla şərqşünaslıq filologiyadan ayrılıb ikisi bir fakültə oldular. Bir neçə ildən sonra Kitabxanaçılıq ayrılıb müstəqil fakültə oldu. Fakültə müstəqil olduqdan sonra Abuzər müəllim həm dekan, həm də kafedra müdiri kimi fəaliyyətə başlamışdır. Onun çox ciddi fədakarlığı nəticəsində təzə-təzə addım atan fakültə bir neçə ilin içərisində universitetin



fundamental fakültələri arasında tanındı. Mən Abuzər müəllimin təşkilatçılıq və pedaqoji fəaliyyətini, təşəbbüskarlığını demək olar ki, hər gün görürdüm. Mən tələbə olmaqla yanaşı universitetin komsomol komitəsində kütləvi mədəni bölməni idarə edirdim. Hər həftə bir tədbir həyata keçirirdik. O illərdə tələbələrdən ibarət konsertlər təşkil edir, fakültələrarası yarışlar keçirirdik. Bu yarışlarda kitabxanaçılıq nisbətən kiçik fakültə olsa da həmişə önə çıxırdı. Əlbəttə bütün bunlar Abuzər müəllimin rəhbərliyi nəticəsində həyata keçirilirdi.

Həmin illərdə Abuzər müəllim universitetin böyük elmi şurasının üzvü, Universitet Partiya Komitəsi idarə heyətinin üzvü kimi geniş ictimai fəaliyyət göstərir, idarə etdiyi fakültənin nüfuzunu cəsarətlə artırırdı. Ədalət naminə hər dəfə də görüşəndə vəziyyətimlə maraqlanırdı.

Bir dəfə söhbətimizdə (onda IV kursda oxuyurdum) dedim Abuzər müəllim universitetin kitabxanasında mütəxəssis kadra ehtiyac var. Bəlkə Mirzoyova deyəsiniz məni 0,5 ştat işə götürsün. Abuzər müəllim söz verdi və bir neçə gündən sonra mən 0,5 ştat əsas kitabxanada işə başladım. Bir-il sonra filial müdiri keçdim. Təqaüdlə maaşım məni tam təmin edirdi. 1961-ci ildə universiteti bitirdim, hələlik kitabxananın filial müdiri kimi işləyirdim. Bir mərdimazarın alçaqlığı ilə (guya mən təyinat yerindən imtina etmişəm) rektor məni azad elədi. Çox get-gəldən sonra Mədəniyyət Nazirliyi məni nazirlikdə müfəttiş vəzifəsinə götürmək haqqında qərar verdi. Bir iki günə işə başlayacaq idim. Bu ərəfədə bulvarda Abuzər müəllimlə rastlaşdım, vəziyyətimi soruşdu. Nazirlikdə işə başlayacağımı dedim. Abuzər müəllim dedi: Qara başqa bir iş də var. Tarix institutunun direktoru prof. Güləli İbrahimov xahiş elədi ki, mənə bir kitabxana və arxiv direktoru lazımdır. Mən də səni

fikirləşdim. Sənin qələmin də var, şeir də yazırsan, gələcəkdə mövzu da götürə bilərsən. Fikirləş, hansı sənə sərf edərsə, ora get.

Tarix institutunda işləmək mənə daha çox sərf edirdi. Gələcəkdə dissertasiya yazmaq imkanı yaranırdı. Mən Z.İbrahimovun yanına gedib fikrimi bildirdim. O məni institutun çox zəngin kitabxanasına və arxivinə direktor götürdü.

Mən Abuzər müəllimin bu xeyirxahlığını yüksək qiymətləndirirəm. Burada işlədiyim zaman Abuzər müəllimlə həmişə əlaqə saxlayır, ondan məsləhətlər alardım.

1965-ci ildə Abuzər müəllim mənə Biblioqrafiya kafedrasında saat hesabı dərs verdi. Bir il sonra, 1966-cı ildə mən Abuzər müəllimin məsləhəti ilə konkursda iştirak edib Biblioqrafiya kafedrasına müəllim keçdim. Tarix institutunda işləməklə hər iki vəzifəni davam etdirdim.

Deməli, yenidən Abuzər müəllimlə birlikdə fəaliyyət göstərməli oldum. Biblioqrafiya kafedrasında işləsəm də daha çox Azərbaycan uşaq ədəbiyyatı kursunu keçməli oldum. Əlbəttə, kursun nə proqramı, nə dərsliyi, nə də dərs vəsaiti vardı. Qısa zamanda mən kursla tanış olub əvvəlcə proqram, sonra bir neçə vəsait, daha sonra 2 cilddə "Azərbaycan ədəbiyyatı antologiyası" (şeir və nəsr) hazırlayıb çap etdirdim.

Şübhəsiz, biz həm də fakültənin mədəni tədbirlərində yaxından iştirak edir, tanınmış şair və yazıçılarla görüşlər keçirir, ehtiyac və tələb olunan bütün ictimai-siyasi, ədəbi-mədəni görüş və tədbirlərdə yaxından fəaliyyət göstərir, fakültənin nüfuzunu və səviyyəsini qoruyurduq. Əlbəttə, bütün bunlar, sözsüz ki, Abuzər müəllimin rəhbərliyi ilə həyata keçirilirdi. Abuzər müəllimin çox ciddi səyi və fəallığı nəticəsində kitabxanaçılıq fakültəsi fundamental fakültənin səviyyəsində dayanır,



ümumuniversitet elmi-pedaqoji təhsil sisteminin tərkib hissəsini təşkil edirdi. Universitetdə hər hansı bir yenilik təşəbbüsü qaldırıldıqda bu yenilikdə kitabxanaçılıq fakültəsinin adı o sırada xatırlanırdı.

Mənim beş il həm tələbəlik illərim, həm də beş il müəllimlik illərim (1966-1970) Abuzər müəllimlə birlikdə keçmişdir. Əlbəttə, etiraf edim ki, bu beş il yağ kimi gəlib keçməmişdir. Müəllimlər arasında səmimi günlərlə yanaşı dedi-qodu, arxada qeybət, daha çox yaxşı münasibətlə yanaşı qısqanclıqla yanaşanlar da olurdu. Hətta məni Abuzər müəllimin yaxın "adamı, qohumu" qələminə verənlər də olurdu. Mən bunlara çox vaxt fikir vermir, bəzən də daxili əsəbiliklər də keçirirdim. Bunun bir səbəbi də mənim kitabxanaçılıqla yox, ancaq ədəbiyyat və xalq ədəbiyyatı ilə məşğul olmağım idi...

1970-ci ildə professor Abbas Zamanov Azərbaycan Sovet ədəbiyyatına kafedra müdiri seçildi. O, rektor Faiq Bağırzadədən xahiş edib məni dərs yükümlə birlikdə filologiya fakültəsinin Azərbaycan sovet ədəbiyyatı kafedrasına keçirdi.

Abuzər müəllim sənətinə hörmət edən, onu geniş şəkildə təbliğ edən, özü də inzibatçı, qanunla hərəkət edən, kimsəyə qanundan kənar güzəşt etməyən, tələbkar olmaqla yanaşı, imtahan zamanı tələbənin mövqeyində duran, dar ayaqda onu müdafiə edən müəllim nümunəsidir. O həmişə vəzifəsinə və peşəsinə hörmətlə yanaşmışdır. Mən Abuzər müəllimin bu keyfiyyətini tədqiq eləmişəm.

Abuzər müəllimlə bağlı yaddaşımda qalan xatirələrdən ikisini yada salmaq istərdim. Bəlkə də bunları o unutmuşdur. Yaz sessiyası vaxtı müəllimlər həm də, payız üçün cədvələ düşürdü. Müəllimlərdən biri dekanlığa gəlib cədvələ düşmək istədiyini bildirdi. Abuzər müəllim cədvəli özü hazırlayırdı. Etika ilə müəllimə

müraciət edib, buyurun hansı günə istəyirsiniz? Başlayaq birinci gündən:

Müəllim: Əşi, birinci gün ağır gündür, istəmirəm

Abuzər müəllim: İkinci günə düşün.

Müəllim: İkinci gün öz fakültəmizdə dərsim var.

Abuzər müəllim: Çox yaxşı, üçüncü günə necə, salaqmı?

Müəllim: Üçüncü gün bizdə kafedra günüdür, iclas olur.

Abuzər müəllim: Dördüncü gün necə, sərf edərmi?

Müəllim: Ay Abuzər, dördüncü gün cümə axşamıdır, hüzrə zada gedirik, salma.

Abuzər müəllim: Beçinci günə düş, sərf edərmi?

Müəllim: Beşinci gün mən Yazıçılar İttifaqında oluram.

Abuzər müəllim: Qaldı altıncı gün özün bil.

Müəllim: Abuzər vıxadnoyda dərs olar, səndə vaxt tapıbsan.

Abuzər müəllim: Qaldı bircə bazar, gərək onda tələbələrə tapşırım bazar günü də dərsə gəlsinlər, razısan?

Müəllim: Bircə o qalmışdı, bazar günü də dərs deyək, hirsli-hirsli durub getdi.

Abuzər müəlim ömrünün 65 ilini universitetdə keçirib. Universitetin həyatında, elmi, ictimai-ədəbi-mədəni və siyasi mühitində elə bir tədbir olmayıb ki, Abuzər müəllim orada iştirak etməsin. Abuzər müəllim özü canlı bir universitetdir və bütün şüurlu həyatı universitetlə bağlıdır. Bakı Dövlət Universiteti də Abuzər müəllimin əməyini yüksək qiymətləndirib, ona hər cür yüksək mükafatlar və elmi titullar verib. O bütün bunlalra layiqdir. Mən onu 80 illik yubileyi və 60 illik elmi pedaqoji, ictimai-siyasi fəaliyyəti münasibəti ilə təbrik edir və daha böyük uğurlar arzulayıram.



**Şamil VƏLİYEV**

***Bakı Dövlət Universiteti Jurnalistika fakültəsinin Jurnalistika tarixi kafedrasının müdiri, filologiya elmləri doktoru, professor***



## KİTABLARA BAĞLI ÖMÜR

Eşidəndə ki, görkəmli alim və müəllim professor Abuzər Xələfovun 80 yaşı tamam olur, doğrusu bir az təəccübləndim. Çünki, maşallah, yerişi, duruşu, danışığı, görkəmində ağsaqqallığın təravəti, rəng çaları özünü göstərsə də insana həssas münasibəti, səlis danışığı, təmkinli yerişi, hazırcavablığı, aydın məntiqi, elmi mübahisə və müzakirələrdə banşmazlığı və mübarizliyi bu yaş məsələsində tərəddüd yaradır. Amma, neyləməli? Yazıya nə deyəsən, alın yazısına. Bu hər kəsin tərcümeyi-halına yazılan rəqəmlərlə, onların xronologiyası ilə ölçülür...

Hər dəfə Abuzər Xələfovu düşünəndə mənə elə gəlir ki, orta əsrlərdə, yaxud da gələcək əsrlərdə bu dünyaya gəlsəydi yenə də elə həmin səliqə-səhmanı, müdrik danrşığı, adamı dinləmək bəsirəti ilə fərqlənəcək, çevrəsindəkilərin də eyni mövqeyi qorumasına haqq qazandıracaqdı. Çünki böyük Şərq müdriklərinin zəka nurundan pay alan professor Abuzər Xələfovun kitablar aləmi ilə real həyat əlaqələrini vəhdətdə götürülməsi yalnız elmi və bilik səviyyəsi ilə sərhədlənmir. Bu həm də Abuzər müəllimin və onun kimi uşaqlıq və gənclik illəri İkinci Dünya müharibəsi dövrünə düşənlərin həyat təcrübəsindən qaynaqlanır. Azərbaycan ədəbiyyatı nümunələ-

rindən «Saz» və «Tütək səsi» kimi əsərləri oxumaqla həmin gəncliyin iztirablarına aşina olmaq, onların kədər və sevincini duymaq, canında-qanınrda azadlıq, müstəqillik və yaşamaq eşqini görmək mümkündür. Belə bir tarixi gerçəkliyi görmüş insanın müasir Azərbaycana necə bir sevgiylə bağlandığını qiymətləndirmək isə çətin deyil. Orta məktəb illəri 1941-1945-ci illərə təsadüf edən Abuzər Xələfov, sonrakı bərpa və quruculuq illərində qarşısına çıxan çətinliklər, iqtisadi problemlər axarında yeganə bir yol seçdi- elm və təhsil əldə etmək, bu yolla müasirlərinə, həmvətənlərinə xidmət göstərmək.

Mən Abuzər müəllimlə çox da yaxınlıq etməmişəm, onunla səfərdə olmamışam, çay süfrəsində deyib-gülməmişəm. Amma, mənə elə gəlir ki, bu müdrik insanla uzun illərdir ki, tanışam. Bu onun sadə, aydın məntiqi, qayğıkeş münasibəti, el ağsaqqalına xas olan ərkyana söhbəti, hər kəsi yerişindən, duruşundan tanıması ilə bağlıdır, zənnindəyəm. Və bir də məni ona bağlayan ulu ozanımız Dədə Ələsgər yurdunun həqiqi mənada təəssübkeşi olması, saza, sözə, adət-ənənəyə, milli kimliyə böyük ehtiramla yanaşması, klassik irsə həqiqi varis olmasıdır.

Onun tərcümeyi-halına bələd deyildim. Sağ olsun Knyaz Aslan yardımçı oldu. Qısa məlumat verdi və mən öyrəndim ki, Azərbaycanın görkəmli kitabşünas alimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, Bakı Dövlət Universitetinin Kitabşünaslıq kafedrasının müdiri, Prezidentin fəxri təqaüdçüsü, «Şöhrət» ordenli, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfov 1931-ci il dekabrın 25-də Qərbi Azərbaycanda-Göyçə mahalının Cil kəndində anadan olmuşdur. O, əvvəlcə Cil kənd yeddillik məktəbində, sonra isə Toxluca kənd



orta məktəbində təhsil almış, eyni zamanda Böyük Vətən müharibəsi illərində kolxozda işləmişdir.

1950-ci ildə orta təhsilini başa vurmuş, elə həmin il Bakı Dövlət Univer-sitetinin Filologiya fakültəsinin Kitabxanaçılıq şöbəsinə daxil olmuşdur. 1955-ci ildə ali təhsilini müvəffəqiyyətlə tamamlamış, perspektivli kadr kimi Kitabşünaslıq və biblioqrafiya kafedrasında müəllim vəzifəsində saxlanılmışdır. A.Xələfov 1955-1957-ci illərdə BDU-nun Kitabşünaslıq və biblioqrafiya kafedrasında müəllim, baş müəllim, dosent vəzifələrində işləmiş, 1978-ci ildən bu günə kimi isə professordur.

A.Xələfov 1961-ci ildə ilk dəfə olaraq «Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932)» mövzusunda namizədlik dissertasiyası müdafiə edərək kitabxana işinin tarixini elmi əsaslarla tədqiq edilib öyrənilməsi sahəsinin əsasını qoymuşdur...

Professorun ömür-gün yolunun ilk mərhələsini işıqlandıran bu kiçik fraqmenti ona görə xatırlatdım ki, ənənəvi olsa da özündə zəhmət və bilik əsasında yüksəlmişi əks etdirir. Bu ömür səhifələrində müharibə illərinin iztirabları, şəxsiyyətə pərəstiş illərinin sosial-psixoloji gərginliyi, N.S.Xruşşov dövrünün siyasi iqlim dəyişikliyi, totalitar rejimin yumşalmasından doğan gələcəyə inam var. Və həm də sonrakı dövrün müstəqillik illərinə hazır gələn yetkin şəxsiyyət mövqeyi, azadlıq duyuğulu gəncliyin hazırlanmasında bütöv, kamil vətəndaş kimliyi ilə iştirak edən müəllim nüfuzu var.

O şəxsi inadından, fərdi maraq və istəklərindən ağsaqqal fəziləti ilə əl çəkməyi bacaran və özünü əməkdaşı olduğu müəssisənin, üzvü olduğu cəmiyyətin ümumi mənafeyinə həsr etməyi doğru yol hesab edən vətəndaş alimidir.

Yəqindir ki, ardıcıl və gərgin zəhməti, müəllimlik

nüfuzu, elmi erudisiyası onu cəmiyyət miqyasında tanıdır və şöhrətləndirir. Alimin 1975-ci ildə ilk dəfə olaraq «Azərbaycanda kitabxana işinin tarixi (1935-1959)» mövzusunda doktorluq dissertasiyası müdafiə edərək təkcə Azərbaycanda deyil, eləcə də Sovet İttifaqı məkanında ilk tarix elmləri doktoru dərəcəsi alması da bununla şərtlənir. Onun bir sıra monoqrafiya, dərslik, dərs vəsaiti, metodik göstəriciləri də bu sıraya daxildir. Professor Abuzər Xələfov Azərbaycan müstəqillik əldə etdikdən sonra daha səmərəli fəaliyyətlə məşğul olub, elmin, təhsilin və maarifin təşkilati işlərinin həyata keçirilməsində əməli işləri, tövsiyə və təklifləri ilə yaxından iştirak edib, şəxsi təcrübəsinin zənginliyini əsirgəməyib...

Onun ömrünü təhsilə sərf etməsi, Bakı Dövlət Universiteti kimi Azərbaycanın maarifçilik fiaqmanı olan bir müəssisədə ağsaqqal statusu qazanması çoxlarında həsəd hissi doğura bilər. Çünki buradan respublikanın yeni islahatlarına hazırlanan gənc kadrlar pərvazlanır və onların hər birinin yaddaşında Abuzər Xələfov nümunəsini yaşatmasına haqqı var. Bunu bir də ona görə xatırlayıram ki, uzun illər tanış olmadığım, üzünü görmədiyim eloğlumun adını həmişə kənardan eşitmiş, haqqında ağızdolusu danışanların rəğbətini duymuşam. Ürəyimdən keçib ki, mən də onlar kimi cəmiyyətə, dövlət və vətənə yararlı işlərlə məşğul olum, ümumazərbaycan qayğıları ilə yaşayım. Buna bizim hər mənada haqqımız olmaqla yanaşı, həm də başqı cür düşünməyə və yaşamağa cəsarətimiz çatmaz. Çünki əsli və nəsli Qərbi Azərbaycana bağlı olanların taleyində həmişə yurd ağrıları ümummilli əxlaqın qorunmasına səbəb olub, bu vətən sevgisi orada doğulanların genetik kodunda əsas keyfiyyət göstəricilərindən sayılıb. Odur ki, ata sözünə, böyük məsləhətinin pozulmaz məntiqinə çox yüksək qiymət verilib. Əslən və



nəslən Qərbi Azərbaycandan olan bir sıra görkəmli şəxsiyyətlərin yolunu sabitqədəmli davam etdirən professor Abuzər Xələfov da özündən əvvəlkilər kimi Vətən, Dövlət və Xalq təəssübünü sözdə deyil, əməldə nümayiş etdirir, Azərbaycanın intellektual inkişafı, mənəvi təkamülü naminə çalışır.

Həmin səbəbdəndir ki, professor A.Xələfovun elmi yaradıcılığında Azərbaycanda kitab və kitabxana mədəniyyətinin təşəkkülü və inkişaf tarixinin tədqiq edilib ümumiləşdirilməsi mühüm yer tutur. Yaradıcılıq fəaliyyətinin lap əvvəllərindən başlayaraq mədəniyyət və kitabxana işi quruculuğunun tarixi problemləri, kitabxanaşünaslığın nəzəriyyəsi və metodologiyası, ali kitabxanaçılıq-informasiya təhsili məsələləri, eləcə də kitabxana işi nəzəriyyəsi və bir sıra digər aktual elmi problemlər alimin diqqət mərkəzində dayanmışdır.

Azərbaycan xalqının çoxəsrlik kitab və kitabxanamədəniyyətinin tədqiq edilib sistemləşdirilməsi, onun qanunauyğunluqlarının, ənənə və meyllərinin üzə çıxarılması professor A.Xələfovun milli mədəniyyət tariximizə verdiyi qiymətli töhfələrdən biridir. Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq ən qədim zamanlardan müasir dövrümüzə qədər kitabxana işinin inkişaf tarixinin cəmiyyətin mənəvi, iqtisadi və siyasi şəraiti ilə, mədəniyyət və maarifçilik səviyyəsi ilə əlaqəli şəkildə tədqiq edilməsi, xalqın intellektual imkanlarının inkişafında maarifin, elmin kitabxana mədəniyyətinin konseptual şəkildə əsaslandırılması məhz professor A.Xələfova məxsusdur. Bu isə onu respublikamızda və xarici ölkələrdə görkəmli mədəniyyət tarixçisi kimi tanıtmışdır.

Abuzər müəllim kitablara bağlı bir ömür yaşamış alimdir. Kitabların bilik mənbəyi olduğu binayi-qədimdən bəllidir və bu gün də belədir, sabah da belə olacaq.

Çünki bilik iqtisadiyyatı epoxasına daxil olduğumuz indiki dövrdə vizual və virtual texnologiya nə qədər dəbdə olsa da, kitabın ictimai faydalılıq əmsalı öz dəyərini saxlamaqda, təlim, tədris və tədqiqatın ən etibarlı istinad mənbəyi rolunu oynamaqdadır. Abuzər müəllimin kitablara bağlı işıqlı bir ömür yaşaması, kitabdan aldığı intellektual yaşam həqiqətləri və mənəviyyat enerjisi əsas verir ki, sözünü evdə, ailədə, iş yerində, cəmiyyət miqyasında açıq-aydın, birmənalı və kəskin şəkildə söyləsin. Ona görə ki, Abuzər müəllim də özündən əvvəl gələn kişilər kimi elmin və zəhmətin, görülən uğurlu işin, yazılan əsərin insanı əbədiyyən yaşadacağına inanır. İnanır ki,

*Ayinəsi işdir kişinin lafə baxılmaz,*
*Şəxsin görünür rütbeyi-əqli əməlində.*

Etiraf etməliyik bu hər kəsin yaşaya bilmədiyi, lakin çoxlarına örnək olan bir ömür yoludur.

Nəhayət, Abuzər müəllim kimi işi, zəhmət və xidməti olan bir elm xadimi, təhsil cəfakeşi, cəmiyyət təəssübkeşinin canında-qanında Göyçə həsrətini tale payı kimi yaşaması bir ayrı örnəkdir. Vətəndaş alimin həyatının mənası da bununla təravətlənir. Dədə Ələsgərin «Hər torpağın tamı düz olmaz» məntiqini dərindən mənimsəyən Abuzər Xələfovun yurda, doğulduğu torpağa, ata ocağına əbədi bağlılığı, yaddaşının təzə-tərliyi və bütövlüyü hər kəsə nəsib olan kimlik göstəricisi deyil. Bunu ancaq yaşayanlar bilir, professor Abuzər Xələfov kimi özünə hörmət və vətəninə məhəbbət duyğuları ilə yaşayanlar...

Dədə Ələsgərin məşhur misraları var. Göyçəni təsvir edən misralar isə indi yaddaşa daha çox hökm edir, onu xatırlatmağa, yaddan çıxarmamağa səbəb olur. O çox gözəl deyir:



*Göyçə qar əlindən zara gəlibdir,*
*Muğan həsrət çəkir, a yağa qar, qar.*

O qarlı Göyçə dağları ilk gənclik illərindən məndə bir Ərzurum oxşarlığını da həmişə xatırladıb. Göyçə və Ərzurum gədikləri, onların axar-baxarı, göz yaşı kimi dumduru bulaqları hər zaman burada yaşayanların şəxsiyyətində öz əksini tapıb və onların əksəriyyətinə «dağlar oğlu», «dağlar qızı» deyilib. Allahın qisməti olan bu təbii haqq o insanların qüruru, prinsipiallığı, mübarizliyi, həqiqətsevərliyi ilə müşayət olunub. O dağların oğullarının kimliyini aşiq və aşıq Kərəm belə ifadə edir:

*Ərzurumun gədiyinə varanda*
*Onda gördüm lopa-lopa qar gəlir.*
*Lələm dedi, gəl bu yoldan qayıdaq*
*Dedim, axı, qeyrətimə ar gəlir.*

Sözünün üstündə durmaq, söz üçün başı bəlalar çəksə də ona dözmək Göyçədə boya-başa çatanların, dağlarda ömür sürənlərin mənəvi dəyəri kimi ilk nəzərə çarpan keyfiyyətdir. Professor Abuzər Xələfovun şəxsiyyəti bu mənəvi keyfiyyətlərdən qidalanmış, elə buna görədir ki, o yerişində, duruşunda və davranışında əzəmət, təpər, möhtəşəmlik ifadə etməyəyə, belə yaşamağa üstünlük verir.

Bu dünya ölüm-itim dünyasıdır. Onda yersiz qürura, haqsız sözə, yanlış fikrə yer yoxdur. Abuzər müəllim bu gəlimli-gedimli dünyada özünü haqqın qulu saymaqla yanaşı, ən ali həqiqət kimi ayrı-ayrı insanların deyil, vətənin, cəmiyyətin və dövlətin mövqeyindən çıxış etməyi vacib sayır. Özünü xalqına, cəmiyyətinə və vətəninə həsr edənlər bu yolda əzablara düçar olduğunu tarix hər zaman təsdiqləyib və Abuzər müəllim alın yazısı olan bu tale payını sevə-sevə yaşayır.



**Aqil HACIYEV**

***Bakı Dövlət Universiteti Filologiya fakültəsinin Klassik rus ədəbiyyatı kafedrasının müdiri, filologiya elmləri doktoru, professor, "Şöhrət" ordenli***

## KİTABXANAŞÜNASLIĞIMIZIN ATLANTI

Abuzər Xələfov... Bu ad Azərbaycanda hamıya bəllidir. Elm sahəsində yeni istiqamət göstərən şəxslərə, milli elmə ixtiralar gətirənlərə bütün dünyada olduğu kimi, Azərbaycanda da böyük hörmət var. Belə şəxslər çox da olmasa, az da deyil. Lakin xüsusi hörmət o şəxslərə göstərilir ki, onlar elmin yeni istiqamətini kəşf edib, həmin elmin zirvəsinə yüksəlirlər. Bu cür şəxslər çox azdır, onları, necə deyyərlər, barmaqla saymaq olar. Mənim aləmimdə Abuzər Xələfov məhz belə nadir şəxslərdəndir.

Kitabxanaçılıq uzun illər müstəqil elm sayılmırdı. Bəzi ölkələrdə (məsələn, keçmiş SSRİ-nin əksər müttəfiq respublikalarında və hətta indiki Rusiya Federasiyasında) kitabxanaşünaslıq üzrə yüksəksəviyyəli kadronun hazırlanması Dövlət Universitetlərində deyil, onlardan elm sahəsində qat-qat aşağı səviyyədə dayanan İncəsənət İnstitutlarında aparılırdı və indi də belədir.

Digər tərəfdən, kitabxanaşünaslıq fakültələrinin sayı məhdud olduğundan bəzi elm ocaqlarında, o cümlədən Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) yüksək səviyyəli kitabxanaşünasların hazırlanması filologiya, və ya tarix fakültələrində aparılırdı. Məhz buna görə kitabxanaşünaslıq üzrə elmi dissertasiya müdafiə edənlər bəzi hallarda tarix elmləri doktoru, ya namizədi, digər hallarda filologiya elmləri doktoru, ya namizədi elmi adlarına layiq görülürdülər.



Kitabxanaşünas olmaq arzusu ilə Azərbaycan Dövlət Universitetinə 1950-ci ildə sənədlərini təqdim edən gənc Abuzər Xələfov da filoloqiya fakültəsinin kitabxanaçılıq şöbəsinə daxil olmuşdur. Bu seçim heç də təsadüfi deyildi. On doqquz yaşlı abituriyent Abuzər Xələfov çətin və maraqlı həyat yolu keçib, kitabxanaçılığın xalqa, millətə verə biləcəyi maarifçiliyi yaxşı anlayıb, bu addımı atmışdır. Belə ki, o ardıcıl olaraq Cil kənd yeddiillik məktəbini, Toxlus kənd orta məktəbini bitirmiş, Böyük Vətən müharibəsi dövründə kolxozda çalışmışdır.

1950-1955-ci illərdə Abuzər Xələfov Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin tələbəsi olmuş, həmin illərdə filologiya fakültəsinin görkəmli professorlarının mühazirə və seminar dərslərindən çox şey götürmüşdür. Ədəbiyyatşünaslığa girişdən Mir Cəlalın, folklordan Məmmədhüseyn Təhmasibin, qədim Azərbaycan ədəbiyyatından Mikayıl Rəfilinin, orta əsrlər ədəbiyyatından Həmid Araslının, X1X əsr ədəbiyyatından Feyzulla Qasımzadənin, XX əsr ədəbiyyatından Abbas Zamanovun, sovet ədəbiyyatından Cəfər Xəndanın, xarici ədəbiyyatdan Əli Sultanlının, rus ədəbiyyatından Məmməd Arifin, ədəbi tənqiddən Məmmədcəfər Cəfərovun, estetikadan Cəfər Cəfərovun dərslərindən bəhrələnməmək olardımı? Bu görkəmli pedaqoq və alimlər gənc nəslin elmə yiyələnmələrində müstəsna rol oynamışlar.

Kim bilir, bəlkə onların parlaq mühazirələrinin,

maraqlı seminar dərslərinin təsiri altında Abuzər Xələfovun nə vaxtsa kitabxanaşünaslıq elminin müstəqil olmasına və bu sahədə də adları çəkilən alimlər yetişməsini arzulamağa vadar etdi?

Təsadüfi deyil ki, adları çəkilən görkəmli filoloq-alimlər də Abuzər Xələfovu digər tələbələrdən fərqləndirib, onun öz sıralarına qatılmağı üçün səylərini əsirgəmədilər. Məhz bu səylərin nəticəsində 1955-ci ildə ADU-nun Filologiya fakültəsinin kitabxanaçılıq şöbəsini bitirən Abuzər Xələfov universitetdə saxlanılır və Kitabxanaçılıq və biblioqrafiya kafedrasında müəllim vəzifəsinə qəbul edilir. 1955-ci ildən bu günə qədər həmin kafedrada çalışan Abuzər Xələfov pillə-pillə addımlayaraq müəllim, baş müəllim, dosent, professor və kafedra müdiri, dekan kimi fəaliyyət göstərir.

Mənim Abuzər müəllimlə tanışlığım da elə bu illərə təsadüf etmişdir. 1950-ci illərin əvvəlində paytaxtımızın ən uzun prospektlərindən olan dənizkənarı Stalin (indiki Neftçilər) prospektində elm adamları üçün möhtəşəm bina ucaldılmışdır. Bu binada Azərbaycanın onlarca görkəmli alimləri və ictimai xadimlərinə ev ayrılmışdır. Xalq arasında Alimlər evi kimi tanınan bu binada yaşamaq arzusunda olan həddinnən artıq çox idi. Mənim indi də yaşadığım birinci blokda otaqların digər bloklardan daha geniş olduğundan burada yaşamaq arzusunda olanlar daha çox idi. Azərbaycan Kommunist Partiyasının üçüncü katibi Vitali Səmədov, Nazirlər Komitəsinin sədrinin müavini Mahmud Məmmədov, Naxçıvan Kommunist Partiyasının birinci katibi Xurşud Məmmədov, Azərbaycan Dövlət Universitetinin rektoru Cəfər Xəndan, binanın memarı, görkəmli arxitektor Mikayıl Hüseynov, iki yüksək vəzifəli hərbçi və ADU-nun müəllimlərindən Mehdi Əliyev,



Abdulla Muxtarov, Miryusif Mirhadiyev və Abuzər Cahangirov kimi tanınmış adamlara bu blokda yaşamaq üçün order verilmişdir.

Təxminən 1956-cı ildə Abuzər Cahangirov başqa yerə köçdüyündən, onun birotaqlı mənzili boşalmışdı və o dövrdə orderləri paylayan Azərbaycan Dövlət Universitetinin komissiyasının qərarı ilə həmin otaq Abuzər Xələfova verilmişdir. O dövrdə mənim təxminən on yaşım vardı və elə buna görə Abuzər müəllimin digər qonşulardan xeyli cavan olduğunu nə mən, nə mənim həyətdəki həmyaşıdlarım o qədər də dərk etmirdik. Ancaq onu deyə bilərəm ki mən və mənim yaşıdlarım üçün 25 yaşlı gənc Abuzər Xələfov heç də yuxarıda adlarını çəkdiyim görkəmli insanlardan, ağsaqqallardan seçilmirdi. Onun qonşularla davranışı, biz uşaqlarla münasibəti bizləri onu el ağsaqqalı kimi qəbul etməyə vadar etmişdi.

1961-ci ildə Abuzər Xələfov «Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932)» mövzusunda yazdığı namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edib Azərbaycanın ilk elmi dərəcə alan kitabxanaşünası kimi tarixə düşmüşdür. Bu sahənin ilk elmi işçisi kimi məhz Abuzər Xələfov 1962-ci ildə filologiya fakültəsinin kitabxanaçılıq şöbəsinin bazasında yeni yaranan Kitabxanaçılıq fakültəsinə ilk dekan seçilmiş və həmin vəzifədə qısa fasilə ilə otuz ilə yaxın çalışmışdır. Kitabxanaçılıq fakültəsinin qiyabi şöbəsində bir neçə il dərs deyib diplom işlərinə rəhbərlik edən şəxs kimi deyə bilərəm ki, digər fakültələrdə az rast gəldiyim nizam-intizam bu fakültədə mövcud idi, bu da, heç şübhəsiz, Abuzər müəllimin iş üsulundan irəli gəlirdi.

1975-ci ildə Abuzər müəllim namizədlik işinin bir növ davamını yazaraq «Azərbaycanda kitabxana işinin

tarixi (1935-1959)» mövzusunda dissertasiyasını müdafiə edib elmlər doktoru alimlik dərəcəsini almışdır.

Həmin müdafiədən otuz altı il keçmişdir. Respublikamızda Şöhrət ordeni ilə təltif olunan, Əməkdar elm xadimi və Əməkdar mədəniyyət işçisi kimi yüksək adlara layiq görünən Abuzər müəllim bu gün nəinki Azərbaycanda, bütün dünyada tanınan kitabxanaşünaslıq elminin ağsaqqalıdır. Heç təsadüfi deyil ki, o uzun illər SSRİ və Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində fəaliyyət göstərmiş kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq üzrə yeganə doktorluq dissertasiyalarının müdafiə şurasının üzvü olmuş, 15 fevral 2000-ci ildə Birləşmiş Millətlər Təşkilatı yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının müxbir, 20 fevral 2001-ci ildə isə – həqiqi üzvü seçilmişdir.

Heç şübhə yoxdur ki, bu səpkidən olan fəxri adların sayı artmalıdır və artacaq. Hörmətli və əziz yubilyara bunlara nail olmaq üçün möhkəm cansağlığı diləyirəm.



**Bayram ALLAHVERDİYEV**

***Bakı Dövlət Universiteti Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri, tarix elmləri doktoru, professor***



## ŞƏRƏFLİ ÖMÜRDƏN SƏHİFƏLƏR

Bu il Əməkdar elm xadimi, professor Abuzər Xələfovun 80 yaşı tamam olur!

XX əsrin 50-ci illərində əvvəlcə tələbə yoldaşım, bir qədər sonra isə bir yerdə işləyən həmkarım kimi təmasda olduğum səmimi insan, gözəl ziyalı Abuzər Xələfovu həmişə xoşxasiyyət, həm də ciddi şəxsiyyət kimi tanıyıram. Bu illər ərzində Abuzər müəllimə ağsaqqal gözü ilə baxmışam, səmimiyyətinə inanmışam və məsləhətlərinə ehtiyac duymuşam.

Abuzər Xələfovun fəaliyyətinin əsas hissəsi kitabxanaçılıq işi, kitabxanaçılıq sənəti ilə bağlıdır. Abuzər müəllimin bu ixtisasa böyük sevgisi var. O, öz biliyi, istedadı, tələbkarlığı və ziyalılığı ilə ölkəmizdə və keçmiş SSRİ məkanında böyük nüfuz qazanmış alimdir.

A.Xələfov BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, Əməkdar elm xadimi, Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, "Şöhrət" ordenli, tarix elmləri doktoru, professordur. Respublikamızda kitabxanaçılıq-biblioqrafiya elmlərinin və ali kitabxanaçılıq təhsili-

nin yaranması və formalaşması onun adı ilə bağlıdır.

Abuzər Xələfov 50 il bundan öncə Azərbaycanda müstəqil kitabxanaçılıq fakültəsinin yaradıcısı və ilk dekanı kimi indiyə qədər mənalı həyat yolu keçmişdir. O, XX əsrin 50-ci illərinin sonlarında kitabxana işinin tarixinə xüsusi maraq göstərmişdir. Çünki kitabxana işinin tarixi xalqın, vətənin keçmişi, inkişaf səviyyəsi, mədəniyyəti, əxlaqı, elmi ilə sıx surətdə bağlıdır. Bu, görkəmli alimə müqəddəslik, kitaba olan müqəddəslikdən yaranmışdır. Abuzər Xələfovun fəaliyyəti çoxşaxəli və çoxcəhətlidir. İndiyə qədər o, respublikamız üçün kitabxanaşünaslıq sahəsi üzrə 20-dən çox elmlər namizədi və elmlər doktoru yetişdirmişdir.

A.Xələfov Azərbaycanda kitabxana işi sahəsində ilk sanballı elmi tədqiqatlar aparmış, ilk dəfə namizədlik və doktorluq dissertasiyalarını müdafiə etmişdir. Bununla da ölkəmizdə həmişəlik kitabxanaşünaslıq elminin banisi statusunu qazanmışdır. Kitabxanaşünaslığın tarixi, nəzəriyyəsi, təcrübəsi, kitabxanaçılıq işinin tarixi, Azərbaycan kitabxanalarının tarixi, respublikada kitabxanaçılıq təhsili və bu sahədə digər problemlərlə məşğul olmuş və çox maraqlı elmi əsərlər, məqalələr, monoqrafiyalar, dərslik və dərs vəsaitləri yazaraq çap etdirmişdir. Onun "Azərbaycanda kitabxana işinin tarixindən (1870-1920-ci illər)" (1960) və "Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932-ci illər)" (1960), "Azərbaycanda kitabxana işinin tarixi (1933-1958-ci illər)" (1974), "Azərbaycanda kitabxana işinin tarixindən (Qədim dövrdən XVIII əsrin axırınadək)" (1986), "Azərbacyanda kitabxanaçılıq təhsilinin inkişafı" (1987), "Azərbaycanda ali kitabxanaçılıq təhsili" (1998), "Kitabxanaşünaslığa giriş" (I h. - II h. 2001), "Kitabşünaslığa giriş" (III h.), "Heydər Əliyev



biblioqrafik məlumat kitabı" (2003), "Azərbaycanda kitabxana işinin tarixi" (I h., 2004), "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" (2006), "Azərbaycanda kitabxana işinin tarixi" (II h., 2007) və s. Ümumiyyətlə, 35 adda kitab, dərslik, dərs vəsaiti və monoqrafiyası çap edilmişdir.

Abuzər Xələfovun Respublikanın və keçmiş SSRİ-nin nüfuzlu dövri mətbuat səhifələrində kitabxana işinin tarixi, kitabxanaşünaslığın tarixi, nəzəriyyəsi, kitabxanaçılıq təhsili və digər əlaqədar problemlər üzrə 200 addan çox elmi məqaləsi dərc buraxılmışdır.

Professor Abuzər Xələfovun pedaqoji elmi fəaliyyətində ali kitabxanaçılıq təhsilinin təşkili xüsusi yer tutur. O, ali kitabxanaçılıq təhslinin nəzəriyyəçisi və təşkilatçısıdır. Ölkəmizdə ali kitabxanaçılıq-biblioqrafiya təhsilinin inkişafında və optimallaşdırılmasında onun xidmətləri əvəzsizdir.

1999-cu ildə professorun təşəbbüsü ilə Azərbaycanda respublika kitabxanaçılarının ilk peşəkar ittifaqı – Azərbaycan Kitabxanaçılar Cəmiyyəti yaradılır və prezidenti Abuzər Xələfov seçilir.

Görkəmli alimin və pedaqoqun çoxcəhətli fəaliyyəti universitetin, ümumiyyətlə, respublikamızın elmi ictimaiyyəti tərəfindən həmişə rəğbətlə qarşılanmışdır. Professor Abuzər Xələfov işləməkdən, elmi əsər yazmaqdan zövq alır. Çox maraqlıdır ki, 2010-cu ildə "Kitabxanaşünaslıq və informasiya" adlı elmi-nəzəri və praktiki jurnalı da çapdan buraxmağa başlamışdır. Təsisçisi və Baş redaktoru Abuzər Xələfov olan bu jurnal kitabxanaşünaslığın, kitabxana işinin tarixi, nəzəriyyəsi və təcrübi problemlərinə dair elmi məqalələri dərc edən nüfuzlu elmi jurnallardan hesab edilir.

Abuzər müəllimin elmi-pedaqoji və ictimai fəaliy-

yəti Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilmişdir. Şöhrət ordenli Abuzər Xələfov Əməkdar elm xadimi və prezident təqaüdçüsüdür.

O, indi ömrünün müdriklik çağını yaşayır. Hər il bir neçə adda yeni əsərləri, monoqrafiyaları, dərslikləri, dərs vəsaitləri və s. ilə Azərbaycan kitab mədəniyyətini zənginləşdirir və inkişaf etdirir.

Abuzər Xələfov indi ömrünün 80-ci baharını yaşayır, ona yeni-yeni yaradıcılıq uğurları və cansağlığı diləyirik.



Əli ƏHMƏDOV

*Bakı Dövlət Universitetinin Funksiyalar nəzəriyyəsi və funksional analiz kafedrasının müdiri, fizika-riyaziyyat elmləri doktoru, professor*



## GÖRKƏMLİ ALİM, BÖYÜK ZİYALI VƏ QAYĞIKEŞ İNSAN

Görkəmli elm xadimi, böyük şəxsiyyət və ziyalı Abuzər müəllim haqqında fikir söyləmək şərəfli olmaqla bərabər çox böyük məsuliyyət tələb edir.

Professor Abuzər Xələfovun adı çəkiləndə Azərbaycanda XX əsrin əllinci illərindən başlayaraq indiyə kimi elm və təhsilin formalaşması və inkişafı yada düşür. Çünki insanı şəxsiyyət edən və inkişaf etmiş bir bəşər övladına çevirən onun aldığı təhsil və ona savad verən müəllimlərdir. Bunların əsasında isə onun oxuduğu və mütaliə etdiyi kitablar durur. Bu isə sözün əsl mənasında Abuzər muəllim deməkdir. Qoy heç bir alimimiz, ziyalımız (əlbəttə hamımızın sevdiyi insanlar) inciməsin. Çünki Abuzər müəllimin bu sahədə müstəsna rolu vardır.

Biz kitab deyəndə onunla bağlı bütün sahələri düşünürük. Cəsarətlə demək olar ki, Abuzər müəllim nəinki Azərbaycanda, hətta Sovetlər İttifaqında kitabxanaşünaslıq elminin banisidir. Professor Abuzər Xələfov Milli kitabxanaşünaslıq elmi mərkəzini yaratmışdır. O,

ali kitabxanaçılıq – informasiya təhsilinin əsasını qoymuşdur. Abuzər müəllim Azərbaycanda kitabxana işinin tarixi və inkişaf istiqamətlərini hərtərəfli tədqiq etmiş böyük alimdir. Onun çoxsaylı tələbələri öz müəllim və rəhbərinin işlərini bacarıqla davam etdirirlər.

Bu kiçik yazıda mən görkəmli alimin elmi və pedaqoji fəaliyyətini tədqiq etmək fikrində deyiləm (istəsəm də, bunu tək başına edə bilmərəm).

Mən Abuzər müəllimi tanıdığım və təmasda olduğum ilk gündən onun ətrafındakı insanlara münasibətindən, elm və təhsillə bağlı fikirlərindən danışmaq istəyirəm.

Abuzər müəllim tələbəlik dövründən tutmuş indiyə kimi Bakı Dövlət Universitetində çalışmışdır və indi də bu fəaliyyətini davam etdirməkdədir. O, Universitetə öz doğma ocağı kimi baxmış və onu elmi-pedaqoji fəaliyyəti ilə zənginləşdirməyə çalışmışdır. Təhsil prosesinin islahatları və inkişafında mühüm rol oynayan professor A.Xələfov istər ölkəmizdə, istərsə də Bakı Dövlət Universitetində ali təhsilin yenidən qurulması və təşkili ilə bağlı əsas məsələlərin həllində yaxından iştirak edir və bu sahəyə öz gərəkli töhvəsini verir. O, eyni zamanda görkəmli alimdir.

Professor A.Xələfovun elmi fəaliyyətində ölkəmizdə kitab və kitabxana mədəniyyətinin təşəkkülü və inkişaf tarixinin tədqiqi mühüm yer tutur. Abuzər müəllim bütün həyatını respublikada elmin və təhsilin daha yüksəklərə qalxmasına həsr etməkdədir. Son illər Abuzər müəllimin təşəbbüsü və təklifi ilə BDU-da Nəşriyyat Şurası təşkil olunmuşdur. Bu şurada müxtəlif elm sahələri üzrə alimlər təmsil olunurlar. Onun sədri prof. A.Xələfovdur. Mən riyaziyyat üzrə həmin şuranın üzvüyəm. Məqsəd BDU-da nəşr olunacaq istənilən ədəbiyyat üzrə (proqramlar, metodiki vəsaitlər, dərs vəsaitləri, dərsliklər) yazılmış vəsaitlərinin əlyazmalarının nəşrindən əvvəl ciddi yoxlamadan keçməsini təşkil etməkdir. Burada Abuzər müəllimin ciddiliyi, tələbkarlığı və obyektivliyi həmin əsərlərin yüksək səviyyədə tərtib olunmasında müstəsna rol oynayır. Məsələ burasındadır ki, bu tələb istənilən müəllifə tətbiq olunur. Baxmayaraq Şuranın üzviyəm, özümün yazdığım dərsliyə görə mən də eyni tələblərlə rastlaşmışam. Onun qayğı və məsləhətlərini hər zaman hiss etmişəm.

Ümumiyyətlə, Abuzər müəllim ciddiliyi ilə bərabər təbiətən çox mülayim insandır. Buna görə də, istər ətrafındakılar, istərsə də ona müraciət edən istənilən şəxslər həmişə Abuzər müəllimin xeyirxahlığının bəhrəsini görmüşlər.

İndi Abuzər müəllimin 80 yaşı tamam olur. Lakin yaşına görə çox cavan görünür. Ondakı işgüzarlığa ancaq həsəd aparmaq olar.

Mən, Abuzər müəllimə uzun, sağlam ömür və elmi-pedaqoji fəaliyyətində daha yeni zirvələr fəth etməsini arzulayıram.

Abuzər müəllim, Siz Fəxr etməli Şəxsiyyətsiniz!



İsmayıl MƏMMƏDOV

*Azərbaycan MEA-nın Nəsimi adına Dilçilik İnstitutunun şöbə müdiri, filologiya elmləri, doktoru, professor*

## AZƏRBAYCANŞÜNASLIĞIMIZIN SÜTUNLARINDAN BİRİ

Hər bir müqəddəs möhtəşəm məbəd möhkəm özül və sütunlar üzərində bərqərar olur, dayanır. Yüz ilə yaxın yaşı olan Bakı Dövlət Universitetini məbədə bənzətmiş olsaq, onun sütunları isə heç şübhəsiz ömürlərinin çoxunu, şüurlu fəaliyyətlərini Azərbaycan təhsilinə, elminə sərf etmiş dəyərli elm xadimləri, qabaqcıl müəllim və pedaqoqlar olacaqdır. Belə sütunlardan biri də Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, əməkdar elm xadimi, tarix elmləri doktoru, professor, Prezident təqaüdçüsü, BDU-nun Kitabxanaşünaslıq kafedrasının müdiri Abuzər Alı oğlu Xələfovdur.

Professor A.Xələfovun əsli-soyu Vətənimizin təkrarsız, dilbər guşələrindən biri olan Göyçə mahalındandır. Göyçə mahalı deyərkən, ilk növbədə, onun dəyərli, şan-şöhrətli şəxsiyyətləri - adları tarixin şanlı səhifələrinə həkk olunmuş vətən övladları yada düşür. Miskin Abdal, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Nəcəf, Aşıq Əsəd, Qandal Nağı, Səmədağa, Mirzə Bəylər, Məşədi İsa, Hacı Nağı, Yunis Rzayev, Talıb Musayev, Qəşəm Aslanov, Tapdıq Əmiraslanov və başqa hörmətə və ehtirama layiq insanlar yada düşür. Professor Abuzər Xələ-



fov da məhz belə ünlü şəxsiyyətlərin varislərindəndir. Abuzər müəllimin doğulduğu Cil kəndindən bir çox elm adamları, sənət adamları, dövlət, siyasət, təsərrüfat rəhbərləri çıxmışlar. Amma Abuzər müəllim – 80 illik yubileyini böyük hörmətlə qeyd etdiyimiz el ağsaqqalı (o həm də BDU-nun ağsaqqallar şurasının sədridir) bir çox sahələrdə birinci olub, öncül olub. Cil kəndindən çıxan ilk elmlər doktoru, professor, kitabxanaçılıq fakültəsinin ilk dekanı (1962-ci ildə şöbə fakültəyə çevrilərkən) olub.

Abuzər müəllim haqqında, onun elmdəki xidmətləri barəsində ilk məlumatları, xoş söhbətləri ana babam Sədənağaçlı (sonradan bu kənd Güney adlandırıldı) Allahverdi Məmmədoğlundan eşitmişəm. O zaman mən Bakıda tələbə idim. Abuzər müəllim ilə bütün Göyçə mahalı fəxr edirdi, el-obanın arzu olunan sevimli bir eloğlusu, möhtərəm qonağı idi. Göyçənin başqa sayılan kişiləri kimi, babam da həmişə yay aylarında Abuzər müəllim Vətənə gələndə vaxt tapıb onu evimizə qonaq çağırırdı. Professor Abuzər Xələfovdan əvvəl babam onun atası Alı kişi ilə, balabançı Əli kişi ilə (Abbas Mazanovun atası) çox yaxın idilər, dədə-baba dostluqları vardı. Atam Aşıq Oruc da Xələflilərlə çox yaxın münasibət saxlayırdı. Mən ali təhsilimi başa vurub Bakıda aspiranturada oxuyan dövrdə Abuzər müəllimlə tez-tez görüşüb hal-əhval tutmağa başladım. Çox vaxt atamla (o dünyasını dəyişəndən sonra isə hərbçi polkovnik qardaşım Nəbi ilə) maraqlanar, onu xəbər alardım. Abuzər müəllim mayası zəhmətdən yoğrulan, tanıdıqları insanlara qayğı və ehtiramla yanaşan yaxşılıq etməkdən yorulmayan, köməyə ehtiyacı olanlara canıdildən əl tutan və bu işlərdən zövq alan, gənclərə doğru yol, ağıllı məsləhətlər verən təmənnasız bir ağsaqqaldır. O bu gün

də həmin missiyanı davam etdirir. Abuzər müəllimin doğulduğu Cil kəndindən bütün Azərbaycanda tanınan el aşıqları (Aşıq Müseyib, Aşıq Yunus) çıxmışdır.

Bəzi dövlət, siyasət, sənət adamları, maarif xadimlərinin tərcümeyi-halları bu kəndlə bağlıdır. Təsərrüfat rəhbərləri, dövlət qulluğunda çalışan bir çox bacarıqlı siyasətçilər, diplomatlar da Cil kəndindən çıxmışlar.

Abuzər müəllim uca və layiq olduğu mövqeyə öz istedadı, halal zəhməti və işgüzarlığı, qətiyyətliliyi və təşkilatçılığı, yenilməz iradəsi, tədbirliliyi, ən nəhayət, müdrikliyi sayəsində ucalmışdır.

Professor Abuzər Xələfovun 80 illik ömrünün 61 ili Bakı Dövlət Universiteti ilə bağlıdır. 1950-ci ildə əvvəlcə tələbə, 1955-ci ildən 1977-ci ilədək Kitabxanaşünaslıq kafedrasında müəllim, baş müəllim, dosent vəzifələrində işləmiş, 1978-ci ildən isə professordur.

Abuzər müəllim Azərbaycanda kitabxanaşünaslıq elminin banisi, milli kitabxanaşünaslıq elmi məktəbinin qurucusudur. BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademikidir. Azərbaycan dövləti və hökuməti onun səmərəli fəaliyyətini və dəyərli xidmətlərini yüksək qiymətləndirmiş, onu "Şöhrət" ordeni ilə, "Əməkdar elm xadimi" fəxri adı ilə mükafatlandırmışdır. Abuzər müəllim eyni zamanda Prezident təqaüdçüsüdür.

Professor Abuzər Xələfov ilk dəfə olaraq 1961-ci ildə "Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932)" mövzusunda elmi araşdırması ilə kitabxana işinin tarixinin elmi əsaslarının tədqiq edilib öyrənilməsinin əsasını qoymuşdur. Onun yorulmaz fəaliyyəti nəticəsində kitabxanaçılıq şöbəsi 1962-ci ildə fakültəyə çevrildi və Abuzər müəllim bu fakültənin ilk dekanı oldu. Ümumiyyətlə, 25 il dekan vəzifəsində çalışmışdır. Alim eyni zamanda 1963-cü ildən (yarım əsrə yaxındır) Kitabxanaşünaslıq kafedrasının müdiri kimi səmərəli fəaliyyət göstərir. Hazırda Azərbaycanın elə bir guşəsi yoxdur ki, Abuzər müəllimin yetirmələri orada çalışmasın. Onun yüksək təşkilatçılıq bacarığı və idarəçilik metodları ilə onlarla yüksək ixtisaslı milli kitabxanaşünas-biblioqraf kadr hazırlanmışdır. Abuzər müəllimin son dərəcə yüksək təşkilatçılıq qabiliyyəti, yenilikçilik və rəhbərlik səriştəsi sahəsində kafedra hazırkı informasiyalaşmış cəmiyyətdə özünəməxsus yer tutan kitabxana ictimaiyyətinin doğma ocağına çevrilmişdir.

Onu da göstərməyi lazım bilirik ki, görkəmli elm adamı kitabxanaşünaslığın tarixi və nəzəriyyəsi problemləri ilə yanaşı, müntəzəm olaraq Azərbaycanda kitabxanaçılıq təhsilinin nəzəri və metodoloji məsələlərini hazırlayıb tətbiq etməklə də məşğuldur. Abuzər müəllim səriştəli pedaqoq-müəllim, təcrübəli rəhbər işçi, yüksək elm təşkilatçısı və həm də fəal ictimai xadimdir. O yalnız ölkəmizdə deyil, eyni zamanda xarici ölkələrdə də böyük şöhrət qazanmışdır.

Professor Abuzər Xələfov tədris proseslərinin mahir bilicisi kimi respublikamızda və BDU-da ali təhsilin yenidən qurulması və optimallaşdırılması ilə bağlı mühüm məsələlərin həlli sahəsinə öz sanballı töhfəsini verməkdədir. Bugünədək professorun onlarla monoqrafiya, dərslik və dərs vəsaitləri nəşr olunaraq elmi ictimaiyyətin ixtiyarına verilmişdir ki, bunlardan "Azərbaycanda ali kitabxanaçılıq təhsili" (1993), "Azərbaycanda kitabxana işinin tarixi (2004-2010)", "Kitabxanaşünaslığa giriş" (3 hissədə, 2001-2003), "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" (2006), "Heydər Əliyev. Biblioqrafik məlumat kitabı", kimi əsərləri ölkəmizdə kitabxanaçılıq, informasiya təhsilinin, yüksək

ixtisaslı mütəxəssislər hazırlanmasının konseptual cəhətdən həllində mühüm rol oynayır.

Professor A.Xələfovun rəhbərliyi ilə onlarla doktorluq və fəlsəfə doktoru dissertasiyaları müdafiə olunmuşdur ki, bu da onun kitabxanaşünaslıq elmi sahəsində xüsusi elmi məktəbinin töhfələri kimi qəbul olunur. Bunlardan başqa görkəmli alim 25 nəfər elmlər namizədi və elmlər doktorunun hazırlanmasında elmi rəhbər və məsləhətçi olmuş, bir çoxlarına opponentlik etmişdir.

Bu gün professor A.Xələfov Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin prezidenti, Təhsil Nazirliyinin Vahid Elmi Metodik Şurasının "Kitabxanaşünaslıq və biblioqrafiya" bölməsinin sədri, BDU-nun Böyük Elmi Şurasının üzvü, BDU-nun Ağsaqqallar Şurasının sədri, "Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri və təcrübi jurnalının təsisçisi və baş redaktorudur.

Professor Abuzər Xələfovun elmi tərcümeyi-halı olduqca zəngin və genişdir. Əlbəttə, onu əhatə etmək üçün cild-cild kitabların yaranmasına ehtiyac duyulur.

Görkəmli alim A.Xələfova bütün müsəlmanların ən müqəddəs arzuları və vəzifələri olan Həcc, Məşhəd və Kərbəla ziyarətlərinə getmək də nəsib olmuşdur.

Abuzər sözü ərəbcə "mənəvi baxımdan sahib duran" anlamında, farsca isə "qızıl suyu" mənasında işlənir. Bizim fikrimizcə, Abuzər müəllimin adı onun işinə, fəaliyyətinə uyğun bir məzmunu ifadə edir. O, bilik xəzinəsinə, elm xəzinəsinə, kitaba sahib duran bir şəxsiyyətdir.

Yazımın sonunu təbrikimlə bitirirəm. Hamımızın sevimlisi, son dərəcə dəyərli bir xocamızı, ustadımızı, elm xadimimizi – professor Abuzər Xələfovu 80-ci baharı münasibəti ilə səmimi qəlbdən təbrik edirəm, ən şirin nemət - cansağlığı, xoş ovqat və yaradıcılıq uğurları arzulayıram.



Müseyib MÜSEYİBOV

*Bakı Dövlət Universiteti Coğrafiya fakültəsinin dekanı, Əməkdar elm xadimi, coğrafiya elmləri doktoru, professor, Prezident təqaüdçüsü*



## ƏZİZ VƏ ÇOX HÖRMƏTLİ PROFESSOR ABUZƏR XƏLƏFOV HAQDA DOST SÖZLƏRİ

Azərbaycanda kitabxanaçılıq elminin banisi professor Abuzər Alı oğlu Xələfovla XX əsrin ortalarından, o, BDU Filologiya fakültəsində yenicə müəllim vəzifəsində çalışmağa başladığı vaxtdan tanış olmuşuq. O, universitetdə işləməyə başladığı ilk illərdən Azərbaycanda yeni ixtisasa cığır açmağa, vaxt keçdikcə o cığırı genişləndirmək, onu çox illər əvvəl universitetdə inkişafa başlamış başqa elmlər səviyyəsinə çatdırmaq yolunda yorulmadan çalışmış, nəhayət, kitabxanaşünaslıq elminin müasir səviyyəyə ucalmasına nail olmuşdur.

Prof. A.A.Xələfov universitetin Filologiya fakültəsində ilk kitabxanaçılıq şöbəsinin təşkilinə, 1962-ci ildə isə həmin şöbə bazasında kitabxanaçılıq fakültəsinin təşkil edilməsinə nail olmuş və fəaliyyətinin 25 ilini həmin fakültəni idarə etməyə sərf etmiş, kitabxanaşünaslıq və biblioqrafiya ixtisasları üzrə yüksək ixtisaslı kadr hazırlığının, Azərbaycan kitabxanalarının kadr təminatının bugünkü səviyyəyə qədər inkişafını təmin et-

mək yolunda yorulmadan çalışmış və bu gün də çalışmaqda davam edir.

Baki Dövlət Universitetində yeni ixtisasın, yeni kafedranın, yeni fakültənin təşkil edilməsi cox məsuliyyətli bir problemi üzrə işin başlangıcı idi. Kitabxanacılıq, kitabşünaslıq üzrə kadr hazırlığını təmin etmək üçün zamanın tələbinə cavab verən tədris planı, dərsliklər, dərs vəsaitləri və başqa köməkçi vəsaitlər yaratmaq yüksək ixtisaslı elmi-pedaqoji kadrlar yetişdirmək tələb edirdi. Professor Abuzər Xələfov, mübaligəsiz demək olar ki, nisbətən qisa vaxt ərzində Azərbaycan Respublikası üçün yeni elm və təhsil istiqamətlərinin inkişafını təmin edən problemlərin həllinə nail oldu. Abuzər müəllimin və fakültə rəhbərliyinin fədakar əməyi nəticəsində Kitabxanaçılıq fakültəsi hazırda universitetdə fəaliyyət göstərən, müasir yüksək ixtisaslı kadr potensialına malik olan 17 fakültədən biridir.

Professor Abuzər Xələfovun elmi, pedaqoji, təşkilatçılıq fəaliyyəti Azərbaycan Respublikasının və bir sıra başqa ölkələrin aidiyyətli təşkilatlarının diqqətindən kənarda qalmamışdır. O Bakı Dövlət Universitetinin və ümumiyyətlə Azərbaycan Respublikasının elm və təhsil işçiləri arasında da özünə məxsus yüksək mövqe qazanmışdir.

Təsadüfi deyil ki, Abuzər müəllim "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi", "Əməkdar elm xadımı" fəxri adlarına layiq görülmüş, "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Professorun əməksevərliyi, işgüzarlığı bu gün də 80 illik yubileyi ərəfəsində gənc və orta yaşlı çağlarında olduğu kimi qaynardır.

Hazırda o Azərbaycan Kitabxanaçılıq Cəmiyyətinin Prezidenti, Azərbaycan Respublikası Təhsil Nazirliyinin Vahid Elmi-Metodik Surasının "Kitabxanaçılıq və biblioqrafiya bölməsinin sədri, BDU Ağsaqqallar Surasının sədri, "Kitabxanaşünasliq və informasiya" jurnalının baş redaktoru kimi çox məsuliyyətli vəzifələri ləyaqətlə icra edir. O, həmçinin bir sıra xarıcı elmi təşkilatların, qurumların fəxri akademiki və üzvüdür.

Abuzər müəllim çoxşaxəli işləri ilə yanaşı Baki Dövlət Universitetinin bir sıra mühüm təşkilati işlərində də yaxından iştirak edir. BDU Nəşriyyat Şurasının sədri kimi Abuzər müəllimin ayrı-ayrı ixtisas və istiqamətlərə aid dərslik, proqramlar toplusu və monoqrafiyaların nəşrlərinin planlaşdırılmasında fəaliyyəti daha önəmlidir.

Professor Abuzər Xələfovu 80 illik yubileyi və 60 ilə yaxın faydalı əməyi münasibəti ilə Coğrafiya fakültəsinin kollektivi adından bir daha təbrik edir, ona möhkəm cansağlığı və faydalı əmək fəaliyyətini onilliklərlə davam etdirmək, ailəsinə xoşbəxtlik arzulayıram.



**Yusif SEYİDOV**

*Bakı Dövlət Universiteti Filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının müdiri, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor, Prezident təqaüdçüsü*

## PROFESSOR ABUZƏR XƏLƏFOV

On il əvvəl – 2001-ci ildə prof. Abuzər Xələfovun 70 yaşının tamam olması münasibəti ilə bir sıra başqa ziyalılarla bərabər, mən də onun haqqında sözlərimi yazmışdım. Onları bir də təkrar etmək istəmirəm. Mənə qəribə gəlir ki, bu on il necə gəlib keçdi ki, xəbərimiz olmadı. Ancaq bir şey var ki, keçən on ildə Abuzərin cismində elə bir ciddi dəyişiklik əmələ gələ bilməyib. O həmin illərdəki Abuzər olaraq qalır: zahiri görkəmində də, işguzarlığı baxımında da. Mənə tez- tez deyirlər ki, nə üçün yaş tamamlarında özün haqqında məqalələr, xatirələr toplusu hazırlatmağa razılıq vermirsən? Düzü, hərdən ürəyimdən keçir. Ancaq dönüb arxaya baxanda elə bir zəngin həyat tarixçəsi görmürəm ki, ona baxam, öyünəm və həmkarlarıma, arzu edənlərə razılıq verəm ki, öz düşündüklərini yazsınlar. Prof. A.Xələfov haqqında tərtib edilmiş arayış dolğunluğu və çoxcəhətliyi ilə onun haqqında yazmaq üçün çox material verir. Bir də hər adam öz həyat tarixçəsini, gördüyü işləri, özü haqqında edilənləri bu qədər dəqiqliklə yadda saxlaya və ya faktlaşdıra bilməz. Burada A.Xələfovun səliqəsini xüsusi qeyd etmək lazım gəlir.



Abuzər Xələfov lap uşaq vaxtlarından fiziki əməklə məşqul olmuş – təsərrüfatda işləmiş və onda iradə möhkəmliyi əmələ gəlmiş, mübariz olmuşdur. Nəyə can atıbsa, ona da nail olubdur. ADU-da Filologiya fakültəsinin kitabxanaçılıq şöbəsinin fakültəyə çevrilməsində və bu fakültənin Azərbaycan Dövlət Universitetində saxlanmasında onun rolu olmuşdur. Bir faktı xüsusi olaraq qeyd etmək lazım gəlir ki, o zaman kitabxanaçılıq şöbəsində həmin ixtisasdan dərs deyən yaşlı müəllimlər var idi, onlar Abuzərin müəllimi olmuşlar, ona dərs demişdilər. Fakültə təşkil olunanda onlar yox, Abuzər Xələfov fakültənin dekanı, sonra da kafedranın müdiri oldu və uzun zaman bu iki vəzifəni birlikdə apardı.

Abuzər Xələfov realist adamdır, həyatın nəbzini tuta bilir, hadisələri, mövcud vəziyyəti qismətləndirməyi və istifadə etməyi bacarır. Yəni o, əsil həyat adamıdır. Vəziyyətdən asılı olaraq, lazım gələndə hücuma keçib sözünü deyir, buna ehtiyac olmayanda sakitcə öz işini görür. Elə adam var ki, qohum-qardaşından xəbəri olmur, onlardan kimin harada, necə yaşadığını bilmir. Abuzər Xələfov isə belə deyil. Yaxın adamlarına doğma münasibət bəsləyir, onların işə düzəlməsinə, həyat qurmalarına yaxından kömək göstərir. Kimi isə, hansı yaxını isə universiteti bitiribsə, o, işə düzəlməlidir, ya universitetin özündə, ya haradasa işləməlidir. Bu kömək baxımından, Abuzər Xələfov çoxlarından fərqlənir.

Abuzər Xələfovun güclü təşkilatçılıq qabiliyyəti var. Abuzər Xələfov bu fakültəyə müəllim kimi, hər adamın gəlməsinə imkan vermədi, onu qorudu və öz yeganəliyini təmin edə bildi. Ona görə bu fakültəyə bəzən Abuzər Xələfovun fakültəsi də deyirlər.

Abuzər Xələfov BDU-nun ictimai həyatında fəal iştirak edir. Universitet tədris-metodşurasının üzvü,

Ağsaqqallar Şurasının sədridir. BDU Nəşriyyat Şırasının sədri kimi çox məsuliyyətli işin öhdəsindən layiqincə gəlir. Proqram və dərsliklərin, dərs vəsaitlərinin rəyə göndərilməsi, müzakirəsi xeyli zəhmət və vaxt tələb edir. İndiyə kimi yüzlərlə belə əsərlər bu şuranın müzakirəsindən keçib, qrif alıb, çap olunubdur. Abuzər Xələfov Universitetin Böyük Elmi Şurasının üzvü kimi də çox fəaldır. Çıxışlar edir, təkliflər irəli sürür, müzakirə olunan məsələlər haqqında sözünü deyir.

Abuzər Xələfov Universitet müəllimlərinin yaşlı nəslinə mənsubdur. Onun 80 yaşı tamam olur. Bu illər boş keçməyib. O, bu illərdə çox şey qazanıbdır. Elmi dərəcə və elmi adlar, fəxri adlar, mükafatlar alıbdır. Adi sadalama onun bu sahədə keçdiyi yolun mənzərəsini göstərə bilər: kolxozçu, əmək və müharibə veteranı, tələbə, müəllim, baş müəllim, dosent, professor, kafedra müdiri, dekan; elmlər namizədi, elmlər doktoru, əməkdar elm xadimi və s. Bu adları qazanmaq hər adamın işi deyil. Prof. Abuzər Xələfov 80 yaşında da cavanlıq eşqi ilə işləyir, yorulmaq bilmir.

Ona cansağlığı arzu edirəm.



Qara MUSTAFAYEV

***Bakı Dövlət Universiteti Biologiya fakültəsinin Onurğasızlar zoologiyası kafedrasının müdiri, Əməkdar elm xadimi, biologiya elmləri doktoru, Prezident təqaüdçüsü***



## ELMLƏRİN HAMISININ ƏHƏMİYYƏTİ EYNİDİR, ALİMLƏR FƏRQLİ OLURLAR

Professor Abuzər Alı oğlu Xələfovu mən 1950-ci illərdən tanıyıram. Mənimlə Abuzər müəllimin həyat yolumuzda az-çox oxşarlıq var. Hər ikimiz 1931-ci ilin dekabr ayında qarlı bir gündə dünyaya gəlmişik. Mən Kürdəmir rayonunun Dəyirmanlı kəndində, Abuzər Xələfov isə Qərbi Azərbaycanda Göyçə mahalının Cil kəndində. Hər ikimiz orta təhsilimizi kənd məktəbində almış, ali təhsil üçün isə Bakı Dövlət Universitetinə üz tutmuşuq. Ömrümüzü bu möhtəşəm elm və tədris ocağında keçirmişik. Ən böyük xoşbəxtliyimiz də elə bu olub. Xoşbəxtik ona görə ki, BDU son 10 ildə möcüzəvi inkişaf edərək, dünya şöhrəti qazanıb. Həmişə nümunəvi qonşu olmuşuq. Həyat amalımızda eynilik var: elmdə yaratmaq və xalqa yaymaq. Deyilənləri nəzərə alıb Abuzər Xələfov adlı bu böyük insan haqqında 80 illik yubileyi münasibətilə bir neçə söz deməyə cəsarət edirəm.

Abuzər müəllim hələ gənc yaşlarında ali təhsil qanunlarını çox yaxşı bilirdi. Metodiki baxımdan çətinliyə

düşən müxtəlif ixtisas sahibləri onun yanına qaçırdılar. Mən də Abuzər müəllimə çox müraciət etmişəm. O, cavan ikən tədrisdə ağsaqqallıq edirdi. Ötən 60 ildə mən Abuzər Xələfovu həmişə və hər bir problemin həllində prinsipial görmüşəm. Ona görə yarım əsrdən çox bir müddətdə BDU-nun ağırlığını çiyinlərində saxlayan dayaqlardan biri kimi etiraf edilib, indi də elədir. «Hər bir qab gec-tez dolur, elm qabı isə heç vaxt dolmur» (Həzrəti Əli).

Lokalik olmaq məqsədilə Abuzər Xələfov haqqında 4 tezis üzərində düşündüklərimi çatdırmaq istəyirəm.

**1. A.A.Xələfov Azərbaycanda kitabxanaşünaslığın banisidir.**

Azərbaycanda kitabxanaşünaslıq 1950-ci illərə qədər BDU-nun Filologiya fakültəsində adi bir fənn kimi tədris edilib. 1960-cı illərdə Abuzər Xələfovun fasiləsiz səyləri nəticəsində müasir kitabxanaşünaslıq və biblioqrafiya kafedrası yaradılıb. Abuzər Xələfov ilk kafedranın ilk müdiri seçilib. Azərbaycan Respublikası Abuzər Xələfovu kitabxanaşünaslığın banisi etiraf edir, ona görə ki, bu insan elmin bu sahəsinin və onun tədrisinin lideri olub, indi də lideridir. Kitabxanaşünaslıq üzrə ilk elmlər namizədi, ilk elmlər doktoru, ilk professor Abuzər Xələfovdur. Kafedra və fakültə yaradıb: kafedranın müdiridir (50 il) və fakültənin ilk dekanı (25 il) işləyib.

**2. A.A.Xələfov Azərbaycanda kitabxanaşünaslıq məktəbi yaradıb.**

Azərbaycanda kitabxanaşünaslığın elmi əsaslarının təşkili professor Abuzər Xələfovun adı ilə bağlıdır. Biz Abuzər Xələfov dedikdə kitabxanaşünaslıq başa düşürük, kitabxanaçılıq dedikdə isə Abuzər Xələfovu xatırlayırıq. Respublikada kitabxanaçılıq sahəsində çalışan mütəxəssislərin hazırlanmasında prof. Abuzər Xələfovun zəhməti danılmazdır. Onun məktəbinə 40 nəfərə qədər elmlər namizədi və elmlər doktoru daxildir. Ali məktəbdə, xüsusən də BDU-da kitabxanaçılığın və informatikanın müasir elmi-texniki bazasının yaradılması professor Abuzər Xələfovun konsepsiyalarına və onun məktəbinə əsaslanıb. Alimin dərslik və dərs vəsaitləri tədrisdə müasirliyi bakalavr pilləsindən tutmuş doktoranturaya qədər təmin edir.



**3. Prof. Abuzər Xələfov – Azərbaycanda kitabxana işi tarixinin və inkişaf yollarının fundamental tədqiqatçısı.**

Azərbaycanda kitabxana işi quruculuğunun tarixi problemləri, nəzəriyyəsi və metodologiyası Abuzər Xələfovun elmi araşdırmalarının əsasını təşkil edir. Onun 1960-cı ildən indiyə qədər nəşr etdirdiyi monoqrafiyalar, dərslik və dərs vəsaitləri kitabxanaşünaslığın tarixini, müasir vəziyyətini və perspektivini hərtərəfli xarakterizə edir. Prof. Abuzər Xələfovun elmi yaradıcılığında ulu öndər Heydər Əliyevin elmi-nəzəri irsinin öyrənilməsi böyük yer tutur. O, həmişə dövlətçiliyin mübariz qoruyucusu olub, indi də mübarizdir. Abuzər Xələfov öz nəfsini cilovlamağı bacarır və hər bir problemin həllində obyektiv mövqe tutur, həmişə də qalib gəlir. Düz iş həmişə düz olur və sahibinə uğur gətirir. Abuzər Xələfov ulu öndər Heydər Əliyevin, sonra da onun siyasətini uğurla davam etdirən zati alilər İlham Əliyevin yollarına həmişə sadiq olub, indi də sadiqdir.

**4. Prof. Abuzər Xələfov dünyada tanınmış ictimai xadimdir.**

Professor Abuzər Xələfov yüksələn xətt üzrə inkişaf etmiş dünya şöhrətli ictimai xadimdir. O, Azərbaycan xalqının qədim dövrlərdən indiyə qədər olan kitabxana mədəniyyətini izləyib araşdırmaqla onu dünya mədəniyyətinə qovuşdurub. Məhz kitabxanaçılığın ta-

rixi dinamikası üzrə fundamental tədqiqatlarına görə keçmiş SSRİ məkanında ilk kitabxanaçı alimdir ki, tarix elmləri doktoru dərəcəsinə layiq görülüb. Abuzər Xələfovun bu tədqiqatları kitabxanaçılıq ilə tarix elminin qarşılıqlı inteqrasiyasının bariz nümunəsidir. Prof. Abuzər Xələfovun ictimai vəzifələrini və uğurlarını saymaqla qurtarmaz. Bircə bunu deyim ki, dünya şöhrətli bu alim, pedaqoq və ictimai xadim 2000-ci ildən indiyə qədər BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademikidir.

Professor Abuzər Xələfovun elmi, pedaqoji və ictimai fəaliyyəti Azərbaycan xalqının və Azərbaycan dövlətinin iştirakı ilə olub və yüksək qiymətləndirilib. O, «Əməkdar mədəniyyət işçisi» (1969); «Əməkdar elm xadimi» (2001); «Şöhrət» ordeni (2000); «Prezident təqaüdçüsü» və s. fəxri adlara layiq görülüb.

Azərbaycan dövləti, Azərbaycan Respublikası Təhsil Nazirliyi, BDU-nun kollektivi və şəxsən akademik Abel Məhərrəmov tərəfindən professor Abuzər Xələfovun 70 və 75 illik yubileylərinin keçirildiyi təntənələrdə mən də iştirak etmişəm. Son 5 ildə bu böyük alimin əvvəlki səy və enerji ilə fəaliyyətdə olmasını 80 illik yubileyi göstərər. İnşallah!

Çoxları kimi mən də arzu edirəm ki, böyük alim və böyük insan Abuzər Xələfovu Allah qorusun!



**Neymət QASIMOV**



***Bakı Dövlət Universiteti Biologiya fakültəsinin Bitki fiziologiyası kafedrasının müdiri, Əməkdar elm xadimi, ABŞ-ın İllinoys EA-nın həqiqi üzvü, biologiya elmləri doktoru, professor***

## CƏFAKEŞ ELM VƏ MƏDƏNİYYƏT XADİMİ

Azərbaycanda kitabxanaşünaslıq elminin banisi, görkəmli alim, gözəl pedaqoq, son dərəcə səmimi insan, əməkdar elm və mədəniyyət xadimi, «Şöhrət» ordenli Abuzər Alı oğlu Xələfov barəsində ürəkdən gələn xoş sözlərimi qısa da olsa, söyləmək istərdim.

Kitabxana işi mənim üçün doğmadır. Belə ki, orta məktəbi bitirdikdən sonra, mən bir il kənd kitabxanasının müdiri kimi əmək fəaliyyətimə başlamışam və kitabxanaçılıq üzrə ixtisasartıma kursunun dinləyicisi də olmuşam.

Hər şeyin başlanğıcı çətin olur. İlk dəfə Azərbaycanda kitabxana işinin təşkilində və Bakı Dövlət Universitetində müstəqil «Kitabxanaçılıq» fakültəsinin yaradılmasında və 25 il bu fakültəyə başçılıq etməsində professor A.Xələfovun xidməti misilsizdir.

A.Xələfov son dərəcə çalışqan, təşəbbüskar və olduqca səmimi, obyektiv insandır. Mən onu 40 ildən çoxdur ki, tanıyıram. Universitet daxilində və kənarda da Abuzər müəllim həmişə məzmunlu, məntiqli çıxışları ilə fərqlənib.

Abuzər müəllim Azərbaycanda kitabxana işinin tarixini və inkişafını mükəmməl tədqiq edən və topladığı zəngin materialları monoqrafiya, dərslik və dərs

vəsaitləri şəklində oxuculara çatdıran görkəmli alim-tədqiqatçı və pedaqoqdur. O, nəinki kitabxanaçılıq fakültəsində, həm də BDU-nun kitabxana fondunun zənginləşməsində, bu sahədə ixtisasçı kadrların hazırlanmasında, seçilməsində də çox mühüm işlər görmüşdür.

A.Xələfov kitabxana işinin təşkilində novator alim kimi müasir informasiya vasitələrini – kompüter texnikasını və İnternet sistemini kitabxana sahəsində uğurla tətbiq etmişdir. O, hər zaman kitabxanaçılıq fakültəsinin və kafedraların maddi-texniki bazasının möhkəmləndirilməsində xüsusi xidmətlər göstərmiş və göstərir.

Abuzər müəllim kitabxanaşünas alim kimi kitabxana işinin tarixi və nəzəriyyəsi problemləri ilə yanaşı, həm də bu istiqamətdə metadoloji məsələlərin də mahir bilicisidir.

Geniş diapazonlu biliyə, zəngin təcrübəyə, güclü idraka malik olan A.Xələfov Azərbaycanda nəinki təkcə kitabxanaşünaslığın, həm də mədəniyyətşünaslığın da uğurlu inkişafında böyük rol oynamış və oynayır.

A.Xələfov indiyədək onlarla dissertasiya işinə rəhbərlik və opponentlik etmişdir. Uzun illərdir ki, prof. A.Xələfov BDU-nun Elmi Şurasının üzvü kimi səmərəli fəaliyyət göstərmiş və həmişə də özünün dəyərli məsləhət və tövsiyələri ilə başqalarına nümunə olmuşdur.

Uzun müddətdir ki, Abuzər müəllim BDU-nun nəşriyyatı nəzdində Metodiki Şuranın sədridir. Onun bilavasitə rəhbərliyi və təşəbbüsü ilə minlərlə dərslik, dərs vəsaiti, monoqrafiyalar, metodiki göstərişlər və s. çap edilmişdir.

Görkəmli alim, cəfakeş kitabxanaçı A.Xələfov ömrünün səkkizinci onilliyini başa vurub, doqquzuncu onilliyə qədəm qoyur. Bu şərəfli yubiley münasibətilə xalqımızın ağsaqqal ziyalısını biz də ürəkdən təbrik edir, ona uzun ömür, möhkəm cansağlığı və tükənməz yaradıcılıq uğurları arzu edirik!



**Aybəniz**
**ƏLİYEVA-KƏNGƏRLİ**

***Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanasının direktoru, fılologiya elmləri doktoru***



# MİLLİ ZİYALILIQ MEYARI

*Hər bir insanın qiyməti onun etdiyi yaxşılıqlarla ölçülür.*
***Hz. Əli***

Görkəmli ziyalı, minlərlə tələbəyə elm öyrətmiş insan, müəllim haqqında yazmaq həm məsuliyyətlidir, həm də şərəfli. Bu məsuliyyət həmin alimin nüfuzu, elmə verdiyi töhfələri, insanlara, vətənə, millətə, dövlətə münasibəti ilə bağlıdır. Adını həmişə böyük hörmət hissi ilə çəkdiyimiz, şəxsiyyətinə sonsuz rəğbət bəslədiyimiz müəllimimiz Abuzər Xələfov da məhz elə alimlərdəndir ki, onun haqqında fikirlərimiz bir neçə vərəqlik təəssüratla kifayətlənmir. Abuzər Xələfovun böyüklüyü ondandır ki, onun mənəviyyat dünyası ilə intellektual aləmi tam harmoniya təşkil edir. Abuzər müəllim klassik müəllimlərə, köhnə kişilərə xas olan ədəb-ərkan, səliqə-səhman, oturuşu-duruşu ilə hamını özünə cəlb edən saf ürəkli, həlim təbiətli bir insandır. Biz onu həmişə belə görmüşük, belə tanımışıq... Bu gün də – 80 yaşının tamamında da, o, belədir!

Abuzər Xələfovun portretini yaradarkən ən vacib dörd ştrixi-təbiətdə mövcud olan dörd ünsür qədər vəhdətləşmiş məqamı xatırlayıram: müəllim Abuzər Xələfov, alim Abuzər Xələfov, insan Abuzər Xələfov və vətəndaş Abuzər Xələfov. Abuzər müəllimlə ilk tanışlığımız ötən əsrin 60-cı illlərinə təsadüf edir. Universitetə təzəcə daxil olmuşduq, ktabxanaçılq şöbəsi Flologiya fakültəsinin tərkibindən çıxaraq fakültəyə çevrilmişdi. Lakin bu çevrilmə yalnız hər hansı bir göstərişin, əmrin məntiqi nəticəsi deyildi, bu həm də kitabxana işi sahəsində kadr potensialının formalaşmasının, kitabxanaçılığın bir elm kimi ortaya çıxmasının və bu elmə öndərlik edə biləcək, onun inkişafı naminə əlindən gələni əsirgəməyəcək bir insanın – Abuzər Xələfovun məsələyə olduqca ciddi və ardıcıl yanaşmasının bəhrəsi idi. Təhsil aldığımız ilk günlərdə Abuzər müəllim haqda çox az şeydən xəbərdar idik, hələ onun bu gün göz bəbəyi kimi qoruduğumuz sənətimizin var olması üçün nələri etdiyindən, nələrlə üzləşdiyindən, kitabxanaçılığı bir elm kimi qurub-yaratmaq yolunda hansı məşəqqətlərdən keçdiyindən xəbərsiz idik. Təkcə onu bilirdik ki, 1931-ci ildə Qərbi Azərbaycanda anadan olub, 1941-1946-cı ildə kolxozda işləyib və "1941-1945-ci illər Böyük Vətən müharibəsində "Rəşadətli əməyinə görə" medali ilə təltif edilib. 1950-ci ilə Krasnoselsk rayonunun Toxluca kəndində orta məktəbi bitirib, Azərbaycan Dövlət Universitetinin Kitabxanaçılıq şöbəsinə daxil olub. 1955-ci ildə təhsilini başa vurduqdan sonra əla oxumasını, ictimai fəaliyyətini nəzərə alıb, onu Azərbaycan Dövlət Universitetində müəllim vəzifəsində saxlayıblar.

Təhsil aldığımız az müddət ərzində Abuzər müəllimin yüksək daxili mədəniyyətə malik, mülayim təbiətli və təvazökar bir insan olmaqla yanaşı, həm də çox işgüzar, tələbkar və prinsipial bir müəllim olduğunu özümüzə tam aydın etdik. O, hər zaman planlaşdırdığı bir işin və ya bir tədbirin ən məsuliyyətli və ağır hissəsini öz üzərinə götürərdi. Məhz özünə qarşı yüksək tələbkarlığı, işgüzarlığı və prinsipiallığı sayəsində o, universitet təhsili almış müəllim kimi kifayətlənmədi. 1961-ci ildə ilk dəfə olaraq Azərbaycanda kitabxana işinin tarixinə dair namizədlik, 1974-ci ildə isə doktorluq dissertasiyalarını müdafiə etdi. Və beləliklə, gərgin əməyi, şəxsi təşəbbüsü və işgüzarlığı sayəsində şöbədən müstəqil fakültəyə çevrilmiş Kitabxanaçılıq fakültəsinə 25 il rəhbərlik etdi. 1978-ci ildə Abuzər müəllim professor elmi adını aldı.

Tədrisdə Abuzər müəllim ən mürəkkəb məsələni belə özünəməxsus şəkildə elə anlaşıqlı təsvir və şərh edirdi ki, elə bil ən sadə bir şeydən danışır. Və təbii ki, bu sadəlik böyük zəhmətin sayəsində fəth edilmiş yüksəklikdən xəbər verirdi. Təsadüfi deyil ki, Abuzər müəllim həmişə öz mühitində güclü hafizəyə, aydın ağıla və çox geniş erudisiyaya malik bir şəxsiyyət kimi xarakterizə olunub. O, demək olar ki, istənilən sahədə (dil, ədəbiyyat, incəsənət, tarix və s.) öz müsahibini maraqlandıran söhbətlər apara bilər və öz konkret mülahizələrini təvazökarlıqla şərh edər. Tələbə olduğumuz illərdə onu dinlədikcə əmin olurduq ki, o, hansı bir sahə ilə məşğul olsa, ciddi uğurlar əldə edər və həmin sahənin görkəmli mütəxəssisi olar.

Bu məqamda Abuzər müəllimin qəzetlərlə verdiyi müsahibələrdən birini xatırlayır və bir sitata toxunmaq istəyirəm: «Əvvələr bizim sənətə o qədər ağız büzən, istehza edənlər vardı ki... Məhəl qoymadım, nəhayət, dövlət orqanları qarşısında dəfələrlə məsələ qaldırmaqla məqsədimə nail oldum. Mən enerjimi ancaq işə verdim. Kimsənin qeybətini eləmədim, kimsəyə pisliyim

dəymədi. Buna görə də ətrafımdakılar həmişə hörmətimi saxlayıblar». Razılaşmamaq olmur. Onunla bir yerdə çalışanlar, dostları, tələbələri, bir sözlə, bu nəhəng elm fədaisi ilə təmasda olan bütün insanlar Abuzər Xələfov haqqında həmişə xoş xatirələr danışırlar. Doğrudan da, Abuzər müəllim işıqlı insandır. Özü işıqlı olduğu kimi, uzun illər kitabxanaçılıq sənətinin də yoluna işıq saçmış, respublikamızda bu işin inkişafı üçün böyük məktəb yaratmışdır. Bu gün kitabxana işinin yükü də elə Abuzər müəllimin və onun məktəbinin yetirmələrinin çiyinlərində qərar tutub. Yarım əsrdən artıq kitabxana işinin inkişafına xidmət etmiş bu fenominal şəxsiyyət bütün yaradıcı fəaliyyətini milli-mənəvi dəyərlərimizin qorunmasına yönəldib. Abuzər müəllim bütün ruhu ilə azərbaycanlıdır, o, bu xalqı sevir və yaratdıqları da xalqın ruhundan güc alır. Onun keçdiyi şərəfli yol doğrudan da, əsil məktəbdir. Və bu məktəbin yetirmələri hələ neçə-neçə illər kitabxana işini yaşatmaq qüdrətinə malikdir.

Azərbaycan kitabxanaşünaslıq elminin banisi, milli kitabxanalarımızın tarixinin görkəmli tədqiqatçısı, Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, Kitabxanaşünaslıq-informasiya fakültəsinin yaradıcısı, Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər müəllim usanmadan, yorulmadan çalışan, elmi yeniliyi, kitabxanalarda informasiya və kommunikasiya vasitələrinin tətbiqini alqışlayan və novatorluğa meyilli şəxsiyyətlərdəndir. A.Xələfov kitabxana işinin tarixinə və kitabxanaşünaslığın aktual elmi-nəzəri və nəzəri-təcrübi sahəsinə dair çoxsaylı dərslik, dərs vəsaitləri, monoqrafiyalar və elmi məqalələrin müəllifidir, 20-dən artıq elmlər namizədinin elmi rəhbəri olmuşdur. Azərbaycan elminin bu sahəsinin inkişa-



fındakı xidmətlərinə görə professor 1969-cu ildə Azərbaycanın Əməkdar mədəniyyət işçisi, 2001-ci ildə Əməkdar elm xadimi fəxri adlarına layiq görülmüş, son 20 il ərzində Respublika Kitabxana Şurasına rəhbərlik etmiş, 1998-ci ildə isə ilk dəfə olaraq Azərbaycan Kitabxanaçılar Cəmiyyəti yaratmış və onun ilk prezidenti seçilmişdir. Abuzər müəllim həm də Birləşmiş Millətlər Təşkilatı yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademikidir. O, uzun illərdən sonra qəbul olunmuş «Kitabxana işi haqqında» Qanunun hazırlanmasında bilavasitə iştirak etmiş və çox mürəkkəb bir məsələnin həllinə qanunda kitabxanaların elm, mədəniyyət mərkəzi olmaqla bərabər, həm də təhsil müəssisəsi adlanmasına nail olmuşdur. 2000-ci ildə Abuzər müəllim elm, mədəniyyət və təhsilin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikasının ən yüksək Dövlət mükafatı olan «Şöhrət» ordeninə layiq görüləndə bizlər bu uğuru öz uğurumuz, peşəmizə, sənətimizə verilən ən ali qiymət kimi dəyərləndirdik. 2004-cü ildə qəlbimizin adamı Amerika Bioqrafiya İnstitutu tərəfindən «İlin adamı» seçildi, sevincimizə sevinc qatıldı.

Kitabxanaşünaslıq elminə dair bir çox elmi əsərlər yaratmış Abuzər müəllim bu gün də usanmadan çalışır, yeni əsərlər üzərində işləyir. Onun müəllifi olduğu 3 cildlik «Kitabxanaşünaslığa giriş», «Azərbaycanda kitabxana işinin tarixi», «Kitabxana işinin tarixi kursuna giriş» kimi əsərləri kitabxana işi sahəsinin bütün mütəxəssisləri üçün ən dəyərli mənbədir. Ötən əsrin 70-80-ci illərini Azərbaycanda kitabxana işinin qızıl dövrü hesab edən Abuzər müəllim bütün bu uğurları ulu öndərimiz, ümummilli liderimiz, həmin dövrlərdə respublikaya rəhbərlik etmiş Heydər Əliyevin adı ilə bağlayır, Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsini hər bir

azərbaycanlının uğuru hesab edir. «Heydər Əliyev və Azərbaycanda kitabxana işi» kitabı Abuzər müəllimin Heydər Əliyev şəxsiyyətinə dərin ehtiramının təcəssümüdür. İki fəsildən ibarət olan bu kitabda ümummilli lider Heydər Əliyevin Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan kitabxana işi sahəsindəki misilsiz xidmətlərindən bəhs olunur. Burada kitabxanaların xalqımızın mədəni-mənəvi tərəqqisində və cəmiyyətdəki əvəzsiz rolu haqqında Heydər Əliyevin fikirləri şərh olunur, onun XX əsrin ikinci yarısında respublikada kitabxana şəbəkəsinin inkişafında olan xidmətlərindən danışılır.

Professor Abuzər Xələfovu tanıyanlar yaxşı bilir ki, o, daim elmi axtarışlardadır, O, daim tədqiq edir, daim yazır, öyrənir, öyrədir. Bu mənada Abuzər Xələfovun hər hansı elmi əsəri haqqında "sonuncudur" deyə danışmaq olmur. Çünki onlarla monoqrafiyanın, elmi əsərin, yüzlərcə elmi məqalənin müəllifi həmişə kitabxana ictimaiyyətini yeni əsərləri ilə sevindirir, təşkilatlandırır, maarifləndirir. Bu isə Onun, yüksək pedaqoji keyfiyyətlərindən xəbər verir. Abuzər müəllimin elmi və pedaqoji fəaliyyəti bütöv bir vəhdət təşkil edir. Onun həyat salnaməsində alimlik və müəllimlik hər zaman qoşa addımlamış, bir-birini tamamlamışdır.

Abuzər müəllim kimi ziyalılar millətin yoluna işıq tutan, insanlara elm, təhsil, mənəviyyat nuru çiləyən, onu aydın sabaha aparan insanlardır. Ziyalı isə Vətən və millət yolunda zəkasını, intellektini əsirgəməyən insan olub yaxşıların yaxşısı, mənəviyyatca zəngin şəxsiyyətdir. Ziyalı millətinə, dövlətinə sədaqətli xidməti ilə, cəmiyyətə verdiklərinin sanbalı və miqyası ilə böyükdür. Abuzər Xələfov milli ziyalılıq meyarıdır, ustaddır. 80 yaşın mübarək, ustad!..



**Əbdül ƏLİZADƏ**

*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya kafedrasının müdiri, psixologiya elmləri doktoru, professor, Prezident təqaüdçüsü*



## ƏSRİN GÖRKƏMLİ MAARİFÇİ ZİYALISI

Böyük Azərbaycan maarifçiləri xalqı həmişə elmə səsləyib, kitabı Azərbaycan ailəsinin böyük sərvəti sayıblar. Respublikanın adlı-sanlı, şöhrətli universitetində – Bakı Dövlət Universitetində bu böyük maarifçilik ənənələrini məhəbbətlə yaşadan və sevə-sevə inkişaf etdirən görkəmli ziyalılarından biri də professor Abüzər Xələfovdur.

Professor A.Xələfov Azərbaycanın allı-güllü, bərli-bərəkətli, füsnkar güşələrindən birində, Qərbi Azərbaycanda, Göyçə mahalının unudulmaz Çil kəndində boya-başa çatmış, Azərbaycan xalq fəlsəfəsinin hikmətləri, ülvi etnopsixoloji və etnopedaqoji köklərdən qaynaqlanan böyük aşıq Ələsgərin əzəmətli nəğmələri ilə tərbiyə olunmuşdur. Onun sosiallaşmasında Cil kənd yeddiillik məktəbinin və Toxluca kənd orta məktəbinin, eyni zamanda Böyük Vətən müharibəsi illərində kolxozda işləməsi mühüm rol oynamışdır.

Onun həyat salnaməsinin önəmli bir mərhələsi 1950-ci ildən – Bakı Dövlət Universitetinə daxil olduğu günlərdən başlayır. 1950-1955-ci illərdə Abuzər Xələfov Universitetin tələbəsi kimi kitabxanaşünaslığı sistemli

öyrənmiş və sonrakı illərdə Azərbaycan mədəniyyətinin məhz bu sahəsində böyük uğurlar qazanmışdır. Yaxşı yadımdadır, tələbəlik illərində həmişə kitabxanaçılıq ixtisası üzrə kadr hazırlığı məsələsi onu narahat edir və belə bir fakültənin yaradılmasının zəruri olduğunu daima vurğulayırdı. Onun fəal iştirakı və xidməti sayəsində, o dövrdə universitetdə fəaliyyət göstərən kitabxanaçılıq şöbəsi müstəqil fakültəyə çevrilmiş və gənc alim, tarix elmləri namizədi, dosent Abuzər Xələfov fakültənin ilk dekanı seçilmişdir. Bu vaxta qədər isə, 1961-ci ildə o «Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932)» mövzusunda namizədlik dissertasiyası müdafiə edərək, tarix elmləri namizədi elmi dərəcəsi almış, dosent vəzifəsində çalışırdı. 1975-ci ildə isə, Abuzər Xələfov «Azərbaycanda kitabxana işinin tarixi (1935-1959)» mövzusunda doktorluq dissertasiyası müdafiə edərək, təkcə Azərbaycanda deyil, eləcə də Sovet İttifaqı məkanında kitabxana işi sahəsində ilk tarix elmləri doktoru alimlik dərəcəsi almışdır. Bütövlükdə, o 1962 - 1970 və 1980 - 1995-ci illər ərzində, yəni 25 il fakültənin dekanı olmuş, 1963-cü ildən bu günə qədər isə «Kitabxanaşünaslıq və biblioqrafiya» kafedrasının müdiri vəzifəsində işləyir. Bu insan həyatı üçün həm şərəfli, həm də böyük tarixdir. Göründüyü kimi o, həm kitabxana işinin tarixinin elmi əsaslarını tədqiq etmiş, həm fakültənin təşkilində və inkişafında misilsiz xidmətlər göstərmiş, həm də gənc kadrların hazırlanmasında xüsusi əmək sərf etmişdir. Ümumiyyətlə, universitetdə işlədiyi bu illər ərzində dediyi usdad dərsləri, apardığı təşkilati işlərin nəticəsində minlərlə gəncin əzəmətli kitabxanaçılıq ömrü başlanmışdır. Professor A.Xələfov özünün sistemli axtarışları ilə respublikada peşəkar kitabxanaçılar nəslinin formalaşmasında önəmli rol oy-



namış, ardıcıl yaradıcılıq axtarışlarında, xüsusilə doktorluq dissertasiyasında Azərbaycanda kitabxanaçılıq məktəblərinin fundamental məsələlərini öyrənmiş kitabxanaçılığın elmi-metodoloji konsepsiyasını yaratmış və Azərbaycan kitabxanaçılığının inkişaf perspektivlərini sistemlə müəyyən etmişdir.

Professor Abuzər Xələfov sanballı monoqrafiyaların, dərsliklərin dərs vəsaitlərinin müəllifi kimi elm ictimaiyyətinə tanışdır. Bunlardan «Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932)» [1960]; «Azərbaycan kitabxana işinin tarixindən (1870-1920)» [1960]; «Azərbaycanda kitabxana işinin tarixi (1933-1959)» [1974]; «Kitabxanaşünaslığa giriş» (3 hissədə); [2001-2003]; «Azərbaycan kitabxana işi» [2006]: «Azərbaycan kitabxana işinin tarixi [2004-2010]»; «Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafı» [1989]; «Azərbaycanda ali kitabxanaçılıq təhsili» [1998] və s. qeyd etmək olar.

Alimin yaradıcılığında ulu öndər Heydər Əliyevin elmi nəzəri irsinin öyrənilməsi və təbliği mühüm yer tutur. Onun «Heydər Əliyev və Azərbaycanda kitabxana işi», «Heydər Əliyev. Biblioqrafik məlumat kitabı» kimi sanballı kitabları bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Ümumiyyətlə, öz zəngin elmi fəaliyyəti dövründə 350 çap vərəqi həcmində 30 kitab, 300-dən çox dövri mətbuat əsəri çap etdirmişdir.

Bu gün inamla belə bir fikir söyləyə bilərik ki, respublikamızda fəaliyyət göstərən bütün kitabxanaşünas alimlər Abuzər Xələfov məktəbinin yetirməsidir. Belə bir fikri ölkəmizdə fəaliyyət göstərən çox az alim haqqında söyləmək olar. Onun bilavasitə rəhbərliyi ilə bir nəfər doktorluq, on beş nəfər namizədlik dissertasiyası müdafiə etmişdir. İyirmi beş nəfər elmlər namizədi və

elmlər doktorunun hazırlanmasında elmi məsləhətçi və həmçinin opponent kimi xüsusi fəallıq göstərmişdir. Maraqlıdır ki, professor Abuzər Xələfov təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da çoxlu sayda namizədlik və doktorluq dissertasiyalarının opponenti və ya müdafiə şuralarının üzvü olmuşdur ki, bu da onun başqa ölkələrdə də nüfuzlu alim kimi tanındığını sübut edir.

Alimin «Kitabxanaçılıq informatikası», «Kitabxanaçılıq peşəsi», «Kitabxanaçılıq pedaqogikası», «Kitabxanaçılıq psixologiyası», «Kitabxanaçılıq iqtisadiyyatı» kimi kitabxanaşünaslıq sahələrinin formalaşmasında xüsusi xidmətləri olmuşdur.

Bu uğurlar professor A.Xələfovun Azərbaycan mədəniyyətində əldə etdiyi böyük nailiyyət kimi dəyərlidir. O, yüksək səviyyəli alim, səriştəli pedaqoq-müəllim, təcrübəli rəhbər işçi, fəal ictimai xadimdir. Onun xidmətləri dövlətimiz tərəfində həmişə qiymətləndirilmişdir. 2000-ci ildə kitabxanaşünaslıq elminin inkişafında böyük xidmətlərinə görə «Şöhrət» ordeni ilə təltif edilmiş, 2001-ci ildə Azərbaycan Respublikasının Əməkdar elm xadimi adına layiq görülmüş, 2006-cı ildən Prezident təqaüdçüsüdür. Professor Abuzər Xələfovun Azərbaycan Jurnalist Həmkarlar İttifaqının «Qızıl qələm» fəxri media mükafatına və AzərKİVHİ - nin «İlin nüfuzlu ziyalısı» fəxri diplomuna layiq görülməsi də onun Vətən və xalq qarşısında xidmətlərinə verilən yüksək qiymət kimi çox dəyərlidir.

Professor A.Xələfov Bakı Dövlət Universitetinin mütəfəkkir şəxsiyyətlərindən biridir. Müasir şəxsiyyət nəzəriyyələrinin simptomlar komplekslərinə əsaslanaraq, deyə bilərik ki, professor Abuzər Xələfov ürəkaçıqlıq, xeyirxahlıq, böyük ünsiyyət mədəniyyəti, məsuliyyət



hissi, iradə əzmi ilə seçilir, həm də insanlara, ilk növbədə, Universitetin müəllim kollektivinə, tələbə bakalavrlara və magistrantlara, doktorantlara böyük xeyirxahlıq və qayğı hissi ilə yanaşır, onların inkişafında mütəfəkkir müəllim kimi böyük rol oynayır.

Özünün təfəkkürü, istedadı, intellekti ilə seçilən bütöv şəxsiyyət, Azərbaycan kitabxanaçılıq elminin inkişafında, kitabxanaçılıq kadrlarının formalaşmasında yorulmadan çalışan və böyük nailiyyətlər əldə etmiş professor Abuzər Xələfov müdriklik yaşının zirvəsindədir. Mən, əziz tələbə yoldaşımı, dostumu, qardaşımı, həmkarımı 80 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edir, ona uzun ömür, cansağlığı, övladlarının və nəvələrinin xoşbəxt olmasını arzulayıram.




## Cahangir MƏMMƏDLİ

*Bakı Dövlət Universiteti Jurnalistika fakültəsinin Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müdiri, filologiya elmləri doktoru, professor, Prezident təqaüdçüsü*


# ALİMİN UNİVERSİTET LƏYAQƏTİ

Alim elm adamıdır. Elmdə arzuladığı, can atdığı mərtəbəyə çatanda adama alim deyirlər, yaxud adama həm hüquqi, həm də mənəvi bir status verilir: alim statusu. Sözün klassik anlamında alim statusu, ümumiyyətlə, elmlərə talib olan insana daha çox mənəvi titul kimi şamil edilmişdir. Cəmiyyətin yüksək biliyə malik insana etibar etdiyi bu mənəvi titul sonralar hüquqi status almış və bu məqamda bilikdən, savaddan əlavə, cəmiyyət, ictimai fikir alimdən həyat dərsləri, dünyanı dərk etməkdə müasirlərinə və özündən sonrakı nəslə müdriklik fəlsəfəsi təqdim etmək tələbləri qoymuşdur. Min illərin axarından keçib bu günə qədər özünü qoruyub saxlayan bu ictimai tələb yaşamaqda və alim qarşısında öz şərtlərini qoymaqdadır. Yəqin elə buna görədir ki, alim nə qədər hüquqi statusa malik olsa da, ictimai fikrin min illərdən bəri qoruduğu tələblərə cavab vermirsə, onun müasirlərinə və gələcək nəsillərə qoyub gedəcəyi fəlsəfi dünyası yoxdursa, o, elə ancaq hüquqi statusla baş girləyəcək və ictimai fikrin qəbul etmədiyi elmə maneə faktı kimi yaddaşlarda qalmayacaq.



Və yəqin elə ona görədir ki, bütün zamanlarda və bütün çeşidli cəmiyyətlərdə alimə, hər şeydən əvvəl, böyük, müdrik insan, zamanına, dünyaya sığmayan şəxsiyyət kimi baxmışlar. Belə şəxsiyyətlər akademik dünyadan həm də pedaqoji dünyaya – universitet aləminə keçid zamanı ikiqat məsuliyyətlə üzləşirlər: birincisi, universitet sözünün semantikasındakı hərtərəflilik, hərtərəfli biliyə sahib olmaq, ikincisi, bu biliyi öyrətmək bacarığı. Universitet kimi böyük mənaya malik bir elm və təhsil məbədi (bu yerdə "məbəd" leksemini kontekst özü tələb edir) burdakı alimdən metr – ustad bacarığı tələb edir. Ustad səviyyəsinə yüksəlməyən alim universitetdə sıradan bir müəllim faciəsini yaşayır və ustadların hesabına sonralar böyük-böyük mövqelər qazanacaq tələbələrin yaddaşında qalmamaq təhlükəsi ilə üzləşirlər. Universitet yaddaşlarda qalan böyük alimlərin, ustad pedaqoqların hesabına elm-təhsil məbədi kimi qəbul olunur. Və biz universitetdə çalışan professoru ancaq böyük alimliyinə, ustad müəllimliyinə görə qiymətləndiririk. Bəzən yaxından tanıdığın, elminə, müəllim ustadlığına, müdrikliyinə, ortaya qoyduğu əsərlərinə bələd olduğun bircə professor insanın düşüncəsində bu hüquqi statusun tipik obrazının yaranmasına bəs edir. Mən Bakı Dövlət Universitetində tanıdığım professorlar sırasında Abuzər Xələfovu belə görmüşəm və belə görməkdəyəm. 1964-cü ildə universitetin lap birinci kursunda oxuduğum zaman Abuzər müəllimi yaxından tanımaq qismətimə düşüb. Əlbəttə, mən o zaman elmlər namizədi, hələ 1955-ci ildən Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasında işləyən Abuzər müəllimi şəxsən tanıya bilməzdim. Çünki mən həm də o zaman tədris binalarından əziyyət çəkən universitetin bir-birindən uzaq korpuslarından birində jurnalistika ixtisasında oxuyur-

dum, Abuzər müəllim tamam başqa bir korpusda kitabxanaçı olmaq istəyən tələbələrə dərs deyirdi. Amma mənim həyatımın məzmununda, insan kimi formalaşmağımda əməyi olan, həmişə qayğılarımla yaşamış, uşaqlıq və məktəb illərimdəki əziz, müqəddəs dostum Çingiz Məmmədov Abuzər müəllimin tələbəsi idi. Məndən cəmi bircə yaş böyük və orta məktəbdə bircə sinif yuxarıda oxumuş dostum Çingiz həyatı, insanları, dünyanı, ətrafı məndən çox-çox yüksək duyumla təhlil edirdi. Onun hər kəsə, dosta, müəllimə, insana qiyməti mənim üçün etalon idi. Abuzər müəllimin böyütdüyü, həyata vəsiqə verdiyi dostum Çingiz universiteti bitirəndən ömrünün sonunadək (2005) 8-ci kilometr qəsəbəsində metronun "Neftçilər" stansiyasının lap yanında böyük bir kitab mağazasında müdir oldu və bütün məsuliyyətimlə bəyan edirəm ki, Bakı universitetlərinin bizim nəsildən olan şəxsiyyətlərinin bir çoxu həm də onun darısqal kabinetində formalaşırdı.

Bax, bu Çingiz tələbə vaxtı məni də müəllimi Abuzər Xələfovla tanış etmişdi. Qabağından yeməyən, hər kəsi bəyənməyən bu Çingiz Abuzər müəllimə müqəddəs insan kimi baxırdı, sonralar da o darısqal müdir kabinetində alimin, müəllimin vətəndaşlığından, insanlığından, tələbəyə ideal münasibətindən söz düşəndə öz fikrinə bir qayda olaraq "mənim müəllimim Abuzər müəllim dərsdə bu məsələ haqqında belə deyirdi..." sözləri ilə başlayırdı. Amma, Çingiz Abuzər müəllimi indi başqa universitetlərdən olan dostlarına təqdim edirdi. Mən isə artıq Abuzər müəllimi ondan qat-qat artıq tanıyırdım. Çünki mənim tələbəlik illərim geridə qalmışdı və mən Abuzər Xələfovla elm və təhsil məbədi olan universitetdə bir yerdə çalışırdım ...

Sonralar tale elə gətirdi ki, jurnalistika və kitabxanaçılıq fakültəsi universitetdə bir korpusda yerləşdi. Bu məsafə yaxınlığı jurnalistika və kitabxanaçılıq fakültələrinin mənəvi qovuşmasına şərait yaratmışdır. İndi biz Abuzər müəllimi hər gün, hər saat görürük, onunla hal-əhval tuturuq.

Abuzər Xələfov lap əvvəldən öz dünyasına, öz xarakterinə görə ixtisas seçib: Kitabxanaşünaslıq. Virtual internet dünyasının indiki çağında, əlbəttə, kitab, kitabxana, kitabşünaslıq anlayışları cavan nəsil tərəfindən ironiya ilə qarşılana bilər. Amma Abuzər Xələfovun hələ 1962-ci ildə yaratdığı Kitabxanaçılıq fakültəsinin ötən əsrin 60-80-ci illərdəki fəaliyyətini göz önünə gətirin. Bütün dünyada «kitab bumu» kimi qiymətləndirilən o dövrdə kitab və kitabxana Allahın evi hesab olunan məscid qədər, kilsə qədər qiymətli idi. Bu qiymət, kitabı duyanların gözündə həmişə elə bu səviyyədə də qalacaq. Dünya klassiklərinin rus dilində nəfis şəkildə nəşr olunan, bu gün mənim də ev kitabxanamı bəzəyən yüzlərlə kitabı biz çox zaman kitab alverçilərindən on qat qiymətinə alırdıq. Belə bir zamanda Abuzər Xələfov Azərbaycanda kitab elminin, elmşünaslığının və kitabxanaçılığın ən səviyyəli, ustad alimi kimi qəbul olunurdu. Abuzər müəllim 1962-ci ildən yaratdığı Kitabxanaçılıq fakültəsinin müxtəlif vaxtlarda iyirmi beş il dekanı olmuş, 1963-cü ildən isə paralel olaraq Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasına müdir seçilmiş və indi də həmin kafedraya rəhbərlik etməkdədir. Abuzər Xələfov tarixçi-kitabxanaşünas alimdir. Onun Azərbaycanda kitabxanaçılıq tarixinin tədqiqi milli mədəni-kulturologiya tariximizin qürur doğuran səhifələrinin tədqiqidir. Həm də Abuzər müəllim faktları konstatasiya etməklə məşğul deyil, kitabxanaya xalqımızın tarixi münasibətini bütöv bir xalqın elmə, mədə-

niyyətə, bəşəri dəyərlərə münasibəti kimi təhlil edir, insanda öz tarixinə məhəbbət hissi aşılayır.

Əlbəttə, Abuzər müəllimə həsr olunan bu kitabda bir çox məqalə və esselər fədakar alimin əsərlərinə istinad edəcək, onları qiymətləndirəcək. Ona görə də, mən 50 ildən artıq bir müddətdə müqəddəs kitab sahəsində yüzlərlə məqalənin, onlarca monoqrafiyanın, neçə-neçə dərsliyin müəllifi olan bir alimi şəxsən mənim gözümdə ucaldan bəzi fəaliyyət anları barədə danışacam.

Abuzər Xələfov uzun illərdən bəri universitet Elmi Şurasının üzvüdür. Təxminən on ildir ki, mən də bu şuranın üzvüyəm və biz bu mənada həm də bir yerdə çalışırıq. Bakı Dövlət Universitetinin Elmi Şurası universitetdə ali səlahiyyətli bir qurumdur. Universitetin rektoru, akademik Abel Məhərrəmov bu Şurada tam demokratik, çoxsəsli, plüralist bir ab-hava yaratmışdır. Lakin bu demokratik ab-havanın gerçəkləşməsi birbaşa şuranın üzvlərindən asılıdır. Elmi Şuranın heç də bütün üzvləri fəal olmur. Adətən hər yerdə olduğu kimi, burada da sanki hamı beş-on nəfər fəal alimin fikirlərinə arxayındır, hər şeyi onlardan gözləyir. Abuzər müəllim hamının fikir umduğu, problemlərin həlli yollarını göstərmək missiyasına arxayın olduğu bir alim kimi həmişə-istisnasız olaraq həmişə öz sözünü cəsarətlə deyən adamdır. Elmi Şura üzvləri onun fikirlərindən, bir qayda olaraq, həmişə faydalanırlar.

Alimin elmdə yerini əbədiləşdirən faktlardan biri də onun məktəb yaratmaq bacarığıdır. Elmdə, sənətdə məktəb xüsusi proqram və ya öhdəliklə yaranmır. Məktəb alimin, sənətkarın fəaliyyətində özünü göstərən yeni fədakar keyfiyyətin və bütün bunların ictimaiyyətdə qəbul olunması prosesində yarana bilər. Abuzər Xələfov Azərbaycanda Kitaxanaşünaslıq elminin yaradıcısı,



özünün davamçılarını yetişdirən bir alim kimi tanınır. Onun məktəbinin Bakı Dövlət Universitetində uğurla fəaliyyət göstərən bütöv bir kollektivi var: Kitabxanaçılıq fakültəsi. Böyük alimin təşəbbüsü ilə yaranan bu fakültə son illərdə – informasiya texnologiyasının yeni inkişaf mərhələsində kitabxanaçılıq və informasiyanı eyni məkanda birləşdirməyi vacib sayıb. Bu ideyanı Abuzər Xələfov gündəmə gətirmiş, universitet rəhbərliyi isə onu gerçəkləşdirmişdir.

Bu gün həmin ideyanın gerçəkləşməsi ilə formalaşan Kitabxanaçılıq və informasiya fakültəsi bu sahədə elmin və praktikanın modern formatını ortaya qoyur. Bu modernləşmiş fakültədə çalışanların hamısı Abuzər müəllimin yaratdığı məktəbin uğurlu davamçılarıdır.

Bakı Dövlət Universitetinin rəhbərliyi, adətən, alim-pedaqoqları profilinə görə işə cəlb etməyi yaxşı bacarır. Bu mənada professor Abuzər Xələfova universitetin nəşriyyat şurasının sədri kimi çətin bir iş tapşırıb. Bu vəzifə çox ciddi və məsuliyyətli bir işdir. Bu gün bacardı-bacarmadı, hərənin bir dərslik və dərs vəsati çap etdirmək kimi xoşagəlməz prosesin qarşısını kitabın bütün tipoloji parametrlərini hamıdan yaxşı bilən və üstəlik, öz işində qətiyyətli olan Abuzər müəllim ala bilər.

Abuzər Xələfov universitet metodşurasinin da üzvüdür. Bu sətirlərin müəllifinin də daxil olduğu metodşura birbaşa tədrisin keyfiyyətinə, proqram və dərsliklərin, dərs vəsaitlərinin, müəllimin səviyyəsinə cavabdeh olan bir qurumdur. Burada Abuzər müəllim kimi ustadların olması çox vacib və səmərəlidir.

Professor Abuzər Xələfov müdrik bir ağsaqqaldır. Onunla rastlaşıb bir neçə kəlmə kəsmək adama nəsə yeni bir şey öyrədir, insanı xeyirxahlığa çağırır.

Tarix elmləri doktoru, professor Abuzər Xələfov həm ictimaiyyət, həm də dövlət tərəfindən qiymətləndirilən alimdir. O, Azərbaycan Respublikasının Əməkdar elm xadimidir, Əməkdar mədəniyyət işçisidir, «Şöhrət» ordeninə layiq görülüb. Azərbaycan Respublikası Prezidenti onu özünün şfərdi təqaüdünə layiq görmüşdür. Onun hələ sadalamadığımız neçə-neçə elmi titulu, vəzifəsi var. Bütün bunlar Abuzər Xələfovu bir universitet alimi kimi xarakterizə edir. Universitet müqəddəs məbəddir. Abuzər müəllim həyatını universitetə bağlamış, onun qayğı və sevincləri ilə birgə ucalmış bir alim – pedaqoqdur. Universitetə qədəm basan və ömrünü bu məbədə bağlamaq istəyən hər kəs ilk növbədə ətrafa, məbədin iftixar etdiyi adamlara nəzər salır. Bu anda onun oxşamağa çalışdığı adamlardan biri və bəlkə də birincisi Abuzər Xələfov olur.



**Firudin SƏMƏNDƏROV**

***Bakı Dövlət Universiteti Hüquq fakültəsinin Cinayət hüququ və kriminalistika kafedrasının müdiri, Əməkdar hüquqşünas, hüquq elmləri doktoru, professor***



## VƏTƏNDAŞ ALİM, BÖYÜK ŞƏXSİYYƏT

Prof. Abuzər Xələfovu hələ universitetdə tələbə olduğum illərdən tanıyıram. Tanıdığım ötən 30-40 il ərzində nümunəvi təşkilatçılığı, işgüzarlığı, özünə və ətrafa qarşı son dərəcə tələbkarlığı ilə özünün sakit yerişi və davranışı ilə bənzəri olmayan bir şəxsiyyət kimi xatirimdə həkk olunmuşdur.

Sakit və təmkinli hərəkətləri ilə, məntiqə söykənən mühakimələri ilə, istənilən şəraitdə, çəkinmədən öz sözünü yerində deyən cəsarətli və mərd bir insandır.

Şəxsiyyət haqqında deyilən sözlər insanın həyat fəaliyyətinə, ömür dünyasına söykənməlidir. Onun ömür karvanı şəxsiyyətinin bütövlüyü, müdrikliyi insanı düşündürür və valeh edir.

Öncə Abuzər müəllim xeyirxah, ədalətli və sadə bir insandır. Ona üz tutan hər bir adamı qəbul edir, təmkinlə dinləyib, səmimiyyətlə məsləhət verir, düzgün yol göstərir. O, elmimizin və təhsilimizin sayılan, seçilən ağsaqqallarındandır, böyük pedaqoqdur. Sözün əsl mənasında ağır anlarımızın məsləhətçisidir, təskinlik verən, sevinc və kədəri bölmək qabiliyyətinə malik olan böyük bir ürəyin sahibidir.

Prof. A.Xələfov böyük təşkilatçı, maarifçi və görkəmli pedaqoqdur. Onun təşəbbüsü və səngiməyən zəhməti ilə kitabxanaşünaslıq bölmü universitetin fakültəsinə çevrilmişdir. O, 25 il təşkil etdiyi fakültəsinin dekanı olmuşdur. Universitet tarixində 25 il dekan olmaqla bu yükü daşımaq ikinci bir insana nəsib olmamışdır. Prof. A.Xələfov ömrünün 25 ilini vətəndaş alim kimi minlərlə gənclərin qəlbində işıq yandırmış, onları həyata, yaşamağa, işıqlı səhərlərə səsləmişdir.

Böyük ulu öndər H.Əliyevin yüksək qiymət verdiyi Milli azadlıq hərəkatında Kitabxanaçılıq fakültəsinin yüzlərlə məzunu fəal iştirak etmişdir. Bu, o deməkdir ki, gənclərə bu fakültədə təhsil illərində vətənpərvərlik və azadlıq uğrunda dönməz mübariz ruhu tərbiyə edilmişdir.

Respublikada kitabxana işinin təşkilinə yönələn onlarla normativ aktlar və təlimatlar hazırlanmış və direktiv orqanlar qarşısında məsələlər qaldırılmışdır. Bütün bunlar prof. A.Xələfovun təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilmişdir.

Prof. A.Xələfov çox danışmağı sevməyən insandır. Lakin onun aramla ifadə etdiyi hər bir fikir böyük həyat təcrübəsindən süzülüb gələn, elmə, praktikaya söykənən müdrik insanın kəlamlarıdır. Universitetin böyük şuralarında meydana çıxan, hardasa mübahisə doğuran bütün məsələlərin həllində prof. A.Xələfovun məsləhəti və məntiq doğuran fikirləri həmişə diqqəti cəlb edir.

Prof. Xələfovun elmdə öz yolu olmuşdur. O, başqalarının saldığı yolla getməmişdir. 1961-ci ildə «Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932)» mövzusunda namizədlik dissertasiyası, 1975-ci ildə isə «Azərbaycanda kitabxana işinin tarixi (1935-1959)» mövzusunda doktorluq dissertasiyası müdafiə



etmişdir. O, Sovet İttifaqında kitabxana işi sahəsində ilk doktor kimi alimlik dərəcəsinə yüksəlmişdir.

Prof. A.Xələfov müharibə dövrünün «şinelindən» çıxmışdır. O, müharibə illərində kolxoz təsərrüfatında çalışmışdır. Müharibənin gətirdiyi min bir faciəni addımbaşı müşahidə etmişdir. Bütün bunlar onun Ömründən yan keçməmişdir. Müharibədən sonrakı yoxsulluq illəri şəraitində universitetdə təhsilini davam etdirmişdir. Bütün çətinliklərə baxmayaraq elmin əzablı yolları ilə dönmədən irəliləmişdir. A.Xələfov elm yolunda cəsarətlə addımlamış, alın təri ilə böyük zəhmətlə nailiyyətlərə qoşulmuşdur.

Prof. A.Xələfov bütün ömrünü elmə həsr etmiş, onun gəncliyi, cavanlığı universitetin divarları arasında keçmiş, ahıllıq səviyyəsinə yüksəlmişdir. O, respublikada kitabxanaçılıq sahəsində böyük bir irs yaratmışdır. Onun yaratdığı irs təkcə ölkəmizdə deyil, ölkəmizin hüdudlarından kənarda da öyrənilir.

Prof. A.Xələfov ömrünün 80-ci baharını yaşayır. O bu gün də yazıb-yaratmaq eşqi ilə yaşayır. Yaşadığımız ağır keçid dövründə resublikada ali təhsilin gələcək istiqamətləri ilə bağlı özünün alim sözünü deyil, problemlərin həllinə qiymətli məsləhətləri ilə töhfəsini verir.

Çox hörmətli Abuzər müəllim! 80 yaşınız mübarək. Sizin kimi ağsaqqallara ehticiyamız vardır. İlahidən arzum budur ki, gün olsun ki, 100 illik yubleyinizi qeyd edəsiniz.



Ağalar ABBASBƏYLİ

*Bakı Dövlət Universiteti Beynəlxalq münasibətlər fakültəsinin Beynəlxalq münasibətlər kafedrasının müdiri, tarix elmləri doktoru, professor*

## KİTABA HƏSR OLUNMUŞ ÖMÜR

Tarixi köklərdən və ənənələrdən qaynaqlanan Azərbaycan kitabxanaçılıq məktəbinin topladığı tarixi təcrübənin yaşadılmasında, zənginləşdirilməsində və inkişafında milli elmi korifeylərimizdən olan Abuzər Alı oğlu Xələfovun elmi-praktiki yaradıcılığı yarım əsrlik tarixə malik olsa da, bütöv bir məktəbdir. İndiyədək bu məktəbi bitirənlərin sırasına Azərbaycan yaşadıqca hələ neçə-neçə nəsillər qoşulacaq, kim bilir, hələ hansı zirvələr fəth ediləcəkdir...

Azərbaycanın elm və mədəniyyət məbədi olan Bakı Dövlət Universitetinin dünya şöhrətli alimlərindən olan Abuzər müəllimi yaxından tanımadan onun haqqında yazmaq, söz demək mümkünsüzdür. BDU-da birlikdə işlədiyimiz dövr ərzində mən onu təkcə elm və mədəniyyət fədaisi kimi yox, həm də yüksək intellekt sahibi olan qayğıkeş müəllim, ata və görkəmli təşkilatçı kimi tanımışam. Abuzər müəllim bu gün Dədə Qorqud böyüklüyünü, vüqarını və ağsaqqallığını yaşayan nəslin görkəmli nümayəndəsidir.

Azərbaycanda kitabxanaçılıq peşəsinin kökləri qərinələrin dərinliklərinə gedib çıxır, Orxon-Yenisey yazılarından mayalanan bu peşə Dəvdəkin, Məhsətinin, Nizaminin, Xaqaninin, Füzulinin, onlardan sonra gələn yüzlərlə mütəfəkkirlərin və filosofların yaradıcılıq nailiyyətlərinin qorunmasna öz töhfəsini verir. Azərbaycanda kitabxana işinin tarixinin 1870-2010-cu illər dövrünün mükəmməl tədqiqatçısı olan A.Xələfov öz görkəmli sələfi, 1522-ci ildə I Şah İsmayılın fərman ilə Təbriz saray kitabxanasının rəisi titulunu almış məşhur rəssam Kəmaləddin Behzadın başladığı işin layiqli davamçısıdır.



A.A.Xələfovun görkəmli alim, elm və mədəniyyət xadimi kimi yetişməsində Bakı Dövlət Universiteti kollektivinin əməyi böyükdür. Belə bir kollektivdə yaşayan, işləyən, ucalan və kamilləşən Abuzər müəllimin milli kitabxana-informasiya işi sahəsində kadrların yetişdirilməsində çəkdiyi əməyi yalnız onun yarım əsrdə qazandıqları ilə müqayisə etmək olar. Bu gün Abuzər müəllimin həyatının 61 ili Bakı Dövlət Universiteti ilə bağlıdır. Bu illər ərzində onun yaxından iştirakı ilə kitabxanaçılıq fakültəsini nə qədər məzun bitirmişdir, bu rəqəm saya-hesaba gəlməz. Təkcə onu demək kifayətdir ki, milli kitabxanaçılıq məktəbinin yaradıcısı adı onun halal haqqıdır. Məhz Abuzər Alı oğlunun elmi rəhbərliyi ilə Azərbaycan elm və mədəniyyət xadimlərinin sırasına 1 elmlər doktoru və 15 nəfər elmlər namizədi qatılmışdır. Abuzər müəllim milli elmimiz və mədəniyyətimiz üçün bir ömürdə bir neçə ömrün işini görmüşdür.

Azərbaycanda orta təhsilli kitabxana işçilərinin hazırlanmasına 1938-ci ildən başlanmışdı. Vaxtilə bu işi Bakı Kitabxanaçılıq Texnikomu təkbaşına görürüdü. İlk ali təhsilli kitabxanaçıların hazırlanmasına isə 1947-ci ildən BDU-da başlanmışdı. Abuzər müəllimin fəaliyyəti nəticəsində vaxtilə Filologiya fakültəsinin tərki-

bindəki kitabxanaçılıq ixtisası müasir dövrdə müstəqil fakültəyə çevrilmiş, onun yaradıcısı olan alim həmkarımız isə təkcə 25 il – dörddə bir əsr həmin fakültəyə rəhbərlik etmiş, onu yaratmış və yüksəltmişdir. Bir insan ömrü üçün böyük dövrdür. Fakültənin aşıb-daşan qayğıları içərisində alim ömrünü yaşamaq, elmi yaradıcılığı davam etdirmək, 350 çap vərəqi həcmində 32 kitabı ərsəyə gətirmək, kütləvi informasiya vasitələrinin daimi yazarı olmaq hər kişinin işi deyil, bunun üçün səbr, əzm və iradə lazımdır.

Göstərilənlər A.A.Xələfovun milli mədəniyyət tariximizdə özünə yaratdığı və heç vaxt təravətini itirməyəcək abidədir. Vaxtilə SSRİ-də 350 minə qədər kitabxana fəaliyyət göstərirdi ki, bunun 4000-dən çoxu Azərbaycanın payına düşürdü. Bu kitabxanaların bir qismi keçid dövrünün ağrıları ilə birlikdə tarixə qovuşdu. Yaşayanları isə yaşatmaq, müasir dünya standartları səviyyəsinə yüksəltmək lazım idi. Bu baxımdan Azərbaycan xalqının çoxəsrlik kitab və kitabxana mədəniyyəti tarixinin öyrənilməsi, tədqiq edilib sistemləşdirilməsi, inkişaf qanunauyğunluqlarının, ənənə və meyillərinin üzə çıxarılması, inkişaf pesrpektivlərinin proqnozlaşdırılması, müasir elmi-texniki nailiyyətlərin kitabxana işi ilə əlaqələndirilməsi Abuzər müəllimin yaradıcılığının nəticəsidir.

Müasir kitabxanalar təkcə informasiya məkanı deyildir. Kitabxana rəflərində saxlanılan cildlərdə çoxminillik tariximiz yatır, adət-ənənələrimiz qorunur, gəncliyimiz maariflənir və tərbiyələnir. Abuzər müəllimin yaradıcılığı bədxah qonşularımıza, tariximizin minillik tarixinə xor baxanlara, bizi barbar, köçəri, gəlmə xalq kimi dünyaya təqdim edən erməni, rus və fars siyasətçilərinə tutarlı cavabdır. Qubada və Bakıda 1891 və



1894-cü illərdə ilk kitabxana-qiraətxanalar yaradılarkən nə ermənilərin, nə də gürcülərin Bakı şəhəri kimi mədəniyyət mərkəzləri mövcud deyildi. Əgər belə zəngin kitabxana tariximiz olmasaydı, onun metodologiyası və nəzəriyyəsinin işlənib hazırlanmasından söhbət gedə bilməzdi. Azərbaycan kitabxanaçılıq tarixinin nəzəri və praktiki problemləri A.Xələfovun elmi yaradıcığılının başlıca mövcusu olaraq qalmaqdadır.

Müasir elmlərin təsnifatında humanitar və dəqiq istiqamətlər ayrılmış, hər iki sahilin konkret əhatə dairələri müəyynələşdirilmişdir. Müəyyənləşdirilmiş təsnifata baxmayaraq, kitabxanaşünaslıq elmi elmin elə nadir sahələrindən biridir ki, bu sahənin mütəxəssisi həm tarixçi olmalıdır, həm riyaziyyatçı, həm dilçi olmalıdır, həm də ədəbiyyatçı. Kitabxana fəlsəfəsi minilliklərin dərinliklərindən üzü bəri zənginləşə-zənginləşə, zamanın tarixi qatlarından süzülərək saflaşa-saflaşa bu günümüzə qədər nəhəng inkişaf yolu keçmişdir. Bu nəhəng inkişaf yolunu elmi tədqiqat mövzusuna çevirən, incələyərək sapa düzən Abuzər müəllim özü də bilmədən müdrikliyin zirvəsinə ucalmışdır. Kitabxanaçılıq peşəsinin zənginliklərindən bəhs edən, onun elmi-nəzəri və praktiki tərəflərini araşdıran, təcrübi əhəmiyyətini, peşələr içərisində yerini müəyyənləşdirən müəllif problemə kompleks yanaşma nümayiş etdirir, bu şərəfli peşənin pedaqogikasına psixologiyasına, iqtisadiyyatına, optimallığının artırılması yollarına cild-cild əsərlər həsr edib və etməkdədir.

A.A.Xələfovun uzunmüddətli yaradıcı əməyinin nəticəsidir ki, bu gün kitabxanaçı peşəsi üzrə dörd istiqamətdə – kitabşünaslıq, biblioqrafiyaşünaslıq, kitabxanaşünaslıq və informatika ixtisasları üzrə ixtisaslı kadrların hazırlanması işi həyata keçirilir. Bu sahələr

üzrə təhsilin bakalavr və magistr pillələri üçün proqram və metodik vəsaitlərin hazırlanması, dərsliklərin yazılması, qabaqcıl elmi təcrübənin öyrənilməsi və tətbiqi məsələləri Abuzər müəllimin daimi qayğıları sırasındadır. Təsadüfi deyildir ki, Azərbaycan elminin bu sahəsinin dünya standartları səviyyəsinə yüksəldilməsində A.Xələfovun əməyi kifayət qədər böyükdür.

Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində, milli təhlükəsizliyimizin təmin olunmasında düzgün qurulmuş informasiya təhlükəsizliyi siyasətinin rolu və əhəmiyyəti olduqca böyükdür. Keçid dövrünün çoxsaylı problemlərinə və ağrı-acılarına baxmayaraq prof. A.Xələfov 1989-1998-ci illər arasındakı onillik ərzində iki monoqrafiyanı ərsəyə gətirmişdi ki, bunlarda Azərbaycanda ali kitabxanaçılıq təhsilinin inkişaf perspektivləri, problemləri və qayğıları açılıb göstərilmişdir. Müasir yüksək səviyyəli kitabxanaçının qarşısında duran ciddi tələblərdən biri də onun informasiya texnologiyalarına nə dərəcədə bağlılığı ilə əlaqəlidir.

Azərbaycan dövlətçiliyi ilə ümummilli lider Heydər Əliyevin adları qoşa çəkilir. Qədim və şanlı tarixə malik dövlətçiliymizin yaşamasında, qorunub saxlanılmasında, Heydər Əliyevin rolu böyük olduğu kimi, tamamlanmış təcrübənin ümumiləşdirilməsində, təbliğat-təşviqat işinin təşkilində professor A.Xələfovun da elmi yaradıcılığı böyük əhəmiyyətə malikdir. Onun H.Əliyevlə bağlı hazırladığı biblioqrafik məlumat kitabı müasir gəncliyimizin stolüstü kitabı kimi öz elmi dəyərlərini heç vaxt itirməyəcəkdir. Türk dünyasının böyük öndəri Mustafa Kamal Atatürkün «kitabxanası olmayan millətin heç nəyi yoxdur» - deyimi ilə ümummilli lider Heydər Əliyevin kitabxana işinə verdiyi diqqət və qayğı üst-üstə düşür. Abuzər müəllimin «Heydər Əliyev



və Azərbaycanda kitabxana işi» adlı sanballı tədqiqat əsəri ümummilli liderin Azərbaycanda kitabxana işinə qayğısının məlum və naməlum tərəflərinin öyrənilməsi baxımından öz əhəmiyyətini həmişə saxlayacaqdır.

Azərbaycan dövləti və hökuməti, Bakı Dövlət Universitetinin qədirbilən kollektivi elm və mədəniyyət korifeyi Abuzər Xələfovun həyat və yaradıcılığını həmişə yüksək qiymətləndirmiş, ona 2001-ci ildə Azərbaycan Respublikasının «Əməkdar elm xadimi» fəxri adı verilmişdir. Xalq şairi S.Vurğunun «El qədrini candan əziz bilənlər, şirin bir xatirə tək qalacaqdır dünyada...» misraları elə bil ki, özünü elə və elmə həsr etmiş vətən oğullarımıza ədəbi və əbədi abidədir.

Müharibə və əmək veteranı, prezident təqaüdçüsü, «Şöhrət» ordenli, Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin prezidenti, Bakı Dövlət Universiteti Böyük Elmi Şurasının üzvü, Birləşmiş Millətlər Təşkilatı yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki bu siyahını nə qədər desən uzatmaq mümkündür, nəhayət, BDU Ağsaqqalar Şurasının sədri, professor Abuzər Alı oğlu Xələfov bu gün ömrünün 80-ci baharını yaşayır. Baharın mübarək, yaşın mübarək, əziz həmkarım...



Alış QASIMOV

*Bakı Dövlət Universiteti Hüquq fakültəsinin Mülki proses, əmək və ekologiya hüququ kafedrasının müdiri, hüquq elmləri doktoru, professor*

## ÖMRÜN MÜDRİKLİK ZİRVƏSİNDƏ

Adətən, çox sevdiyin və ehtiram bəslədiyin, sənə qəlbən və ruhən yaxın olan insanlar haqqında söz deməyə çətinlik çəkirsən. Bəlkə düşünürsən ki, onu olduğu kimi göstərə bilməyəcəksən, yəni onu sözlə tam dəyərləndirməyə qələmin gücü çatmayacaq... Abuzər Xələfov haqqında yazmaq istəyəndə mən də bu hissləri yaşayıram. Bir çətinlik də ondadır ki, Abuzər müəllimin həyat və fəaliyyəti çox zəngindir. Bilmirsən, nədən başlayıb nədə nöqtə qoyasan. Elə yazdığı əsərlərin, daşıdığı titulların, iştirak etdiyi mötəbər elmi məclislərin adlarını çəkib onlara qısa annotasiya vermək bir broşüranın həcminə bərabər olar.

Abuzər Xələfov mənim üçün bir insan, ziyalı və alim kimi etalondur. Heç şübhə etmirəm ki, mənim bu cümləmi eyni ilə yazmaq və demək istəyənlər onlarladır. Düşünəndə ki, sənin fikirlərini təsdiq edənlər çox olacaq, yazmaq asanlaşır.

Hamı onu xeyirxah insan, əsl ziyalı, yaxşı müəllim kimi tanıyır. Kiçik haşiyə çıxmaq istəyirəm: mən onunla tanış olanda lap gənc idim. Bizi BDU-nun (o vaxt ADU idi) Kitabxanaçılıq fakültəsində müəllim-tələbə münasibətləri yaxınlaşdırmışdı. Doğrusu, müəllimin öz tələbəsinə, söhbət açdığım halda isə onun mənə belə



səmimi, doğma münasibət göstərə biləcəyini əvvəllər ağlıma gətirməmişdim.

Onda 1979-cu il idi və mən universitetin kitabxanaçılıq fakültəsində təhsil alırdım. Sonra elə oldu ki, ordu sıralarına getdim və hərbi xidmətdən qayıtdıqdan sonra artıq hüquq fakültəsinə daxil oldum. Lakin bundan sonra əziz müəllimimlə münasibətlərimiz qırılmadı. Əksinə, biz bir az da yaxınlaşdıq və o, mənim üçün həm də özümdən böyük dostuma, yolgöstərənə, hər addımda nümunə götürəcəyim insana çevrildi.

İndi mən Abuzər müəllimi artıq 32 ildən çoxdur tanıyıram. Odur ki, onun keçdiyi həyat yoluna, elmdə və təhsildə qazandığı müvəffəqiyyətlərə yaxından bələdəm. Bu uzun illər ərzindəki hər görüşümüzdə mən bu həssas, ən gözəl insani keyfiyyətləri özündə birləşdirən, mənən varlı şəxsiyyətin simasında bir dünya kəşf etmişəm.

Abuzər Xələfov tarix elmləri doktoru, professor, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademikidir. O, Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin kitabxanaşünaslıq kafedrasının müdiri vəzifəsini, əməkdar elm xadimi və əməkdar mədəniyyət işçisi adını layiqincə daşıyır. «Şöhrət» ordenli alim ölkə Prezidentinin fərdi təqaüdçüsüdür.

Bütün bunlar bizim Abuzər müəllimin halal haqqı, onun zəhmətinə verilən yüksək və layiqli qiymətdir. Çünki A.Xələfov ömrü boyu özünü yüksək səviyyəli alim, səriştəli pedaqoq-müəllim, təcrübəli rəhbər işçi, fəal ictimai xadim kimi göstərib. Belə ki, ölkəmizdə mədəniyyət və kitabxana işi quruculuğunun tarixi problemləri, kitabxanaşünaslığın nəzəriyyəsi və metodologiyası, ali kitabxanaçılıq-biblioqrafiya təhsili məsələləri professor Xələfovun elmi araşdırmalarının özəyini təşkil edir. Kitabxana işi nəzəriyyəsi və bir sıra digər aktu-

al elmi problemlər də onun yaradıcılığından kənarda qalmamışdır. Alimin bütövlükdə milli mədəniyyətşünaslıq və kitabxanaçılıq elmi və təcrübəsi üçün mühüm əhəmiyyət kəsb edən sanballı əsərləri məhz həmin uğurlu elmi tədqiqatların parlaq nəticələridir.

Ölkəmizdə fəaliyyət göstərən bütün kitabxanaşünas-alimlər Abuzər Xələfovun elmi məktəbinin yetirmələridir. Bu məktəbi professor Xələfov kitabxanaşünaslıq və mədəni quruculuq sahəsində geniş tədqiqatlar aparmaqla və onları daim yeni müddəalarla zənginləşdirməklə yaratmışdır.

Abuzər Xələfov 1931-ci il dekabrın 25-də Qərbi Azərbaycanda – Göyçə mahalının Cil kəndində Alı kişinin ailəsində anadan olmuşdur. Cildəki yeddillik məktəbi bitirəndən sonra orta təhsilini Toxluca kəndində başa çatdırmışdır. Yeniyetməlik illəri İkinci Dünya müharibəsi illərinə təsadüf etmişdi. Həmin dövrdə o, həm məktəbdə oxumuş, həm də kolxozda işləmişdir.

Bu yerlərin sazlı-sözlü, şeirli-bayatılı mühiti Abuzərin qəlbində hələ uşaqlıqdan folklora, ədəbiyyata maraq oyatmışdı. Kitabla onun arasında qırılmaz dostluq telləri, pozulmaz bir əhd-peyman yaranmışdı. Elə bütün bunlar da 1950-ci ildə orta təhsilini başa vurandan sonra onu BDU-nun Filologiya fakültəsinə gətirmişdi. 1955-ci ildə A.Xələfov həmin fakültənin kitabxanaçılıq şöbəsində ali təhsilini müvəffəqiyyətlə yekunlaşdırmışdır. Perspektivli, ümidverən gənc kadr müəllimlərinin zəmanət və tövsiyəsi ilə kitabxanaçılıq və biblioqrafiya kafedrasında müəllim kimi çalışmağa başlamışdır.

Artıq 56 ildir Abuzər Xələfovun elmi və pedaqoji fəaliyyəti bu kafedra ilə bağlıdır. 22 il o, burada müəllim, baş müəllim, dosent vəzifələrində çalışmışdır. 1978-ci ildən indiyə qədər kafedranın professorudur.

Abuzər müəllimin kitabxanaşünaslığa və biblio-



qrafiyaya bütün varlığı ilə bağlanması və dərin biliklərə yiyələnməsi öz yerində, o, eyni zamanda bu sahəyə bir yenilik gətirən, necə deyərlər, novator alim kimi də özünü göstərmişdir. Məsələn, onun 1961-ci ildə «Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932)» mövzusunda müdafiə etdiyi namizədlik dissertasiyası kitabxana işinin tarixinin elmi əsaslarla tədqiq edilib öyrənilməsi sahəsinin əsasını qoymuşdur. 1975-ci ildə isə «Azərbaycanda kitabxana işinin tarixi (1935-1959)» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Bu dissertasiya ilə o, təkcə Azərbaycanda deyil, bütün keçmiş SSRİ-də kitabxana işi sahəsində ilk tarix elmləri doktoru olmuşdur. Dissertasiya həm də ölkədə kitabxana tarixinə dair ilk fundamental tədqiqat idi, ona görə də müəllifinə böyük nüfuz qazandırmışdır.

Başqa sözlə desək, professor Xələfov ölkəmizdə kitabxana işinin tarixinə ömrünü həsr etmişdir. Bu mövzuda çoxsaylı sanballı monoqrafiyalar, dərsliklər və dərs vəsaitləri yazmışdır. Bunlardan 1960-cı ildə nəşr etdirdiyi «Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932)», «Azərbaycanda kitabxana işinin tarixindən (1870-1920)», 1970-ci ildə işıq üzü görən «Azərbaycanda kitabxana işinin tarixi (1933-1959)», 2001-2003-cü illərdə üç hissədə oxuculara təqdim olunan «Kitabxanaşünaslığa giriş», 2006-cı ildə çapdan çıxan «Heydər Əliyev və Azərbaycanda kitabxana işi», «Azərbaycanda kitabxana işinin tarixi» (2004-2010) və başqa fundamental əsərləri mühüm əhəmiyyətə malikdir.

Professor Xələfovun elmi yaradıcılığını qısaca xarakterizə etməli olsaq deməliyik ki, orada Azərbaycanda kitab və kitabxana mədəniyyətinin təşəkkülü və inkişaf tarixinin tədqiq edilib ümumiləşdirilməsi mühüm yer tutur. Yaradıcılığının əvvəlindən indiyədək alim mədəniyyət və kitabxana işi quruculuğunun tarixi

problemləri, kitabxanaşünaslığın nəzəriyyəsi və metodologiyası, ali kitabxanaçılıq-informasiya təhsili məsələləri, həmçinin kitabxana işi nəzəriyyəsi və bir sıra digər aktual mövzularda yorulmadan qələm çalır.

Bütün bunlar bir daha göstərir ki, Abuzər Xələfov həyatını Azərbaycan elminin inkişafına həsr etmiş yorulmaz bir insandır. Onun xalqımızın kitabxanaşünaslıq tarixinin tədqiqinə həsr olunmuş əsərləri adı çəkilənlərlə bitmir. O, bu gün də axtarışlar aparır, yazır, yaradır. Həyatını elmə həsr edən cavanlar, elə biz özümüz də ona qibtə ilə baxıb məlum həqiqəti bir daha yəqinləşdiririk: əsl alim belə olur!

Abuzər Xələfovun bir elm xadimi kimi milli-mədəniyyət tariximizə verdiyi töhfələrdən biri də Azərbaycan xalqının çoxəsrlik kitab və kitabxana mədəniyyətinin tədqiq edilib sistemləşdirilməsi, onun qanunauyğunluqlarının, ənənə və meyillərinin üzə çıxarılmasıdır. Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq ən qədim dövrlərdən indiyədək kitabxana işinin inkişaf tarixinin cəmiyyətin mənəvi, iqtisadi və siyasi şəraiti, mədəniyyət və maarifçilik səviyyəsi ilə əlaqəli şəkildə tədqiq edilməsi, xalqın intellektual imkanlarının inkişafında maarifin, elmin, kitabxana mədəniyyətinin konseptual şəkildə əsaslandırılması da məhz professor Abuzər Xələfova məxsusdur.

Alim ulu öndər Heydər Əliyevin elmi-nəzəri irsini öyrənməyə və təbliğ etməyə xüsusi önəm vermişdir. Ümummilli liderə ehtiramı onu elmi araşdırmalar aparmağa və gərgin zəhmət sərf edərək bir sıra əsərlər ortaya qoymağa həvəsləndirmişdir. «Heydər Əliyev: Biblioqrafik məlumat kitabı» və «Heydər Əliyev və Azərbaycanda kitabxana işi» kitabları həm bu sahənin mütəxəssisləri, həm də geniş oxucu kütləsi üçün gərəkli əsərlərdir. Onlar çox yüksək dəyərləndirilmiş, müəllifin



çoxşaxəli yaradıcılığında məxsusi bir yer tutmuşlar.

Onun elmi və pedaqoji, təhsil işinin təşkili sahəsindəki fəaliyyəti bir-biri ilə sıx vəhdət təşkil edir. Bunun bir sübutu da odur ki, 1962-ci ildə Abuzər Xələfovun fəal iştirakı və səyləri sayəsində Filologiya fakültəsinin kitabxanaçılıq şöbəsi eyni adlı müstəqil fakültəyə çevrilir. Cavan olmasına baxmayaraq tarix elmləri namizədi, dosent A.Xələfova etimad göstərib həmin fakültənin dekanı vəzifəsini tapşırırlar. Beləliklə, o, Kitabxanaçılıq fakültəsinin ilk dekanı olur. 1962-1970-ci və 1980-1995-ci illərdə bu vəzifədə çalışır.

Bu illər ərzində Abuzər müəllim yüksək təşəbbüskarlıq və təşkilatçılıq bacarığı nümayiş etdirir, idarəçilik metodları tətbiq edir və bütün bunlar özünü yüksək ixtisaslı milli kitabxanaşünas-biblioqraf kadrlarının yetişməsində göstərir. Abuzər müəllim, eyni zamanda fakültənin yeni tədris planının tərtib olunması, kafedraların və laboratoriyaların maddi-texniki bazasının yaradılması, dərslərin keyfiyyətinin yüksəldilməsi, kadrların düzgün seçilib yerləşdirilməsi işinə böyük əmək sərf edir. Ümumiyyətlə, fakültənin formalaşması və inkişafı naminə mühüm xidmətlər göstərir.

Abuzər Xələfov yarım əsrə yaxındır (1962-ci ildən) kitabxanaşünaslıq kafedrasının müdiri vəzifəsində çalışır. 1963-cü ildə eyni zamanda kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının müdiri seçilən A.Xələfov paralel olaraq bir neçə vəzifəni yerinə yetirir. Bu zaman onun daha bir qabiliyyəti üzə çıxır: dekanlıqla kafedraların işini əlaqələndirir və istiqamətləndirir, yəni idarəetmə funksiyası ilə elmi tədqiqatçılıq prosesini sıx şəkildə uzlaşdırır. Bu həm fakültənin, həm də kafedranın müasir elmi əsaslarla inkişaf etməsi demək idi.

Kitabxanaşünaslıq kafedrası bizim gözümüzün qarşısında görkəmli elm xadimi Abuzər Xələfovun yo-

rulmaz əməyi və parlaq istedadı sayəsində kitabxana işi üzrə aparıcı müəssisəyə, ölkədə kitabxana işinin əsas elmi-tədqiqat mərkəzinə çevrildi, indiki informasiyalaşmış cəmiyyətdə özünəməxsus yer tutdu.

Bir kitabxanaşünas kimi Abuzər müəllimin fəaliyyəti çoxşaxəlidir. Yarım əsrdən çoxdur ki, o, üstəlik kitabxana işinin tarixi və nəzəriyyəsi problemləri ilə yanaşı, ardıcıl olaraq ölkədə kitabxanaçılıq təhsilinin nəzəri və metodoloji məsələlərini də hazırlayıb tətbiq edir. Ölkədə ali kitabxanaçılıq təhsilinin müasir konsepsiyasının əsasını qoyub. Bu məqsədini gərgin zəhmətlə – yazıb nəşr etdirdiyi çoxsaylı elmi məqalə və monoqrafiyalarında, elmi konfrans və simpoziumlardakı çıxışları ilə də gerçəkləşdirib.

Biz Abuzər müəllimi ali təhsil sistemində tədris proseslərinin mahir bilicisi kimi tanıyırıq. Çünki o, istər çalışdığı BDU-da, istərsə də respublikada ali təhsilin yenidən qurulması və optimallaşdırılması ilə bağlı mühüm məsələlərin həllində hər zaman yaxından iştirak edir və bu, öz nəticəsini göstərir. Alimin «Kitabxanaçılıq informatikası», «Kitabxanaların kompüterləşdirilməsi», «Kitabxanaçılıq psixologiyası», «Kitabxana iqtisadiyyatı», «Kitabxanaçı peşəsi» kimi əsərlərini xatırlatmaq kifayətdir. Buradakı ideya və təkliflər kitabxanaşünaslıq sahələrinin formalaşmasına, kitabxanaçı kadrların hazırlığının ixtisaslaşdırılmasına, geniş profilli kitabxana işçilərinin yetişdirilməsinə yönəldilib. Bunlar BDU-da yeni ali təhsil sisteminin – bakalavriatura və magistratura pillələrinin əsasını təşkil edib.

«Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafı» (1989), «Azərbaycanda ali kitabxanaçılıq təhsili» (1998) monoqrafiyaları, çoxsaylı məqalələri, tədris-metodik materialları kitabxanaçılıq-informasiya təhsilinin, yüksək ixtisaslı mütəxəssislər hazırlanmasının konseptual



cəhətdən həllinə ciddi təsir göstərmişdir. Bu da alimin araşdırmalarında Azərbaycanda ali kitabxanaçılıq-informasiya təhsilinin tarixi və nəzəri problemlərinin tədqiqinin xüsusi yer tutduğunu göstərir.

Ölkənin bütün kitabxana işçilərinin, sözün əsl mənasında müəllimi olan Abuzər Xələfov deyilənlərlə yanaşı, həmçinin BDU-da kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, kitabşünaslıq və informatika üzrə bakalavr və magistr təhsilinin təşkilatçısı, ixtisas fənlərinə dair tədris plan və proqramlarının əsas müəllifi kimi də çıxış edir. Fakültənin magistraturasında dissertasiya tədqiqatları mövzularının işlənib hazırlanması prosesi də məhz A.Xələfovun başçılığı ilə həyata keçirilir.

Başqa sözlə, professor Xələfov kitabxanaşünaslıq-biblioqrafiya elmi sahəsində əsl mütəxəssis elmi-pedaqoji kadrların hazırlanmasında böyük rol oynayıb. Azərbaycanda kitabxanaşünaslıq elmi sahəsində xüsusi elmi məktəb yaradıb. Onun sədrliyi ilə bir doktorluq və 15 namizədlik dissertasiyası müdafiə edilib. Bundan əlavə, 25 nəfər elmlər namizədi və doktorunun hazırlanmasında elmi məsləhətçi, yaxud opponent kimi yaxından iştirak edib. Bütün bunlar Azərbaycanın görkəmli alimini xarici ölkələrdə də tanıtdırıb.

Abuzər müəllim uzun illər Moskva şəhərində fəaliyyət göstərmiş kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq üzrə doktorluq dissertasiyalarının müdafiəsi üzrə vahid ixtisaslaşdırılmış şuranın üzvü kimi səmərəli fəaliyyət göstərib. O, bu sahədə analoqu olmayan həmin qurumda da milli kitabxanaşünaslıq elmimizi uğurla təmsil edib. Bu zaman Moskva, Daşkənd, Tbilisi və başqa şəhərlərdə mədəniyyət, kitabxana işi quruculuğu, kitabxanaşünaslıq tarixi və nəzəriyyəsi üzrə müdafiə edilmiş namizədlik və doktorluq dissertasiyalarının opponenti, yaxud müdafiə şurasının üzvü olub.

Professor Xələfovun təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da yaxşı tanınmasını başqa faktlar da təsdiqləyir. O, 2000-ci il fevralın 15-də BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının müxbir üzvü, bir il sonra, fevralın 20-də həmin akademiyanın həqiqi üzvü – akademiki seçilib. Dünyanın bir sıra dövlət başçılarının, görkəmli mütəxəssislərinin, elm və mədəniyyət xadimlərinin də bu beynəlxalq miqyaslı qurumun üzvü olduqlarını xatırlatsaq, Azərbaycan aliminin necə geniş şöhrət qazandığını daha aydın görərik. 2001-ci ildə A.Xələfov, eyni zamanda Amerika Bioqrafiya İnstitutunun nəşr etdirdiyi «Görkəmli liderlərin beynəlxalq soraq kitabı»nın XI nəşrinin nominantı seçilmiş, fəxri fərman və qızıl medalla təltif olunmuşdur.

Abuzər müəllim 1970-1980-ci illərdə BDU-nun Elmi əsərlərinin «Kitabxanaşünaslıq və biblioqrafiya» seriyasının redaktoru kimi fəaliyyət göstərib. Bu da onun necə böyük diapazona malik bir alim olduğunun növbəti bir təsdiqidir. Sözügedən seriya Azərbaycan kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq elmlərinin inkişafında müstəsna rol oynayıb. Belə ki, seriyanın 20 nömrəsi nəşr edilib, burada 85,5 çap vərəqi həcmində 171 məqalə dərc olunub.

İnsanın kamilliyi onun neçə il yaşamasında deyil, məhz necə yaşamasındadır. Abuzər müəllim ona Tanrı tərəfindən verilmiş ömür payının bir günündən də məsrəfsiz istifadə etməyib. Axtarıb, öyrənib, öyrədib, yazıb, yaradıb. Bəlkə buna görə də illərin necə ötüb keçdiyini sanki heç hiss etməyib. Və nə xoş ki, bu gün, ömrünün 80-ci aşırımında da eyni həvəslə çalışır. İnşallah, Ömrünün hələ bundan sonra da uzanacaq illərinə paylanmış tükənməz enerji də, deyərdim ki, bizim Abuzər müəllimə bir tale payıdır.

Hazırda A.Xələfov Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin prezidenti, Təhsil Nazirliyinin Vahid Elmi-Metodik Şurasının «Kitabxanaşünaslıq və biblioqrafiya» bölməsinin sədri, BDU-da Böyük Elmi Şuranın və Ağsaqqallar Şurasının üzvüdür. O, həmçinin «Kitabxanaşünaslıq və informasiya» elmi-nəzəri və təcrübi jurnalının təsisçisi və baş redaktoru kimi də fəaliyyət göstərir.



Elm və həyat yollarının müxtəlif mərhələlərində Abuzər müəllim bir sıra ictimai təşkilatların mükafatlarına, medallara, fəxri fərmanlara layiq görülmüşdür. Hələ sovetlər dönəmində A.Xələfov SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin «Ali məktəb əlaçısı» döş nişanını almışdı. 1969-cu ildə kadr hazırlığı sahəsindəki xidmətlərinə görə ona «Əməkdar mədəniyyət işçisi» fəxri adı verilmişdir. 2001-ci ildə kitabxanaşünaslıq elminin inkişafındakı xidmətlərinə görə «Əməkdar elm xadimi» fəxri adına layiq görülmüş ilk kitabxanaşünas-alimdir. 2000-ci ildə ulu öndər Heydər Əliyevin sərəncamı ilə «Şöhrət» ordeni ilə təltif olunmuşdur. 2006-cı ildən isə Prezident təqaüdçüsüdür.

Görkəmli alim bu mükafatların hər birindən böyük qürur duyur. O, jurnalistlərə verilən «Qızıl qələm» media mükafatının da sahibidir.

İman yiyəsi olduğunu isə həm əməlləri, həm də getdiyi Məşhəd, Kərbəla, Həcc ziyarətləri təsdiqləyir.

İndi ömrünün müdriklik zirvəsində olan görkəmli alimə, əzizimiz Abuzər Xələfova sağlamlıq və gümrahlıqla dolu cansağlığı, uzun ömür arzulayırıq. Biz onun alim və pedaqoq qələmindən yeni-yeni əsərlər gözləyirik.

## Abdulla ABASOV



*Bakı Dövlət Universiteti Filologiya fakültəsinin Müasir Azərbaycan ədəbiyyatı kafedrasının professoru, filologiya elmləri doktoru*

# ŞƏRƏFLİ ÖMÜR YOLLARI...

Hər dəfə "Sızlar yada düşəndə ürəyimin telləri, o mehriban, o əziz tələbəlik illəri" mahnısını eşidəndə xəyalən altmış bir il əvvələ, 1950-ci ildə Bakı Dövlət Universitetinin (o zaman Azərbaycan Dövlət Universiteti adlanırdı) Filologiya fakültəsinə qəbul olunduğum o fərəhli, qayğılı tələbəlik illərinə qayıdıram. O vaxtdan nəinki çox şey, hətta hər şey dəyişib. Ən əsası ulu öndərimiz, dahi şəxsiyyət, vətənin və millətin xilaskarı möhtərəm Heydər Əliyevin bilavasitə zəhməti, misilsiz xidməti və fəaliyyəti sayəsində Azərbaycan müstəmləkə vəziyyətindən xilas olub, müstəqil, azad bir ölkəyə, dövlətə çevrilib, yeni, sakit həyat başlayıb. Bununla belə, təbii olaraq, yenə də, ötən günlər, uzaqlaşan keçmiş unudulmur ki, unudulmur. Hər şeydən əvvəl, insan ömrünün, tale, bəxt yollarının, "tarixdə insan, insanda tarix" faktının etibarlı göstəricisi kimi müasir günlərin, müstəqil, azad Azərbaycanın qədrini bilmək üçün kara gəlir. İndi o ötən günləri, mehriban müəllimləri, Azərbaycanın müxtəlif rayonlarından, digər respublikalardan gələn saf, təmiz qəlbli, etibarlı azərbaycanlı tələbə yoldaşlarımız xatırladıqca minnətdarlıq hissi keçirirəm. Onlar əbədiyaşar yadigarlar kimi bu gün də mənə doğma və əzizdirlər. Daha çox ona sevinirəm ki, az da olsa o illərdən yadigar qalan tələbə yoldaşlarım, dostlarım var, onları görür, onlarla həmsöhbət olur, görüşürəm. Belə əziz, mehriban tələbə yoldaşlarımdan biri, bu il səksən yaşı tamam olan, gördükcə görmək istədiyim Abuzər Alı oğlu Xələfovdur.

Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, Prezidentin Fərdi təqaüdçüsü, "Şöhrət" ordenli, tarix elmləri doktoru, böyük alim, ustad müəllim, gözəl insan, professor Abuzər Xələfovun Filologiya fakültəsinin kitabxanaçılıq şöbəsinə qəbul olanda on doqquz yaşı vardı. Bunu ona görə deyirəm ki, Abuzər Xələfovun səksən illik ömrünün Bakı Dövlət Universitetində keçən altmış bir ili, gərgin əmək, böyük-ardıcıl zəhmət, bütövlükdə məsuliyyət-fədakarlıq illəri olub... O illəri yaşayanlar yaxşı xatırlayırlar ki, iqtisadi cəhətdən müəyyən çətinliklər, tədris ləvazimatı, nəqliyyat və digər sahələrlə bağlı ehtiyaclar olsa da, təhsildə, ictimai fəaliyyətdə fərqlənməkdən, fakültənin, ADU-nun nizam-intizamına ciddi əməl etmədən, məsuliyyət hissi keçirmədən irəli getmək mümkün deyildi. Abuzər Xələfov əhatəsində olduğu sosial və humanitar mühiti aydın görə bildiyi üçün məsuliyyət, halal əmək və zəhmət yolunu tutdu. Mövcud şəraiti, vəziyyəti düzgün qiymətləndirə bildi. Məqsədindən dönmədi.

Azərbaycan Dövlət Universiteti əllinci illərdə yalnız bir binada, o zaman "Kommunist", indiki "İstiqlal" küçəsindəki binada yerləşirdi.

O zamanlar Kitabxanaşünaslıq və Jurnalistika kiçik kafedralar kimi Filologiya fakültəsinin nəzdində

fəaliyyət göstərirdi. Təhsil müddəti beş il idi. İxtisas fənnlərindən başqa ümumi dərslər bir yerdə keçirilirdi, xüsusilə hərbi dərslər. O zaman ADU-nun güclü hərbi kafedrası vardı. İki dəfə ikinci və dördüncü kurslarda, yay tətili zamanı oğlan tələbələri hərbi düşərgələrə aparırdılar. Bunun özü də hərbi təhsillə yanaşı, dostluq və yoldaşlıq əlaqələrinin möhkəmlənməsi üçün dəyərli vasitələrdən idi. Bayram günlərində bütün respublika, xüsusən Bakı şəhəri hərə öz uğur və nailiyyət göstəriciləri, şüar və plakatları ilə, o zaman "Lenin meydanı" deyərdilər, tribunanın-partiya və dövlət rəhbərlərinin qarşısından keçirdi. Buna saatlarla vaxt sərf olunsa da bir yaxşı cəhəti o idi ki, müxtəlif fakültə tələbələri bir-birləri ilə görüşür, hal-əhval tutur, həmsöhbət olurdular. Belə tələbə mühiti təsirsiz qalmırdı, xoş təəssüratları ilə yaddaşlara həkk olunurdu. Müxtəlif tədbirlərdə tələbələr arasında mehribançılığın, səmimiyyət, yoldaşlıq və dostluq əlaqələrinin yaranmasında Abuzər Xələfovun təşkilatçılıq rolu, xidmətləri böyük idi. Demək olar ki, bütün tələbələrin Abuzər Xələfovun səmimiyyətinə, etibarına inamı vardı. Abuzər Xələfov yaxşı oxumaqla yanaşı, fakültədə, ADU-da öz işgüzarlığı, təşkilatçılıq bacarığı ilə fərqlənirdi. Artıq üçüncü kursdan başlayaraq, Abuzər Xələfovun nümunəvi tələbə, ictimaiyyətçi, bacarıqlı təşkilatçı olması, rektorluğun diqqətini cəlb etmişdi. Odur ki, təhsilini müvəffəqiyyətlə bitirdiyi həmin ildə onu kitabxanaçılıq və biblioqrafiya kafedrasında müəllim saxladılar. Lakin o, adi müəllim olmadı, sadəcə olaraq dərs deməklə kifayətlənmədi. İlk gündən kafedranın elm-təhsil həyatı ilə yaxından bağlandı. Dərs dediyi fənnlərin tədris proqramlarını, dərs vəsaitlərini hazırladı. Çox çəkmədi ki, onda kafedranı ayrıca fakültəyə çevirmək ideyası və arzusu baş qaldırdı. Bu



arzusunu həyata keçirmək üçün xüsusi vaxt, gərgin əmək, zəhmət sərf edən Abuzər Xələfov tədricən milli vətəndaşlıq məqsədinə nail oldu. 1962-ci ildə Abuzər Xələfovun bilavasitə təşəbbüsü və fəaliyyəti sayəsində Kitabxanaşünaslıq və biblioqrafiya kafedrası Filologiya fakültəsindən ayrılaraq müstəqil fakültə oldu və otuz bir yaşlı gənc Abuzər Xələfov fakültənin ilk dekanı seçildi. Düz iyirmi beş il həmin fakültəyə rəhbərlik edən, onun dekanı olan Abuzər Xələfov, həmin ildən (1962) hal-hazıra qədər, qırx doqquz ildir ki, kitabxanaçılıq kafedrasının müdiri vəzifəsində çalışır və ona ləyaqətlə rəhbərlik edir. Bunları xatırlatmaqda məqsədim odur ki, bu adi, sadə insanın Azərbaycan Dövlət Universitetində, sonra da Bakı Dövlət Universitetində keçirdiyi altmış bir illik ömür yolu sadəcə olaraq yaş, təqvim illəri olmamışdı. Abuzər Xələfovun sağlam arzu və istəkləri ilə, böyük zəhməti, gərgin əməyi ilə dolu olan vətəndaşlıq illəri, məsuliyyət, işgüzar fəaliyyəti, fədakarlıq illəri olmuşdur.

Abuzər Xələfovun səmərəli xidmətlərindən biri, fakültənin maddi-texniki bazasını yaratmaqla, tədris prosesini gücləndirmək, müasir tələb və prinsiplərə uyğun inkişaf etdirməklə bağlı olmuşdur. Onun bilavasitə təşəbbüsü ilə fakültədə kafedraların sayı artdı, dərs yükləri müvafiq tədris proqramları və planlarına uyğun səviyyəyə çatdırıldı. Ümumiyyətlə, nümunəvi fakültə yaratmaq üçün lazım və vacib olan bütün işlər əsasən görüldü. Haqq-ədalət naminə demək olar ki, hal-hazırda nəinki ADU-da, həm də respublikamızda öz sambalı ilə tanınan və şöhrət qazanan kitabxanaçılıq fakültəsi Abuzər Xələfovun yaradıcı əməyinin, davamlı və səmərəli zəhmətinin məhsuludur. Təsadüfi deyildir ki, çox zaman, təbii olaraq, kitabxanaçılıq fakültəsinə "Abuzər

müəllimin fakültəsi" deyirlər.

Abuzər Xələfovun təşkilatçılıq xidmətləri onun elmi və pedaqoji fəaliyyəti ilə əlaqə və təsirdə inkişaf etmişdir. O, yalnız fəal ictimaiyyətçi və təşkilatçı olmamışdır. Həm də kitabxanaçılıq və biblioqrafiya sahəsinin elmi-nəzəri, pedaqoji-metodiki əsaslarını işləyib hazırlamış, bu sahədə respublikada nümunə göstərmişdir. Onun dövri-mətbuat orqanlarında çap etdirdiyi çoxsaylı elmi-təcrübi xarakterli məqalələri, dərs vəsaitləri, monoqrafiyaları, hazırladığı tədris planları və proqramları, hər şeydən əvvəl, kitabxanaçılığın ayrıca fakültə olmaq haqqını, onun müasir yaradıcılıq və tədris sahəsi olması hüququnu elmi-nəzəri cəhətdən əsaslandırdı, təsdiq etdi. Səmərəli xidmətlərinin davamı kimi Abuzər Xələfov Azərbaycanda kitabxana işinin tarixini işləyib hazırladı. Bu işə dəyərli namizədlik və doktorluq dissertasiyaları həsr etdi. "Azərbaycanda kitabxana işinin tarixindən", "Azərbaycanda kitabxana işinin tarixi" adlı samballı tədqiqat əsərləri yazdı. "Azərbaycanda ali kitabxanaçılıq təhsili", "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" kimi nümunəvi əsərlər çap etdirdi. Xüsusi qeyd etmək lazımdır ki, ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevin elmi-nəzəri irsinin öyrənilməsi və təbliği sahəsindəki fəaliyyəti Abuzər Xələfovun yaradıcılığında ayrıca mərhələ təşkil edir. Onun "Heydər Əliyevin biblioqrafik məlumat kitabı", "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" bu böyük şəxsiyyətə, ulu öndərə yüksək məhəbbət hissi ilə yazılan nümunəvi kamil əsərlərdir.

Abuzər Xələfov mərd, mübariz, prinsipial, xeyirxah və alicənab, eyni zamanda tələbkar və güclü məsuliyyət sahibi olan bir insandır. O qarşısına qoyduğu xeyirxah məqsədi – rəhbərlik etdiyi fakültənin əbədiliyinə nail olmaq arzusunu daima diqqətdə saxlayaraq, bütün kollektivi bu nəcib işə səfərbər etmiş, fakültənin cavabdehi kimi, onun gələcək inkişafı naminə ömrünün altmış ilini sərf etmişdir. Halal zəhmət çəkməyin, səmərəli əmək sərf etməyin, həqiqi təşkilatçı, fəal ictimaiyyətçi, kollektivin minnətsiz və təmənnasız sevimlisi olmağın real nümunəsi olan Abuzər Xələfov, həm də canlı tarixdir. Bu tarixdə aydın görünən sahələrdən biri onun gözəl müəllimlik sənətidir. Görkəmli pedaqoq kimi yarım əsr ərzində Abuzər Xələfov nəinki fakültə üçün, eləcə də o zamankı ittifaq kitabxanaları, ümumən kitabxanaçılıq sahələri üçün onlarla mütəxəssis kadrlar yetişdirmişdir. Kadr hazırlığı baxımından Abuzər Xələfov Azərbaycanda kitab və kitabxana mədəniyyətinin tarixi inkişaf mərhələləri ilə bilavasitə bağlı olan mütəxəssislərdəndir. "Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafı", "Azərbaycanda ali kitabxanaçılıq təhsili" və digər elmi, pedaqoji-metodiki əsərləri bir daha sübut etdi ki, Abuzər Xələfovu "Azərbaycanda kitab və kitabxana mədəniyyəti"nin inkişaf tarixindən ayrı təsəvvür etmək qeyri-mümkündür. Bütövlükdə "Azərbaycan kitabı" anlayışının respublikamızda ilk elmi-nəzəri tədqiqatçılarından və təbliğatçılarından olan Abuzər Xələfov nəinki Azərbaycanda, eləcə də dünyanın bir çox ölkəsində tanınan və seçilən mütəxəssislərdəndir.

Abuzər Xələfov altmış bir illik fəaliyyəti dövründə, hər bir ilin, onilliyin tələb və ehtiyaclarına uyğun inkişaf edən, xüsusilə müstəqil Azərbaycan dövlətinin prinsiplərini əldə rəhbər tutan fəal təşkilatçı, ali təhsilin, ümumən müasir tədris prosesinin mahir bilicilərindəndir. Onun "Kitabxanaçılıq informatikası", "Kitabxanaların kompüterləşdirilməsi", "Kitabxanaçılıq pedaqogikası", "Kitabxanaçılıq psixologiyası", "Kitabxana

iqtisadiyyatı", "Kitabxana peşəsi" sahələrinin hər birinin formalaşması və inkişafı üçün irəli sürdüyü səmərəli təkliflərin, tövsiyə və dəyərli məsləhət və mülahizələrin xüsusi rolu olmuşdur.

Abuzər Xələfov indi də fakültənin, ümumən Azərbaycanda kitabxanaçılıq işinin böyük dayağı kimi fəaliyyətini davam etdirir. Odur ki, ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan müasir, müstəqil Azərbaycan dövləti onu səmərəli xidmətlərinə görə "Şöhrət" ordeni, prezidentin fərdi təqaüdçüsü və digər fəxri mükafatlara layiq görmüşdür. Biz inanırıq ki, Abuzər Xələfov səmərəli fəaliyyətini bundan sonrada davam etdirəcək, daha yeni uğurlar qazanacaqdır. Bu yolda əziz dostumuz Abuzər Xələfova can sağlığı, yeni-yeni uğurlar arzulayırıq.



**Əyyub ƏZİZOV**

***Bakı Dövlət Universiteti Kimya fakültəsinin Kimyanın tədrisi metodikası kafedrasının müdiri, kimya elmləri doktoru, professor***



# ELM AĞSAQQALI, İŞIQLI VƏ NƏCİB ALİM

*İnsanın xoşbəxtliyi onun elmindədir.*
*Hər kəs elmə yol açırsa, ona ölüm yoxdur.*

*Həzrət Əli (əs)*

İnsanın gözəlliyi onun elmində və davranışındadır. Böyük alim, müdrik insan fikri, sözü və əməli bir-birini tamamlayandır, yəni "xeyirxah fikir, xeyirxah söz və xeyirxah əməl" insan şəxsiyyətinin əxlaq kodeksidir. Bu xüsusiyyətləri özündə cəmləşdirən böyük qardaşım, romantik alim – ümumi bəşəri dəyərləri olan Abuzər müəllimin anadan olmasının 80 illiyi ilə əlaqədar öz fikirlərimi bildirmək istəyirəm.

Əvvəla onu demək istəyirəm ki, görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini və mədəniyyətini dünyaya nümayiş etdirir. Abuzər müəllimin bu sahədə gördüyü işlərin misli-bərabəri yoxdur.

Abuzər müəllim çox ədalətli bir şəxsiyyətdir. İnsanlar üçün xoşbəxtliyin qapısını ədalət açır. Bəşəriyyətin ən çox ədalətə ehtiyacı var. Çox görmüşəm ki, Abuzər müəllim ədalətsiz bir işi görən kimsəyə öz kəsərli sözünü deməsin. Mən elmimizin ağsaqqalının dilindən

çox eşitmişəm ki, "Ədalətsizliyi görüb susmağın özü ədalətsizliyin içərisində iştirak etmək deməkdir".

*Düzlüyü çox sevir taleyi yazan,*
*Görmədim düz yolda yolunu azan.*

*

Abuzər müəllim elmi biliyini tələbələrinə və yetirdiyi alimlərə verməkdə çox səxavətlidir.

*Səxavətlidir ən yaxşı iş dünyada,*
*Peyğəmbərlər layiq olmuş bu ada.*

BDU-nun Ağsaqqallar Şurasının sədri, dünya şöhrətli alim nəfsinə hakim bir şəxsiyyətdir, yəni əqil və əxlaq insan şəxsiyyətinin ən böyük var-dövlətidir. Çünki insan var-dövlətini qoruyur. İnsanı isə əql və əxlaq qoruyur.

Abuzər müəllim bütün ömrü boyu pak və vüqarla yaşayan şəxsiyyətdir. Bir bənd şeir yerinə düşər:

*Qələmcəli deyir, gözün olsa tox,*
*Sözün qılınc olar, baxışların ox.*
*Hər ləkə silinər, ad ləkəsi yox,*
*Sən təmiz adını ləkədən qoru.*

Bax böyük şəxsiyyət Abuzər müəllim belə bir alimdir. Yenə bir şeir parçası yadıma düşdü:

*Olsan tamahına, nəfsinə hakim,*
*Ölümü öldürər, yaşarsan daim.*

Abuzər müəllim çox insanlara yaxşılıaq keçib, onları çörək sahibi edib və ərsəyə çatdırıb. Yetirdiyi alimlərə və tələbələrinə atalıq qayğısı göstərib. Abuzər müəllimin qəlbi yaxşılıq etməklə döyünür.

Söhrab Tahirin aşağıdakı şeiri yerinə düşər:



*Səadətdən səxavətdən ucalır,*
*Yer üzündə bəşər kimi qocalır,*
*Dünya boyda, ancaq üççə hecadır,*
*İnsan gedər, adı qalar yaxşılıq,*
*Gedənləri yada salar yaxşılıq.*

*Yaxşı olma yaxşılıqdan ötəri,*
*Yaxşılıq et qoy olmasın xəbəri.*
*Ək dünyada bizə min bir səməni,*
*Qızıl taxıl dənəsidir yaxşılıq,*
*Ver özgəyə, dönəsidir yaxşılıq.*

*Mən ömrümü bənzətmişəm kibritə,*
*Ömür keçər, gün qurtarar, il bitər,*
*Qızıl düşər, dövlət batar, pul itər,*
*Tükənməyən bir sərvətdir yaxşılıq,*
*Əbədilik səadətdir yaxşılıq.*

Bütün bunları Abuzər müəllimin özü qazanıb. Yaxşılıq bütün sevinclərin əsasını təşkil edir. Yaxşılıq insanı düşüncəli, uzaqgörən, müdrik, mərd, ehtiyatlı, saf ürəkli, xoşbəxt və tərifəlayiq edir. Yaxşılıq insanın balaca dünyasının günəşidir. Təmiz vicdan isə onun göy qüvvəsidir. Belə insanları həm uca tanrı, həm də insanlar çox sevir. Abuzər müəllim belə şəxsiyyətdir. Abuzər müəllim əməksevər, zəhmətsevər, mərd, ciddi, çox cəsarətli və lütfkar bir alimdir. Əmək insan həyatının lampasıdır, zəhmət onun yanacağıdır, ağıllı düşüncə onu yandıran atəşdir. Ciddilik müvəffəqiyyətin anası, lütfkarlıq isə görkəmli şəxsiyyətlərin silahıdır. Bütün bu gözəl keyfiyyətlər elimin ağsaqqalında var.

Böyük hörmət və ehtiramım olan əziz qardaşım Abuzər müəllimlə 1998-ci ildə Həcc ziyarətində və 1999-

cu ildə isə Məşhəd ziyarətində birlikdə olmuşuq.

Abuzər müəllimin uca tanrıya nə qədər bağlı olduğunu görmüşəm. Bu şəxsiyyətin necə gözəl yol yoldaşlığı olduğunun şahidiyəm. Abuzər müəllim əsl Hacıdır. Çox pak qəlbi və Allaha inamı var. Burada bir şeir yerinə düşər:

*İstəsən saf olsun sinəndə ürək,*
*Ürəkdən on iki şeyi atasan gərək.*
*Hərislik, acgözlük, tamah, simiclik,*
*Şəhvət, hiyləgərlik, xəyanət, biclik,*
*Paxıllıq, dargözlük, təkəbbür, qürur*
*Əngəldi, hər işdə bir ziyan vurur.*
*Onlardan uzaq ol,*
*Abuzər müəllim, kimi dost ara,*
*Arxalan şöhrətli, şanlı dostlara,*
*Axırıncılar comərdlikdir, əvvəlkilər bədxahlıq,*
*Eylə öz könlünün mülkünə şahlıq.*
*Ən gözəl Hacısan olsan belə sən,*
*Belə deyilsənsə, Hacı deyilsən.*

Abuzər müəllimlə Həcc və Məşhəd ziyarətində olarkən bu şəxsiyyətdə gördüklərimi qələmə almaq üçün bir kitab yazmaq lazımdır. Məşhəd ziyarətində bir hadisə heç yadımdan çıxmır. Azərbaycandan 30 nəfər ziyarətə gedənlərin içərisində bir nəfər harda gəldi çıxış edirdi və ona heç söz də vermirdilər. Həmin adam duran kimi özünü tərifləməyə başlayırdı. Abuzər müəllim axırda dözməyib böyük bir məclisdə durub dedi ki, bu alim bircə evlər idarəsinin müdiri işləmir, qalan bütün titulları var. Sonra da ona 30 nəfər ziyarətçinin yanında öz kəsərli sözlərini dedi.

Abuzər müəllim çox yüksək səviyyəli alim, təcrübəli rəhbər və ictimai xadimdir. Abuzər müəllimin elmi



fəaliyyəti həm respublikamızda, həm də xarici ölkələrdə şöhrət qazanmışdır. Ölkəmizdə kitab və kitabxana mədəniyyətinin təşəkkülü və inkişaf tarixi Abuzər müəllimin adı ilə bağlıdır. Kitab təfəkkürün yorulmayan qanadıdır. O, insanı kamilləşdirir, onun nitqini və qabiliyyətini inkişaf etdirir.

Qanunlar nə vaxtsa ölür, kitablar isə heç vaxt ölmür. Kitablar insanı lütfkar, bilikli, bacarıqlı və cürətli edir. Neçə əsr əvvəl dünyadan köçmüş dahilərlə biz kitablar vasitəsilə görüşə bilirik. Kitablar gənclərin yol bələdçisidir. Kitab zamanın dalğaları üzərində səyahət edən və öz qiymətli yükünü, söz külcəsini nəsillərdən-nəsillərə daşıyıb gətirən fikir gəmisidir. Bax bu böyük xəzinənin açarı Abuzər müəllimdədir. Abuzər müəllim Azərbaycan dövlətini sevən, qanı və canı ilə dövlətçiliyimizə bağlı bir şəxsiyyətdir

Azərbaycan Respublikası Prezidenti, ulu öndərimiz Heydər Əliyevin fərmanı ilə prof. Abuzər Xələfov kitabxanaşünaslıq elminin inkişafında böyük xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir. Eyni zamanda Azərbaycan Respublikasının Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Bir dağ ol ki, çeşmən ilə həyat tapıb gülsün həyat.

Abuzər müəllim bir zirvəli dağdır. O dağın çeşməsindən çoxlu insanlar bəhrələnib, bəhrələnir və bəhrələnəcəkdir.

Görkəmli alim, cürətli və cəsarətli insan, müdrik şəxsiyyət, Sizə möhkəm cansağlığı, ailə səadəti və xoşbəxtlik arzu edirəm! Bundan sonrakı ömrünüz daha mənalı və daha gözəl olsun!




**Oqtay ƏKBƏROV**

***Bakı Dövlət Universiteti Kimya fakültəsinin Yüksəkmolekullu birləşmələr kimyası kafedrasının müdiri, Əməkdar müəllim, kimya elmləri doktoru, professor***


## GÖRKƏMLİ ALİM-ZİYALI

Bakı Dövlət Universitetinin Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfovun 80 yaşı tamam olur. Abuzər müəllimi yaxından tanıyan, uzun illər onunla birlikdə çalışan həmkarlarının, dostlarının və həmfikirlərinin qəlbində saçlarını Azərbaycan gəncliyinin təlim-tərbiyəsi və savadlanması yolunda ağartmış bu müdrik insan haqqında öz ürək sözlərini söyləmək arzusu vardır. İxtisasca fərqli olsaq da mən Abuzər müəllimi 40 ildən artıq bir müddət ərzində Universitet həyatı ilə bağlı birgə işlərimiz və müxtəlif səpgili tədbirlərlə əlaqədar tanıyıram.

Mən Abuzər müəllimi həmişə son dərəcə obyektiv, özünə və ətrafdakılara qarşı tələbkar, eyni zamanda xeyirxah, əlindən gələn imkanları daxilində köməkliyini əsirgəməyən bir insan kimi görmüşəm. Özünün astagəl, təmkinli davranışı, məntiqli və dolğun düşüncələri, fikirləri ilə Abuzər müəllim onu dinləyən hər kəsdə özünə qarşı dərin rəğbət və hörmət hissi yaradır. Onunla həmsöhbət olanlar ilk anlardan hiss edirlər ki, Abuzər müəllim hər bir sözün, ifadənin və fikrin məntiqinə diqqət



yetirən bir insandır.

Mən kitabxana işi sahəsində mütəxəssis olmasam da uzun illər ərzində olan müşahidələrim və məlumatlarım əsasında mübaliğəsiz deyə bilərəm ki, respublikamızda kitab və kitabxana mədəniyyətinin tədqiq edilib sistemləşdirilməsində, onun qanunauyğunluqları, ənənə və meyllərinin üzə çıxarılmasında, ta qədim zamanlardan müasir dövrümüzə qədər kitabxana işinin xalqımızın mədəniyyət və maarifçilik ənənələrilə əlaqəli şəkildə tədqiqində Abuzər müəllimin əvəzsiz xidmətləri vardır.

Ömrünün 50 ildən çoxunu respublikamızda kitabxana işinin problemlərinə, nəzəriyyə və metodologiyasının işlənib hazırlanmasına, kitabxana-informasiya təhsili məsələlərinin formalaşdırılmasına həsr edən Abuzər müəllimi respublikamızda kitabxanaşünaslıq elminin patriarxı, qurucusu və təşkilatçısı hesab etmək olar. Təsadüfi deyildir ki, 1962-ci ildə Azərbaycan Dövlət Universitetində (indiki BDU) yaradılan Kitabxanaçılıq fakültəsinin ilk dekanı məhz Abuzər müəllim olmuş və o, bu vəzifədə 25 il fəaliyyət göstərmişdir.

Neçə illərdir ki, Abuzər müəllim Bakı Dövlət Universitetində Nəşriyyat Şurasına rəhbərlik edir. Şuranın bir üzvü kimi mən həmişə Abuzər müəllimin müzakirə olunan məsələlərə son dərəcə obyektiv, qərəzsiz və səriştəli münasibətinin şahidi olmuşam. Daxil olan çap materialları və sənədləri haqqında ən xırda təfərrüatları səbr və təmkinlə təqdim etməklə Abuzər müəllim, hətta həmin sahənin mütəxəssisi olmayan Şura üzvlərində lazım olan təsəvvürü yarada bilir.

Respublika ictimaiyyəti və təhsil işçiləri Abuzər müəllimi yalnız görkəmli kitabxanaşünas alim-tədqiqatçı kimi deyil, həm də ali təhsil sistemində tədris proseslərinin mahir bilicisi kimi tanıyırlar. Azərbaycan

Respublikası Təhsil Nazirliyinin vahid Elmi-Metodik Şurasının Bölmə sədri olan Abuzər müəllimin müstəqil Azərbaycan respublikasının Təhsil Konsepsiyasının hazırlanması, respublikamızda ali təhsilin yenidən qurulması proseslərində fəal iştirakı və verdiyi dəyərli təklifləri bu sahədə çalışan mütəxəssislər və təhsil ictimayyəti tərəfindən yüksək qiymətləndirilmişdir.

Azərbaycan Respublikasinin Əməkdar mədəniyyət işçisi, Əməkdar elm xadimi, Prezident təqaüdçüsu, "Şöhrət" ordenli, bir sıra nüfuzlu beynəlxalq elmi mərkəzlərin üzvü, tarix elmləri doktoru, professor Abuzər müəllim ömrünün müdriklik çağını yaşayır. Bu gün də öz bilik və bacarığını, zəngin həyat təcrübəsini gənc nəslə əvvəlki coşqu və həvəslə öyrədən, elmi-pedaqoji kadrların hazırlanması işində öz qüvvəsini əsirgəməyən böyük ziyalı-alim Abuzər müəllimə uzun ömür, möhkəm cansağlığı, geniş spektrli elmi-pedagoji və ictimai fəaliyyətində böyük uğurlar arzulayıram.



**Süleyman MƏMMƏDOV**

*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri, Əməkdar elm xadim, tarix elmləri doktoru, professor*



## ZİRVƏ FƏTH ETMİŞ ALİM

Professor Abuzər Alı oğlu Xələfovun 80 yaşının tamam olmasını eşidəndə inanmadım, bu ərəfədə onun elmdə keçdiyi yola nəzər saldım, hələ lap erkən çağlarında onun təhsilə marağını, ictimaiyyətçi olmasını, elmi-tədqiqata meylini və bacarığını gördüm, müxtəlif səpkidə çoxsaylı yazılarına baxdım, gördüm ki, o, Azərbaycanda kitabxanaçılıq və biblioqrafiya işinin təşkilində fəal olmuş, vaxtilə Azərbaycan Dövlət Universiteti Filologiya fakültəsinin nəzdində kitabxanaçılıq şöbəsini bitirən gənc Abuzər çox böyük işlər görmüşdür. Alimin ötən illərdə mətbuat səhifələrində dərc olunmuş yazıları ilə tanışlıq məni heyrətə gətirdi. Prof. A.A.Xələfov böyük məsuliyyət hissi ilə çalışan, hər sözün mənasını qabaqcadan bilən alimdır.

Görkəmli alimin xoşbəxtliyi orasındadır ki, onun yazılı və şifahi nitqi son dərəcə zəngindir. Elmi məclislərdə, universitetdə keçirilən müxtəlif xarakterli tədbirlərdə çıxışlarına qulaq asmışam. O, həmişə diqqət mərkəzində olmağa çalışır, mövzuya uyğun elmi-nəzəri müddəaları faktik materiallarla çox gözəl əlaqələndirir, bu da dinləyicilərin marağına səbəb olur. Prof. A.Xələ-

fov indi ahıl yaşında olsa da həmişə stol arxasındadır. Müxtəlif məzmunlu elmi tədqiqat işlərini, dissertasiyaları oxuyur, yeri gəldikcə redaktə edir, müdir kimi kafedraya daxil olan ayrı-ayrı elmi yazılara münasibət bildirir. Onun yaradıcılığına nəzər saldıqda demək olar ki, ömrünün 30 ilini Azərbaycan kitabxanaçılıq və biblioqrafiya elminin inkişafı tarixinin araşdırılmasına həsr etdiyini görürük. Bu gün onu ağıllı elm təşkilatçısı və yaradıcı şəxs kimi görməyimdən məmnunam.

Prof.A.Xələfov həm də respublika və universitet səviyyəli elmi-praktik konfransların, yubiley tədbirlərinin keçirilməsində təşkilat komissiyasındadır.

Prof.A.Xələfovun Kitabxanaşünaslıq kafedrasının müdiri vəzifəsini uğurla yerinə yetirməsi sayəsində respublikamızda kitabxana işi əsas elmi-tədqiqat mərkəzinə çevrilmişdir.

Görkəmli alim öz işində sadə olduğu qədərdə son dərəcə ciddidir. Uzun illərdən bəri müşahidəm əsasında belə nəticəyə gəlmişəm ki, Abuzər müəllim hər prinsipial məsələdə asanlıqla güzəştə getməyi sevmir, qeyri-səmimi cavabdan xoşu gəlmir. Universitetdə dekan olduğu illərdə professor Əli Sultanlının Abuzər müəllimin haqqında tələbə ilə söhbətinin şahidi olmuşam, indiyədək onu unuda bilmirəm. Prof. Əli Soltanlı tələbədən soruşur:

- Abuzər Xələfovun fakültəsində oxuyursan?
- Bəli!
- O, çox ciddi adamdır ha!

Bəli, o, adamlarla münasibətində son dərəcə həlimdir, işində, tələbkarlıqda ciddidir. Prof. Abuzər Xələfov əsərlərində, elmi məclislərdəki məruzə və çıxışlarında Azərbaycan Respublikasında ali kitabxanaçılıq təhsilinin müasir konsepsiyasının əsasını formalaşdırmışdır.



Prof. A.Xələfov 1961-ci ildə namizədlik, 1975-ci ildə isə doktorluq dissertasiyalarını müdafiə edərək, təkcə Azərbaycanda deyil, həmçinin keçmiş Sovet İttifaqı məkanında kitabxana işi sahəsində ilk tarix elmləri doktoru alimlik dərəcəsi alan alimdir. 500-dən çox bu və ya digər səpgidə yazdığı fundamental tədqiqat işləri alimə böyük nüfuz qazandırmışdır.

Onun mütəxəssis olaraq elmi-pedaqoji kadrların hazırlığında da əvəzsiz xidmətləri vardır. O, Azərbaycanda kitabxanaşünaslıq elmi sahəsində xüsusi elmi məktəb yaratmış, respublikamızda hazırlanan və fəaliyyət göstərən bütün kitabxanaşünas alimlər bu məktəbin – Abuzər Xələfov elmi məktəbinin yetişdirməsidir.

Abuzər müəllimdə alimlik və müdriklik birləşir. Bu cəhət, həm də ictimai həyatda elm adamlarının nüfuzunun qalxmasına xidmət edir. O, cəsarətli, sözünü deyə bilən adamdır. Özü də indiki dövrdə. Öz sözü, öz siması olan adamların qıtlığı şəraitində. Onun bu cəhəti diqqəti xüsusilə cəlb edir.

Prof. A.Xələfovun zəngin yaradıcılıq yolu elmi ictimayyətin dərin rəğbətini qazanan görkəmli ziyalı, müəllim, fədakar elm, mədəniyyət və təhsil xadiminin keçdiyi şərəfli yoldur. Hər dəfə onunla söhbətdə yeni bir ağsaqqal sözü eşidirsən, keçmiş kişilərə xas olan bir sanballıq görürsən.

Əmək və müharibə veteranı prof.A.Xələfovun Vətən və cəmiyyət qarşısında, elm, mədəniyyət və təhsilin inkişafındakı xidmətləri dövlət və ictimai təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir. O, "Azərbaycan Respublikası Əməkdar mədəniyyət işçisi", "Əməkdar elm xadimi" fəxri adlarına layiq görülmüş, "Şöhrət" ordeni ilə təltif edilmişdir. Prof. A.Xələfov "Ali məktəb əlaçısı" döş nişanı və bir çox medallarla təltif edilmiş-

dir. Görkəmli alim 2006-cı ildən Prezident təqaüdçüsüdür. O, elmi mübahisəni çox sevən, həmişə fikir orijinallığı ilə fərqlənən alimdir. İncə qəlbli, səmimi insan Abuzər müəllim sözü düzünə, birbaşa danışan insandır. Qəlbində adamlara qarşı kin-küdurət yoxdur. Abuzər müəllim həmişə yaradıcılıq axtarışlarındadır.

Prof. Abuzər Xələfov respublikada baş verən ictimai-siyasi proseslərə çevik münasibətini bildirən alimdir.

Prof. Abuzər Xələfov zaman və məkan anlayışından uca duran müstəqil Azərbaycanın memarı, onu inkişaf yoluna salan, azərbaycançılıq qayəsinin keşiyində duran ümummilli liderimiz dahi Heydər Əliyevin fəaliyyətinə, Dağlıq Qarabağ münaqişəsinə həmişə öz vətəndaş mövqeyini bildirmişdir.

O, dost üçün əziyyət çəkməyə ərinməyən bir insandır. Millətini, dilini və torpağını sevən adam böyük Vətəndaş olur. Bu sevgi onun mükəmməlliyini təmin edir.

Prof. Abuzər Xələfov ömrünün müdriklik çağlarını yaşayır. O, təkcə Azərbaycanda deyil, həmçinin yaxın və uzaq xarici ölkələrdə yaxşı tanınan görkəmli alimdir. Əminəm ki, Abuzər müəllim bundan sonra da özünün yeni-yeni sanballı əsərləri ilə Azərbaycanın kitabxanaşünaslıq elmini daha da zənginləşdirəcəkdir.

Azərbaycanın görkəmli kitabxanaşünas alimi, professor Abuzər Xələfova möhkəm cansağlığı, yeni-yeni yaradıcılıq nailiyyətləri və işlərində uğurlar arzulayıram. Bəli, Abuzər müəllim zirvəni fəth edən alimdir. Abuzər müəllim mənim düşüncəmdə həmişə Vətəndaş böyüklüyü ilə canlanır.



**Fərrux RÜSTƏMOV**

***Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqoji fakültəsinin dekanı, Beynəlxalq Pedaqoji Akademiyanın həqiqi üzvü, Pedaqoji və Sosial Elmlər Akademiyasının akademiki, pedaqoji elmlər doktoru, professor***



## ÖRNƏK İNSAN

İnsanın ləyaqəti, böyüklüyü onun ruhi-mənəvi əzəməti ilə ölçülür. Ruhən böyük olan insanların sərvətləri öz şəxsiyyətləri olur. Belə insanlar yalnız ailəsinə, nəslinə, elinə-obasına deyil, bütöv Vətən övladlarına örnək olur. Belə örnək insanlardan biri Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin Kitabxanaşünalıq kafedrasının müdiri, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Prezident təqaüdçüsü, "Şöhrət" ordenli, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfovdur. Onun adı Azərbaycan elm tarixinə, kitabxanaşünaslıq elminin banisi, milli kitabxanaşünaslıq elmi məktəbinin yaradıcısı, ali kitabxanaçılıq-informasiya təhsilinin təşkilatçısı, görkəmli elm, təhsil və mədəniyyət xadimi kimi yazılıb. O, Azərbaycan kitabxanaçılıq elmini xarici ölkələrdə ləyaqətlə təmsil edən ziyalılarımızdan biridir. Xalqa ən çox fayda verən şəxs insanların ən yaxşısı sayılır. Abuzər Xələfov şəxsiyyəti, yaradıcılığı və elmi-

pedaqoji fəaliyyəti ilə xalqına daha çox fayda verən insanlardan biridir. Onun həyatının mənası zəhmətdir. Soyadının və adının qarşısına yazılan titullar, aldığı müxtəlif dövlət mükafatları, fəxri fərmanlar, orden və medallar onun yuxusuz gecələrinin, narahat gündüzlərinin, səbrlə yazıb-yaratmağının, arayıb-axtarmağının, sözünü yerində və vaxtında deməyinin nəticəsidir. İnsan kərpic kimidir, bişdikcə möhkəmlənir. Həyatın çətinlikləri, elm yolunun daşlı - kəsəkli yolları onu daha da möhkəmləndirib, qısa bir müddətdə şöhrətin uca zirvəsinə yüksəldib. Abuzər müəllim mənim uşaqlıqdan idealım olub. Bizim kənddə elm yolunda ilk cığır açan, açdığı cığırı sonrakı illərdə geniş və şaqraq yola çevirən məhz Abuzər müəllim olmuşdur. Onun bu nümunəsinin və fədakarlığının nəticəsidir ki, doğma kəndimizdən onlarla elmlər namizədi və doktoru Azərbaycan elminin müxtəlif sahələrini ləyaqətlə təmsil edir.

Abuzər müəllimin elmə gəlməsi keçən əsrin 50-ci illərinə təsadüf edir. O dövrdə Azərbaycanda elmin, mədəniyyətin, incəsənətin bütün sahələrində sürətli inkişaf başlandı. Bu, hər şeydən, əvvəl milli elmi kadrların yeni nəslinin yetişməsi və formalaşması ilə bağlı idi. Əgər əvvəllər Azərbaycan elmini yaxın və uzaq xaricdə əsasən rus alimləri təmsil edirdisə, 50-ci illərdən bu tendensiya milli kadrların hesabına dəyişdi. Azərbaycan elmini dünya arenasına çıxaran, onu layiqincə tədqiq və təbliğ edən çox nüfuzlu alimlər yetişdi ki, onlardan biri də adı ilə fəxr etdiyimiz, haqlı olaraq öyündüyümüz, elimizin və elmimizin ağsaqqallarından biri professor Abuzər müəllimdir.

Ömrünün müdriklik və kamillik dövrünü yaşayan, öz dəsti xətti, öz yeri, öz mövqeyi olan alim A.Xələfov bütöv şəxsiyyətdir. Onun həyatı, şəxsi və ictimai fəaliyyəti, geniş elmi erudisiyası, yaradıcılıq üslubu, tədqiqatçı - alim səliqə-səhmanı, idarəetmə qabiliyyəti, insanlara məhəbbəti, qayğısı, ünsiyyəti və səmimiyyəti əsl nümunə məktəbidir. O, saflıq, təmizlik, qeyrətlilik, xeyirxahlıq, obyektivlik və prinsipiallıq rəmzidir. Peşəkar alim, vətənpərvər ziyalı, ümid, pənah yeri olan el ağsaqqalı, ürəyində Vətən dərdi, yurd həsrəti, torpaq niskili, Göyçə həsrəti yaşadan zərif duyğulu insanlardandır. Vüqar və əzəmətini Şah dağından, duruluğunu, saflığını, neçə-neçə xəstəyə şəfa olan Çilin Pəri bulağından, təmkinliyi və səbri elin ağsaqqal kişilərindən alıb Abuzər müəllim. Göyçənin ab-havası, təbiətinin və insanlarının gözəlliyi, boya-başa çatdığı Alı kişi ocağının adət-ənənələri onun ruhuna hopub, onu insanlara qarşı daha da həssas edib.

Uşaqlıq illəri doğma yurdda - Göyçə gölünün sahilində, XII əsrdə bərqərar olan Çil kəndində, indi yadlara, yağılara qalan, «xəstə üçün zirvəsində qar olan», «süsənli, sünbüllü, laləli dağlarda» keçib. İlk gündən bacarığı, diribaşlığı və fəhmi ilə seçilib. Yeddiillik məktəbi doğma kənddə, orta məktəbi isə Toxluca kəndində bitirib. O dovrün sosial-siyasi, mədəni-psixoloji şəraitinə, müxtəlif çətinliklərə baxmayaraq oxumağı özünün həyat idealı seçib. Ömrünün qaynar və coşqun illəri müharibə dövrünə düşüb. İnsanlara ölüm və fəlakət gətirən müharibə onun da ömrünün ən gözəl və təravətli dövrünü yeyib. Yaşıdları kimi o da cəbhəyə gedənləri əvəz etmək üçün kolxoza gəlib, yaşına uyğun olmayan işdən yapışıb, əzablı-əziyyətli, məhrumiyyətli günlər yaşayıb. Bu günlərdən ona acılı-şirinli xatirələr və bir də SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə verilmiş «Böyük Vətən müharibəsində (1941-1945-cİ illər) rəşadətli əməyə görə» medalı qalıb.

Ali təhsil almaq arzusu ilə Bakıya gələn A.Xələfov respublikamızın ən nüfuzlu ali məktəbinə - ADU-nun filologiya fakültəsinin kitabxanaçılıq şöbəsinə qəbul olunur. Elə bununla da taleyinin uğurlu günləri başlayır. Səbrlə, təmkinlə, böyük həvəslə arayıb-axtarır, yuxusuz gecələr, narahat gündüzlər yaşayır. Hələ tələbə olarkən geniş erudisiyası, ictimaİ-siyasi fəallığı, əlaçı olması ilə tələbə yoldaşları arasında böyük nüfüz qazanır. Onun bacarığı, təşkilatçılıq qabiliyyəti, elmə sonsuz meyli müəllimlərinin nəzərindən yayınmır. A.Xələfov universiteti bitirdikdən sonra orada müəllim saxlanılır, sistemli və ardıcıl tədqiqatlara başlayır. Unikal xarakterə malik olduğu kimi, nadir də peşə seçir. Azərbaycanda kitabxana işinin tarixini öyrənməklə yeni bir elmi istiqamətin əsasını qoyur. «Azərbaycanda kitabxana işinin tarixindən» (1920-1932) mövzusunda namizədlik, «Azərbaycanda kitabxana işinin tarixi» (1932-1959) mövzusunda doktorluq dissertasiyaları müdafiə edərək nəinki respublikamizda, eyni zamanda keçmiş İttifaqda kitabxana işinin tarixinin mahir bilicisi kimi nüfuzlu və səlahiyyətli söz sahibi olur. Moskvada fəaliyyət göstərən yeganə ixtisaslaşdırılmış doktorluq şurasının üzvü seçilir. Bu fakt onun nailiyyətlərinin, elmi nəticələrinin İttifaq miqyasında təsdiqinin bariz nümunəsi olmaqla yanaşı, həm də azərbaycanlı alimin istedadının rus alimləri tərəfindən etirafıdır.

A.Xələfovun tədqiqatları Azərbaycan mədəniyyət tarixinin digər sahələrini öyrənmək baxımından da çox qiymətlidir. Burada qədim dövrdən başlayaraq bu günədək Azərbaycanda kitabxanaşunaslığın keçdiyi inkişaf yolu araşdırılmış, sistemləşdirilmiş, bu inkişafa təkan verən amillər üzə çıxarılmış, perspektivlər müəyyənləşdirilmişdir. Abuzər Xələfov kitabxana işinin təşkili



ilə bağlı tarixi təcrübəni öyrənməklə, onu sadəcə təsvir etməklə kifayətlənməmiş, inkişafın qanunauyğunluqlarını müəyyənləşdirmiş, fakt və rəqəmləri dövrün ictimai-siyasi hadisələri fonunda, tarixilik və elmilik prinsiplərinin tələbləri baxımından dəyərləndirmiş, müasir dövrdə kitabxana işinin təşkili və kitabxanaşünaslıq elmi ilə bağlı dəyərli fikirlər söyləmiş, nəzəri konsepsiyalar irəli sürmüşdür.

Professor Abuzər Xələfovun elmi yaradıcılığında ulu öndər Heydər Əliyevin elmi-nəzəri irsinin öyrəNilməsi və təbliği mühüm yer tutur. Alimin "Heydər Əliyev. Biblioqrafik məlumat kitabı" və "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" kimi sanballı kitabları bu baxımdan olduqca diqqətəlayiqdir. Bu mühüm əsərlər mütəxəssislərin diqqətini cəlb etmiş, həm elmi nəşrlərdə, həm də kütləvi informasiya vasitələrində çox yüksək qiymətləndirilərək, müəllifinə şöhrət qazandırmışdır.

O, öz tədqiqatlarının nəticələrinin praktikaya tətbiqinə böyük önəm vermişdir. Elmi qənaətlərini, arzu və istəklərini həyata keçirmək məqsədilə kitabxanaçılıq fakültəsini yaratmış, onun bütün çətinliklərini öz üzərinə götürmüşdür. Ömrünün bütöv bir hissəsini fakültənin yaranmasına, inkişafına, müasir tələblərə cavab verən kitabxanaçı kadrların hazırlığına həsr etmişdir. Haqlı olaraq onu respublikamızın kitabxanalarında fəaliyyət göstərən 5 mindən artıq yüksək ixtisaslı kitabxanaçılar ordusunun müəllimi adlandırırlar. Abuzər müəllim 40 ilə yaxındır ki, BDU-nun kitabxanaşünaslıq kafedrasının müdiridir. Kafedranın yaranması, ildən-ilə inkişaf etməsi, elmi potensialının güclənməsi, istedadlı tələbələrin müəllim kimi işə cəlb olunması da onun adi ilə bağlıdır. Mədəniyyət tarixi və kitabxanaşünasliq ixtisası üzrə elmi-pedaqoji kadr hazırlığında onun önəmli xidmətləri

vardır. Onun rəhbərliyi ilə 1 doktorluq, 15 namizədlik dissertasiyası müdafiə edilmişdir. Yetişdirdiyi gənc alimlərdən bir neçəsi onun başçılıq etdiyi kafedrada çalışır. Müxtəlif müdafiə şuralarının üzvü kimi neçə-neçə gənc tədqiqatçının elmi dərəcə almasına xeyir-dua verib, köməklik edib. 25 nəfərin isə rəsmi opponenti olub.

Moskva, Tbilisi, Daşkənd və digər şəhərlərdəki ixtisaslaşmış müdafiə şuralarında, kitabxanaşünaslığın aktual problemlərinə həsr olunmuş elmi konfranslarda, simpoziumlarda maraqlı çıxışları, məntiqi mühakimələri, elmi diskussiyaları ilə xalqımıza başucalığı və şərəf gətirmişdir. BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki seçilməyi onun həm yaxın, həm də uzaq xaricdə yaxşı tanındığına dəlalət edir.

Kitabxanaşünaslıq təhsilinin məzmununun müəyyənləşdirilməsində, tədris planlarının, proqramların, dərslik və dərs vəsaitlərinin hazırlanmasında onun müstəsna xidməti vardır. Bu sahədə işıq üzü görən dərslik və dərs vəsaitləri, müxtəlif-kütləvi kitablar onun müəllifliyi, redaktorluğu, ya da rəyi ilə nəşr olunub. İndiyə kimi nəşr etdirdiyi 350 ç/v həcmində 32 kitab, 300 elmi məqaləsi ömrünün sevinc payı, çəkdiyi zəhmətin, sistemli araşdırmalarının bəhrəsidir. Əsərləri Azərbaycan və rus dillərində müxtəlif nəşriyyatlarda və nüfuzlu elmi jurnallarda çap edilib.

Prof. Abuzər Xələfov elmi tədqiqatlarını müxtəlif istiqamətli ictimai-siyasi fəaliyyəti ilə əlaqələndirməyi bacaran alimdir. O, respublikamızda və keçmiş SSRİ-də elm, təhsil, kitab və kitabxana işi ilə bağlı müxtəlif məsul ictimai vəzifələr daşımışdır. BDU-nun elmi-pedaqoji, ictimai-mədəni həyatında onun xüsusi yeri və çəkisi vardır. O, universitetdə çox böyük nüfuz sahibidir. Kitabxanaşünaslıqla bağlı elmi məktəb yaradan



Abuzər müəllim müasirlərindən fərqli olaraq özünün çoxillik səmərəli elmi-pedaqoji fəaliyyəti ilə çoxdan klassik müəllimlər cərgəsinə daxil olmuşdur. Azərbaycan kitabı yaşadıqca onun adı da yaşayacaq. Müasirləri kimi gələcək nəsillər də onun millətə xidmətini yüksək qiymətləndirəcək. Çünki o, millətə və onun elminə ləyaqətlə, vicdanla xidmət edib, ömrünün bütöv bir hissəsini, gənc nəslin təlim-tərbiyəsinə, mütəxəssis kimi yetişməsinə, alim kimi formalaşmasına həsr edib.

Onun elmi və pedaqoji fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, 2000-ci ildə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin fərmanı ilə Bakı Dövlət Universitetinin 80 illiyi münasibətilə elm və təhsil sahələrindəki xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir. 1969-cu ildə kadr hazırlığı sahəsində xidmətlərinə görə ona "Əməkdar mədəniyyət işçisi", 2001-ci ildə isə "Əməkdar elm xadimi" fəxri adı verilmişdir.

Azərbaycan kitabxanaşünaslıq elminin inkişafında böyük xidmətlərinə görə professor A.Xələfovun hələ sovet dövründə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin "Ali məktəb əlaçısı" döş nişanı və bir çox medallarla təltif edilmişdir. Görkəmli alim 2006-cı ildən Prezident təqaüdçüsüdür.

Prof. Abuzər Xələfov bu gün ömrünün doqquzuncu onilliyinə qədəm qoyarkən ötən günlərinin deyil, yadda qalan günlərinin işığında arxaya baxır. Təbii ki, sevinir, fərəhlənir, yazıb-yaratdıqlarından zövq alır. Yetirmələrinin uğurlarından məmnunluq duyur.

Professor A.Xələfovu anadan olmasının 80 illiyi münasibətilə ürəkdən təbrik edirəm, ona uzun ömür, cansağlığı, qəlb rahatlığı, könül xoşluğu, yaradıcılıq uğurları, nəvə-nəticə sevinci arzu edirəm.



Əli ALLAHVERDİYEV

*Azərbaycan Dövlət Pedaqoji Universitetinin İqtisadi nəzəriyyə kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor*

## BÖYÜK ALİM, PEŞƏKAR TƏŞKİLATÇI, XEYİRXAH İNSAN

Professor Abuzər Alı oğlu Xələfov orijinal təfəkkürə, özünəməxsus təlim – tərbiyə üslubuna, sadə ifadə və deyim tərzinə, məna və təsvir yükünə malik yaradıcı alim, şəxsiyyəti etibarı ilə kamil, fəlsəfi mühakimə və düşüncəyə, aydın duyuma, yüksək nitq mədəniyyətinə malik zəkalı ömür sahibi, böyük pedaqoq, gözəl ailə başçısı, zəhmətkeş alimdir.

Ali təhsil almaq arzusu ilə Bakıya gələn Abuzər müəllim respublikamızın ən nüfuzlu ali məktəbinə – ADU-nun filologiya fakültəsinin kitabxanaçılıq şöbəsinə qəbul olunur. Elə bununla da taleyinin uğurlu günləri başlayır. Səbrlə, təmkinlə, böyük həvəslə arayıb axtarır, yuxusuz gecələr, narahat günlərlə yaşayır. Hələ tələbə olarkən geniş erudisiyası, ictimai-siyasi fəaliyyəti, əlaçı olması ilə tələbə yoldaşlarının arasında böyük nüfuz qazanır. Onun bacarığı, təşkilatçılıq qabiliyyəti, elmə sonsuz meyli müəllimlərinin nəzərindən yayınmır. A.Xələfov universiteti bitirdikdən sonra orada müəllim saxlanılır, sistemli və ardıcıl tədqiqatlara başlayır.



Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsinin yaradıcısı və ilk dekanı olan Abuzər müəllimin kitabxana işinin nəzəri əsaslarının yaranmasında və respublikamızda yüksək ixtisaslı kitabxana işçilərinin yetişməsində müqayisəolunmaz xidməti var. O, kitabxanaşünaslıq elminin banisi, milli kitabxanaşünaslıq elmi məktəbinin yaradıcısıdır.

Bütövlükdə 25 il Kitabxanaçılıq fakültəsinin dekanı vəzifəsində çalışan A.Xələfov özünün təşəbbüskarlıq fəaliyyəti, təşkilatçılıq bacarığı və idarəçilik metodları ilə böyuk nüfuz qazanmış, yüksək ixtisaslı milli kitabxaşünas-biblioqraf kadrların hazırlanması istiqamətində səmərəli iş aparmışdır.

Abuzər müəllim 50 ilə yaxındır ki, Bakı Dövlət Universitetinin Kitabxanaşünaslıq kafedrasının müdiridir. Kafedranın yaranması, ildən-ilə inkişaf etməsi, elmi potensialının güclənməsi, istedadlı tələbələrin müəllim kimi işə cəlb olunması da onun adı ilə bağlıdır. Onun rəhbərliyi ilə onlarla namizədlik və doktorluq dissertasiyaları müdafiə olunmuşdur. Yetişdirdiyi gənc alimlərdən bir neçəsi onun başçılıq etdiyi kafedrada çalışır. Kitabxanaşünaslıq təhsilinin məzmununun müəyyənləşdirilməsində, tədris planlarının, proqramlarının, dərslik və dərs vəsaitlərinin hazırlanmasında onun müstəsna xidməti vardır. Əsərləri Azərbaycan və rus dillərində müxtəlif nəşriyyatlarda və nüfuzlu elmi jurnallarda çap edilib.

Əmək və müharibə veteranı olan professor A.Xələfovun vətən və cəmiyyət qarşısındakı, elm, mədəniyyət və təhsilin inkişafındakı dövlət orqanlaının və bir sıra ictimai təşkilatların xüsusi mükafatları, medalları və fəxri fərmanları ilə dəyərləndirilmişdir. Belə ki, 1969-cu ildə kadr hazırlığı sahəsində xidmətlərinə görə

«Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi» fəxri adına, 2001-ci ildə isə kitabxanaşünaslıq elminin inkişafında böyük xidmətlərinə görə «Əməkdar elm xadimi» fəxri adına layiq görülmüş ilk kitabxanaşünas alimdir. Görkəmli alim A.Xələfov 2000-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə Bakı Dövlət Universitetinin 80 illiyi münasibətilə elm və təhsil sahələrindəki xidmətlərinə görə «Şöhrət» ordeni ilə təltif edilmişdir.

80 yaşı tamam olan prof. A.Xələfovun yaşadığı şərəfli ömrünü vərəqlədikcə deyilməli, yazılmalı, nümunə göstərilməli və ən nəhayət, fəxr edilməli olan məqamların kifayət qədər çox olduğunu görüb, onunla bir torpaqda, bir eldə, bir mahalda doğulub yaşadığım üçün qürur hissləri keçirirəm.

Abuzər müəllim yaratmaq, mübarizə aparmaq üçün doğulan insanlardandır... Ulu Zərdüşt alimləri həyatın yol göstəriciləri adlandırırdı. Bu fikir sanki professor Abuzər Xələfov haqqında deyilib.

Elimin, obamın qürurlu oğlu, möhtəşəm həmkarım, professor A.Xələfovu 80 ilik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona uzun ömür, cansağlığı və ailə xoşbəxtliyi arzulayıram.



**İlham MUSTAFAYEV**

*Azərbaycan RespublikasıTəhsil NazirliyiAli və orta ixtisas təhsili şöbəsinin müdiri, fizika-riyaziyyat elmləri doktoru, professor*



## GÖRKƏMLİ ELM VƏ TƏHSİL TƏŞKİLATÇISI

Azərbaycan xalqının milli iftixarı olan Bakı Dövlət Universitetinin sütunları haqqında düşünəndə həmişə Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, Birləşmiş Millətlər Təşkilatı yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Prezident təqaüdçüsü, "Şöhrət" ordenli, Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin prezidenti, Bakı Dövlət Universiteti Ağsaqqallar Şurasının sədri, BDU Nəşriyyat Şurasının sədri, BDU Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor Abuzər Xələfov yadıma düşür. Abuzər müəllim Azərbaycanda ali təhsil sisteminin tanınmış nümayəndələrindən, onun inkişaf strategiyasını düzgün müəyyənləşdirən görkəmli alimlərdən biridir. Son 40 ilə yaxın bir dövrdə Abuzər müəllimlə təmasda olduğum dövrdə mən ondan yalnız ali təhsilin problemlərini deyil, əsl vətəndaşlıq, milli təəssübkeşlik, yüksək ziyalılıq, yürütdüyü mühakimələrdə elmilik və məntiqilik, şəxsi müstəvidə xeyirxahlıq, əsl insani münasibətlər görmüşəm. Hələ keçmiş sovetlər birliyi döv-

ründə professor Abuzər Xələfovun Azərbaycanda ali kitabxanaçılıq təhsili sahəsində tanınmış alim, nüfuzlu mütəxəssis kimi tanındığının mən də şahidiyəm.

Prof. A.Xələfov Azərbaycanda, eyni zamanda onun hüdudlarından çox-çox uzaqlarda tanınan görkəmli alim və təhsil təşkilatçısıdır. İftixar hissi ilə deyə bilərəm ki, Abuzər müəllim xalqımızın çoxəsrlik mədəniyyət tarixinin, onun tərkib hissəsi olan kitab və kitabxana mədəniyyətinin təşəkkülü və inkişaf mərhələlərini sistemli və kompleks tədqiq edən ilk tədqiqatçıdır. Onun namizədlik və doktorluq dissertasiyaları məhz bu problemin həllinə həsr olunmuşdur. Abuzər müəllimin bu istiqamətdə şəxsi müstəvidə əldə etdiyi naliyyətlərin nəticəsi kimi çapdan çıxmış "Azərbaycanda kitabxana işinini tarixi " monimental 3 cildlik əsərini xüsusi qeyd etmək lazımdır.

Prof. A.Xələfov ötən əsrin 60-cı illərindən milli kitabxanaşünaslıq məktəbini yaratmağa başlamış, onu formalaşdırmış və bu gün də həmin məktəbin başında ləyaqətlə durur. Onun rəhbərliyi ilə 20-dən çox elmlər doktoru və elmlər namizədi yetişmişdir. Bu da görkəmli alimi Azərbaycan kitabxanaşünaslıq məktəbinin banisi hesab etməyə bizə tam əsas verir. Abuzər müəllimin həyat yolu kitabxanaşünaslıq elminin və ali kitabxanaçılıq təhsilinin harmoniyasıdır desək, səhv etmərik.

Abuzər müəllimin ən mühüm keyfiyyətlərindən biri kimi çalışdığı sahədə həyata keçirilməsi zəruri olan obyektiv prosesləri daha tez və dərindən dərk etməsi və bu istiqamətdə konkret addımlar atmasıdır. Dünyada qlobal informasiyalaşdırma proseslərinin getdiyini görən Abuzər müəllim 1999-cu ildə BDU-nun Kitabxanaproseslərişünaslıq kafedrasının nəzdində "Kitabxana proseslərinin kompüterləşdirilməsi" elmi-tədqiqat laborotoriyasını yaratmaqla ölkədə bu prosesə güclü təkan verdi. Müasir İnformasiya Kommunikasiya Texnologiyalarının kitabxana işinə tətbiqi bundan sonra ölkə miqyasında yayılmağa başladı. Nəticədə Azərbaycanda kitabxana-informasiya məkanında ab-hava dəyişdi. Bu da Abuzər müəllimin millət və dövlət qarşısında böyük xidmətlərindən biridir.



Abuzər müəllimin yaradıcılıq laboratoriyasında ikinci mühüm istiqamət milli kitabxanaşünaslıq elminin nəzəri-metodoloji, fəlsəfi əsaslarının tədqiqidir. Onun tədqiqatlarının nəticəsi olan 3 cildlik " Kitabxanaşünaslığa giriş" əsərində, onlarla elmi məqalələrində kitabxanaşünaslıq elmləri sistemi formalaşdırılmış, onun struktur elementləri metodoloji cəhətdən əsaslandırılmış və uğurlu elmi həllini tapmışdır.

Abuzər müəllimi tanıyandan, onunla qonşu olduğum dövrdə daha yaxından təmaslarım onun bir vətəndaş kimi dövlətçiliyə, Azərbaycançılığa nə qədər bağlı olduğunun şahidi olmuşam. Məhz prof. A.Xələfovun yaradıcılığında bu istiqamət qızıl xətlə keçir. Belə ki, prof. A.Xələfov ümummilli liderimiz Heydər Əliyevin irsinin öyrənilməsi, kitab, kitabxana mədəniyyətinin inkişafı sahəsində onun xidmətləri, ulu öndərin bu sahədəki siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi prof. A.Xələfovun yaradıcılığında mühüm yer tutur. "Heydər Əliyev və Azərbaycanda kitabxana işi", "Kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla həyata keçirilir", "Heydər Əliyev: Biblioqrafik məlumat kitabı" , "XXI əsin əvvələrində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri (mülahizələr, təkliflər və proqnozlar)" adlı monoqrafiyaları zəngin elmi axtarışların nəticəsi kimi qiymətləndirilməli və onun milli dövlətçilik ideyalarına,

Azərbaycançılıq ideologiyasına sədaqətini bir daha göstərir.

Miqyaslı alim olmaqla yanaşı Abuzər müəllim Azərbaycan ali təhsil sistemində xüsusi yeri və nüfuzu olan ustad pedaqoqlarımızdan, söz sahibi olan müdrik ağsaqqallarımızdan biridir. Bütün şüurlu həyatını Bakı Dövlət Universitetinin inkişafına həsr etmiş professor Abuzər Xələfovun ən böyük əsəri Universitetin Kitabxanaçılıq-informasiya fakültəsidir. Fakültənin yaranması, onun elmi-pedaqoji kadr korpusunun formalaşması, 1962-ci ildən 25 il müddətində onun başında duran Abuzər müəllimin gərgin və yorulmaz əməyinin nəticəsidir. Abuzər müəllimin rəhbərliyi altında sovetlər birliyi dönəmində kitabxanaçılıq fakültəsinin adı Moskva, Sankt-Peterburq, Kiyevdə fəaliyyət göstərən fakültələrlə birgə çəkilirdi. Bütün bunlar həm də Abuzər müəllimin böyük təhsil təşkilatçısı olmasını təsdiq edir.

Azərbaycan Respublikasının müstəqillyi illərində ölkədə aparılan təhsil islahatlarının düzgün istiqamətlənməsində Abuzər müəllimin də xüsusi payı olduğunu qeyd etmək istərdim. "Təhsil haqqında" Azərbaycan Respublikasının qanununun hazırlanması, müzakirəsi və qəbul olunması sahəsində professor Abuzər Xələfovun fəaliyyətini ayrıca qiymətləndirmək lazımdır.

Professor Abuzər Xələfov milli kitabxanaşünaslığın nəzəri əsaslarının işlənməsində öndə getdiyi kimi, eyni zamanda ali və orta ixtisas kitabxanaçılıq təhsilinin standartlarının hazırlanmasının rəhbəri olmuşdur. O, müvafiq sahə üzrə dünyada baş verən prosesləri, Avropanın aparıcı ali və orta ixtisas təhsili məktəblərinin tədris planlarını diqqətlə öyrənmiş və milli xüsusiyyətləri nəzərə almaqla orijinal "kitabxanaçılıq-informasiya", "kitabşünaslıq" ixtisasları üzrə təhsil planlarını və digər



normativ hüquqi sənədləri hazırlayan işçi qurupunun rəhbəri olmuşdur.

Professor Abuzər Xələfov həm də Azərbaycanda kitabxanaçılıq təhsilinin yaranması və inkişaf tarixini, onun təkamülü və formalaşması prosesini tədqiq etmiş və bu problemlə əlaqədar iki monoqrafiyanın müəllifidir. Bu əsərlər bütövlükdə Azərbaycan Respublikasının ali təhsil tarixinin ayrılmaz tərkib hissəsi olan kitabxanaçılıq təhsilinin səlnaməsidir.

2011-ci ilin dekabr ayında Abuzər müəllimin 80 yaşı tamam olur. O, həyatının müdrik və məhsuldar dövrünü yaşayır. Onun bütün həyatı elmə, təhsilə və Azərbaycan mədəniyyətinin inkişafına həsr olunmuşdur. Azərbaycan dövləti professor Abuzər Xələfovun xidmətlərini həmişə yüksək qiymətləndirmişdir. O, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, Əməkdar elm xadimi fəxri adlarına, "Şöhrət" ordeninə layiq görülmüş və Prezidentin fərdi təqaüdçüsüdür.

Professor Abuzər Xələfov ali məktəbdə tədris prosesinin mahir bilicisi kimi tanınır. Təsadüfi deyil ki, respublikamızda, Bakı Dövlət Universitetində ali təhsilin yenidən qurulması və optimallaşdırılması ilə bağlı bütün məsələlər məhz onun yaxından iştirakı sayəsində öz həllini tapır.

Respublika Təhsil Şurasının, ali təhsil üzrə vahid şuranın rəyasət heyətinin üzvü, habelə Azərbaycan Respublikası Təhsil Nazirliyinin kitabxanaçılıq-biblioqrafiya təhsili üzrə vahid şurasının bölmə sədri olmaqla, Professor Abuzər Xələfov ölkəmizdə bütünlükdə ali təhsil sisteminin təkmilləşdirilməsi yönümlərində bu gün də səmərəli işlər görür.

Azərbaycan kitabxaaşünaslıq elminin və məktəbinin, ali kitabxanaçılıq təhsilinin banisi, xalqımızın ki-

tabxana mədəniyyətinin lideri Abuzər müəllim şöhrətin zirvəsinə halal zəhməti ilə çatmış və bu hallalığın, zəhmətkeşliyin, prinsipiallığın, mübarizliyin ona bundan sonra da daha yüksək zirvələr fəth etməyə imkan verəcəyinə ürəkdən inanıram.

Mən Abuzər müəllimə 80 illik yubileyi münasibətilə möhkəm cansağlığı, apardığı işlərin bütün istiqamətlərində ona dost kimi müvəffəqiyyətlər və uğurlar arzulayıram.



**Lətifə MƏMMƏDOVA**

***Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Kitabxana sektorunun müdiri, tarix üzrə fəlsəfə doktoru***



## NƏSİLLƏRƏ ÖRNƏK ÖMÜR

Azərbaycan elminin və təhsilinin inkişafı milli dövlətçiliyimizin təməl prinsiplərindən biridir.

Bu gün dünyada sivilizasiyalı cəmiyyət uğrunda gedən mübarizədə kimin daha güclü olması təhsilin və elmin səviyyəsi ilə ölçülür. Elm elə bir sahədir ki, böyük istedada, xüsusi qabiliyyətə və dərin təfəkkürə malik olmadan burada uğur qazanmaq qeyri-mümkündür.

Elm fədakarlıq, mübarizlik, dönməzlik, inadkarlıq və qətiyyət tələb edən bir sahədir. Bütün bu keyfiyyətlərin hamısı Azərbaycanda kitabxanaşünaslıq elminin banisi, milli kitabxanaşünaslıq elmi məktəbinin yaradıcısı, görkəmli elm, mədəniyyət xadimi Abuzər Xələfovda cəmlənmişdir. O, nəinki ölkəmizdə, xaricdə də tanınan və Azərbaycanın adını yüksəklərə qaldıran bir ziyalıdır.

Abuzər müəllim çox şərəfli və maraqlı bir ömür yaşamışdır. 1950-ci ildən həyatını Azərbaycan elminin, təhsilinin inkişafında əvəzsiz rol oynamış Bakı Dövlət Universitetinə bağlamış, universitetin tarixinə unudulmaz səhifələr yazmışdır. 1961-ci ildə ilk dəfə olaraq "Sovet Azərbaycanında kitabxana işinin tarixindən

(1920-1932)" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək kitabxana işinin tarixi elminin əsasını qoymuşdur. Kitabxanaçılıq fakültəsinin yaradılması da məhz Abuzər müəllimin xidmətidir. Bu gün respublikanın bütün bölgələrində bu fakültənin məzunları, Abuzər müəllimin tələbələri çox uğurla çalışır, cəmiyyətə səmərəli kitabxana xidməti göstərir.

İlk baxışdan kitabxana, kitabxana işi çox sadə görünə bilər. Amma əslində kitabxana işinin özünəməxsus incəlikləri və elmi prinsipləri var. Bu elmi yaradan, başında duran aparıcı mütəxəssis alim kimi Abuzər müəllimin çox böyük xidmətləri olduğu təkcə kitabxana ictimaiyyətinə deyil, hamıya məlumdur. Ötən dövrə nəzər saldıqda tam əminliklə demək olar ki, qazanılmış nailiyyətlərin kökündə tədqiqatçı-alim inadkarlığı, əməksevərliyi dayanır. Elmin enişli-yoxuşlu, sevincli-kədərli yollarında büdrəyənlər də olur, yarıda yorulub mənzil başına yetişmək istəyindən əl çəkənlər də. 80 yaşını qeyd etməyə hazırlaşdığımız Abuzər müəllim həyatının hər anını səmərəli yaşamağa, özündən sonra mənəvi irs qoymağa sərf edə biləcək güc tapmışdır. Məncə bütün insanların qəlbində qurub-yaratmaq eşqi var. Bu eşqi, həvəsi hər kəs reallaşdıra bilsəydi yəqin ki, dünya cənnətə çevrilərdi. Təəssüf ki, insanların böyük əksəriyyəti belə imkanlardan məhrumdur.

Abuzər müəllim təkcə kitabxanaşünas alim kimi deyil, həm də yüksək səviyyəli şəxsiyyət, ictimai xadim kimi respublikamızın elmi-mədəni ictimai həyatında fəal iştirak edir, ictimai elmləri dərindən bilən alim kimi elmə öz töhfələrini verir. Azərbaycanda kitabxana işinin tarixinin ümumilikdə mədəniyyət tariximizin bir qolu kimi tədqiq edilib, elmi dəlillərlə sistemləşdirilməsi A.Xələfovun elmə verdiyi ən böyük töhfələrdən biridir.



Bu sahədə sanballı monoqrafiyalar, dərsliklər, dərs vəsaitləri nəşr etdirərək gələcək kitabxanaçı kadrlara əsaslı və zəngin məlumat mənbəyi yaratmışdır. Elmi-pedaqoji kadrların hazırlanmasında da alimin pedaqoji fəaliyyəti diqqətə layiqdir. Bu sahədə yetişən alimlərin hamısı onun zəkasının işığından nur almışdır.

Abuzər müəllimin elmi yaradıcılığında Ümummilli lider Heydər Əliyevin elmi-nəzəri irsinin öyrənilməsi və təbliği mühüm yer tutur. Heydər Əliyev bütün sahələrdə olduğu kimi, kitabxana sahəsini də daim diqqət mərkəzində saxlamış, qiymətli tövsiyələrini vermişdir. "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" adlı kitab ulu öndəri kitabxanaçılarla daha da yaxınlaşdırmış və daha da sevdirmişdir.

Alim olmaq hər kəsə nəsib olmadığı kimi təşkilatçı olmaq da hər alimə nəsib olmur. Abuzər müəllim həm də gözəl təşkilatçıdır. Onun rəhbərlik etdiyi kafedranın apardığı işin uğurlu nəticələri və kollektivin öz rəhbərlərinə bəslədiyi məhəbbət bunu bir daha sübut edir.

Həyatımın və əmək fəaliyyətimin birbaşa kitabxanalarla bağlılığı mənim Abuzər müəllimlə şəxsən tanışlığıma vəsitə olmuşdur. Mədəniyyət və Turizm Nazirliyində hamının tanıdığı və bir alim- vətəndaş kimi böyük hörmət bəslədiyi bu insanla tanışlığımdan çox məmnunam. Dəfələrlə dəyərli məsləhətlərindən bəhrələndiyim bu işıqlı insanla ünsiyyətdə olmaq adama mənəvi rahatlıq, könül xoşluğu bəxş edir. Onu tanıyan, təmasda olub, ülfət bağlayan hər kəs bu fikirdədir.

Azərbaycanın fəxri, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, "Şöhrət" ordenli, tarix elmləri doktoru, professor Abuzər Xələfovun 80 illik ömrünə

işıq salmaq, elmi fəaliyyətinə güzgü tutmaq çox çətindir. Sadaladığımız titulların arxasında çox gərgin və mənalı bir insan ömrünün dayandığını anlamaq isə çətin deyil. Xoşbəxt o kəsdir ki, arxaya boylananda keçdiyi yolda fərəhli məqamların, səmərəli illərin izini görür. Xoşbəxtlik həsrətini çəkdiyimiz andır. Abuzər müəllimin həyatında belə anlar saysızdır. Qoy, bu xoşbəxtlik anlarının zirvəsi 80 illik yubiley olsun.

Hörmətli Abuzər müəllim! Sizi, 80 illik yubileyiniz münasibəti ilə ürəkdən təbrik edir, cansağlığı, uzun ömür, elmi yaradıcılığınızda uğurlar arzulayıram.



**Kərim TAHİROV**

***M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının direktoru, Əməkdar mədəniyyət işçisi, tarix üzrə fəlsəfə doktoru***



## USTADLARIMIZIN USTADI VƏ YA CANLI ƏFSANƏ

*Elə adamlar axtarın ki, onlarla söhbət yaxşı kitaba bərabər olsun, elə kitablar da axtarın ki, mütaliəsi filosoflarla söhbətə dəysin*
***Ə.H.Bəhmənyar***

Qədim Azərbaycan diyarı, tarixə böyük şəxsiyyətlər vermiş, bəxtinə həsrət düşmüş, sazlı-sözlü Göyçənin bir yetirməsi də Abuzər müəllimdir. Düz 80 il bundan öncə soyuq bir qış günü dünyaya gələn bu gözəl insanın, Azərbaycan xalqının ziyalı ordusunun bir nümayəndəsi, elm aləmində öz sözünü deyən bir alim, hətta akademik olacağı hələ heç kimə bəlli deyildi. Uşaqlığı çətin və məşəqqətli müharibə illərinə təsadüf edən, buna baxmayaraq əzmlə çalışan, təhsil alan Abuzər müəllimin hələ 15 yaşında ikən aldığı "1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyinə görə" medalı onun həyata ilk vəsiqəsi oldu. Doğrudan da, bütün ömrü boyu rəşadətlə işlədi, rəşadətlə oxudu, rə-

şadətlə yaşadı dəyərli alim. Keçdiyi həyat yolu isə o qədər də hamar olmadı. Məgər bütün görkəmli şəxsiyyətlərin ömrü belə olmayıbmı? Deyirlər möhtəşəmliyə kənardan baxanda onun əzəməti daha yaxşı görünür.

Abuzər Xələfov. Görkəmli kitabxanaşünas alim, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, Bakı Dövlət Universitetinin Kitabxanaşünaslıq kafedrasının müdiri, Prezident təqaüdçüsü, "Şöhrət" ordenli, tarix elmləri doktoru, professor, gözəl insan, bacarıqlı elm təşkilatçısı, qayğıkeş müəllim, səmimi insan, nüfuzlu şəxsiyyət, vətənpərvər bir ziyalı, sözün əsl mənasında hörmətə layiq ağsaqqal.

Nəinki ölkəmizdə, hətta onun hüdudlarından çox-çox uzaqlarda belə tanınan Abuzər Xələfovun kim olduğunu və onun kitabxanaşünaslıq elmi üçün nələr etdiyini hamı bilir. O indi bizim üçün canlı əfsanədir. Yüzlərlə kitabxanaçının lideri, müəllimi, ustadıdır. O bu adı şərəflə daşıyır. "Hər hansı bir ölkənin, hər hansı bir xalqın tarixi inkişafında mühüm rol kitabxanalara məxsusdur. Kitabxana bütün dövrlərdə tərəqqiyə can atır, öz mahiyyətinə görə cəmiyyətin inkişafında əsas amil və mənbəə kimi çıxış edir. Yalnız intellektuallığı və vətənpərvərliyi çatışmayan adamlar kitabxana işinin əhəmiyyətini qiymətləndirməyə bilərlər" – deyən alim doğrudan da haqlıdır.

Azərbaycan Milli Kitabxanasına dərin hörmət və məhəbbət bəsləyən Abuzər müəllim bunu dəfələrlə sübut etmişdir. Kitabxananın bütün işlərində, tədbirlərində, həyata keçirdiyi bütün layihələrdə daima yaxından iştirak etmiş və öz iştirakı ilə bizi şərəfləndirmişdir. Bir müəllim, bir ustad kimi həmişə əlindən



gələni əsirgəməmişdir. Azərbaycanın kitabxanaçılar ordusunun lideri olan Abuzər müəllim kitabxanamızın ən qocaman əməkdaşlarının belə müəllimi olmuşdur.

Dövr, zaman dəyişdikcə tələblər, zövqlər də dəyişir, yenilənir. Bütün bu dəyişikliklərə və yeniliklərə ayaq uydurmaq, zamanın tələb etdiyini ödəyə bilmək hər adamın işi deyil. Bəzən öz köhnə fikirlərinə ilişib kənarda qalan, yeni və müasir cəmiyyətlə ayaqlaşa bilməyib arxada qalanlar da çoxdur. Lakin Abuzər müəllim nəinki dövr və zamanla bir addımlayır, hətta bunun öhdəsindən gələ bilməyənləri də müasirliyə, texnika əsrinə cavab verməyə və bunu kitabxana sahəsində tətbiq etməyə səsləyir.

Əqidəcə möhkəm, prinsipial bir vətəndaş olan alim bunu dəfələrlə sübut etmişdir. Tələbələrinə, davamçılarına nümunə olan alim məhsuldar bir elm xadimi kimi daima yazıb-yaradır. O, ömrünü Azərbaycanda kitabxana tarixinin öyrənilməsinə sərf etmiş, sanballı monoqrafiyalar, dərsliklər, dərs vəsaitləri nəşr etdirmişdir. Alim "Azərbaycanda kitabxana işinin tarixindən (1870-1920)", "Azərbaycanda kitabxana işinin tarixi (1933-1959)", "Azərbaycanda kitabxana işinin tarixi (2004-2010)" əsərlərində Azərbaycan Milli Kitabxana tarixini araşdırmış, bu sahədə mütəxəssisləri və tələbələri dəyərli tarixi faktlarla məlumatlandırmış və sələflərinə zəngin irs qoymuşdur. Eyni zamanda 2007-ci ildə işıq üzü görən "Kitabxanaların kompüterləşdirilməsinin əsasları" dərsliyi ilə kitabxanaşünaslığın müasir istiqamətdə tədqiqini də həyata keçirmişdir. Bu mənada qibtə ediləcək bir insan, fövqəladə bir şəxsiyyətdir Abuzər müəllim.

İnsanın üzərinə düşən, boynunun borcu olan missiyaların hamısını mükəmməl şəkildə yerinə yetirən,

özünün şərəfli adını daima ucalarda tutmağı bacaran, reputasiyasına zərrə qədər kölgə düşürməyən Abuzər müəllim örnək bir şəxsiyyətdir. Həyatda şərəfli ömür sürmək, hamının – həm kiçiyin, həm də böyüyün hörmətini qazanmaq, ömrün bütün mərhələlərində öz-özünün qarşısında hesabat verərkən həm razı qalmaq, həm də vicdanın üzünə dik baxa bilmək. Bütün bunlarla yanaşı elmin ən yüksək mərtəbəsinə qədər ucalmaq. Söz, hörmət, ehtiram sahibi olmaq. Öz yaradıcısı, tanrısı önündə, inancı qarşısında da mömün bir insan – müsəlman kimi Allahın rizasını qazanmaq. Bütün bunları həyata keçirə bilmək üçün bəzən bir ömür kifayət etmir.

Bakı Dövlət Universitetinin ən gözəl simalarından biri olan akademik, ən sevdiyi və pərəstiş etdiyi müəllimlərinin səviyyəsinədək yüksəlməyi və hər kəsə nəsib olmayan bir işi reallaşdırmağı bacardı. İndi bu nüfuzlu elm ocağında onun da adı öz sahəsinin banisi kimi çəkilir.

Hamı onu məsuliyyətli insan kimi tanıyır. Əsl insana xas olan ən gözəl xüssusiyyətlərə malik olan A.Xələfov xoşbəxtdir. Allahın ona bəxş etdiyi, onun əməllərinə görə layiq gördüyü bu 80 yaş hədər yaşanmayıb. Zəhmətlə, əzmlə, şərəflə addımladığı bu uzun yolda çönüb arxaya baxanda qürurlanırsa, uca dağlara bənzəyən bəm-bəyaz başını dik tutub yoluna davam edirsə, demək doğrudan da xoşbəxtdir.

Çox hörmətli Abuzər müəllim! Sizi şəxsən öz adımdan, Azərbaycan Milli Kitabxanasının və Azərbaycan kitabxanalarının yüzlərlə əməkdaşları adından, çalışdığımız və ürəkdən sevdiyimiz ixtisasımızı öz elmi, əməyi ilə zirvələrə qaldırmış dəyərli alimimizi, ustadımızı səmimi qəlbdən təbrik edirəm.



Nə yaxşı ki, varsınız. Qoy qadir Allah sizi bizim – Azərbaycan xalqının, kitabxanaçıların, ailənizdən əskik etməsin. Sizə cansağlığı, könül xoşluğu, bir də qəlbinizdəki bütün arzularınızın həyata keçməsini arzulayırıq. Sizdən yeni-yeni yaradıcılıq əsərləri, həmişə ehtiyac duyduğumuz öyüd və nəsihətlərinizi gözləyirik. Dövlətimiz tərəfindən əməyiniz və zəhmətiniz dəyərləndirilmiş və siz ən yüksək mükafatlara layiq görülmüşsünüz. Lakin ən böyük mükafatınız davamçılarınızın, böyük bir kitabxanaçılar ordusunun hörməti və məhəbbətidir. Bu məhəbbət isə heç bir zaman azalmayacaqdır.



Sara İBRAHİMOVA

*Bakı Dövlət Universiteti Elmi Kitabxanasının direktoru, Əməkdar mədəniyyət işçisi*

# AZƏRBAYCAN KİTABXANA MƏDƏNİYYƏTİ TARİXİNİN TƏDQİQİNDƏ PROFESSOR ABUZƏR XƏLƏFOVUN ROLU

Kitab insan ağlının, məntiqinin məhsulu olub, cəmiyyətin dünənini həmişəyaşar edən çap məhsuludur. Kitabxana isə bu çap məhsullarını toplayıb, sistemli şəkildə qruplaşdıraraq, həm oxucuya xidmət edir - yəni onu maarifləndirir, dünyagörüşünü artırır, dünyəvi və dini biliklərə yiyələnməkdə onun mənəvi yol yoldaşı olur, həm də mövcud cəmiyyətin «yaddaşı» vəzifəsini yerinə yetirir.

Kitab və kitabxana xalqın yazılı dil mədəniyyəti olub, həm daxili, həm də mədəniyyətlərarası əlaqəni reallaşdırır.

Azərbaycan xalqının zəngin, irsi kitab mədəniyyəti və kitabxana mədəniyyəti, bu baxımdan, köklü tədqiqat mənbəyi kimi, həmişə alimlərin diqqət mərkəzində olmuşdur.

Reformalar XX əsrin 20-ci illərindən maarifçilik və təhsil sistemində dövlət quruculuğunun aparıcı istiqamətlərindən olsa da, sözügedən məsələlərin baza kimi əsaslandığı kitab və kitabxana mədəniyyətinin təbliği və tarixinin öyrənilməsi lazımi səviyyədə deyildi. Orta ixtisaslı kitabxanaçı kadrlar respublikamızda hələ 1938-ci ildə fəaliyyətə başlayan N.K.Krupskaya adına Bakı Kitabxanaçılıq Texnikumunda hazırlanırdı. Texnikumun fəaliyyəti müharibə illərində xeyli zəiflədiyindən, bu dövrdə cəmi 57 nəfər mütəxəssis hazırlanmışdı.



Yüksək ixtisaslı mütəxəssis kitabxanaçı kadrlara böyük ehtiyacı nəzərə alaraq, 1947-ci ildə Az. K(b)P MK-nın «Respublikada mədəni-maarif müəssisələri üçün kadr hazırlanması haqqında» qərarı ilə S.M.Kirov adına ADU-nun filologiya fakültəsində ali təhsilli kitabxanaçı kadrlar hazırlamaq üçün 1947-1948-ci tədris ilində ayrıca kitabxanaçılıq şöbəsi açmaq qərara alındı. Bu qərara əsasən, 1947/1948-ci tədris ilində S.M.Kirov adına ADU-nun filologiya fakültəsi nəzdində müstəqil tədris planı olan kitabxanaçılıq şöbəsi təşkil edildi və şöbəyə bu tədris ilindən başlayaraq hər il 25 nəfər tələbə qəbul edildi. Kitabxanaçılıq şöbəsində ixtisas fənlərinin tədrisini təşkil etmək üçün 1947-ci ildə kitabxanaşünaslıq və biblioqrafiya kafedrası təşkil edildi. Görkəmli biblioqraf–alim Ə.H. Qəhrəmanov kafedranın müdiri vəzifəsinə seçildi. Kafedranın yaranması, yüksək ixtisaslı kitabxanaçı kadrların hazırlanması, respublikada kitabxanaşünaslıq və biblioqrafiya elminin inkişafı üçün mühüm amil idi.

Həmin ildə kitabxanaçı kadrların ixtisasını artırmaq üçün Bakıda, Kirovabadda (Gəncədə), Naxçıvanda, Stepanakertdə (Xankəndidə) vaxtaşırı kurslar təşkil edildi. İlk ali təhsilli kitabxanaşünas və biblioqraflar cəmiyyətin informasiya tələbatını ödəmək üçün kitabxana mədəniyyəti şəbəkəsini sistemli, elmi əsaslarla təkmilləşdirdilər. Bu təkmilləşmə elmi-nəzəri tədqiqat işlərində çözüldü və birbaşa cəmiyyətin informasiya bazası olan kitabxanalara tətbiq olundu.

1950-1955-ci illərdə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin tələbəsi olmuş Abuzər Alı oğlu Xələfov ilk məzunlardan biri idi. Onun elmi, pedaqoji səviyyəsini qiymətləndirən müəllimlərinin təklifi ilə universitetdə saxlanıldı; məzun Xələfovun qarşısında geniş üfüq açıldı.

O, 1961-ci ildə ilk dəfə «Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932)» mövzusunda namizədlik dissertasiya işini müdafiə etdi və bununla kitabxana işinin tarixinin elmi əsaslarla tədqiq edilib öyrənilməsi sahəsinin əsasını qoydu.

1972-ci ildə isə «Azərbaycanda kitabxana işinin tarixi (1933-1958-ci illər)» mövzusunda doktorluq dissertasiya işi ilə sovet dönəmində Azərbaycanda kitabxana işinin və mədəniyyətin bir qolu olan kitab və kitabxana mədəniyyətinin inkişaf səviyyəsini göstərmiş və bu dövrü real göstəricilərə əsasən qiymətləndirmişdir.

Prof. A.A.Xələfov araşdırmalarında qeyd etmişdir ki, kitabxana işinin tarixi ictimai elm deməkdir. Onun metodoloji əsasını dialektik və tarixi materializm təşkil edir. Cəmiyyətin tarixinin tərkib hissələrindən biri olan kitabxana işinin tarixi mədəniyyət tarixi, maarif tarixi, kitab və biblioqrafiya tarixi, həmçinin sosiologiya ilə sıx əlaqədardır.

Bu baxımdan, kitabxana tarixinin cəmiyyətin tarixi ilə bilavasitə əlaqədar olduğunu vurğulamaqla bərabər, onun hərtərəfli öyrənilməsini və kitabxana tarixinə aid hadisələrin düzgün qiymətləndirilməsi üçün dərin tarixi biliklərin zəruriliyini qeyd etmək lazımdır; çünki kitabxana tarixi mədəniyyət tarixi ilə əlaqədar olub, onun ayrılmaz tərkib hissəsini təşkil edir. Buna görə də, əsas vəzifələrdən biri respublikada mədəni quruculuq ideyalarını həyata keçirmək üçün kitabxanaların yerini



və müxtəlif mədəniyyət müəssisələrinin qarşılıqlı əlaqəsini müəyyənləşdirmək zəruridir.

Prof. A.Xələfovun elmi yaradıcılığında Azərbaycanda kitabxana işinin tarixi qırmızı xətlə keçmişdir. «Azərbaycanda kitabxana işinin tarixi» (qısa icmal) (2001), «Kitabxana işinin tarixi kursuna giriş» (2002) və «Azərbaycanda kitabxana işinin tarixi» (dərslik: 2 hissədə) (2004) adlı əsərlər alimin səmərəli və ardıcıl axtarışlarının nəticəsidir.

2006-cı ildə işıq üzü görmüş 2 böyük əsəri professorun zirvə işi kimi qiymətləndirmək olar:

1. Heydər Əliyev və Azərbaycanda kitabxana işi (2006).

2. XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri (mülahizələr, təkliflər və proqnozlar) (2006)

Sözügedən əsərlərdə alimin ulu öndərimiz Heydər Əliyevin Azərbaycan mədəniyyətinin, xüsusilə də kitabxana mədəniyyətinin inkişafındakı rolunu bariz şəkildə göstərə bilməsi təqdirəlayiqdir. O, ölkənin mövcud siyasi, iqtisadi və sosial durumu ilə əlaqədar, XXI əsrin əvvəllərində kitabxana işinin vəziyyəti və gələcək fəaliyyəti haqqında mülahizə və təklifləri ilə Azərbaycan cəmiyyətinin dünyanın aparıcı dövlətləri cərgəsində inamla addımlamağının əsas inkişaf istiqamətini göstərməyə çalışmışdır. Bununla, o, Azərbaycan informasiya cəmiyyətinin ümumdünya informasiya cəmiyyətinin əsas tərkib hissələrindən biri olduğunu, yəni Azərbaycan tarixinin dünya tarixi ilə əlaqədar olduğunu və onun tərkib hissəsi olduğunu vacib faktor kimi vurğulamışdır.

Prof. A.Xələfov sözügedən məsələ ilə əlaqədar, bir sıra proqram və dərsliklərin redaktoru olmuşdur.

X.İ.İsmayılov, K.Aslan, Ş.İ.İslamova, P.Kazımi,

E.Məmmədov və başqaları alimin rəhbərliyi ilə namizədlik və doktorluq dissertasiya işlərini hazırlamışlar.

Prof. A.A.Xələfovun təbirincə desək, Azərbaycanda kitabxana işi tarixinin öyrənilməsi belə bir fikir söyləməyə imkan verir ki, sovet dönəmində respublikamızda kitabxana quruculuğu sahəsində əldə edilmiş mühüm nailiyyətlərdən

• kitabxanaşünaslıq və biblioqrafiyanın bir elm kimi inkişaf edib təkmilləşməsini

• bu sahəyə dair sanballı elmi-tədqiqat əsərlərinin meydana gəlməsini

• elmi kadrların yaranmasını xüsusilə vurğulamaq lazımdır. Həmçinin respublikada orta və ali ixtisas təhsilli mütəxəssis kadrların hazırlanması üçün tədris müəssisələrinin yaranması və getdikcə təkmilləşməsi kitabxana işinin dövrün tələbləri ilə ayaqlaşması və yetişən ziyalıların mədəni quruculuqda, müasir elmi-texniki tərəqqidə yaxından iştirak etməsi üçün münbit şərait yaratmışdır.

Bundan başqa, Azərbaycanda kitabxana mədəniyyətinin inkişafı sayəsində azlıqda qalan millətlərin mədəni səviyyəsinin yüksəldilməsi Azərbaycan Respublikasının dövlət quruluculuğu ideyalarının təntənəsi və milli siyasətin müvəffəqiyyətlə yerinə yetirilməsinə parlaq sübutdur.

Prof. A.A.Xələfovun kitabxana mədəniyyəti tarixinin tədqiqinə nəzər saldıqda, belə bir həqiqət özünü bariz göstərir ki, müstəqil Azərbaycan Respublikasında kitabxana və kitab mədəniyyətinin təbliği və təşviqi ulu öndərimiz Heydər Əliyevin və onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin mütərəqqi dövlətçilik ideyalarını həyata keçirmək uğrunda mübarizə tarixidir.



**Mayıl ƏHMƏDOV**

***Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident Kitabxanasının direktoru, dövlət qulluğunun baş müşaviri***



## AZƏRBAYCANIN BAŞ KİTABXANAÇISI

Ölkəmizdə kitabdan, kitabxanadan, kitabxanaçıdan söz düşəndə ilk növbədə Abuzər müəllim yada düşür. Bu təbiidir. Çünki respublikamızda mədəniyyətin bu spesifik sahəsinin formalaşmasında, inkişafında, indiki səviyyəyə çatmasında Abuzər müəllim xüsusi xidməti olan insandır. Bu, danılmaz faktdır.

Mən birinci kursa daxil olanda fakültəmizin dekanı gözəl insan, dəyərli biblioqraf alim Zöhrab müəllim idi. Lakin müəllimlərimizin və yuxarı kurs tələbələrinin danışıqlarından və hərəkətlərindən belə məlum olurdu ki, fakültənin ağsaqqalı və əsas söz sahibi professor Abuzər Xələfovdur. Mən qrup nümayəndəsi olsam da, II kursun sonuna qədər Abuzər müəllimlə təmasda olmamışdım. Həmin vaxt hərbi hazırlıq fənnindən imtahan verən zaman yaranmış problem, mənim Abuzər müəllimi yaxından tanımağıma və ona həmişəlik dərin hörmət bəsləməyimə səbəb oldu.

Məsələ belə olmuşdu. İmtahan zamanı otağa bir hərbçi daxil oldu və partaları yoxlamağa başladı. Mən oturduğum partanın yanındakı partanın altında "şparqalka" tapdı. Biletimin sualları ilə tutuşdurub gördülər

ki, başqa mövzunun suallarıdır. Lakin nədənsə, gələn hərbçi imtahan götürən hərbçiyə göstəriş verdi ki, mənə "yaxşı" yazılsın. O vaxta qədər isə mən, bütün fənlərdən əla qiymət almışdım. Mübahisə düşdü, sonra da hərbi kafedranın müdiri, çox sərt və zabitəli adam olan polkovnik Seyidov gəldi. O da yoxlamaya gələn hərbçinin tərəfində durdu. Bu hadisə mənə çox ağır gəlirdi. Nə edəcəyimi bilmirdim. Artıq Zöhrab müəllim də dekan deyildi. Abuzər müəllim ikinci müddətə dekan seçilmişdi, məni də tanımırdı. Xeyli tərəddüddən sonra çarəsiz qalıb Abuzər müəllimin yanına getdim. Gözlədiyimin əksinə olaraq məni çox mehriban qarşıladı. Məsələni olduğu kimi ona danışdım. Dərhal polkovnik Seyidova zəng vurdu, xeyli danışdılar, razılığa gələ bilmədilər. Hiss edirdim ki, bərk əsəbiləşibdir, ancaq büruzə vermirdi. Ayağa qalxıb "gedək" dedi. Rektorluğa gəldik. Rektorluqda da bu məsələni bir neçə məsul şəxslə müzakirə etdi. Sonradan bildiyimə görə, ona məsləhət görüblər ki, Seyidova baş qoşmasın. Ancaq Abuzər müəllim mənə dedi ki, mən bu işi belə qoymayacağam. Düzü, artıq özümə görə deyil, belə bir insanın məndən ötrü mötəbər adamlarla münasibətinin korlanmasına səbəb olduğuma görə çox bərk narahatçılıq keçirirdim.

Üçüncü kursda Abuzər müəllimin təşəbbüsü ilə məni Tələbə Elmi Cəmiyyətinə sədr seçdilər və həmin il ilk dəfə Gürcüstan tələbələrinin iştirakı ilə fakültədə beynəlxalq tələbə elmi konfransı keçirildi. Universitetdə məni Sov. İKP üzvlüyünə qəbul etdilər (bu, o zamanlar çox nadir hallarda baş verirdi). Beşinci kursda Abuzər müəllim təyinat bölgüsü zamanı çətinliklə Bakı şəhərinə bir yer ala bildi və onu mənə verdi.

Sonralar düz 2003-cü ilə qədər mən Abuzər müəllimlə əlaqə saxlamadım və buna görə özümü daim qınayıram. Həmin il mən artıq Prezident Kitabxanasının direktoru təyin edilmişdim. Bir gün Abuzər müəllim mənə zəng etdi: "Mayıl, sən axı bizim yaxşı tələbəmiz olmusan. Bəs, niyə imkan verirsən ki, Bakının ən qədim kitabxanası ilə belə rəftar etsinlər?" O vaxt keçmiş Lenin adına kitabxananı və Prezident aparatının kitabxanasını birləşdirərək Prezident Kitabxanasının yaradılması qərara alınmışdı. Keçmiş Lenin adına kitabxananın binası 2000-ci ildə baş vermiş zəlzələ nəticəsində ciddi zədələndiyi üçün kitab fondunu başqa yerə köçürüb binanı təmir edirdilər. Ancaq ictimaiyyətə geniş məlumat verilmədiyinə görə müəyyən söz-söhbət yaranmışdı ki, bu da Abuzər müəllimi bərk narahat etmişdi.

Mən ona görüləcək işlər və planlar haqqında ətraflı məlumat verdim. Abuzər müəllim sakitləşdi, hətta sevindi də. Mən onda Abuzər müəllimin kitabxana işinə necə fədakarcasına yanaşdığının şahidi oldum.

Həmin vaxtdan Abuzər müəllimlə Prezident Kitabxanasının sıx əməkdaşlığı başladı. O, yaşına və işinin çoxluğuna baxmayaraq, istənilən vaxt kitabxanaya gəlirdi. Kitabxananın strukturunun formalaşmasında, gələcək fəaliyyəti ilə bağlı müzakirələrdə həvəslə iştirak edirdi. Sonralar təklif oldu ki, Abuzər müəllim rəsmi olaraq Prezident Kitabxanasına məsləhətçi qismində işə dəvət edilsin. Mən çəkinə-çəkinə ştatda olan baş kitabxanaçı yerini ona təklif edəndə o gözləmədiyim halda çox sevindi və dedi ki, mənim üçün professorluq, kafedra müdirliyi nə qədər şərəflidirsə, baş kitabxanaçı vəzifəsi də o qədər şərəflidir. Kitabxanada işlədiyi qısa müddətdə əməkdaşlarımız Abuzər müəllimin təcrübəsindən lazımınca bəhrələnmiş, onun sadəliyi və kitabxana işinə vurğunluğu kollektivimizin üzvləri üçün örnək ol-

muşdur.

Məlumdur ki, Abuzər müəllim kitabxana işi sahəsində hər hansı bir uğur, yenilik və ya hadisə olanda buna hamıdan çox sevinir, bu hadisənin bütün detallarını xırdalamağı, təhlil və müzakirə etməyi vacib bilir, daha yeni istiqamətlər müəyyənləşdirərək, hər belə bir hadisədən kitabxana quruculuğu işində maksimum yararlanmağı tövsiyə edir.

2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Prezident Kitabxanasına gəlməsini, onun işi ilə ətraflı tanış olmasını Abuzər müəllim çox böyük mədəni hadisə hesab etdiyinə görə dəfələrlə bu hadisənin əhəmiyyətindən, qarşıda duran vəzifələrdən mətbuat səhifələrində yazmış və təhlilini vermişdir.

Abuzər müəllim respublika kitabxanalarının hər birinin uğuruna ürəkdən sevinir, onlara bacardığı qədər kömək etməyə çalışır. Onun "Xalq qəzeti"ndə Prezident Kitabxanası haqqında yazdığı "Ölkəmizdə ilk fundamental elektron kitabxana" adlı məqaləsində oxuyuruq: "Bu günlərdə yolum yenə də Prezident Kitabxanasına düşmüşdü. Hər dəfə ora gedəndə hansısa ciddi bir yeniliyin şahidi oluram. Artıq kitabxanada görülmüş işləri xarici mütəxəssislər də yüksək qiymətləndirirlər. ABŞ-dan gəlmiş kitabxana idarəetməsi və treninq üzrə nüfuzlu mütəxəssis doktor Kennet Oberembtin kitabxananın "Xatirə kitabı"na yazdığı "Prezident Kitabxanası mənim Azərbaycanda gördüyüm ən yaddaqalan kitabxanadır. O, gözəldir, yaxşı təşkil olunmuşdur və düzgün idarə olunur" sözləri məni çox sevindirdi. Mən də bu müasir mədəniyyət ocağının – respublikamızda ilk fundamental elektron kitabxananın kollektivini qazandığı uğurlara görə təbrik edir, ona gələcək fəaliyyətində yeni-yeni nailiyyətlər arzulayıram."



Praktiki işlə məşğul olan kitabxanaçılar, çoxsaylı kitabxana ictimaiyyəti həmişə Abuzər müəllimi özlərinin etibarlı dayağı hesab etmişlər. Sahəmizlə bağlı problemi onun vasitəsilə çatdırmağa adət etmişik. Sözümüzü ən mötəbər məqamlara qədər çatdıra bildiyi üçün ona arxalanmışıq.

Ömrünün ən müdrik çağlarını yaşayan ağsaqqal, ziyalı, alim, əsl vətəndaş mövqeyi olan bir insan – Abuzər Xələfovun minlərlə tələbəsinə qoşularaq, Prezident Kitabxanasının kollektivi də onun yubileyini təbrik edir, "əziz, sevimli müəllimimiz, sözün həqiqi mənasında ölkəmizin baş kitabxanaçısı, 80 yaşın mübarək olsun", deyirik.

## Mündəricat


**Ön söz əvəzi** ........ 3

**A.Məhərrəmov**
Universitetimizin fəxri ........ 7
**M.Mərdanov**
Tanınmış alim, bacarıqlı elm təşkilatçısı ........ 13
**Ə.Qarayev**
Görkəmli alim, tanınmış pedaqoq ........ 18
**A.Axundov**
Abuzər müəllim ........ 22
**B.Nəbiyev**
Görkəmli kitabxanaşünas alim ........ 24
**B.Budaqov**
Görkəmli kitabxanaşünas alim
Abuzər Xələfov – 80 ........ 28
**B.Əsgərov**
Görkəmli elm, təhsil və mədəniyyət xadimi ........ 30
**V.Məmmədəliyev**
Görkəmli alim, gözəl insan ........ 35
**S.Məmmədəliyeva**
Abuzər Xələfov – 80 ........ 39
**H.Əhmədov**
Azərbaycan kitabxanaşünaslığın atası ........ 43
**M.Məlikova**
Görkəmli insan, görkəmli alim ........ 46





**Y.Məmmədov**
Azərbaycan kitabxanaşünaslıq elminin
və təhsilinin siması ........ 50
**A.Nəbiyev**
Professor Abuzər Xələfov 80 illiyi qarşısında
Görkəmli elm xadimi, böyük müəllim,
qaygıkeş insan ........ 53
**N.Cəfərov**
Tərcümeyi-halının sahibi olan kişi ........ 58
**V.Babazadə**
Abuzər müəllim, 80 yaşın mübarək ........ 62
**Z.Yaqub**
Onun «Quran»ı kitabdır ........ 67
**İ.Hüseynova**
Tanınmış təhsil təşkilatçısı ........ 70
**H.İmanov**
Sadiq dostluğun bariz nümunəsi ........ 75
**Ə.Muxtarova**
Görkəmli alim, fədakar elm xadimi
Abuzər Xələfov ........ 78
**T.Vəliyev**
Görkəmli alim, sədaqətli dost ........ 82
**Ş.Göyçaylı**
İxtisası və təbiəti ilə insanlara yaxın olan
fədakar alim ........ 86
**Q.Namazov**
O seçdiyi sənətin məktəbini yaratdı ........ 89
**Ş.Vəliyev**
Kitablara bağlı ömür ........ 95

A.Hacıyev
Kitabxanaşünaslığımızın Atlantı ........................ 102
B.Allahverdiyev
Səfərli ömürdən səhifələr .................................... 107
Ə.Əhmədov
Görkəmli alim, böyük ziyalı və qayğıkeş insan .... 111
İ.Məmmədov
Azərbaycanşünaslığımızın sütunlarından biri ...... 114
M.Müseyibov
Əziz və çox hörmətli professor
Abuzər Xələfov haqda dost sözləri ...................... 119
Y.Seyidov
Professor Abuzər Xələfov .................................. 122
Q.Mustafayev
Elmlərin hamısının əhəmiyyəti eynidir,
alimlər fərqli olurlar ......................................... 125
N.Qasımov
Cəfakeş elm və mədəniyyət xadimi ...................... 129
A.Əliyeva-Kəngərli
Milli ziyalılıq meyarı ........................................ 131
Ə.Əlizadə
Əsrin görkəmli maarifçi ziyalısı .......................... 137
C.Məmmədli
Alimin Universitet ləyaqəti ................................ 142
F.Səməndərov
Vətəndaş alim, böyük şəxsiyyət .......................... 149
A.Abbasbəyli
Kitaba həsr olunmuş ömür ................................. 153



A.Qasımov
Ömrün müdriklik zirvəsində ............................... 159
A.Abasov
Şərəfli ömür yolları ........................................... 169
H.Əyyub Əzizov
Elm ağsaqqalı, işıqlı və nəcib alim ...................... 176
O.Əkbərov
Görkəmli alim-ziyalı .......................................... 181
S.Məmmədov
Zirvə fəth etmiş alim ......................................... 184
F.Rüstəmov
Örnək insan ...................................................... 189
Ə.Allahverdiyev
Böyük alim, peşəkar təşkilatçı,
xeyirxah insan .................................................. 195
İ.Mustafayev
Görkəmli elm və təhsil təşkilatçısı ...................... 198
L.Məmmədova
Nəsillərə örnək ömür ......................................... 204
K.Tahirov
Ustadlarımızın ustadı və ya canlı əfsanə .............. 207
S.İbrahimova
Azərbaycan kitabxana mədəniyyəti tarixinin
tədqiqində professor Abuzər Xələfovun rolu ........ 213
M.Əhmədov
Azərbaycanın baş kitabxanaçısı .......................... 218

Texniki redaktoru: Y.Məmmədova

Tərtibat: S.Yaqubova

Çapa imzalanmışdır: 06.10.2011. Kağız formatı 60x84 1/16
Sifariş 68. Həcmi 14,25 ç.v. Sayı 200.

«Bakı Universiteti» nəşriyyatı, Bakı – 370148, Z.Xəlilov, 23.

BAKI UNİVERSİTETİ
NƏŞRİYYATI